# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 2
2023

www.genprosecutor.gov.az




**“Ulu Öndərin doğum günündə, 100 illiyində mən Şuşada idim. Mən atamın doğum gününü Şuşada qeyd etmişəm və hesab edirəm ki, bu addımda böyük məna var. Şuşa Qarabağın tacıdır. Şuşa azad olunandan sonra Ermənistan dövləti və hökuməti öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur. Şuşa bizim gücümüzün, əyilməz ruhumuzun, qəhrəman hərbçilərimizin şücaətinin, qəhrəmanlığının təcəssümüdür.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

*Elmi-praktiki jurnalın 2-ci nömrəsi*

*Aprel - İyun (2023-cü il)*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül
yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi,
3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 19.07.2023
60x84 1/8 formatda 184 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2023

# MÜNDƏRİCAT


**ÖLKƏDƏ**

**4** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nərimanov rayonunda "Cümə" məscidinin açılışında iştirak ediblər
**6** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş tədbirlərdə iştirak ediblər
**9** İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ölkəmizə rəsmi səfər edib
**15** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanımı Əminə Ərdoğan Azərbaycana rəsmi səfər ediblər
**23** Pakistanın Baş naziri Məhəmməd Şahbaz Azərbaycana rəsmi səfər edib
**30** Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub

**PROKURORLUQDA**

**31** Prokurorluq orqanları beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirir
**33** Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir
**35** Baş Prokurorluqda Akademik Zərifə Əliyevanın 100 illiyi ilə bağlı tədbir keçirilib
**36** Baş prokuror Türkiyədə prokurorların İstanbul Konfransında iştirak edib
**38** Baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub
**40** Baş prokuror AŞPA-nın həmməruzəçiləri ilə görüşüb
**41** Baş prokuror Litvanın Xüsusi İstintaq Komitəsinin nümayəndə heyəti ilə görüşüb
**42** Baş prokuror Kamran Əliyev Sankt-Peterburq şəhərində işgüzar səfərdədir
**44** Laçın şəhərində rayon prokurorluğunun inzibati binası istifadəyə verilib
**47** Baş prokuror Laçın şəhərində əməliyyat müşavirəsi keçirib
**49** Baş Prokurorluqda "Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması" mövzusunda beynəlxalq konfrans keçirilib
**50** "Dövlət qulluqçularının peşə bayramı" münasibətilə Baş Prokurorluqda tədbir keçirilib
**51** Baş Prokurorluq tərəfindən "Özəl sektorda anti-korrupsiya standartları" mövzusuna həsr olunmuş kitab hazırlanıb
**52** Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbələri buraxılış işlərini müdafiə edib
**53** Baş prokuror bölgələrdə vətəndaşları qəbul etmişdir
**57** Zaqatala rayon prokurorluğuna press-tur təşkil edilib
**58** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində hərbi qulluqçular üçün təlim keçirilib
**59** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün "Maliyyə istintaqının taktikası və metodikası" mövzusu üzrə təlim keçirilib
**60** Sabirabad rayon prokurorluğuna press-tur təşkil edilib
**61** Baş Prokurorluqda "Etik davranış qaydalarının tətbiqi əsasları və xüsusiyyətləri" mövzusunda təlimlər davam etdirilir
**62** Prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin İçəri şəhərdə yaşadığı evi ziyarət ediblər
**63** Prokurorluq əməkdaşları "Bakı Marafonu – 2023"-də iştirak edib
**63** "Uşaqlara korrupsiya haqqında" adlı maarifləndirici görüş təşkil edilib
**64** Vaşinqton Hüquq Kollecinin professorları Baş Prokurorluqda olub
**65** Baş Prokurorluqda "Cinayət təqibi zamanı uşaq hüquqlarının üstün mühafizəsi prinsipi" mövzusu üzrə təlim keçirilib
**66** Gənc prokurorluq işçiləri üçün tədris kursu təşkil edilib
**67** Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti beynəlxalq forumda iştirak edib
**68** Baş Prokurorluqda Avropa Şurasının nümayəndə heyəti ilə görüş keçirilib
**69** Baş Prokurorluqda BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin nümayəndə heyəti ilə görüş keçirilib
**70** Tacikistan Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub
**72** Baş Prokurorluqda "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməli üzrə istintaqın xüsusiyyətləri" mövzusunda təlim keçirilib
**73** Baş Prokurorluqda İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın nümayəndə heyəti ilə görüş keçirilib
**74** Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilib
**75** Baş Prokurorluqda təşkil edilmiş "Dövlət qulluğunda etik dəyərlər və qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda təlim uğurla başa çatdırılıb
**75** Sosial Tədqiqatlar Mərkəzində keçirilmiş tədbirdə Baş Prokurorluğun nümayəndələri iştirak edib
**76** Özbəkistanın Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olub
**78** Hərbi prokuror işğaldan azad olunmuş ərazilərdə hərbçilərlə görüşüb
**79** Hərbi Prokurorluqda qazilərlə görüş keçirilib
**82** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Dövlət qulluqçularının peşə bayramı münasibətilə tədbir keçirilib

**BEYNƏLXALQ ƏLAQƏLƏR**

**83** Azərbaycan Prokurorluğunun əməkdaşları beynəlxalq elmi-praktiki konfransda iştirak edib
**83** Aktivlərin bərpası sahəsində əməkdaşlıq davam etdirilir
**84** Azərbaycan Prokurorluğunun əməkdaşları türk dövlətlərinin Qurultayında iştirak edib
**84** Baş Prokurorluğun nümayəndəsi Avstriyanın Vyana şəhərində keçirilən beynəlxalq tədbirdə iştirak edib
**85** Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korrupsiya və şəffaflıq" işçi qrupunun növbəti iclası keçirilib
**86** Baş Prokurorluğun əməkdaşı beynəlxalq konfransda iştirak edib
**87** Prokurorluq əməkdaşları Moskvada keçirilən tədbirdə iştirak edib
**88** Azərbaycan Respublikasının Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir
**88** Azərbaycan Prokurorluğunun nümayəndəsi Azərbaycan-Avropa İttifaqı (Aİ) Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən alt-komitənin iclasında iştirak etmişdir
**89** Baş Prokurorluğun əməkdaşı beynəlxalq tədbirdə iştirak edib
**89** Baş Prokurorluğun nümayəndəsi beynəlxalq iclasda iştirak edib
**90** Prokurorluq əməkdaşları beynəlxalq tədbirdə iştirak edib
**91** Baş Prokurorluğun əməkdaşı Avropa Şurasının Rəhbər Komitəsinin iclasında iştirak edib
**91** Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu ilə əməkdaşlıq uğurla davam etdirilir
**93** Belarus Respublikasının Minsk şəhərində keçirilmiş beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun nümayəndə heyəti iştirak edib
**94** Prokurorluğun əməkdaşları Avropa Şurasının təşkil etdiyi seminarda iştirak ediblər
**95** Avropa Şurasının HELP Platforması üzərindən distant təlimə start verilib
**96** Baş Prokurorluğun nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib
**96** Beynəlxalq əməkdaşlıq proqramlarının icrası uğurla davam etdirilir
**98** Baş Prokurorluğun nümayəndələri beynəlxalq tədbirdə iştirak edib
**99** Baş Prokurorluğun əməkdaşları beynəlxalq forumda iştirak ediblər

**PROKURORLUQ VƏ CƏMİYYƏT**

**100** Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları
**104** Füzulidə "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" adlı tədbir keçirilib
**104** Sumqayıtda "Demokratik cəmiyyətdə prokurorluğun rolu" mövzusunda tədbir keçirilib
**106** *Aynur Osmanova* – Zərifə Əliyeva – böyük alim, nəcib Azərbaycan qadını, qayğıkeş həyat yoldaşı, fədakar ana
**108** *Firad Əliyev* – İşğal siyasətinin ilk qurbanı – Bağanis-Ayrım soyqırımından 33 il ötür
**110** *Xəyalə Kələşova* – Ermənistanın Azərbaycana hərbi təcavüzü şəraitində informasiya siyasəti
**117** *Ələmdar Məmmədov* – "Topçu Ağabala"nın qəhrəmanlıq salnamsi

**İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE**

**122** *Sərdar İmanov* – Törədilən və ya hazırlanan cinayətlərlə bağlı məlumatlara baxılarkən prosessual müddətlərə əməl olunmasına ekspertizaların keçirilmə təsiri

**PROKURORLUĞUN VETERANLARI**

**124** Prokurorluğun veteranı Kamo Fətəliyevin "Azərbaycan Prokurorluğu" elmi-praktik jurnalına müsahibəsi
**127** Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Prokurorluğunun veteranlarının yubileyləri ilə əlaqədar tədbir keçirilib
**129** Prokurorluğun veteranına yubiley medalı təqdim edilib
**129** Yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilmiş prokurorluğun veteranları Baş prokurorun birinci müavini tərəfindən qəbul edilib
**130** Prokurorluq işçisinin qulluqda olmanın yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilib

**HÜQUQİ AKTLAR**

**131** Qanunvericiliyə dəyişikliklər

# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Nərimanov rayonunda “Cümə” məscidinin açılışında iştirak ediblər







Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra “Cümə” məscidinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Bu gün multikultural ənənələri, tolerant mühiti, İslam dünyası daxilində həmrəyliyin möhkəmlənməsi istiqamətində atdığı tarixi addımları qlobal miqyasda maraqla qarşılanan Azərbaycanda müxtəlif dinlərin, o cümlədən İslam dini abidələrinin qorunmasına xüsusi diqqətlə yanaşılır. Son dövrlərdə yeni məscidlərin tikilməsi və ya əsaslı təmiri də bu yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın müqəddəs Ramazan bayramı ərəfəsində “Cümə” məscidinin açılışında iştirak etmələri həm də rəmzi məna kəsb edir.

Qeyd edək ki, "Cümə" məscidi 1998-ci ildən fəaliyyətə başlayıb. İllər ötdükcə bina tədricən qəzalı vəziyyətə düşüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə bu məsciddə əsaslı təmir və yenidənqurma işlərinə başlanılıb. İşlər yüksək səviyyədə həyata keçirilib və bu ilin aprel ayında başa çatdırılıb.

Qəzalı vəziyyətdə olan iki minarə aparılan işlər çərçivəsində sökülərək yenidən tikilib, məscid binasında bərpa-gücləndirmə işləri yerinə yetirilib, dəstəmazxana binası inşa olunub, zəruri infrastruktur yaradılıb.

Eyni vaxtda 600-ə yaxın insanın ibadət edə biləcəyi məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və

tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Bu istiqamətdə görülən işlərə Heydər Əliyev Fondu da sanballı töhfələr verib.

Nərimanov rayonundakı "Cümə" məscidində aparılan əsaslı təmir və yenidənqurma işləri də ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir.

***

Qeyd edək ki, bu gün qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya, dinin bəzi siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Azərbaycan dövlətinin isə milli-mənəvi dəyərlərin, o cümlədən İslam ənənələrinin qorunması ilə bağlı ardıcıl siyasəti var.

Prezident İlham Əliyev "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın açılış mərasimindəki nitqində bununla bağlı deyib: "Azərbaycan xalqı əsrlər boyu öz milli-mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə millimənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir".

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi, ölkəmizin İslam Həmrəyliyi Oyunlarına, eyni zamanda, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumuna, Mədəniyyətlərarası Dialoq Forumları və Bakı Humanitar Forumu kimi dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın həm İslam, həm də sivilizasiyalararası dialoqla qlobal sülhə töhfəsinin ifadəsidir. Bu yanaşma, şübhəsiz ki, İslamın təməl prinsipləri ilə üst-üstə düşür.







# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş tədbirlərdə iştirak ediblər










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Fəxri xiyabanda görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.

Dövlətimizin başçısı Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstəsi qoyub, əziz xatirəsini ehtiramla anıb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

Prezident İlham Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstəsi qoyub.









Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva ilə bir dövrdə çalışmış oftalmoloqlarla çay süfrəsi arxasında söhbət ediblər.

Aprelin 28-də Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva konsertdə iştirak ediblər.

Konsertdən əvvəl görkəmli alim, həkim, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, bütün işlərdə ona dayaq olan Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən fotosərgi nümayiş olunub.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hazırlanan konsert akademik Zərifə Əliyeva haqqında filmin nümayişi ilə başlayıb.

Sonra isə səhnə əfsanəvi "Dan ulduzu" instrumental ansamblının ixtiyarına verilib. Konsertdə ansamblın repertuarından sevilən mahnılar ifa olunub. Konsertin proqramına Elza İbrahimova, Emin Sabitoğlu, Firəngiz Babayeva, İbrahim Topçubaşov, Oqtay Kazımi, Sevil Əliyeva və Tofiq Əhmədovun əsərləri, "Dan ulduzu" instrumental ansamblının yaradıcısı Gülarə Əliyevanın "Şüştər" muğamı əsasında yazdığı "Şüştər" rapsodiyası daxil edilib.

Zalda quraşdırılan ekranlarda akademik Zərifə Əliyeva haqqında, "Dan ulduzu" ansamblının çıxışlarını, ötən illərin və müasir dövrün Azərbaycanını əks etdirən kadrlar yayımlanıb.

Konsert bəstəkar Emin Sabitoğlunun "Nə gözəldir Azərbaycan" mahnısının bütün müğənnilər tərəfindən birgə ifa olunması ilə yekunlaşıb.

# İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ölkəmizə rəsmi səfər edib

Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun mayın 30-da rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İsrail Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu və birinci xanım Mixal Hersoqu qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi İsrail Prezidentinə raport verdi.

Prezident İsxak Hersoq Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İsrail Dövlətinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri İsrail Prezidenti İsxak Hersoqa və xanımı Mixal Hersoqa, İsrail nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti









İlham Əliyevin və İsrail Prezidenti İsxak Hersoqun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, İsxak Hersoqun ölkəmizə səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.







Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən **Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

– Cənab Prezident, hörmətli nümayəndə heyətinin üzvləri, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə qəbul etmək imkanına malik olduğumuza görə çox şadıq. Əminəm ki, səfər ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verəcək. Elə indicə cənab Prezidentlə ikitərəfli gündəliyimiz və regional məsələlərlə bağlı çox yaxşı müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə, bu gün və sabah davam edəcək səfəriniz çərçivəsində təmaslarda geniş diapazonlu məsələlər müzakirə olunacaq. Biz səfərdən sonra müsbət dinamikanı görəcəyik. Çünki mən tamamilə əminəm, böyük potensial mövcuddur, baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük. Lakin hələ çoxlu işlər görülməlidir. Əlbəttə ki, biz Sizin Azərbaycana səfərinizi tarixi səfər hesab edirik. Dəvətimi qəbul etdiyiniz üçün təşəkkür edirəm. Ümid edirəm ki, ölkəmizdə yaxşı vaxt keçirəcəksiniz. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

**İsrail Prezidenti İsxak Hersoq** çıxış edərək dedi:

– Çox sağ olun, cənab Prezident. Burada olmaqdan şərəf və məmnunluq hissi duyuram. Biz buraya açıq ürəklə, millətlərimiz arasında böyük dostluqla gəlirik. Ən əsası odur ki, siz mərhum atanızı yetişdirən millətsiniz, sonra isə Siz onun yolunu davam etdirərək elə bir heyrətamiz ölkə yaratmısınız ki, bura bir çox məsələlərin mərkəzinə çevrilib.

İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir. İlk növbədə, hesab edirəm ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk. Buna görə çox sağ olun. Əlbəttə ki, cənab Prezident, mən qarşılıq göstərərək Sizi İsraildə qəbul etməyi səbirsizliklə gözləyirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.



Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı" imzalanıb.

Sənədi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbel imzaladılar.



Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İsxak Hersoq mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli, cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, ölkəmizə xoş gəlmisiniz. Sizi Azərbaycanda qəbul etmək imkanına malik olduğuma görə çox şadam. Sizin səfəriniz ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirir. Əminəm ki, səfər bizim ikitərəfli əlaqələrimizi gücləndirəcək. Aramızda çox fəal siyasi dialoq var və biz cənab Prezidentlə telefonla əlaqə saxlayırıq. İndi isə, əlbəttə ki, rəsmi səfər zamanı bizim ikitərəfli gündəliyimizdə duran önəmli məsələləri müzakirə etmək üçün daha çox imkanımız var. Bu il İsraildə Azərbaycan səfirliyinin açılması, əlbəttə ki, əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Bəzi iqtisadi rəqəmlərə nəzər salarkən gördüm ki, ticarət dövriyyəmiz 1,7 milyard ABŞ dollarından çoxdur, bu da böyük məbləğdir. Lakin, hesab edirəm ki, növbəti illərdə biz ticarət dövriyyəsini şaxələndirməyə çalışmalıyıq və ümid edirəm ki, həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq. Buna baxmayaraq, uzun illərdir ki, Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da əslində enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir.

Bu gün müzakirələr zamanı biz, həmçinin enerji sahəsində əməkdaşlığın necə genişləndirilməsi məsələsini də müzakirə etdik. Çünki biz investisiya layihələri, interkonnektorların yaradılması və üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri üçün böyük imkanlar görürük.

Biz, həmçinin irriqasiya və kənd təsərrüfatı sahəsində planlarımızı və artıq görülmüş işləri müzakirə etdik. İsrailin bu sahədə böyük nailiyyətlərindən bizim xəbərimiz var və biz kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün bu müsbət təcrübədən istifadə etmək və ixrac bazarımızı şaxələndirmək istəyirik.

Nisbətən bu yaxınlarda əməkdaşlığa başladığımız sahələrdən biri kibertəhlükəsizlik sahəsidir. Bu sahədə fəal təmasların başlanılmasına çox şadıq. Bu gün artıq sirr deyil ki, kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin mühüm hissəsidir. Əlbəttə ki, bu sahədə İsrail şirkətlərinin böyük təcrübəsi bizim üçün faydalı olacaq. Həmçinin gənc nəslin təlimi və tədrisi də məqsədlərimizə nail olmaq və özümüzü təhlükədən qorumaq üçün mühüm amil olacaq.

Təhdidlərdən danışarkən, həmçinin müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı məmnuniyyətlə qeyd etmək istəyirəm. Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.

Bu gün biz, həmçinin qarşılıqlı turist axını səviyyəsinin necə qaldırılmasını da müzakirə etdik. Həftədə yalnız dörd reys var və hesab edirəm ki, bu, yetərli deyil. Nümayəndə heyətlərinin üzvlərinə uçuşların sayının artırılması ilə bağlı göstərişlər verilmişdir və bunun təkcə mövsümi əsasda yox, - çünki adətən yay vaxtlarında daha çox uçuşlar olur, - daimi əsasda edilməsi tapşırılmışdır. Həmçinin İsraildə daha çox təqdimat imkanlarının araşdırılması da tapşırılmışdır ki, biz İsraildən daha çox turisti buraya dəvət edə bilək və əsrlər boyu Azərbaycanda yaşayan yəhudi icması haqqında daha çox məlumat verə bilək. Bu, bizim ölkənin böyük dəyəridir, yəhudi icmasının üzvləri - Azərbaycan vətəndaşları ölkəmizin müasir inkişafına çoxlu töhfə vermiş və töhfə verən insanlardır. Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə çiyin-çiyinə vuruşublar. Bu gün bu, təkcə Azərbaycanın uğurlu inkişafı, mədəniyyətlərarası sülh və dostluq üçün yox, eyni zamanda, bizim ikitərəfli münasibətlərimiz üçün mühüm amildir. Bilirəm ki, İsraildə yaşayan azərbaycanlılar ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynayırlar. Bizim dünya azərbaycanlılarının diaspor təşkilatları var, lakin yalnız bir ölkədə, İsraildə bu təşkilat əsasən yəhudi mənşəli insanlardan ibarətdir. Bu, aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirir. Bizim əsrlər boyu davam edən qarşılıqlı əlaqələr, dostluq və qarşılıqlı dəstək tariximiz var. Müstəqil ölkə olaraq Azərbaycanın, sadəcə, 31 yaşı var, lakin bizim qədim tariximiz var və Azərbaycandakı yəhudilər həmişə cəmiyyətimizin fəal və mötəbər hissəsi olmuşlar və bu gün də belə olmaqda davam edirlər. Beləliklə, bu, ölkələrimiz arasında, belə deyək, mədəni körpülərdir. Buna görə onların bizim ikitərəfli strateji əməkdaşlığımıza töhfəsi çox vacibdir.

Bizim gündəliyimiz həqiqətən də genişdir. Mətbuat konfransı üçün vaxtımız məhduddur, əks halda ikitərəfli əməkdaşlığımızın geniş gündəliyi haqqında saatlar ərzində danışardıq. Əlbəttə ki, nümayəndə heyətlərinin üzvləri bu gün və sabah daha sıx qarşılıqlı əlaqədə olacaqlar.

Yekunda mən bir daha cənab Prezidentə dəvətimi qəbul etdiyinə və Azərbaycanı rəsmi səfərlə ziyarət etdiyinə görə təşəkkürümü ifadə etmək istəyirəm. Ona və İsrail xalqına sülh, uğur və çiçəklənmə, Azərbaycanda yaxşı vaxt keçirməyi arzu etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, cənab Prezident.

Sonra İsrail Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İsxak Hersoqun bəyanatı

– Təşəkkür edirəm, cənab Prezident.

Azərbaycana səfər etmək mənim üçün və millətim üçün həyata keçən arzudur. Bu səfər İsrail xalqı üçün və Azərbaycan xalqı ilə İsrail xalqı arasında birgə əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir.



Cənab Prezident, qonaqpərvərliyinizə, dəvətinizə görə təşəkkür edirəm. Mən bunun qarşılığında Sizi və birinci xanımı İsrailə dövlət səfərinə dəvət etmək istərdim. Bu, əsası mərhum məşhur atanız tərəfindən qoyulmuş və illər ərzində inkişaf etmiş heyrətamiz əlaqələrimizin ifadəsi olar. Prezident Əliyev, dövlətinizi qurub və Siz son bir neçə ildə onu genişləndirərək inkişaf etdirmisiniz.

Bizim əlaqələrimizin dərin kökləri var. Yəhudilərin bu ölkədəki irsinin kökləri, yeri gəlmişkən, özlüyündə nümunə olan nadir irsi və yəhudi icmalarının 120-130 il əvvəl meydana gəlməsi ilə Azərbaycanın dünyada yazdığı hekayəsinə öz böyük töhfəsini verib. Sülh, ümumi rifah, yaxşı işlərə dair birgə strateji baxışımızla birlikdə, yəhudilərlə müsəlmanlar arasında səmərəli, ədalətli, səmimi, dostcasına dialoq, bizim arzulaya və nümayiş etdirə biləcəyimiz bir baxışdır.

Sirr deyil ki, ölkəniz əhalisinin əksəriyyəti şiələr olan müsəlman ölkəsidir. Buna baxmayaraq, millətlərimiz arasındakı sevgi və bağlılıq dünyanı necə dəyişdirə biləcəyimizin və irəli gedə biləcəyimizin nümunəsidir. İndicə səhiyyə nazirlərimiz arasında şahidi olduğumuz mərasim, cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, əməkdaşlıq üçün nə qədər məsələ və sahənin olmasının daha bir nümunəsi və təcəssümüdür.

Bizim ortaq baxışımız var, mən Azərbaycanın dünyada və regionda böyük təsirə malik olduğunu görürəm. Siz mənə Azərbaycanın Avropanın enerji sektoruna, ümumilikdə regiona, Asiyaya, sözsüz ki, bizimlə əlaqəli Yaxın Şərqə təsiri barədə danışdınız. Biz İranın təhlükə və təhdid yaratdığı qlobal, regional təhlükəsizlik strukturuna nəzər saldıq, bu məsələni dərindən müzakirə etdik. Əlbəttə ki, biz elm, kənd təsərrüfatı və cənab Prezident, giriş nitqində qeyd etdiyiniz bir çox sahələrdə əməkdaşlığı inkişaf etdirmək imkanlarımızı səbirsizliklə gözləyirik.

Mən bu möhtəşəm an üçün Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Biz İsrailin müstəqilliyinin 75 illiyini, eyni zamanda, dövlətlərimiz arasında çox güclü əlaqələrimizin 30 illiyini qeyd edirik. Əminəm ki, mənim və nümayəndə heyətimin bu səfəri əlaqələrimizin daha da inkişafı baxımından bir mərhələ olacaq. Təşəkkür edirəm, bizim dediyimiz kimi, şalom, cənab Prezident.



Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və birinci xanım Mixal Hersoqun şərəfinə rəsmi lanç verilib.



# Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanımı Əminə Ərdoğan Azərbaycana rəsmi səfər ediblər







İyunun 12-də Bakıda, “Gülüstan” sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın şərəfinə dövlət ziyafəti verilib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Ziyafət konsert proqramı ilə davam edib.

Konsert proqramında ölkəmizin tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında Azərbaycanın və Türkiyənin xalq mahnılarından və klassik musiqilərindən nümunələr səsləndirilib.

Azərbaycan Respublikası Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 13-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.




Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.



İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü keçirilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı salamlayan **Azərbaycan Prezidenti İlham Əliyev** dedi:



– Sizin dövlət səfəriniz bizi çox məmnun edir. Şadam ki, prezident seçkilərindən qısa müddət sonra Siz Azərbaycana səfər edirsiniz. Bir daha Sizi qələbə münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, növbəti illərdə də bizim dostluğumuz, qardaşlığımız hər zaman olduğu kimi yüksək səviyyədə olacaqdır.

Biz bu gün Sizinlə artıq təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik. İndi heyətlər çərçivəsində də bunun davamı olacaq. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı - bu, beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir. Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Siz bilirsiniz ki, Sizi Azərbaycanda çox sevirlər. Siz bizim əziz qonağımızsınız.

Mən yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram. Dünən artıq bizim nazirlər və digər yüksək səviyyəli rəsmilər bir arada olmuşlar, bu gün də bu təmaslar davam edir. Hər zaman olduğu kimi, bizim görüşlərimiz həm görülən işlərə yekun vurur, eyni zamanda, növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsi cızır. Əminəm ki, bu səfərdə də belə olacaq. Bir daha xoş gəlmisiniz.

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan** dedi:

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli heyət üzvləri.

Sizləri öz adımdan, heyətim adından ən səmimi hisslərimlə salamlayıram. Millətimizin iradəsi ilə yenidən prezident seçildikdən sonra hər zamankı adətimiz üzrə əvvəlcə Şimali Kipri ziyarət etdik, sonra da dərhal Bakıya gələrək Sizinlə bir arada olduq. Göstərdiyiniz qonaqpərvərliyə görə şəxsən öz adımdan və heyətim adından səmimi təşəkkürlərimi xüsusilə ifadə edirəm.

Türkiyə-Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir. Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər. Ürəyi bizimlə döyünən hər bir Azərbaycan vətəndaşına yenə şəxsən öz adımdan və millətim adından minnətdaram.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq. Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Hakan bəy, bu məsələdə də heç gecikdirmədən, inşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır.

Maarif Vəqfimiz Azərbaycan qurumlarının dəstəyi ilə təhsil-tədris sahəsində fəaliyyətini davam etdirir. İnşallah, gələn il məktəbimizin yeni təhsil korpusunu istifadəyə verməyi planlaşdırırıq.

Əziz qardaşımla təkbətək görüşümüzdə xüsusilə Xəzərdən keçən Orta Dəhliz və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttini də bir an əvvəl müzakirə etməyimizdə fayda var.



İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, əziz Qardaşım, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana, Vətəninizə xoş gəlmisiniz.

Sizi Cümhurbaşqanı seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, bu qələbədən iki həftə sonra Siz Azərbaycana dövlət səfərinə gəlmisiniz.

Seçkilərdə Sizin qələbəniz 20 ildən çox müddət ərzində apardığınız siyasətin Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür. Sizin liderliyinizlə qardaş Türkiyə böyük və şərəfli yol keçmişdir, dünya çapında böyük güc mərkəzinə çevrilmişdir. İstər xarici siyasət sahəsində, istər daxili siyasət sahəsində fəaliyyətiniz Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilir. Sizin qələbəniz Azərbaycan xalqını da çox mutlu etmişdir.

Əminəm ki, bu seçkilərdən sonra Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır. Bu gün biz Sizinlə həm görülmüş işlərə yekun vurduq, eyni zamanda, növbəti illərdə görüləcək işlər haqqında geniş fikir mübadiləsi apardıq. Həm təkbətək görüş zamanı, həm də heyətlərin iştirakı ilə apardığımız danışıqlar bir daha bizim ortaq niyyətimizi ifadə edir. Yəni, əldə edilmiş bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır.

İki gündən sonra biz Şuşa Bəyannaməsinin ikinci ildönümünü qeyd edəcəyik. Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi. Bu

sənədin Şuşada imzalanması təbii ki, rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacıdır və Şuşanın işğaldan azad olunması İkinci Qarabağ müharibəsinə son nöqtəni qoymuşdur. Fürsətdən istifadə edərək, Azərbaycan xalqı adından Sizə və qardaş Türkiyəyə İkinci Qarabağ savaşı dönəmində bizə göstərdiyiniz qardaşlıq dəstəyinə, mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Təbii ki, bizim gələcək işbirliyi proqramımız bu gün müzakirə olunan məsələlər arasındadır. Bütün sahələrdə konkret proqramlar əsasında işlər gedir. İlk növbədə, Türkiyə və Azərbaycan bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış edəcəklər. Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır. O cümlədən bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən Türkiyə-Azərbaycan birliyi amili çox önəmlidir.

Bu gün, eyni zamanda, müdafiə və müdafiə sənayesi sahələrində gələcək planlar haqqında danışdıq. Məmnuniyyətlə qeyd olundu ki, bu il 16 birgə hərbi təlim keçiriləcəkdir, onlardan 6-sı artıq keçirilmişdir. Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz bunu indi əyani şəkildə görürük. Bu dəstəyə görə də Sizə özəlliklə təşəkkürümü bildirmək istəyirəm.

Bugünkü dünyada güc amili ön plana çıxır. Əfsuslar olsun ki, beynəlxalq hüquq çalışmır. Biz bunu 30 illik işğal dönəmində görmüşdük və aparılan müzakirələr, danışıqlar heç bir nəticəyə gətirib çıxarmadı, nəticəyə gətirib çıxaran bizim gücümüz oldu. Ona görə bundan sonra da birgə fəaliyyət istiqamətində aparılacaq işlər bizim gücümüzü həm bölgədə, həm dünyada daha da artıracaq.

Məmnunluq hissi ilə qeyd etdik ki, ticarət dövriyyəsi sürətlə artır və artıq 6 milyard dollara yaxınlaşıbdır və gələcəkdə daha da artacaq. Çünki birgə həyata keçirəcəyimiz layihələr bunu təmin edəcək, xüsusilə enerji sahəsində. Azərbaycandan Türkiyəyə təbii qazın ixracı artmaqdadır, ildən-ilə artır və bu gün biz razılığa gəldik ki, bundan sonra da artacaq. Bununla paralel olaraq, Türkiyə ərazisindən Avropa ölkələrinə Azərbaycanın qaz ixracı artmaqdadır, buna da böyük tələbat var. Enerji sahəsində bizim işimiz təbii qaz məsələsi ilə məhdudlaşmır. Biz bu gün yenilənən, yəni, bərpaolunan enerji növləri üzrə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Biz bu gün həm qaz, həm neft, həm neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi sahələrində fəal əməkdaşlıq edirik.

Təbii ki, hər dəfə görüşəndə biz nəqliyyat məsələlərini də geniş müzakirə edirik. İndiki geosiyasi şəraitdə Orta Dəhlizin önəmi daha da artır. Azərbaycan ərazisindən, yəni, Xəzər dənizi ilə daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır və daha da artacaq. Ona görə biz Azərbaycanda nəqliyyat və logistika imkanlarımızı genişləndiririk. Bakı Dəniz Limanının imkanlarını 25 milyon tona genişləndiririk. Dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyəyə gətirilir.

Biz, eyni zamanda, Zəngəzur dəhlizinin tezliklə açılması haqqında fikir mübadiləsi apardıq, bu məsələni müzakirə etdik. Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək.

Müzakirə olunan məsələlərdən biri də təhsil sahəsi ilə bağlıdır. Türkiyə-Azərbaycan birgə universitetinin yaradılması istiqamətində danışıqlar indi son mərhələdədir. Biz çox ümid edirik ki, yaxın aylarda bu məsələ də öz həllini tapacaq və bizim qardaşlıq münasibətlərimizə daha bir töhfə veriləcəkdir.

Bir sözlə, qeyd etdiyim bütün bu və digər məsələlərlə, - çünki gündəliyimiz kifayət qədər genişdir, - bağlı fikir birliyi, vəhdət, mövqe birliyi var, belə də olmalıdır. Türkiyə-Azərbaycan birliyi xalqlarımız üçün, bölgə üçün, Türk dünyası üçün önəmlidir. Əminəm ki, gələcək illərdə bu birlik daha da güclənəcək və bizi yeni uğurlar, yeni qələbələr gözləyir.

Əziz qardaşım, gəldiyinizə görə bir daha təşəkkür edirəm. Vətəninizə xoş gəlmisiniz!

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Əvvəlcə, hörmətli mətbuat nümayəndələrinə bir daha bildirirəm ki, Prezident üsul-idarəsinin ikinci dönəmində 86 faizlik iştirak səviyyəsi ilə keçirilən budəfəki seçki dünyada müstəsna deyə biləcəyimiz bir seçki olmuşdur. Bu seçkidən də millətimin iradəsi ilə qalib çıxmaq, yenidən ilk səfərimizi Şimali Kiprə və həmin gün Bakıya gələrək burada gerçəkləşdirmək bizi son dərəcə məmnun etmişdir. Biz öz evimizdəyik və indi burada mətbuata bəyanatla çıxış edirik.

İlham qardaşım, nazirlərin bu gün qarşılıqlı keçirdiyi iclasları olduqca gözəl bir şəkildə ümumiləşdirdi. Bununla yanaşı, hansı sahələrdə nələr etdik, nələri edirik, təkbətək görüşdə də bunları ətraflı müzakirə etdik.



Prezident Əliyev bunları da ümumiləşdirdi və heyətlər arasındakı görüş barədə də ətraflı məlumat verdi.

Türkiyə və Azərbaycan iki qardaş ölkədir. "Bir millət, iki dövlət" düşüncəsi ilə bu günə qədər addımladıq. İndiyə qədər addımladığımız bu yolda bundan sonra da qərarlı şəkildə yolumuza davam edəcəyik. Burada bir məsələni də bildirmək istəyirəm. Xüsusilə səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır. Buna görə mən də eyni qaydada xanımımla birlikdə bu səfərə gəlmişəm. Bu səfərlər aramızdakı münasibətlərin nə qədər inkişaf etməsinin ən gözəl ifadəsidir. Bunları təkcə bu gün etdik? Xeyr. Biz bunları daim – Baş nazir olduğumdan bəri, Prezidentliyi təhvil aldığımdan bəri yaşadıq, yaşayırıq və Rəbbim ömür verdikcə də yaşamaqda davam edəcəyik.

Əziz qardaşım İlham Əliyevə və azərbaycanlı qardaşlarımıza göstərdikləri bu qonaqpərvərliyə görə də şəxsən öz adımdan və heyətim adından çox təşəkkür edirəm. Hazırda atdığımız və atacağımız addımlardan biri də Türkiyə-Azərbaycan Universiteti məsələsidir. Bu məsələ ilə əlaqədar Ali Təhsil İdarəsinin sədri öz həmkarı ilə bu məsələni bu gün nəzərdən keçiriblər. Qanuni prosedurun vacibliyini isə İlham qardaşım ifadə etdi. Bu məsələni də tez bir zamanda həyata keçirərək, İnşallah, Türkiyə ilə Azərbaycan arasında belə bir universitetin qurulmasına nail olacağıq. Beləliklə, azərbaycanlı gənclərimiz Türkiyəyə rahatlıqla gələ biləcəkləri kimi, türk gəncləri də eyni qaydada Azərbaycandakı universitetdə oxumaq şansı əldə edəcəklər.

Bununla yanaşı, ən vacib məsələlərdən biri də məlum olduğu kimi, enerjidir. Enerji sahəsində istər TANAP, istərsə də TAP ilə bağlı illərdən bəri görülən işlər var. Bu işlərin təfərrüatlarını da nazirlərimiz öz aralarında müzakirə etdilər. Həmçinin bununla bağlı bundan sonrakı dövrdə görəcəyimiz işlər müzakirə olundu. Avropa enerji sahəsində, xüsusilə Türkiyə vasitəsilə alacağı qaz məsələsində çox narahatdır. Buna görə davamlı xahişlər edirlər. Bu məsələ ilə əlaqədar biz üzərimizə düşən işi görürük və bundan sonra da həyata keçirməkdə davam edəcəyik.

Bütün bunlarla yanaşı, müdafiə sənayesi sahəsində atılacaq addımlar da böyük əhəmiyyət kəsb edir. Bu sahədə atacağımız addımlarla birlikdə bu işin müdafiə sənayesi hissəsi ilə yanaşı, təhsil məsələsində də üzərimizə düşən vəzifələr var. Bu vəzifələri bu günə qədər necə yerinə yetirmişiksə, bundan sonra da eyni qaydada həyata keçirməkdə davam edəcəyik.

Ən mühüm məsələlərdən biri də xüsusilə hazırda özəl sektorumuzun burada atdığı addımlardır. Şirkətlərimiz kənd təsərrüfatı, heyvandarlıq sahələrində müştərək fəaliyyəti uğurla həyata keçirirlər. Bununla yanaşı, nəqliyyat sahəsində türk podratçı firmaları həqiqətən də Azərbaycanda uğurlu infrastruktur layihələrini həyata keçirirlər. Bu, bizi xüsusilə məmnun edir.

Şuşa Bəyannaməsinin müddəalarını da, İnşallah, bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik.

Üzərində ən çox çalışdığımız və həssaslıq göstərdiyimiz Zəngəzur dəhlizi məsələsini, İnşallah, sürətlə həll etməyimiz bizə iki mühüm imkanı qazandıracaq. İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək. Çünki yol mədəniyyətdir. Əgər yolunuz varsa, mədənisiniz. Yolunuz varsa, mədəniyyətə çatmısınız. Əgər yol yoxdursa, heç bir şey yoxdur. Hazırda Azərbaycanın, xüsusilə müharibələrdən sonra infrastrukturla bağlı böyük həssaslıq göstərdiyi ən əhəmiyyətli məsələ yollardır. Bundan əvvəlki səfərimdə də gördüm, bütün tunellər, viaduklar Azərbaycanın Qarabağ müharibələrindən - istər Birinci, istərsə İkinci Qarabağ müharibəsindən sonra necə inkişaf etdiyini ən gözəl şəkildə ortaya qoyur. Biz bunları bilavasitə gördükcə iftixar hissi keçiririk. İyirmi il əvvəlki Bakını düşünürəm və hazırda da Qarabağı düşünürəm. Otuz il ərzində Minsk qrupu vaxt uzatdı və bunun nəticəsini yaşayırıq. Vaxtı çox uzatdılar, addım atmağa imkan vermədilər. Bax, öz göbəyinizi özünüz kəssəniz, addım atarsınız. Sağ olsun, İlham qardaşım bunu bacardı. Millət olaraq bunu bacardınız və indi də bu səviyyəyə gəldiniz. Deməli, məsələ odur ki, qətiyyətli olduğun

zaman, inandığın zaman istədiyinə nail olmaq mümkündür. Azərbaycan da bu nəticəyə nail oldu.

Əlbəttə, indi qarşımızda atılacaq bəzi addımlar var. İnşallah, bu addımları da uğurla atdıqca Azərbaycan mövcud əhalisi ilə təbii ki, daha da irəli gedəcək. Mənim əhali ilə bağlı planımı, proqramımı bilirsiniz, ən azı üç deyirdim. Amma Azərbaycanda bu, ən azı beş olmalıdır. Elədirmi, qardaşım?

**Prezident İlham Əliyev:** Çalışacağıq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Ən azı beş olmalıdır. Hazırda əhali 12 milyondur?

**Prezident İlham Əliyev:** Hələ 11 milyona çatmayıb, 10 milyonun üstündədir, amma, İnşallah, yaxın zamanda çatacaq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Çatacaq, İnşallah. Yəni, bunu bacarmaq lazımdır. Buna nail olanda Azərbaycan daha güclü olacaq. Çünki əhali hər bir ölkənin gücüdür, həmin ölkənin gələcəklə bağlı paradiqmalarını dəyişdirir. Bu inamla, Türkiyə-Azərbaycan qardaşlığı və "Bir millət, iki dövlət" anlayışı ilə gələcəyə doğru addımlayacağıq. Aramızdakı Preferensial Ticarət Sazişindən tutmuş digər sahələrdə atacağımız addımlarla, İnşallah, Türkiyə-Azərbaycan qardaşlığını daha yüksək səviyyəyə çatdıracağıq. Çox təşəkkür edirəm.





İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan ilə birgə işçi nahar ediblər.








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər.





Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına dövlət səfəri iyunun 13-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğanı dövlətimizin başçısı İlham Əliyev yola saldı.

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Azərbaycana rəsmi səfər edib

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iyunun 15-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Pakistanın Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Pakistanın Baş nazirinə raport verdi.

Baş nazir Məhəmməd Şahbaz Şərif Azərbaycan əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Pakistan İslam Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Pakistanın Baş nazirinə, Pakistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Baş nazir Məhəmməd Şahbaz Şərifin qarşısından keçdi.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif rəsmi foto çəkdirdilər.











İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə təkbətək görüşü olub.



İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən A**zərbaycan Prezidenti İlham Əliyev** dedi:

– Hörmətli cənab Baş nazir, mənim əziz qardaşım və hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə qəbul etməyə çox şadam. Mənim dəvətimi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm. Əminəm ki, səfəriniz ölkələrimiz arasında qardaşlıq münasibətlərini gücləndirəcək. Bu münasibətlər tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulub. Biz elə indicə cənab Baş nazirlə ikitərəfli münasibətlərimizin geniş gündəliyini müzakirə etdik və bir daha ölkələrimizin suverenliyinə, ərazi bütövlüyünə güclü dəstəyimizi ifadə etdik. Mən cənab Baş nazirə Azərbaycanın ərazi bütövlüyünə və işğal vaxtında, İkinci Qarabağ müharibəsində və ərazi

bütövlüyümüzü bərpa etdikdən sonra göstərilmiş dəstəyə görə minnətdarlığımı bildirdim. Biz Kəşmir məsələsində Pakistanın mövqeyini ciddi dəstəklədiyimizi bir daha ifadə edirik və bütün beynəlxalq təsisatlarda bu mövqeyi açıq şəkildə dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik.

Bu gün biz ticarət və iqtisadi əməkdaşlığımıza, enerjiyə, daşımalara, müdafiə sənayesinə aid mühüm məsələləri geniş şəkildə müzakirə etdik. Biz bu formatda müzakirələrimizi davam etdirəcəyik. Əminəm ki, səfər nəticəsində müxtəlif sahələr üzrə yeni əməkdaşlıq proqramını işləyib hazırlayacağıq və o, bizim tərəfdaşlığımızı daha da gücləndirəcək.

Cənab Baş nazir bir daha xoş gəlmisiniz.

**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif** dedi:

-Təşəkkür edirəm, mənim qardaşım Prezident İlham Əliyev. Sizinlə bir daha görüşmək mənim üçün böyük şərəfdir. Burada əyləşənlər qardaş və bacılardır. İcazə verin, əvvəlcə bunu deyim, mənim qardaşım Baş nazir Nəvaz Şərif mənə dünən dedi ki, siz Bakıya gedəcəksiniz, mənim səmimi salamlarımı qardaşım Prezident Əliyevə çatdırın. O dedi ki, Şahbaz, Bakını görmək səndə böyük təəssürat yaradacaq. Cənab Prezident, bu, məndə, sadəcə təəssürat yaratmayıb, dərin təəssürat yaradıb. Mənim ötən gecədən etibarən gördüklərim Sizin baxışınızı, liderliyinizi və bu illər ərzində ölkənizi qurmaq üçün göstərdiyiniz dinamik səyləri əks etdirir. Mən ziddiyyətdən çəkinməyərək deyə bilərəm ki, indiyədək Bakıda gördüklərimin müqayisəsini apara bilərəm. Siz bu şəhəri dünyanın hər hansı ən inkişaf etmiş, gözəl şəhəri ilə müqayisə edə bilərsiniz. Burada heç bir mübaliğə yoxdur. Mənim gündəlik üzrə qaldırmağı nəzərdə tutduğum məsələlərdən biri o idi ki, istəyirdim ən yaxşı landşaft mütəxəssislərini Pakistana göndərəsiniz. Landşaft gözəldir, mənə inanın, mən heyran olmuşam.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

**Baş nazir Məhəmməd Şahbaz Şərif:** Bu gün mən dahi atanızın məzarını ziyarət etdim. Deməliyəm ki, Sizin gördüyünüz böyük işlər sayəsində onun ruhu çox şad olmalıdır. Sizi təbrik edirəm. Düşünürəm ki, mənim Bakıya səfərim çox mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, İslamabada qayıdanda, dövlət xidməti sahəsində belə bir liderin addımlarından çox şey öyrənmiş olacağam.

Qardaşım Prezident, biz iki qardaş ölkəyik. Bizim əlaqələrimiz qarşılıqlı etimad, hörmət və hədsiz səmimiyyət üzərində qurulub. Siz hər zaman Kəşmir məsələsini dəstəkləmisiniz və Pakistanın yanında olmusunuz.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Nəvaz Şərifə çatdırmağı xahiş etdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Baş nazir, hörmətli Qardaşım.

Xanımlar və cənablar, Azərbaycana xoş gəlmisiniz.

Mən çox şadam ki, əziz Qardaşım Azərbaycanda səfərdədir. Bizim münasibətlərimiz iki qardaş ölkə arasında olan münasibətlərdir. Bizim Baş nazirlə təmaslarımız müntəzəmdir. Biz ötən il müxtəlif beynəlxalq tədbirlər çərçivəsində iki dəfə görüşmüşük. Mən minnətdaram ki, cənab Baş nazir dəvətimi qəbul edib və ölkəmizə rəsmi səfərə gəlib.

Ölkələrimiz arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib.

Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir və bu, məhz işğal səbəbindən baş vermişdir. Bu isə qardaş ölkə mövqeyidir, buna görə mən minnətdaram.

Bu gün mən cənab Baş nazirə Azərbaycan və Ermənistan arasında sülh sazişi üzərində hazırda gedən danışıqlarla bağlı məlumat verdim. Bu sazişin imzalanmasının perspektivləri var, sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir və artıq rəsmi olaraq bəyan etdiklərini kağız üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!

Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır.

Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi.

Bu gün biz ikitərəfli gündəliyimizə daxil olan bir çox məsələləri, eyni zamanda, regional prosesləri, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Bizim irəliyə getməyimizlə bağlı tam aydın təsəvvürümüz var. Biz razılığa gəldik ki, artıq Azərbaycandan bir neçə nümayəndə heyəti Pakistana səfər edəcəkdir. Biri ticarət və sərmayə məsələsi, növbəti nümayəndə heyəti enerji məsələsi ilə məşğul olacaq, üçüncüsü isə müdafiə sənayesi sahəsində əməkdaşlığı nəzərdən keçirəcəkdir.

Biz, eyni zamanda, razılığa gəldik ki, ticarətimizin həcmini artırmaq üçün daha ciddi səylər göstərək. Biz bu istiqamətdə anlaşma memorandumu imzalayacağıq və məhsulların siyahısı üzərində işləyəcəyik ki, həmin siyahı bizim ticarət dövriyyəmizin artırılmasına xidmət edəcək.

Əlbəttə ki, enerji sahəsində böyük perspektivlər var, istər ənənəvi enerji, istərsə də bərpaolunan enerji sahəsində. Biz, eyni zamanda, razılığa gəldik ki, şəhərlərimiz arasında uçuşların sayını artıracağıq, xüsusilə də paytaxtlar arasında. Bu isə görüşümüzün, bu səfərin yaxşı nəticəsi olacaqdır.

Biz bununla yanaşı, təhsil sahəsində böyük potensialı görürük. Bu gün Azərbaycanda Pakistandan olan 750 tələbə təhsil alır və bu prosesin necə sürətlə getdiyinə baxsaq görərik ki, ötən il sadəcə 100 tələbə təhsil alırdı. Yəni, biz daha çox pakistanlı qardaşlarımızı burada görmək istəyirik. Eyni zamanda, Pakistanda təhsil alan azərbaycanlılar da var. Bu gün onlar müxtəlif sahələrdə təhsil alaraq, qayıdıb ölkəmizə töhfələrini verirlər.

Eyni zamanda, biz müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə etdik. Artıq qeyd etdiyim kimi, birgə hərbi təlimlərin sayının artırılması məsələsini müzakirə etdik, buna ehtiyac var. Çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik nöqtələri artır, ona görə də güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır.

Bildiyiniz kimi, Azərbaycan 30 il ərzində Ermənistanla danışıqlarda iştirak edirdi və bu danışıqlar heç bir nəticə vermədi. Yalnız bizim hərbi gücümüz və Azərbaycan Ordusunun əzmi ərazi bütövlüyümüzü bərpa etdi. Bu, danışıqlar və ya hər hansı bir vasitəçilik hesabına baş vermədi. Əksinə, həmin vasitəçilik səyləri

vəziyyətin dondurulmasına gətirib çıxarmışdı. Biz bununla qəti razı olmadıq. Biz ərazi bütövlüyümüzü bərpa etdik, torpaqlarımızı 3 min övladımızı şəhid verərək döyüş vasitəsilə aldıq.

Biz görürük ki, beynəlxalq hüquq selektiv şəkildə tətbiq edilir. BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri icra edilir, digərləri yox. Biz hər ikimiz bunu yaxşı bilirik. Ona görə, ərazi bütövlüyü, təhlükəsizlik və firavanlıq, əlbəttə ki, Sizin ölkənin iqtisadi və hərbi gücü ilə bağlıdır. Bütün bu məsələlərdə bizim qarşılıqlı tam anlaşmamız var. Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olubdur. Daha mühüm amillərdən biri odur ki, xalqlarımız da öz rəhbərliyinin fikrini bölüşür və Bakının müxtəlif yerlərində Pakistan bayraqlarını görə bilərsiniz. Bu, İkinci Qarabağ müharibəsi dövründə asılmış bayraqlardır. İki il yarım bundan öncə müharibə başa çatsa da, burada Pakistan bayraqları hələ də dalğalanır. Bu, xalqımızın münasibətidir və biz eyni münasibəti Pakistan xalqından da görürük.

Cənab Baş nazir, səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Mən Sizinlə görüşlərimizi hər zaman məmnunluqla xatırlayıram və biz bütün məsələləri müzakirə edirik. Eyni zamanda, Pakistan xalqını da təbrik etmək istəyirəm ki, Sizin kimi böyük təcrübəyə və siyasi baxışlara malik olan insanı hakimiyyətə gətirib. Siz ölkənizin inkişafına bağlı olan insansınız və onun müstəqilliyini gücləndirmək üçün səy göstərirsiniz. Əminəm ki, Sizin rəhbərliyinizlə Pakistan və qardaş Pakistan xalqı daha da böyük uğurlar, nailiyyətlər əldə edəcəkdir.

Sizə və xalqınıza firavanlıq, xoşbəxtlik və sülh arzu edirəm. Təşəkkür edirəm.

Sonra Pakistanın Baş naziri bəyanatla çıxış etdi.

## Baş nazir Məhəmməd Şahbaz Şərifin bəyanatı



– Əziz Qardaşım, cənab Prezident Əliyev.

Əvvəlcə onu qeyd etmək istəyirəm ki, biz gözəl ölkənizə ötən axşam gəldiyimiz andan etibarən hər bir məqamda mən çox yaxşı mənada təəccüblənirəm. Mənim qardaşım Nəvaz Şərif o vaxt mənə demişdi Bakıya gedəndə sən bunu görəcəksən ki, nə qədər gözəl şəhərdir. Ötən gün biz Bakıya axşam saatlarında gəldik. Bu gün səhər mən Sizin böyük atanız Heydər Əliyevə hörmətimi ifadə etmək üçün Fəxri xiyabanda oldum. Hesab edirəm ki, Siz onun layiqli oğlusunuz. Fəxri xiyabanı ziyarət etmək mənim üçün böyük şərəf idi.

Əminəm, dahi atanızın ruhu şaddır ki, Sizin rəhbərliyinizlə gözəl ölkəniz və xalqınız inkişaf edir.

Eyni zamanda, biz Şəhidlər xiyabanında da olduq. Orada bu ölkə uğrunda həyatını qurban verənlərin də ruhuna ehtiramımı bildirdim. Əziz Qardaşım, buraya gələndə yolboyu gördüklərim məndə çox dərin təəssürat yaradıb. Sizin gərgin əməyiniz və rəhbərliyiniz sayəsində ölkənizdə böyük işlər görülüb. Mən İslamabada qayıtmamışdan öncə Sizdən bir neçə xahiş edəcəyəm. Bizim şəhər planlaşdırılması və yaşıllaşdırma sahəsində sizin təcrübənizə ehtiyacımız var. Şəhəriniz son dərəcə təmizdir, tullantıların emalı məsələsi, yəni, bu sahələrdə bizim sizin təcrübənizə ehtiyacımız var. Həqiqətən də mən çox şadam və məmnunam ki, ölkəniz bu cür inkişaf edib.

Cənab Prezident, biz bu gün çox səmərəli danışıqlar apardıq. Əlbəttə, kamera qarşısında demək istəyirəm ki, bizim ikitərəfli danışıqlarımızda da bütün məsələlər üzrə qarşılıqlı anlaşma hökm sürür, istər ikitərəfli, istər çoxtərəfli məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Pakistan və Azərbaycan iki qardaş xalqdır. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və ehtiram üzərində qurulub. Təyyarə Bakı hava limanına enərkən mən gördüm ki, orada Pakistan bayrağı dalğalanırdı, hətta hava limanından kənarda da. Nümayəndə heyətinin üzvü mənə dedi ki, cənab Baş nazir, baxın, kənarda belə Pakistan bayrağı dalğalanır. Bu, Azərbaycanda Pakistana olan münasibətdir və eyni dərəcədə Pakistan xalqı da Azərbaycan xalqını sevir, qardaş və bacı olaraq. Siz də uzaqgörən lider olaraq bu işə öz töhfənizi vermisiniz. Tam səmimi olaraq deyə bilərəm ki, əsrlər boyu davam edən bu münasibətlər çox güclüdür. Amma təəssüflər olsun ki, bu gün bizim ticarətimiz və sərmayə yatırımlarımız həmin o münasibətlər səviyyəsində deyil. Qarşılıqlı əməkdaşlıq sahəsində daha çox işlər görə bilərik və bilirəm ki, cənab Prezident,

Siz bunu artırmaq niyyətindəsiniz, biz də onun əzmindəyik. Cənab Prezidentlə bu gün görüşdə biz xüsusi sahələrdə bu münasibətləri daha da inkişaf etdirmək məsələsini müzakirə etdik.

Azərbaycan zəngin təbii sərvətlərə, o cümlədən böyük neft-qaz sərvətlərinə malikdir. Bizim, əlbəttə, bu sahədə sıxıntımız var. Biz çox bahalı idxala bağlı olan ölkəyik. Bu, bizim üçün çox baha başa gəlir. Ötən il biz bu sahəyə 27 milyard ABŞ dolları xərcləmişik. Yəni, əziz Qardaşım, biz bunun öhdəsindən gələ bilmirik, çünki müxtəlif çağırışlarla üz-üzəyik. İnflyasiya, idxal olunan neftin qiymətinin qalxması və Ukrayna münaqişəsi səbəbindən bizim ölkəmiz böyük təzyiqlə üz-üzədir. Təsəvvür edin, ona görə biz enerjiyə 27 milyard ABŞ dolları xərcləmişik. Maşallah, Azərbaycanın bu sərvəti var və biz Azərbaycanla, eyni zamanda, neft-kimya məhsulları sahəsində əməkdaşlıq etmək istəyirik. Biz Səudiyyə Ərəbistanının "Aramco" şirkəti ilə danışıqlar aparırıq və çox şad olarıq ki, Azərbaycan da bu məsələyə qoşulsun və bizim həmin bu sahəyə xərclədiyimiz pulun bir hissəsini sərmayə olaraq öz üzərinə götürsün. Bizim Günəş enerjisi sahəsində potensialımız var. Biz arzularımızı gərgin əmək sayəsində həyata keçirə bilsək, əziz Qardaşım, Sizi inandırıram ki, biz çox bahalı olan bu xərci, yəni, nefti idxal etmək məsələsini Günəş enerjisi vasitəsilə mübadilə edə bilərik. Biz hətta bu enerjini ixrac edə bilərik, bu, mümkündür. Çünki bizim bu sahədə potensialımız 10 min meqavata bərabərdir. Sizi də dəvət edirəm. Siz də bu məsələyə çox müsbət rəy verdiniz ki, bu sahədə də Azərbaycan iştirak edə bilər, sərmayə qoya bilər. Biz də hər cür dəstək göstərməyə hazırıq ki, Azərbaycan bu sahəyə daxil olsun.

Əlbəttə ki, Pakistan Azərbaycana düyü ixrac edən ölkədir. Mənim nümayəndəm buradadır, o da bu işdə çox intensiv çalışır ki, biz düyü ixracını artıra bilək. Sizə və Hökumətinizə təşəkkür edirəm, hər cür rüsumları aradan qaldırdınız ki, Pakistan düyüsü Azərbaycan bazarına maneəsiz ixrac edilsin. İnşallah, Pakistanın Basmati düyü brendi də Azərbaycanda supermarket şəbəkələrində təqdim olunacaq.

Nəqliyyat sahəsi, biz bu məsələni yenidən müzakirə edəcəyik. Eyni zamanda, biz turizm sahəsini də inkişaf etdirmək istəyirik. Mən çox məmnuniyyətlə qeyd edə bilərəm ki, "Azərbaycan Hava Yolları" – AZAL tezliklə Bakıdan İslamabada uçuşlara başlayacaq. Əlbəttə, "Pakistan Beynəlxalq Hava Yolları" da əməkdaşlıq edəcəkdir. Mənim bildiyimə görə, Kəraçi və Lahora da reyslər açıla bilər. Mən Azərbaycanın nəqliyyat nazirini də Pakistana səfərə dəvət edirəm ki, bu məsələləri müzakirə edək və bu sahədə turizmi inkişaf etdirək.

Bununla yanaşı, digər sahələr də var ki, biz orada daha sıx əməkdaşlıq edə bilərik. Sizi əmin edirəm ki, biz Sizinlə sıx şəkildə işləməyə hazırıq və bütün məqsədlərimizə nail ola bilərik.

Təşəkkür edirəm Sizə, cənab Prezident, Siz Kəşmir məsələsində hər zaman bizim bacı-qardaşlarımızın yanında olmusunuz. Son 70 ildən artıq bir dövrdə biz Hindistanın terror aktlarına, misilsiz zorakılığına məruz qalmışıq. Orada hər cür pozuntular baş veribdir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri hətta o dərəcədə kobud şəkildə pozulmuşdu ki, vaxtilə - ötən əsrin 50-ci illərində cənab Nehru öz parlamentində söz vermişdi ki, Hindistan öz vədlərinə əməl edəcəkdir. Amma təkcə o vəd deyil, ondan sonra bir sıra öhdəliklər tarixin zibilliyinə göndərilmişdir. Onların törətdiyi vəhşilik minlərlə kəşmirli bacı-qardaşımızın həyatına son qoymuşdur, onlar şəhid olmuşdur. Hətta iki-üç yaşlı uşaqlar belə qətlə yetirilmişdir. Hər gün həmin ərazidə mülki insanların cəsədlərini görmək mümkündür.

Cənab Prezident, Sizə mənəvi dəstəyə görə təşəkkür edirəm. Bu, bizim üçün çox dəyərlidir və bizi, kəşmirli bacı-qardaşlarımızı ruhlandırır ki, onlar özlərinin müqəddəratlarının təyin edilməsi məsələsinə də bir gün nail olacaqlar, İnşallah.

Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Biz Qarabağ üzərində Azərbaycanın hüququnu hər zaman birmənalı dəstəkləmişik. Sizin Ordunuz çox cəsarətlə döyüşərək Qarabağı azad etmişdir, ölkənizin ərazi bütövlüyünü bərpa etmişdir. Pakistan Azərbaycanı hər zaman dəstəkləmişdir. Bu, bizim qardaş olaraq vəzifəmiz, borcumuz idi və biz bunu həyata keçirdik.

Məmnunam ki, Ermənistanla sülh sazişi üzərində artıq danışıqlar gedir. Bildiyiniz kimi, Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayan bir neçə ölkədən biridir və bu, bizim mənəvi öhdəliyimizdir. Siz yalnız Ermənistanla sülh sazişini imzalayandan sonra bizə bir mesaj versəniz, bu məsələyə yenidən baxa bilərik. Bu məsələdə də biz birmənalı olaraq Azərbaycanı dəstəkləyirik.

Əziz Qardaşım, bizim çox böyük imkanlarımız var. Bu əməkdaşlıq nəticəsində idxal-ixracımız da çox kəskin şəkildə artacaqdır. Azərbaycan Pakistanla münasibətlərdə təbii olaraq çox mühüm rol oynaya bilər, əlbəttə ki, bizim qonşuluğumuzda Əfqanıstan və İran var. Hesab edirəm ki, Çin daha bir mühüm oyunçudur. Yəni, Pakistan bu baxımdan Azərbaycan və Türkiyə ilə birlikdə qardaş ölkə olaraq hərəkət edə bilər. Pakistan, Azərbaycan, Səudiyyə Ərəbistanı yenə də qardaş ölkələrdir. Pakistan, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri qardaş ölkələrdir. Pakistan, Azərbaycan, Qətər qardaş ölkələrdir. Yəni, baxın nə qədər böyük işlər görmək olar. Biz Pakistan olaraq səylərimizi bir balaca artırmalıyıq. Biz daha fəal, daha çox enerji ilə işləməliyik. Sizi əmin edirəm ki, biz bu məsələdə bir yerdə irəliləyəcəyik.



Biz müdafiə sənayesi sahəsində də tərəqqiyə nail ola bilərik. Heç şübhəm yoxdur ki, bizim əməkdaşlığımız bu sahədə də inkişaf edəcəkdir. Burada heç bir sirr yoxdur, biz heç nəyi gizlətmirik. Çünki nəticə etibarilə bu, regionda sülhün təmin edilməsinə xidmət edir, bu, təcavüz üçün istifadə edilmir. Biz öz hüquqlarımızı qoruyuruq. Biz bu regionda sülhü təşviq edirik ki, xalqlarımızın mənafelərini qoruya bilək. Biz bu sahədə də əməkdaşlığı səbirsizliklə gözləyirik. Sizin nümayəndə heyətinizi İslamabadda məmnuniyyətlə qəbul edəcəyəm ki, bu sahədə daha intensiv əlaqələr yaradıla bilsin. İqtisadiyyat, kommersiya, ticarət, aviasiya sahələrində də nümayəndə heyətinizi gözləyirik. Biz, eyni zamanda, enerji sahəsində də Sizin nümayəndə heyətinizi gözləyirik ki, bu sahəyə, neft, neft-kimya və Günəş enerjisi sahələrinə sərmayə cəlb edə bilək. Sizi əmin etmək istərdim ki, bu, ən şəffaf münasibətlər olacaq, proses sürətlə gedəcək, biz vaxt itirməyəcəyik və bütün bürokratik maneələri aradan qaldıracağıq. Biz bu məsələlərdə də sübut edəcəyik ki, budur iki qardaş ölkə, biz xalqlarımızın mənafeyi naminə birlikdə daha böyük nailiyyətlər əldə edə bilərik.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm, cənab Prezident, gözəl ölkənizdə olmağa şadam. Bu imkanı bizə yaratdığınız üçün Sizə bir daha təşəkkür edirəm. Mən şəxsən Sizin bütün nailiyyətlərinizin şahidi oldum, Sizin rəhbərliyinizlə bu ölkədə nə işlər görülüb, onu da öz gözlərimlə gördüm. Mən bu fürsətdən istifadə edərək, cənab Prezident, Sizi Pakistana səfərə dəvət edirəm. Mən artıq Xarici İşlər Nazirliyinə göstəriş vermişəm ki, tarixlərlə bağlı danışıqlar aparılsın və böyük məmnuniyyətlə Sizi İslamabadda görməyə şad olacağam, İnşallah. Diqqətinizə görə təşəkkür edirəm.



İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin şərəfinə rəsmi lanç verilib.

# Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub



Görüşdə, digər əhəmiyyətli məsələlərlə yanaşı, prokurorluq sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb, hər iki ölkənin aidiyyəti prokurorluq orqanları arasında sənədlərin imzalanmasının vacibliyi vurğulanıb.



Daha sonra, Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub.

“Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı”nı Litva Respublikasının Baş prokuroru xanım Nida Qrunskiene və Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev imzalayıb.

# Prokurorluq orqanları beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirir








Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsi ilə səmərəli əməkdaşlıq əlaqələri davam etdirilir.

Bu çərçivədə qeyd edilməlidir ki, ölkəmiz 2006-2010-cu illərdə OECD-nin I, 2010-2013-cü illərdə II, 2013-2016-cı illərdə III, 2016-2019-cu illərdə IV Monitorinq Mərhələlərini uğurla tamamlayaraq uyğunluq hesabatı əldə edib. Xüsusilə vurğulanmalıdır ki, monitorinqlər çərçivəsində milli qanunvericiliyin, həmçinin dövlət orqanlarının fəaliyyətində şəffaflığın və vətəndaşlara göstərilən xidmət meyarlarının beynəlxalq standartlar səviyyəsinə çatdırılması istiqamətində əhəmiyyətli dəyişikliklər edilib.

Uğurlu əməkdaşlığın təzahürü kimi ölkəmizin OECD tərəfindən növbəti V raund qiymətləndirilməsi prosesi çərçivəsində müvafiq müsahibələrin həyata keçirilməsi məqsədilə həmin qurumun Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin ekspertlərindən ibarət nümayəndə heyəti cari ilin 17-21 aprel tarixlərində Bakı şəhərində səfərdə olublar.

Səfərin məqsədi təşkilatın Anti-Korrupsiya Fəaliyyət Planı üzrə V dəyərləndirmə mərhələsi çərçivəsində Azərbaycanda bir sıra sahələrdə həyata keçirilən tədbirlərin beynəlxalq standartlara uyğunluğunun qiymətləndirilməsi olmuşdur.

Qurumun ekspertləri korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasəti, dövlət qulluqçularının fəa-



liyyətində maraqlar toqquşmasının qarşısının alınması, dövlət satınalmaları və biznes sektorunda dürüstlük standartlarının tətbiqi, prokurorluq və məhkəmə sistemində şəffaflıq, korrupsiya cinayətlərinin istintaqı, eləcə də cinayət yolu ilə əldə edilmiş gəlirlərin bərpası kimi bir çox sahələrdə görülmüş işlərlə tanış olmuşlar.

Müzakirələrdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Baş Prokurorluğunun struktur qurumları, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, həmçinin Azərbaycan Respublikası Milli Məclisi və Nazirlər Kabineti, Ədliyyə, Daxili İşlər, İqtisadiyyat, Maliyyə Nazirlikləri, Dövlət Təhlükəsizlik Xidməti də daxil olmaqla 20-dən artıq dövlət qurumunun əməkdaşları, müxtəlif instansiya məhkəmələrinin hakimləri, vətəndaş cəmiyyəti institutları, eləcə də paylarının nəzarət səhm zərfi dövlətə məxsus hüquqi şəxslərin nümayəndələri iştirak etmiş, ekspertlərin suallarını cavablandırmışlar.

Tədbirin ilk günü açılış nitqi ilə çıxış edən OECD üzrə Milli Koordinator - Baş Prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər barədə ətraflı məlumat verib, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini vurğulayaraq, OECD ilə uğurlu əməkdaşlığın nəticəsi kimi həmin təşkilatın tövsiyələri əsasında milli qanunvericilikdə mütərəqqi dəyişikliklər edilməsini ekspert heyətinin diqqətinə çatdırıb, habelə, hazırki dəyərləndirmənin milli qanunvericiliyin beynəlxalq standartlar əsasında qiymətləndirilərək təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Bundan sonra OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin sədri Draqo Kos və Ekspertlər Qrupunun rəhbəri Jolita Vasiliaskuayte Şəbəkənin hazırki fəaliyyəti haqqında ətraflı məlumat verib, ölkəmizdə həyata keçirilən anti-korrupsiya islahatları, hazırki dövrədək keçirilmiş qiymətləndirmə proseslərinə dair öz müsbət fikirlərini bölüşüb, daha sonra ölkəmizin OECD tərəfindən 5-ci raund çərçivəsində qiymətləndirilməsi prosesinə dair zəruri məsələlər üzrə çıxış edib.

Aprelin 21-də dəyərləndirmə mərhələsinin ölkə missiyasının yekunlaşması ilə əlaqədar olaraq ekspert qrupunun üzvləri ilə qurumun Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində ölkəmiz üzrə Milli Koordinator – Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilmişdir.

Görüş zamanı çıxış edən Baş prokuror Kamran Əliyev bir daha ölkəmizdə korrupsiya və oxşar neqativ hallara qarşı mübarizə ilə bağlı qəti siyasi iradənin mövcudluğunu vurğulamış və bu çərçivədə beynəlxalq tərəfdaşlığa yüksək önəm verilməsini qeyd etmişdir.

Bundan sonra Təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin meneceri xanım Olqa Savran dəyərləndirmə missiyasının yüksək səviyyədə təşkil edilməsini qeyd edərək ölkəmizlə təşkilat arasında uzun illərə dayanan əməkdaşlıq əlaqələrinin mövcudluğunu və bütövlükdə Azərbaycanın qurumun fəaliyyətinə mühüm töhfələr verməsini vurğulamışdır.

Daha sonra çıxış edən Ekspertlər Qrupunun rəhbəri xanım Jolita Vasiliaskuayte yaradılmış işgüzar şəraitə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmiş, səmərəli müzakirələr nəticəsində əldə edilmiş ilkin məlumatlara əsasən, ölkəmizdə korrupsiyaya qarşı mübarizənin bir çox istiqamətləri üzrə müsbət dinamikanın mövcud olması qənaətinə gəldiklərini bildirmişdir.

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir









Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraçı Direktoru Yanne Holst Hübner və Baş müşaviri, İngiltərə və Uelsin Baş prokurorunun müavini Şenaz Muzafferin rəhbərliyi ilə nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Aprelin 26-da keçirilmiş görüş zamanı Baş prokuror, BPA-nın vitse-prezidenti Kamran Əliyev qonaqlara ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında həyata keçirilmiş institusional və kadr islahatları barədə məlumat verməklə gənc hüquqşünasların işə qəbulu və onların peşəkar prokurorluq əməkdaşları kimi formalaşdırılmasının prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırıb.

Qonaqlar səmimi qəbula görə minnətdarlıq ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən Assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür ediblər.

2024-cü ildə ölkəmizin ev sahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfrans və Ümumi Yığıncağına hazırlıq məqsədilə yaradılmış yerli təşkilat komitəsinin fəaliyyəti ilə bağlı iclas keçirilib, bir sıra təşkilati məsələlər müzakirə edilib.

Daha sonra, BPA rəsmiləri təşkilatın üzvlüyünə yeni qəbul olunmuş gənc əməkdaşlarla görüş keçirməklə üzvlük vəsiqələrini təqdim ediblər.

Aprelin 28-də qonaqlar Füzuli və Şuşa şəhərlərinə səfər ediblər. Nümayəndə heyətinə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı sayəsində işğaldan azad edilmiş Füzuli və mədəniyyət paytaxtımız olan Şuşa şəhərində dövlət başçısının və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıqları ilə həyata keçirilən genişmiqyaslı təmir-bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verilib.









Qonaqlar ilk öncə Qarabağın hava qapısı hesab olunan sosial-iqtisadi əhəmiyyətə malik Füzuli Beynəlxalq Hava Limanı ilə yaxından tanış olmuş, onlara bütün müasir və beynəlxalq standartlara cavab verən aeroportda yaradılmış şərait barədə geniş məlumat verilib.

Nümayəndə heyətinin üzvləri yol boyu erməni işğalçıları tərəfindən Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri olmuş Füzulinin məqsədyönlü olaraq vəhşicəsinə viran edilmiş yaşayış məskənlərinin və infrastruktur obyektlərinin, insanlığı dəhşətə gətirən vandalizmin əyani şahidi olublar.

Şuşada qonaqlar Ümummilli Lider Heydər Əliyevin müdaxiləsi ilə qorunub saxlanmış görkəmli sənət xadimləri – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini ziyarət ediblər.

Cıdır düzünü ziyarət edən nümayəndə heyətinə heyrətamiz mənzərəyə malik ərazinin şuşalıların və Şuşaya gələn qonaqların ən sevimli məkanı, çövkən oyunları, Novruz və digər el şənliklərinin keçirildiyi seyrəngahı olduğu bildirilib.

Qonaqlar erməni vandalizminə məruz qalmış və işğal bitdikdən sonra ölkə başçısının rəhbərliyi ilə əvvəlki görkəmində tam bərpa edilmiş Vaqifin məqbərəsini, tarixi Qala divarlarını, Azərbaycan vokal sənətinin banisi Bülbülün ev muzeyini ziyarət ediblər.

Qısa vaxtda görülmüş genişmiqyaslı işlərin böyük təəssürat yaratdığı vurğulanıb.

Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri başa çatıb.






# Baş Prokurorluqda Akademik Zərifə Əliyevanın 100 illiyi ilə bağlı tədbir keçirilib







Azərbaycanın görkəmli alimi, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə aprelin 28-də Baş Prokurorluqda tədbir keçirilib.

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın xatirəsini dərin ehtiramla yad edib, məzarları önünə gül dəstələri qoyublar.

Açılış nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyəti və mənalı həyat yolundan bəhs edib, insanlara nur və həyat bəxş edən görkəmli alimin zəngin irsinin yeni elmi zirvələri inamla fəth edəcəyini vurğulayıb.







Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Aynur Osmanova Zərifə xanım Əliyevanın peşəkar oftalmoloq-həkim kimi fədakarlığından, tədqiqatları ilə tibb elminin inkişafına mühüm töhfələrindən və yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında əvəzsiz rolundan danışıb.

Tədbirin sonunda akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolundan bəhs edən “Elegiya” adlı sənədli filmə baxılıb.

# Baş prokuror Türkiyədə prokurorların İstanbul Konfransında iştirak edib









Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının 1-ci Pan-Avropa Regional konfransında iştirak etmək məqsədilə mayın 3-də İstanbul şəhərinə işgüzar səfərə gedib.

Ümumilikdə 32 dövlətin baş prokurorunun və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyi konfransı açıq elan edən Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin qonaqları salamlayaraq, konfransın işinə uğurlar arzu edib.

Bekir Şahin Assosiasiyanın 1-ci Pan-Avropa Konfransına hazırlıq çərçivəsində Azərbaycanın Baş Prokurorluğu tərəfindən göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Azərbaycanın Baş prokuroru, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyev tədbir iştirakçılarını salamlayaraq, qeyd olunan konfransın qardaş ölkədə və Türkiyənin yaranmasının 100 illik yubileyi ilində keçirilməsindən məmnunluq hiss etdiyini, tarixən xalqlarımız arasında qardaşlıq əlaqələrinin olmasını və bu əlaqələrin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" və Prezident İlham Əliyevin "bir yumruq" kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın sarsılmaz səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb.

Həmçinin ənənəvi olaraq Azərbaycan Baş Prokurorluğu ilə Beynəlxalq Prokurorlar Assosiasiyası arasında əməkdaşlığın uğurla davam etdirilməsini qeyd edən Baş prokuror, tədbirin dünya prokurorlarının peşəkar əlaqələrinin inkişaf etməsinə və cinayətkarlığın müasir təzahürləri ilə mübarizədə beynəlxalq təcrübənin formalaşmasına xidmət etdiyini bildirib.

Konfransın "Rəqəmsallaşma dövründə iqtisadi cinayətlərlə mübarizə" mövzusuna həsr edilmiş plenar sessiyasına sədrlik edən Kamran Əliyev çıxışında tədbirin keçirilməsinin müasir dövrün tələbləri baxımından zəruriliyini qeyd edib.

Plenar sessiyada Birləşmiş Krallıq, ABŞ, Almaniya və Avstriyadan olan nüfuzlu hüquqşünaslar təqdimatlar edərək cinayətkarların kriptovalyutalardan və digər müasir alətlərdən istifadəsi, həmçinin törədilmiş cinayətlərin qarşısının alınması istiqamətində faydalı fikir mübadiləsi aparılıb.

Həmçinin tədbirdə Baş prokurorun böyük köməkçisi İlqar Səfərov rəqəmsal sübutların toplanması zamanı baş verən qanunsuzluqlar və onların qarşısının alınması yolları barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Mayın 4-də nümayəndə heyəti tərəfindən Ulu Öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün Sarıyerdəki abidələri ziyarət edilərək, əziz xatirələri ehtiramla yad edilib.

Beynəlxalq konfransın bağlanış sessiyasında yekun nitqi ilə çıxış edən Baş prokuror Türkiyə tərəfinə yüksək qonaqpərvərliyə və peşəkar təşkilatçılığa görə təşəkkürünü





















ifadə edərək, 21-ci əsrdə rəqəmsal cinayətkarlıqla mübarizədə prokurorların beynəlxalq əməkdaşlığının vacib rolunu bir daha qeyd edib.

Elə həmin gün Kamran Əliyev türkiyəli həmkarı Bekir Şahinlə ikitərəfli görüş keçirib. Görüşdə 2021-ci ilin noyabrın 1-də Bakıda təsis edilmiş Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ikinci iclasının cari ilin noyabr ayında Ankara şəhərində təşkil olunması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Həmçinin, İstanbul şəhər Baş prokuroru Şaban Yılmazla keçirilən görüşdə cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Bundan başqa, nümayəndə heyətimiz Səudiyyə Ərəbistanı, Mərakeş, Tayland, Gürcüstan, Bəhreyn, Avstriya, Bolqarıstan və digər xarici həmkarları və beynəxalq təşkilatların nümayəndələri ilə görüşərək əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Səfər çərçivəsində “Baykar” zavodunu ziyarət edən Baş prokuror şirkətin rəhbəri Səlcuq Bayraktarla görüşüb. Kamran Əliyev Azərbaycan Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsi zamanı düşmən texnikasının məhv edilməsində şirkətin istehsal etdiyi məhsulların xüsusi rolunu vurğulayaraq Türkiyənin müdafiə sənayesinin çox böyük nailiyyətlər əldə etdiyini qeyd edib.

Nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri başa çatıb.

# Baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub



Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun rəhbərlik etdiyi nümayəndə heyəti 29 may - 1 iyun 2023-cü il tarixlərində ölkəmizdə işgüzar səfərdə olub.

Nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının xatirəsini anıblar.

Baş Prokurorluqda keçirilmiş ikitərəfli görüşdə Baş prokuror Kamran Əliyev tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, dövlət başçılarının apardıqları uzaqgörən xarici siyasət nəticəsində ölkələrimiz arasında əlaqələrinin etibarlı əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və tərəfdaşlıq prinsipinə əsaslandığını vurğulayıb.







Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkəmizdə hüquq qaydasının möhkəmləndirilməsi və qanunun aliliyinin təmin olunması istiqamətində aparılan islahatlar barədə həmkarına məlumat verib.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmon göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan və Tacikistan prokurorluqları arasında münasibətlərin müsbət dinamikasını vurğulayaraq bu əlaqələrin gələcəkdə də inkişaf etdirilməsinin zəruriliyindən və perspektivlərindən danışıb.

Kamran Əliyev rəşadətli ordumuzun qələbə qazandığı 44 günlük Vətən müharibəsi dövründə dost Tacikistanın ölkəmizə mənəvi dəstəyinə görə təşəkkürünü bildirərək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda həmkarını məlumatlandırıb.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında müzakirələr aparılıb.

Bundan başqa, nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binasında prokurorluğun struktur qurumlarının rəhbərləri ilə görüş keçirib. Qonaqlara ölkəmizin prokurorluq orqanlarının fəaliyyəti haqda geniş məlumat verilib.

Nümayəndə heyəti həmçinin, Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən eksponatlar ilə tanış olub, onlara Mərkəzdə nümayiş olunan Salvador Dalinin əsərlərindən ibarət “Sürrealizm mənəm” və avtomobil kolleksiyası sərgisi barədə məlumat verilib.

Daha sonra qonaqlar "İçərişəhər" Muzey Mərkəzinin tərkibində fəaliyyət göstərən Şirvanşahlar Sarayı Kompleksi və Qız Qalası, həmçinin UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş digər tarixi-memarlıq abidələri ilə tanış olublar.

Həmçinin, qonaqlar paytaxtımızda keçirilən Formula 1 Azərbaycan Qran-Prisini izləyiblər.

Tacikistan Baş prokurorunun ölkəmizə işgüzar səfəri başa çatıb.






# Baş prokuror AŞPA-nın həmməruzəçiləri ilə görüşüb



İyunun 5-də Baş prokuror ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və Liz Kristofersen ilə görüşüb.

Qonaqları salamlayan Kamran Əliyev Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində Avropa Şurasının qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu qeyd edib. Baş prokuror dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, o cümlədən 2020-ci ilin iyununda təsdiq olunmuş yeni strukturda yer almış cinayət təqibindən kənar icraatlar, əmlakların bərpası və xidməti araşdırmalar üzrə fəaliyyət istiqamətləri barədə qonaqları məlumatlandırıb.




Ölkəmizə səfərlərindən məmnunluqlarını ifadə edən AŞPA-nın həmməruzəçiləri Azərbaycanın hüquq sistemində aparılan islahatları müsbət qiymətləndirdiklərini vurğulayaraq, Avropa Şurası ilə ölkəmizin müvafiq qurumları ilə əlaqələrin inkişafında və qarşılıqlı əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Tərəflər arasında Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının icra vəziyyəti müzakirə edilərək, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

Görüşdə Avropa Şurasının Bakı Ofisinin rəhbəri Petr Zix və Milli Məclisin deputatı Kamal Cəfərov iştirak ediblər.



# Baş prokuror Litvanın Xüsusi İstintaq Komitəsinin nümayəndə heyəti ilə görüşüb



İyunun 7-də Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində reallaşdırılan "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi üzrə ölkəmizdə işgüzar səfərdə olan Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri vəzifəsini icra edən Yovitas Razkeviçiusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror dövlət başçısı cənab İlham Əliyevin bu ilin may ayında Litvaya rəsmi səfəri zamanı baş prokurorluqlar arasında imzalanmış 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramının gələcəkdə iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın davam etdirilməsi üçün geniş imkanlar yaratdığını bildirib. Həmçinin, "Tvinninq" layihəsi çərçivəsində cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası sahəsində həyata keçirilən tədbirlərin müsbət nəticələr verdiyi bildirilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Yovitas Razkeviçius Litva Respublikası tərəfindən Azərbaycanla əlaqələrə böyük önəm verildiyini və münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.






# Baş prokuror Kamran Əliyev Sankt-Peterburq şəhərində işgüzar səfərdə olub









Rusiyanın Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Sankt-Peterburq şəhərinə işgüzar səfərə gedib.

Nümayəndə heyəti Qoroxovaya küçəsi, 6 ünvanında yerləşən binanın qarşısına gəliblər. Azərbaycan xalqının böyük oğlu, Ulu öndər Heydər Əliyevin 1949-1950-ci illərdə təhsil aldığı SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin Ali Məktəbinin binası qarşısında Ümummilli Lider Heydər Əliyevin barelyefi ziyarət olunub, dahi rəhbərin əziz xatirəsini yad edilib.

İyunun 15-də Baş prokuror Kamran Əliyev ilə Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında ikitərəfli görüş keçirilib.

Görüş zamanı Kamran Əliyev rusiyalı həmkarına səfərə dəvətə görə təşəkkürünü bildirib. Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər,





Bundan başqa, üçtərəfli formatın səmərəliliyi qeyd edilməklə regionda qanunun aliliyinin və hüquq qaydasının möhkəmləndirilməsi məqsədilə tərəflərin gördüyü işlər müsbət dəyərləndirilib.

Kamran Əliyev Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirərək mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının, eyni zamanda ətraf mühitin qorunmasında əhəmiyyətini diqqətə çatdırılmaqla bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi qeyd edib.





biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyi və milli iqtisadiyyatın sürətli inkişafı barədə məlumat verib.

Rusiyanın Baş prokuroru bu ilin sentyabr ayında Bakıda keçiriləcək Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Baş prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclasına dəvətə görə təşəkkürünü bildirərək tədbirin yüksək səviyyədə təşkil olunacağına dair əminliyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Baş prokurorlar Azərbaycan Respublikasının Baş Prokurorluğu və Rusiya Federasiyasının Baş Prokurorluğu arasında 2024-2025-ci illəri əhatə edən Əməkdaşlıq Proqramını imzalayıblar.

Həmçinin, bu gün Azərbaycan, Rusiya və Ermənistanın baş prokurorları arasında 2021-ci ildən etibarən sayca 5-ci üçtərəfli görüş keçirilib.

Rusiyanın Baş prokuroru İqor Krasnov həmkarlarına Azərbaycan və Erməni xalqlarının ümumi rifahı naminə regionda sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür edib.

Baş prokuror bu ilin aprel ayında Naxçıvanda hərbi qulluq keçən iki əsgərimizin əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən itkin düşərək Ermənistanın hərbçiləri tərəfindən əsir götürüldüyünü, onlara qarşı saxta sübutlarla cinayət təqibi aparıldığını, habelə iyunun 15-də Ermənistanın silahlı qüvvələri tərəfindən terror-təxribat-provokasiya əməllərini növbəti dəfə davam etdirilməklə müxtəlif çaplı odlu silahlardan ölkəmizin suveren ərazisi olan Laçın-Xankəndi avtomobil yolunun başlanğıcında yerləşən “Laçın” Sərhəd Nəzarəti məntəqəsinə dislokasiya olunmuş və ərazidə xidmət göstərən DSX-nın hərbi qulluqçularına atəşlərin açıldığını, nəticədə 1 nəfər hərbi qulluqçumuzun yaralandığını diqqətə çatdıraraq, bu kimi təxribat xarakterli addımların bölgədə sülhün bərqərar olunmasına maneə olduğunu bildirib.

Görüşdə Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilməklə gələcəkdə gərginliyə səbəb ola biləcək halların qarşısının alınması üçün preventiv tədbirlərin gücləndirilməsi ilə bağlı əldə olunan razılaşmanı bir daha dəstəkləyiblər.

# Laçın şəhərində rayon prokurorluğunun inzibati binası istifadəyə verilib

***Baş prokuror:* Laçın şəhərində rayon prokurorluğunun inzibati binasının açılışı prokurorluq orqanlarının tarixində mühüm gündür.**

***Kamran Əliyev:* İşğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanları digər qurumlarla əlaqəli şəkildə fəaliyyətini bundan sonra da yüksək səviyyədə yerinə yetirəcək.**






İyunun 22-də işğaldan azad edilmiş Laçın şəhərində rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.

Açılış mərasimində Baş prokuror Kamran Əliyev, Baş prokurorluğun rəhbər heyəti, eləcə də prokurorluğun veteranları iştirak edib.





Tədbirdən öncə mərasim iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun unudulmaz xatirəsini dərin ehtiramla yad edib.

Tədbir iştirakçılarına məlumat verilib ki, inzibati binada prokuror, prokuror köməkçiləri və müstəntiqlər üçün otaqlar, dəftərxana və arxiv yaradılıb.

Qeyd edilib ki, bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.



Laçın rayon prokurorluğunun yeni inzibati binasında yaradılan şəraitlə tanış olan Baş prokuror kollektivə uğurlar arzu edib.

Baş Prokuror bildirib ki, Laçın rayon prokurorluğunun Laçın şəhərində inzibati binasının açılışı prokurorluq orqanlarının tarixində mühüm günlərdən biri olmaqla, prokurorluq işçisi kimi hər kəsi sevindirir və prokurorluq orqanlarının tarixinə qızıl hərflərlə yazılacaq.



Qeyd olunub ki, inzibati binasının açılışı edilən ilk dövlət orqanlarından biri olması, prokurorluq orqanlarının fəaliyyəti üçün yaradılmış yüksək şərait prokurorluq



orqanlarının dövlət orqanları sistemində yüksək yerini göstərməklə, həm də dövlət başçısı tərəfindən prokurorluğa göstərilən etimad və qayğının sübutudur.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanlarının ənənəvi tarixi fəaliyyəti, ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasətə sadiqliyi və bu siyasətin həyata keçirilməsinə yüksək dəstəyi əminlik yaradır ki, prokurorluq orqanları işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Laçın rayonunda hüquq qaydasının təmin edilməsi və möhkəmləndirilməsi, insan və vətəndaşların hüquq və azadlıqlarının qorunması, cinayətkarlıqla mübarizə üzrə digər orqanlarla əlaqəli şəkildə fəaliyyətini bundan sonra da yüksək səviyyədə yerinə yetirməklə, göstərilən etimadı daha da yüksək səviyyədə doğrultmağa, qarşıya qoyulmuş vəzifələrin öhdəsindən tam şəkildə gəlməyə davam edəcək.



Prokurorluq əməkdaşlarının xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq ifadə olunub.

Xatirə fotoşəkli çəkilib.

**“Bu gün Laçın rayon prokurorluğunun açılışını etdik.
Hesab edirəm ki, bu prokurorluğun tarixində çox mühüm hadisədir”.**

Bu barədə Laçında jurnalistlərə müsahibəsində Baş prokuror Kamran Əliyev deyib.

K.Əliyev bildirib ki, prokurorluq orqanları Laçında daha əvvəl də, rayon işğaldan azad olunduqdan sonra da fəaliyyət göstərirdilər.

"Amma bu gün Laçın rayon prokurorluğu tam heyətlə yeni binada fəaliyyətinə davam edəcək" – deyə K.Əliyev əlavə edib.

Laçında həm Hərbi Prokurorluq, həm də mülki prokurorluq orqanları fəaliyyət göstərir.

"Artıq Laçında mülki əhalinin saynın çox olması və eyni zamanda günü gündən artması, quruculuq işlərinin aparılmasında mülki şəxslərin iştirakı burada prokurorluğun fəaliyyətini zəruri edir" – deyə o, əlavə edib.





Təəssüf ki, qonşularımız öz təxribatçı fəaliyyətini dayandırmır və yenə də davam etdirirlər.

Bu barədə Laçında jurnalistlərə müsahibəsində Baş prokuror Kamran Əliyev deyib.

"May ayının 26-da iki erməni hərbçisinin bizim sərhədi pozaraq silahlanmış şəkildə təxribat törətmək məqsədilə ölkə ərazisinə keçmələri və bizim hərbçilər tərəfindən onların qanunsuz fəaliyyətinin qarşısının alınması, digər tərəfdən iyunun 15-də yenə də Azərbaycan sərhəd xidmətinin əməkdaşlarına heç bir əsas olmadan yenidən təxribat törədilməsi bizim bir daha diqqətli olmamızı zəruri edir" – deyə Baş Prokuror bildirib.

Prokurorluq öz tarixi ənənələrinə malik olan bir orqandır. Bu ənənələrin təbii ki, yaşlı nəsildən gənc nəslə verilməsi böyük əhəmiyyət kəsb edir. Ona görə də bu gün bizim tədbirdə həm veteranlarımız, həm də gənclər iştirak edirdilər. Bizim gənclər qürürvercidir ki, kifayət qədər savadlı, peşəkar vətənpərvərdirlər. Onlar prokurorluq orqanlarının gələcəyi deməkdirlər.

Bu barədə Laçında jurnalistlərə müsahibəsində Baş prokuror Kamran Əliyev deyib.

K.Əliyev bildirib ki, prokurorluq orqanları, dövlət qurumları, Müdafiə Nazirliyi, daxili qoşunlar, sərhəd qoşunları və digərləri ilə birlikdə qayda-qanunların möhkəmləndirilməsi, stabilliyin təmin edilməsi istiqamətində üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir.



# Baş prokuror Laçın şəhərində əməliyyat müşavirəsi keçirib

***Baş prokuror:*** **Laçın şəhəri Azərbaycan Respublikasına təhvil verilərkən Ermənistan Respublikasının aidiyyəti dövlət orqanlarının tapşırığı və xüsusi dəstəyi ilə evlər yararsız vəziyyətə salınıb.**

İyunun 22-də Baş prokuror Kamran Əliyev işğaldan azad edilmiş Laçın şəhərində Baş Prokurorluğun rəhbərliyinin, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov və işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən tabe rayon və ərazi hərbi prokurorlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Müşavirədə açılış nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev zəruri tapşırıq və göstərişlərini verib.

Baş Prokuror bildirib ki, Laçın şəhəri işğal edildikdən sonra 26 avqust 2022-










ci il tarixdə Azərbaycan Respublikasının nəzarətinə verilənədək Ermənistan Respublikasının aidiyyəti dövlət orqanları və orada qanunsuz məskunlaşdırılmış erməni milliyyətindən olan şəxslər tərəfindən həmin şəhərdə yerləşən istismara yararlı vəziyyətdə olmuş 2020 fərdi yaşayış evindən 1511-i qəsdən tamamilə dağıdılıb məhv edilmiş və istismara yararsız vəziyyətə salınıb.

Qeyd olunub ki, 27 ümumi yaşayış binasından 19-u qəsdən tamamilə dağıdılaraq məhv edilməklə, istismara yararsız vəziyyətə salınmış, 8-nə isə müxtəlif həcmli zərər vurulmuşdur. Ümu-



milikdə 190 inzibati binadan 143-ü qəsdən tamamilə dağıdılaraq məhv edilməklə, istismara yararsız vəziyyətə salınmış, 47-nə isə müxtəlif həcmli zərər vurulub.

Vurğulanıb ki, işğal müddətində Laçın şəhərində yerləşən, Azərbaycan Respublikasının vətəndaşlarına məxsus 509 fərdi yaşayış evlərində yaşamış erməni milliyətindən olan şəxslər tərəfindən 2022-ci ilin avqust ayında Laçın şəhəri Azərbaycan Respublikasına



təhvil verilərkən Ermənistan Respublikasının aidiyyəti dövlət orqanlarının tapşırığı və xüsusi dəstəyi ilə həmin evlərin divarları, tavanları, döşəmələri, dam örtükləri, qapı və pəncərələri qəsdən sökülərək, habelə yanğınlar törədilərək həmin evlərə müxtəlif həcmli ziyan vurulmuş, istifadə üçün yararsız vəziyyətə salınıb, eyni əməllər Laçın rayonunun kəndlərində də törədilib.

Qeyd edilən faktlar Baş Prokurorluğun İstintaq idarəsində istintaqı aparılan cinayət işi üzrə mötəbər sübutlarla müəyyən edilib.

Baş prokuror bildirib ki, torpaqlarımızın işğaldan azad edilməsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinə başlanmış, bir sıra beynəlxalq əhəmiyyətli layihələrə start verilmiş, o cümlədən ağıllı şəhər və kəndlərin inşasına başlanmış, enerji infrastrukturu qurulmuş, Zəngilan, Füzuli və Laçın rayonlarında beynəlxalq aeroportların tikintisinə başlanılmış, bunlardan Füzuli və Zəngilan aeroportlarının tikintisi başa çatdırılaraq açılışları edilmiş, Laçın aeroportunun isə qısa müddətdə açılışı nəzərdə tutulur.

***Baş prokuror:*** **İşğaldan azad olunmuş ərazilərə səfər edərkən aparılan quruculuq işlərinin miqyasının necə böyük olmasının şahidi olmamaq mümkün deyil.**

***Baş prokuror:*** **Ölkə başçısının bilavasitə rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə reallaşan layihələr "Böyük Qayıdış"ın əsasını qoyub.**

Qeyd olunub ki, işğaldan azad edilmiş bütün ərazilərdə davam edən sürətli tikinti-quruculuq işləri Laçın rayonundan da yan keçməmişdir. Şanlı qələbə nəticəsində azadlığa qovuşmuş digər ərazilərdə olduğu kimi, Laçın rayonuna da həyat yenidən qayıtmış, sürətli quruculuq-bərpa işlərinə başlanmışdır. Laçın şəhəri qısa müddətdə işğaldan əvvəlki görkəmindən daha yaxşı görkəmə qayıtmağa başlamışdır. Burada Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər yüksək zövq və keyfiyyətlə icra edilir. Bu ərazilərə səfər edərkən aparılan quruculuq işlərinin miqyasının necə böyük olmasının şahidi olmamaq mümkün deyil.

Vurğulanıb ki, Ölkə Prezidenti cənab İlham Əliyevin dəfələrlə Laçın rayonuna, o cümlədən Laçın şəhərinə səfər etməsi, aparılan bərpa-quruculuq işləri ilə əyani tanış olması, bu bölgənin ölkəmiz üçün böyük önəmini göstərir.

# Baş Prokurorluqda "Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması" mövzusunda beynəlxalq konfrans keçirilib












İyunun 23-də Azərbaycan Respublikası Baş Prokurorluğunun və İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının birgə təşkilatçılığı ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında "Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması" mövzusunda beynəlxalq konfrans təşkil edilib.

Konfransda Baş prokuror Kamran Əliyev, İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva və Milli Məclisin İnsan hüquqları Komitəsinin sədri Zahid Oruc, KOBİA-nın sədri Orxan Məmmədov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, Baş Prokurorluq, məhkəmə, hüquq-mühafizə orqanları, insan hüquqları üzrə təsisatların yüksək vəzifəli şəxsləri, beynəlxalq təşkilatların, biznes qurumlarının, vətəndaş cəmiyyəti, həmkarlar ittifaqları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri iştirak ediblər.

Konfransda giriş nitqi ilə Kamran Əliyev çıxış edib.

# "Dövlət qulluqçularının peşə bayramı" münasibətilə Baş Prokurorluqda tədbir keçirilib




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli Sərəncamı ilə iyunun 23-ü Azərbaycan Respublikasında Dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Baş Prokurorluğunda Baş prokurorun rəhbərliyi ilə prokurorluğun dövlət qulluqçuları və veteran dövlət qulluqçularının iştirakı ilə tədbir keçirilmişdir.

Tədbirdə Baş prokuror tərəfindən peşə bayramı ilə əlaqədar müvafiq əmrlə təltif edilmiş dövlət qulluqçularına və veteranlara hədiyyələr təqdim edilmişdir. Müzəffər Ali Baş Komandan tərəfindən dövlət qulluqçularına göstərilən xüsusi diqqət və qayğıya, həmçinin Möhtərəm Prezidentin dövlət qulluqçularının fəaliyyətində müəyyən etdiyi prinsiplərə toxunulmuşdur. Dövlət qulluqçuları və veteranlar göstərilən diqqət və qayğı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirib.









# Baş Prokurorluq tərəfindən "Özəl sektorda anti-korrupsiya standartları" mövzusuna həsr olunmuş kitab hazırlanıb













Bu barədə Baş prokuror Kamran Əliyev iyunun 23-də "Biznes və insan hüquqları konteksində şəffaflığın təmin olunması" mövzusunda keçirilən konfransda çıxışı zamanı məlumat verib.

K.Əliyev bildirib ki, kitab Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanıb.

Bildirilib ki, "Qeyd olunan vəsait milli qanunvericilik beynəlxalq hüquq normaları ilə müqayisəli şəkildə təhlil edilərək və bir sıra beynəlxalq təcrübələrdən faydalanaraq hazırlanıb".



# Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbələri buraxılış işlərini müdafiə edib



















Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə qurumun inzibati binasında cari ilin 19-23 iyun tarixlərində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının tələbələrinin buraxılış işlərinin müdafiəsi keçirilmişdir.

Təqdim edilmiş buraxılış işlərinin əksəriyyəti yüksək qiymətləndirilmiş və tələbələrin müdafiəsi müvəffəqiyyətlə başa çatmışdır.

Müdafiə prosesində Hüquq fakültəsinin Yekun Dövlət Attestasiya Komissiyasının sədri, Baş prokuror, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyevlə yanaşı, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, komissiyanın sədr müavini Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev, kafedra müdirləri və Hüquq klinikasının rəhbəri iştirak edib.

Buraxılış işlərini müdafiə etmiş tələbələri təbrik edir, onlara uğurlar arzulayırıq!

# Baş prokuror bölgələrdə vətəndaşları qəbul etmişdir

**Ağcabədi**

Aprelin 7-si Baş prokuror Kamran Əliyev Ağcabədi rayon prokurorluğunun inzibati binasında Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Xocavənd və Laçın həmçinin, digər rayonlardan olan vətəndaşları qəbul edib.







Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 46 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət







işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

**Yevlax**

Mayın 18-də Baş prokuror Kamran Əliyev Yevlax rayon prokurorluğunun inzibati binasında Yevlax, Bərdə, Tərtər, Goranboy, Xocalı

rayon, Mingəçevir və Naftalan şəhər sakinləri həmçinin, digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.
















Qəbulda iştirak edən 81 nəfər vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

## Astara

İyunun 2-si Baş prokuror Kamran Əliyev Astara rayon prokurorluğunun inzibati binasında Astara, Masallı, Yardımlı, Lənkəran və Lerik rayonlarından olan vətəndaşları qəbul edib.
















Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 31 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

## Hacıqabul

İyunun 9-u Baş prokuror Kamran Əliyev Hacıqabul rayon prokurorluğunun inzibati binasında

Hacıqabul, Salyan rayon və Şirvan şəhərindən, eləcə də digər rayonlardan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.
















Qəbulda iştirak edən 23 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

***

**Qəbullardan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.**

**Həmçinin, Baş prokuror Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı əsasında yaradılan və Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.**

# Zaqatala rayon prokurorluğuna press-tur təşkil edilib



Aprelin 4-də Zaqatalada Baş Prokurorluq tərəfindən konfrans təşkil edilib.

Tədbir çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə Zaqatala rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub.









İnzibati binanın infrastrukturu barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Sonda xatirə fotoşəkli çəkilib.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində hərbi qulluqçular üçün təlim keçirilib




Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən aprelin 6 və 7-də hərbi qulluqçular üçün "Korrupsiyaya qarşı mübarizə sahəsində milli mübarizə strategiyası" mövzusunda onlayn formada təlim keçirilib.




Təlimə dinləyici qismində hərbi prokurorluqlarda xidmət edən hərbi qulluqçular cəlb edilib.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Respublika Hərbi Prokurorluğu və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşlarının təlimçi kimi iştirak etdiyi tədbirdə dinləyicilərə "Heydər Əliyev və ordu quruculuğu", "Korrupsiyaya qarşı mübarizə sahəsində milli mübarizə strategiyası: Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planının məqsədləri və hədəfləri", "Korrupsiya ilə əlaqədar hüquqpozmalar və məsuliyyət" və digər mövzular üzrə mühazirələr deyilmiş, iştirakçıları maraqlandırılan suallar cavablandırmaqla müzakirələr aparılmışdır.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq işçiləri üçün “Maliyyə istintaqının taktikası və metodikası” mövzusu üzrə təlim keçirilib

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin birgə təşkilatçılığı ilə cari ilin aprelin 13-14-də prokurorluq işçiləri üçün “Maliyyə istintaqının taktikası və metodikası” mövzusunda hibrid formatda təlim keçirilib.











Tədbirdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin əməkdaşları, habelə “Avropa Qonşuluq Aləti” çərçivəsində həyata keçirilən “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı “Twinning” layihəsinin daimi məsləhətçisi təlimçi qismində iştirak edərək, maliyyə istintaqının taktikası və metodikasının əsasları sahəsində yerli və beynəlxalq təcrübəni dinləyicilərin diqqətinə çatdırıb.

Ümumilikdə 88 prokuroruq əməkdaşının dinləyici qismində iştirak etdiyi təlim zamanı “Paralel maliyyə istintaqı”, “Açıq mənbəli kəşfiyyat üsulları (OSINT)”, “Maliyyə istintaqının taktikası və metodikası”, “Xarici ölkələrin təcrübəsi və ölkədaxili qarşılıqlı əməkdaşlıq”, “Maliyyə istintaqı sahəsində xarici ölkələrin təcrübəsi”, “Maliyyə istintaqı sahəsində Litva Respublikasının təcrübəsi”, “Maliyyə təhlilinin aparılması qaydaları və məqsədləri: taktiki əsaslar və şərtlər” kimi yeni və aktual mövzular tədris edilib.

# Sabirabad rayon prokurorluğuna press-tur təşkil edilib







Aprelin 18-də Sabirabadda Baş Prokurorluq tərəfindən növbəti konfrans təşkil edilib.

Konfrans çərçivəsində media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə Sabirabad rayon prokurorluğunun inzibati binasına press-tur təşkil olunub.

İnzibati binanın infrastrukturu barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olublar.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

Sonda xatirə fotoşəkli çəkilib.



# Baş Prokurorluqda “Etik davranış qaydalarının tətbiqi əsasları və xüsusiyyətləri” mövzusunda təlimlər davam etdirilir

Prokurorluq orqanlarında etik davranış qaydaları və sosial şəbəkələrdən istifadə zamanı peşəkar davranışa riayət olunmasına hər zaman böyük önəm verilir.





Bu səbəbdən 2023-cü ilin mart və aprel aylarında Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə ümumilikdə 443 nəfər prokurorluq işçisi üçün hibrid formada “Etik davranış qaydalarının tətbiqi əsasları və xüsusiyyətləri” mövzusunda növbəti treninqlər keçirilmişdir.









Treninq zamanı Ulu öndər Heydər Əliyevin ölkəmizdə etik davranış qaydalarının formalaşmasında əvəzolunmaz rolu barədə ətraflı məlumat verilmiş, milli qanunvericilikdə etik davranış qaydalarına olan tələblər müzakirə edilmiş, yeni Etik Davranış Kodeksinin müddəaları şərh edilmiş, prokurorluq işçisinin sosial media sahəsində etik davranış xüsusiyyətləri diqqətə çatdırılmış, eləcə də etik davranış qaydaları üzrə beynəlxalq norma və tələblər tədris edilmişdir.

# Prokurorluq əməkdaşları Mir Cəlal Paşayevin İçəri şəhərdə yaşadığı evi ziyarət ediblər



Aprelin 27-də prokurorluq əməkdaşları görkəmli yazıçı, pedaqoq, Əməkdar elm xadimi, professor Mir Cəlal Paşayevin 115 illik yubileyi ilə əlaqədar yazıçının vaxtilə İçərişəhərdə yaşadığı – "Ədibin Evi" mədəniyyət ocağını ziyarət ediblər.

"Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva prokurorluq əməkdaşlarına XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Bildirib ki, "Ədibin evi" yazıçının 1929-1941-ci illərdə İçərişəhərdə yaşadığı məkanda yaradılıb və 2017-ci ildən etibarən mədəniyyət ocağı kimi istifadəyə verilib.



Yazıçının "Bir gəncin manifesti", "Dirilən adam", "Füzuli sənətkarlığı" kimi əsərlərinin, həmçinin bir çox məşhur hekayələrinin bu evdə qələmə alındığı diqqətə çatdırılıb.

Ekskursiya çərçivəsində prokurorluq əməkdaşları Mir Cəlal Paşayevə aid şəxsi əşyalar və onun haqqında yazılmış kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.



## Prokurorluq əməkdaşları "Bakı Marafonu - 2023"də iştirak edib




Mayın 8-i prokurorluq əməkdaşları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş və Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu - 2023"də iştirak edib.

2016-cı ildən təşkil olunan və "Küləyə qalib gəl" şüarı altında keçirilən sayca 6-cı Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır.

## "Uşaqlara korrupsiya haqqında" adlı maarifləndirici görüş təşkil edilib

Mayın 8-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ilə birgə "Uşaqlara korrupsiya haqqında" adlı maarifləndirici görüş təşkil edilmişdir.



"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası məqsədilə keçirilən görüşdə Bakı şəhəri Səbail rayonu 49 saylı orta məktəbin 8-11-ci sinif şagirdləri iştirak etmişdir.

Görüşdə Baş İdarənin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamilli təlimçi qismində iştirak etmişdir.

Dialoq formatında baş tutan tədbirdə məktəblilərin bilik səviyyəsinə uyğun olaraq korrupsiyanın mahiyyəti, anlayışı, korrupsiyaya gətirib çıxaran amillər barədə danışılmış, şəffaflığın təmin olunması istiqmətində aparıcı elektron hökumət resursları barədə məlumatlar verilib, təhsildə korrupsiyaya qarşı mübarizə vasitələrindən söhbət açılmışdır.

# Vaşinqton Hüquq Kollecinin professorları Baş Prokurorluqda olub




"ADA" Universiteti və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında imzalanmış birgə əməkdaşlıq haqqında memorandumu üzrə tədbirlər uğurla davam etdirilir.

Tədbirlərin davamı olaraq, mayın 17-si "ADA" Universitetinin Hüquq fakültəsinin dekanı Rəşad İbadov, ABŞ-nin nüfuzlu universitetlərindən olan Vaşinqton Hüquq Kollecinin "Beynəlxalq Hüquq Araşdırmaları Proqramı"nın rəhbəri (ILSP), professor Padideh Ala'i, həmçinin Universitetin "Xarici və Beynəlxalq Proqramlar"ının rəhbəri, professor Melanija Radnovic Baş Prokurorluğun inzibati bina kompleksində olub.









Qonaqlar Baş Prokurorluğun inzibati bina kompleksi, o cümlədən Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya, mühazirə, praktiki məşğələlər və iclas zalları, kitabxana, kriminalistika və istintaq otaqları ilə tanış olub, onlara icbari təlimə cəlb olunmuş prokurorluq əməkdaşlarının tədris prosesi əyani olaraq nümayiş etdirilib.



Daha sonra qonaqlara prokurorluğun fəaliyyət istiqamətləri, cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən metodlar, bu sahədə ölkəmizdə əldə edilmiş müsbət təcrübə barədə ətraflı məlumat verilib.

Nümayəndə heyətinin üzvləri prokurorluq orqanlarında yaradılmış şərait və görülən işləri yüksək qiymətləndirib.

Görüşdə səmərəli fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı qonaqları maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə fotoşəkli çəkdirilib.

# Baş Prokurorluqda “Cinayət təqibi zamanı uşaq hüquqlarının üstün mühafizəsi prinsipi” mövzusu üzrə təlim keçirilib









Mayın 18 və 19-da Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən prokurorluq və daxili işlər orqanlarında müstəntiq vəzifəsində xidmət edən əməkdaşlar üçün “Cinayət təqibi zamanı uşaq hüquqlarının üstün mühafizəsi prinsipi” mövzusunda təlim keçirilib.

Tədris prosesinə Baş Prokurorluğun təcrübəli işçiləri ilə yanaşı, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının, Bakı şəhər Baş Polis İdarəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və “Təmiz Dünya” qadınlara yardım ictimai birliyinin məsul əməkdaşları təlimçi qismində cəlb edilib.

Təlim zamanı dinləyicilərə “Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti”, “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”, “Yetkinlik yaşına çatmayan şəxslərin cinayət törətməsinə təsir edən bioloji və sosial amillər”, “Yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin xüsusiyyətləri, cinayət prosesində onların hüquqlarının qorunmasının prosessual təminatları”, “Yetkinlik yaşına çatmayanların cinayətləri ilə bağlı işlər üzrə məhkəmə təcrübəsi, cəza və tərbiyəvi xarakterli tədbirlərin tətbiqi məsələləri”, “Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları” və digər aktual mövzular üzrə mühazirələr deyilib, iştirakçıları maraqlandırılan suallar ətrafında müzakirələr aparılıb.

# Gənc prokurorluq işçiləri üçün tədris kursu təşkil edilib

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin sərəncamına əsasən, 2023-cü ildə prokurorluq orqanlarına qulluğa qəbul olunmuş və stajorluq keçən 53 işçi üçün hibrid formada tədris kursu təşkil edilib.




Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmiş kursda təlimçi qismində prokurorluğun təcrübəli işçiləri ilə yanaşı, Milli Məclis, Konstitusiya Məhkəməsi, "Konstitusiya" Araşdırmalar Fondu, "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin məsul nümayəndələri, eləcə də səhiyyə və ədliyyə orqanlarının ekspertiza mərkəzlərinin peşəkar əməkdaşları cəlb olunub.



"Müasir prokurorluğun inkişafında Heydər Əliyevin irsi", "Heydər Əliyev və milli dəyərlər" mövzuları ilə başlanan hazırlıq kursunun tədris proqramında praktiki əhəmiyyət kəsb edən, peşə vərdişlərinin formalaşmasına töhfə verəcək məşğələlərə üstünlük verilib.






"Korrupsiyaya qarşı mübarizə sahəsində milli mübarizə strategiyası", "Uzun müddət bağlı qalmış qəsdən adam öldürmə cinayətləri üzrə istintaq təcrübəsi", "Xarici valyuta vəsaitlərinin xaricdən qaytarmama cinayətinin istintaq metodikası", "Məişət zorakılığı və onunla mübarizənin aktual problemləri", "Qanunsuz azadlıqdan məhrum etmə və psixiatriya xəstəxanasına yerləşdirmə cinayətlərin ibtidai istintaq metodikası", "İnzibati xətalar haqqında işlərin baxılmasında prokurorun iştirakının xüsusiyyətləri", "Hərbi xidmət əleyhinə cinayətlərin istintaq metodikası" və digər əhəmiyyətli mövzuları yer aldığı məşğələlər zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından, eləcə də təhlil-tədqiqat materiallarından geniş istifadə edilib.

Gənc prokurorluq işçilərinin peşə vərdişlərinin formalaşdırılması istiqamətində təlimlər bundan sonra da davam etdiriləcək.



# Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti beynəlxalq forumda iştirak edib













Cari ilin 17-20 may tarixlərində Rusiya Federasiyasının Tatarıstan Respublikasının Kazan şəhərində «Rusiya-İslam dünyası: KazanForum 2023» XIV Beynəlxalq İqtisadi Forumu keçirilib.

Forumda Azərbaycan Respublikasının Baş Prokurorluğunu Baş prokurorun müavini Elmar Camalov, Xidməti araşdırmalar idarəsinin rəisi Kamal Qılıcov və həmin idarənin böyük prokuroru Ülvi Əhmədov təmsil edib.

Tədbirdə çıxış edən Baş prokurorun müavini Elmar Camalov ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin olduğunu bildirərək dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.

Səfər çərçivəsində Rusiya Federasiyası Baş prokurorunun müavini Pyotr Qorodovun rəhbərlik etdiyi nümayəndə heyəti, eləcə də Rusiya Federasiyası Dövlət Dumasının Regional siyasət və yerli özünüidarəetmə komitəsi sədrinin birinci müavini Serqey Morozov və Sahibkarların müraciətləri ilə iş platformasının moderatoru Elina Sidorenko ilə görüşlər keçirilib.

Görüşlər zamanı beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyi, biznes sahəsində dövlətlər üçün neqativ nəticələrin aradan qaldırılmasında hakimiyyət orqanları, prokurorluq və vətəndaş cəmiyyəti institutlarının rolu, eləcə də yerli və xarici şirkətlərin hüquqlarının bərabər səviyyədə müdafiəsinin təmin olunmasında prokurorluq orqanlarının fəaliyyəti və digər mövzularla bağlı çıxışlar olmuşdur.

Bundan başqa, rusiyalı həmkarlarla görüş zamanı transmilli cinayətlərin törədilməsinə görə beynəlxalq cinayət təqibi, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, onların hüquq və azadlıqlarının qorunması, həmçinin prokurorluq işçilərinin təlim və ixtisasartırma sahəsində qarşılıqlı fəaliyyətin inkişafına dair faydalı fikir mübadiləsi aparılmışdır.

# Baş Prokurorluqda Avropa Şurasının nümayəndə heyəti ilə görüş keçirilib









Mayın 22-də ölkəmizdə səfərdə olan Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının rəhbəri Xristos Ciakomopoulos və Siyasi Məsələlər və Xarici Münasibətlər üzrə Direktoratlığının rəhbəri Papa Miroslav ilə Baş prokurorun birinci müavini Elçin Məmmədov arasında görüş keçirilib.

Qonaqları salamlayan Elçin Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata kecjrilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər barədə ətraflı məlumat verib.

Daha sonra, birinci müavin Azərbaycan Prokurorluğu tərəfindən beynəlxalq və regional təşkilatlarla, həmçinin digər ölkələrin prokurorluq və anti-korrupsiya qurumları ilə səmərəli əməkdaşlığın davam etdirdiyini, "Avropa Şurasının Azərbaycan üçün 2022-2025-ci illər üçün Fəaliyyət Planı" çərçivəsində nəzərdə tutulan tədbirlərin müvəffəqiyyətlə icra olunduğunu, eləcə də prokurorluq əməkdaşlarının həmin tədbirlərdə aktiv rol aldığını qeyd edərək, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq layihəsi çərçivəsində təşkil olunan tədbirlərin, xüsusilə korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsinə müsbət təsirini vurğulayıb.

Qəbula görə təşəkkürünü ifadə edən Xristos Ciakomopoulos, Azərbaycan ilə Avropa Şurası arasında hər zaman etimad və qarşılıqlı hörmətə əsaslanan yüksək münasibətlərin olduğunu bildirərək, son illər ərzində korrupsiya ilə mübarizə sahəsində keçirilən islahatların səmərəliyindən və bu istiqamətdə atılacaq addımların əhəmiyyətindən bəhs edib.

Görüş zamanı cinayət yolu ilə əldə edilmiş aktivlərin bərpası, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) hesabatı, Avropa Şurası tərəfindən maliyyələşən nifrət cinayətlərinə qarşı mübarizə sahəsində baş tutacaq layihələrdə prokurorluq əməkdaşlarının iştirakı və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin, Azərbaycan Respublikasının Avropa Şurasında daimi nümayəndəsi Fəxrəddin İsmayılov və Avropa Şurasının Bakı Ofisinin rəhbəri Petr Zix iştirak edib.

# Baş Prokurorluqda BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin nümayəndə heyəti ilə görüş keçirilib



Mayın 24-də Baş Prokurorluqda BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin (BMTNCİ) Mərkəzi Asiya üzrə regional nümayəndəsi xanım Aşita Mittalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan Baş prokurorun birinci müavini Elçin Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sistemli, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin bütünlükdə hüquq sisteminin təkmilləşdirilməsinə müsbət təsir göstərdiyini və bu baxımdan, cinayətkarlıq və digər hüquqpozmalara qarşı mübarizənin dövlət siyasətinin prioritet tərkib hissəsini təşkil etdiyini bildirib.







Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən BMTNCİ ilə əlaqələrə yüksək əhəmiyyət verildiyi və qurumun Mərkəzi Asiya və Cənubi Qafqaz Əlaqələndirici Şəbəkəsi (CASC) ilə əməkdaşlığın davam etdirildiyi qeyd edilərək, 2022-2025-ci illər üçün ölkəmizlə BMTNCİ arasında Əməkdaşlıq üzrə Yol Xəritəsi layihəsinin uğurlu əməkdaşlığın davamı üçün zəmin yaratdığı xüsusilə vurğulanıb.

Qəbula görə təşəkkürünü ifadə edən Aşita Mittal, Azərbaycanla əməkdaşlığın daim yüksək səviyyədə olduğunu bildirərək, son illər ərzində Baş Prokurorluğun təşkil olunan beynəlxalq tədbirlərdə aktiv iştirak etdiyini və Azərbaycanın narkotik maddələrin qanunsuz dövriyyəsi, insan alveri və korrupsiya ilə mübarizə sahələrində həm praktiki, həm də qanunvericilik baxımından qabaqcıl təcrübəsinin digər üzv dövlətlərə də faydalı olduğunu bildirib.

Görüşdə həmçinin cinayət yolu ilə əldə edilmiş aktivlərin bərpası, çirkli pulların leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sistemi üzrə Avropa Şurasının ekspertlər Komitəsi (MONEYVAL) tərəfindən aparılmış 5-ci raund qiymətləndirilmə, genişləndirilmiş müsadirə institutunun təsis edilməsi və cinayətkarlığın müasir təzahürlərinə qarşı mübarizə üsulları barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Tacikistan Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub

2022-ci il dekabrın 15-də Baş prokuror Kamran Əliyev və Tacikistanın Baş prokuroru Yusuf Raxmon arasında imzalanmış "2023-2024-cü illər üçün Əməkdaşlıq Proqramı"nın icrası məqsədilə Tacikistan prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdədir.

Mayın 30-da Baş prokurorun birinci müavini Elçin Məmmədov nümayəndə heyəti ilə görüşərək bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirməklə, tarixən xalqlarımız arasında münasibətlərin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, ölkə başçılarının siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini vurğulayıb.





Tacikistan Baş Prokurorluğunun nümayəndə heyətinin rəhbəri Nasimcon Azimov yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd edib.



Daha sonra Əməkdaşlıq Proqramı çərçivəsində "Korrupsiya yolu ilə əldə edilmiş aktivlərin xaricdən qaytarılmasının aktual məsələləri" mövzusunda seminar keçirilərək hər iki prokurorluğun əməkdaşları təqdimatlarla çıxış ediblər. Seminar zamanı xüsusi müsadirə, korrupsiya ilə mübarizə və qanunvericilik sahələrində Azərbaycan Prokurorluğunun fəaliyyəti barədə geniş məlumat verilərək faydalı təcrübə mübadiləsi aparılıb.



Nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Tarix və Zəfər muzeyləri ilə tanış olublar. Azərbaycan Prokurorluğunun zəngin tarixi, xalqımızın Ümummilli lideri, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Tacikistan prokurorluğunun nümayəndə heyəti Heydər Əliyev Mərkəzini ziyarət edərək görkəmli dövlət xadiminin həyat və fəaliyyəti ilə tanış olub, orada yerləşən muzey və eksponatlar barədə ziyarətçilərə ətraflı məlumat verilib.













Səfər çərçivəsində qonaqlar Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq təcridxanasının fəaliyyəti, orada yaradılmış şərait və saxlanılan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi istiqamətində görülən işlərlə yaxından tanış olublar.

Bundan başqa, tacikistanlı prokurorlar 44 günlük Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistan dövlətini döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu, həmçinin, qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət etməklə xalqımızın qürur mənbəyi hesab olunan “Hərbi Qənimətlər Parkı”-nı və UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş İçərişəhəri ziyarət ediblər.

Qonaqlar, həmçinin Şamaxı şəhərinə səfər edərək rayon prokurorluğunun fəaliyyəti, tarixi Cümə məscidi və Azərbaycan-Tacikistan dostluq bağı ilə tanış olublar.







# Baş Prokurorluqda “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməli üzrə istintaqın xüsusiyyətləri” mövzusunda təlim keçirilib

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023 – 2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin may ayının 30 və 31-də “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması əməli üzrə istintaqın xüsusiyyətləri” mövzusunda təlim keçirilib.









Təlimdə Cinayət Məcəlləsinin 193-1 maddəsi ilə cinayət işləri üzrə ibtidai araşdırma aparan prokurorluğun, daxili işlər və vergi orqanlarının əməkdaşları iştirak edib.

Tədris prosesinə Baş Prokurorluğun işçiləri ilə yanaşı, Maliyyə Monitorinqi Xidmətinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin təcrübəli əməkdaşları təlimçi qismində cəlb olunub.

Təlim çərçivəsində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə sahəsində həyata keçirilmiş dövlət proqramları, ölkəmizin qoşulduğu beynəlxalq təşəbbüslər və bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq barədə dinləyicilərə geniş məlumat verilib.

Həmçinin, təlim zamanı Cinayət Məcəlləsinin 193-1 maddəsi ilə nəzərdə tutulmuş əməlin tövsifi aspektləri, bu cür əməllərin istintaqı xüsusiyyətləri, maliyyə istintaqının və predikativ cinayətlər üzrə paralel maliyyə araşdırmasının aparılması qaydası, vergi cinayətlərinin ibtidai araşdırılması çərçivəsində bu cür əməllərin aşkarlanması və digər aktual mövzular üzrə tədris keçirilib.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb.

# Baş Prokurorluqda İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın nümayəndə heyəti ilə görüş keçirilib










İyunun 6-da İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyasının (İCMP) Koordinasiya və əməkdaşlıq üzrə direktoru Andreas Kleyzerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Baş Prokurorluqda görüş keçirilib.

Qonaqları salamlayan Baş prokurorun birinci müavini Elçin Məmmədov birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 3890 nəfər azərbaycanlının işgəncələrə məruz qalaraq öldürülüb kütləvi məzarlıqlarda basdırıldığını və bugünə kimi onların taleyinə aydınlıq gətirilmədiyini, Ermənistan tərəfindən müfəssəl məlumatların təqdim edilmədiyini qeyd edərək bu xüsusda İCMP ilə əməkdaşlığa böyük önəm verildiyini bildirib.

Qəbula görə təşəkkürünü ifadə edən Andreas Kleyzer hərbi münaqişələr zamanı itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və insanlıq əleyhinə törədilmiş cinayətlərin müəyyən edilməsi sahəsində uzun illərə dayanan təcrübəyə malik olan Komissiyanın Azərbaycan rəsmiləri ilə sıx əməkdaşlığa hazır olduğunu, xüsusilə prokurorluq orqanlarının bu sahədə aparıcı rol oynadığını bildirib.

Tərəflər arasında itkin düşmüş şəxslərin qeydiyyatı, məlumat bazası, itkin düşmüş şəxslər və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar Hərbi Prokurorluqda və Baş Prokurorluğun İstintaq idarəsində istintaq olunan cinayət işləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilib

İyunun 8-də Baş Prokurorluqda "Rəhbər heyətin mülki müdafiə məşqi"nə dair tədbir keçirilib.

Baş Prokurorluq və Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə açılış nitqi ilə çıxış edən Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəis müavini Şəmşir Şəmşirli mülki müdafiə sahəsində bilik və vərdişlərə yiyələnmənin əhəmiyyətini vurğulayaraq, prokurorluq orqanlarında bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərdən bəhs edib.










Məşğələdə FHN-in Mülki müdafiə işinin təşkili baş idarəsinin əməkdaşları Xəyal Tağıyev, İlham Söhbətov və Şəmsəddin Hüseynov çıxış edərək tədbirin keçirilməsində əsas məqsədin Mülki müdafiə planının dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, rəhbər heyətin bacarıqlarının artırılması olduğunu qeyd edib.

Tədbir zamanı Fövqəladə Hallar Nazirliyi tərəfindən Respublikanın müxtəlif rayonlarında həyata keçirilmiş qəza-xilasetmə təlimlərini əks etdirən videoçarxlar, eləcə də fövqəladə hallar zamanı zəruri olan fərdi mühafizə vasitələri nümayiş etdirilib.

# Baş Prokurorluqda təşkil edilmiş “Dövlət qulluğunda etik dəyərlər və qanunvericiliyin tətbiqi məsələləri” mövzusunda təlim uğurla başa çatdırılıb



2023-cü ilin iyun ayının 9-da prokurorluq orqanlarında xüsusi rütbəsi olmayan vəzifələrdə çalışan işçilər üçün “Dövlət qulluğunda etik dəyərlər və qanunvericiliyin tətbiqi məsələləri” mövzusunda təlim təşkil edilib.

Təlim üzrə tədris tədbirləri Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunda işləyən əməkdaşlar üçün hibrid formada həyata keçirilib.

Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi Natiq Hüseynov açılış nitqi ilə çıxış edərək, təlimin məqsədi və vəzifələri barədə iştirakçılara geniş məlumat verib, Milli Məclisin deputatı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov isə “Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri” mövzusunda çıxış edib.

“Ümummilli lider Heydər Əliyev – müasir dövlət qulluğu sisteminin banisi” mövzusunda davam etmiş təlim çərçivəsində dinləyicilərə işçilər arasında qarşılıqlı münasibətlər sistemi barədə ətraflı məlumat verilib, dövlət qulluğuna dair qanunvericiliyin təcrübədə tətbiqi xüsusiyyətləri tədris edilib və digər əlaqəli mövzular ətrafında müzakirələr aparılıb.

Təlim üzrə tədris tədbirləri müasir informasiya-kommunikasiya texnologiyaları, təhlil-tədqiqat materialları, habelə beynəlxalq təcrübədə olan nümunələrdən geniş istifadə etməklə həyata keçirilib.

# Sosial Tədqiqatlar Mərkəzində keçirilmiş tədbirdə Baş Prokurorluğun nümayəndələri iştirak edib




İyunun 12-də Sosial Tədqiqatlar Mərkəzində “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icrası məqsədilə hazırlanmış “Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlər üzrə keyfiyyət və məmnunluğun qiymətləndirilməsi” ilə bağlı analitik hesabatın təqdimatı keçirilmişdir.

Tədbirdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Ramin Vəlizadə və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Natiq Eyvazov çıxış edərək mövzu ilə bağlı fikirlərini söyləmişlər.

# Özbəkistanın Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə səfərdə olub









2021-ci ilin 1 noyabr tarixində Bakı şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının baş prokurorlarının birinci iclası çərçivəsində Azərbaycanın Baş prokuroru Kamran Əliyevlə Özbəkistanın Baş prokuroru Niqmatilla Yuldaşev arasında imzalanmış "2022-2023-cü illər üçün Əməkdaşlıq Proqramı"ndan irəli gələn müddəaların icrası məqsədilə Özbəkistan prokurorluğunun nümayəndə heyəti ölkəmizə səfərə gəlib.

İyunun 23-də Baş prokurorun birinci müavini Elçin Məmmədov nümayəndə heyəti ilə görüşərək bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, ölkə başçılarının siyasi iradələri ilə reallaşan mühüm əhəmiyyətli strateji layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyini vurğulayıb.

Özbəkistan Baş Prokurorluğunun nümayəndə heyətinin rəhbəri Şerzod Muxamatov yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd edib.

Daha sonra Əməkdaşlıq Proqramı çərçivəsində "Təhsil sahəsində korrupsiyaya qarşı mübarizənin aktual məsələləri" mövzusunda seminar keçirilərək hər iki prokurorluğun əməkdaşları təqdimatlarla çıxış ediblər.

Seminar zamanı korrupsiya ilə mübarizə, xüsusən ali və orta təhsil

müəssisələrində profilaktik maarifləndirici tədbirlərin təşkili və qanunvericilik sahələrində Azərbaycan Prokurorluğunun fəaliyyəti barədə geniş məlumat verilərək faydalı təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Tarix və Zəfər muzeyləri ilə tanış olublar. Azərbaycan Prokurorluğunun zəngin tarixi, xalqımızın Ümummilli lideri, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Səfər çərçivəsində nümayəndə heyəti İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olub. Həmçinin, səfər zamanı Heydər Əliyev Mərkəzində olan qonaqlara orada yerləşən muzey və dahi şəxsiyyətin fəaliyyətinə həsr edilmiş eksponatlar barədə ətraflı məlumat verilib.

Daha sonra Özbəkistan prokurorları 44 günlük Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistan dövlətini döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu “Hərbi Qənimətlər Parkı”-nda olub, qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət etməklə xalqımızın qürur mənbəyi hesab olunan Park qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.











# Hərbi prokuror işğaldan azad olunmuş ərazilərdə hərbçilərlə görüşüb





Baş prokurorun müavini - Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, general-leytenant Mais Bərxudarov, eləcə də Hərbi Prokurorluğun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində hərbi hissələrdə hərbi qulluqçularla görüşüblər.

Görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Hərbçiləri qarşıdan gələn bayramlar münasibətilə təbrik edərək, onlara ən xoş arzularını ifadə edən Hərbi prokuror Xanlar Vəliyev əvvəlcə 2023-cü ilin “Heydər Əliyev İli” olduğunu vurğulayaraq, nəhəng şəxsiyyətin dünya tarixindəki rolundan, eləcə də Azərbaycan xalqı və dövləti qarşısındakı müstəsna xidmətlərindən bəhs edib. Bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, müdrik siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın dərin düşüncəsi və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə rəğmən dövlətimiz qüdrətlənir. İşğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur.





Hərbi prokuror Xanlar Vəliyev deyib ki, son illər Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Vətən müharibəsindən bəhs edən Xanlar Vəliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir diplomatiyasından və yüksək sərkərdəlik məharətindən, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyindən, xalqımızın əzmkarlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin qəhrəmanlığından danışaraq əldə olunan möhtəşəm tarixi Qələbəni Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb.

Çıxış edən digər şəxslər də bənzər məzmunda danışıblar.

Ardınca hüquqi maarifləndirici mövzularda çıxışlar olunub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, onların qayğı və problemləri, məişət şəraitləri ilə maraqlanılıb, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

# Hərbi Prokurorluqda qazilərlə görüş keçirilib







İyunun 24-də Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə Hərbi Prokurorluqda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçuları, o cümlədən qazilər ilə görüş keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla anılıb, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin müqəddəs və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Baş prokurorun müavini–Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev tədbirdə çıxış edərək mərasim iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini Silahlı Qüvvələr Günü münasibətilə təbrik edərək onlara xoş arzularını ifadə edib. Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin yüksək erudisiyası, dərin düşüncəsi, uzaqgörən siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrünə, eləcə də müharibədən çıxmış ölkə olmağımıza baxmayaraq, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin qeyd edib ki, ölkəmizin sürətli tərəqqisində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər ava-

















danlıqlarla bir qədər də zənginləşdirilib, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə, müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan







Silahlı Qüvvələri formalaşıb. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirib və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut edərək zəfərlərimizi və 44 günlük haqq savaşındakı tarixi Qələbəmizi təmin ediblər. Vətən müharibəsindən, qazanılan möhtəşəm Qələbədən bəhs edən Xanlar Vəliyev Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı tarix yazan Vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi qeyd edib. Millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə hər zaman doğrultduğunu xüsusi vurğulayan hərbi prokuror Xanlar Vəliyev bildirib ki, dövlətimizin başçısı hərbi və siyasi-diplomatik yolla ölkəmizin əzəli ərazilərini işğaldan azad etməklə, növbəti vədini də yerinə yetirib. Ölkəmizin uğurları və Vətən müharibəsindəki şanlı qələbəmiz Prezidentin yürütdüyü siyasətin alternativsiz olduğunun təcəssümüdür.

Müdafiə Nazirliyinin inspektorlar qrupunun inspektoru, ehtiyatda olan polkovnik Abdulla Qurbani və çıxış edən digər şəxslər Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi Qələbədən, eləcə də 44 günlük döyüşlərdə Hərbi Prokurorluğun özünəməxsus rolundan, Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs ediblər. Eyni zamanda, çıxışçılar Vətən müharibəsində iştirak edən şəxslərə, o cümlədən qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun rəhbərinə və kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.

Sonda ədliyyə general-leytenantı Xanlar Vəliyev Vətən müharibəsində iştirak etməklə, xidməti vəzifələrini layiqincə icra edən şəxslərə bir daha dərin təşəkkürünü bildirib və onlara hədiyyələr təqdim olunub, Vətən müharibəsi iştirakçıları isə məmnunluqlarını ifadə ediblər.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Dövlət qulluqçularının peşə bayramı münasibətilə tədbir keçirilib

23 iyun Azərbaycan Respublikasında dövlət qulluqçularının peşə bayramı kimi qeyd olunur.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Dövlət qulluqçularının peşə bayramı münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Prokuroru Sənan Paşayev dövlət qulluqçularını peşə bayramı münasibətilə təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sənan Paşayev qeyd edib ki, bu gün Azərbaycanın sürətlə inkişaf edərək beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirməsinin təməlində Ulu Öndər Heydər Əliyevin dövlət idarəetmə sistemində reallaşdırdığı islahatlar dayanır. Prezident İlham Əliyevin bu islahatları daha da genişləndirərək davam etdirməsi sayəsində ölkəmizin qüdrəti gündən-günə artmaqdadır.

"Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsi ilə ölkəmizdə dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib.

Dövlət qulluğu sahəsində aparılan islahatlar dövlət qulluqçularının məsuliyyətini gündən-günə artırmaqla yanaşı, onların hüquqlarının və vəzifələrinin müəyyənləşdirilməsi, bu sahədə olan boşluqların aradan qaldırılması üçün də müntəzəm iş aparılır.

Sonda bir qrup dövlət qulluqçusuna qiymətli hədiyyələr təqdim edilib.









# Azərbaycan Prokurorluğunun əməkdaşları beynəlxalq elmi-praktiki konfransda iştirak edib

Aprelin 7-si Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanları Akademiyasının təşkilatçılığı ilə Qazaxıstan SSR Prokuroru O.S.Seitovun 100 illiyinə həsr edilən "Müasir hüquq elminin inkişafı: nəzəriyyə və təcrübə" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.




Müxtəlif dövlətlərin prokurorluq işçiləri və hüquqşünas alimlərinin iştirak ilə hibrid formatda keçirilən tədbirdə Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin əməkdaşları təmsil edib.

Konfransın plenar sessiyasında Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov açılış nitqi ilə çıxış, Mərkəzin əməkdaşları isə tədbir iştirakçılarını maraqlandıran sualları cavablandıraraq müzakirələrdə iştirak edib.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında bağlanmış memorandumun icrasına dair həyata keçirilən səmərəli əməkdaşlıq xüsusi vurğulanaraq, Azərbaycan tərəfinə minnətdarlıq ifadə olunub.

# Aktivlərin bərpası sahəsində əməkdaşlıq davam etdirilir

Aprelin 18-i və 19-da İrlandiyanın Dublin şəhərində "Mülki müsadirə və izaholunmaz sərvət sərəncamı: qanunsuz əldə edilmiş aktivlərin həbsi və müsadirəsinin müasir üsulları" mövzusunda tədris turu keçirilib.




Tədbir Avropa İttifaqının Şərq tərəfdaşlığı ölkələrinə dəstək proqramı çərçivəsində BMT-in Beynəlxalq cinayətkarlıq və ədalət mühakiməsi məsələləri üzrə elmi-tədqiqat institutu (UNİCRİ) tərəfindən həyata keçirilən layihə çərçivəsində reallaşıb.

Tədris turunda Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev və idarənin prokuroru Əhməd Həsənov iştirak edib.

Tədbirin ilk günü İrlandiyanın Cinayət Aktivləri Bürosu (CAB) və Birləşmiş Krallığın Milli Cinayət Agentliyinin əməkdaşları tərəfindən qurumun strukturu, fəaliyyət mexanizmi və resursları barədə geniş məlumat verilmiş, aktivlərin idarə olunması, anonim məlumatların analizi, vergi, gömrük və sosial təminat və digər əlaqəli məsələlər üzrə təqdimatlar edilib.

Tədbir çərçivəsində qurumun fəaliyyəti və mülki müsadirə prosesi real rejimdə nümayiş etdirilib, iştirakçılara təqdimatlara dair geniş məlumatlar verilib.

İştirakçılara həmçinin Azərbaycanla UNİCRİ-nin xarici ölkələrdə yerləşən cinayət aktivlərin bərpasına dair birgə fəaliyyətini əks etdirən qısametrajlı videoçarx nümayiş olunub.

# Azərbaycan Prokurorluğunun əməkdaşları türk dövlətlərinin Qurultayında iştirak edib







Cari il 26-27 aprel tarixlərində Türkiyənin Bursa şəhərində Türk Dövlətləri Təşkilatı və TİKA-nın (Türk İşbirliyi və Koordinasyon Ajnası) birgə təşkilatçılığı ilə imzalanmış "Ədalət Mühakiməsi Tədrisi üzrə Türk Şəbəkəsinin təsis edilməsi haqqında" Anlaşma Memorandumunun icrası çərçivəsində kibercinayətkarlıq mövzusunda Qurultay keçirilib.

Üzv ölkələrin hakim və prokurorları üçün keçirilmiş tədbirdə ölkəmizi Baş Prokurorluğu Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin rəisi Binnət Həsənov və Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyev təmsil edib.

Qurultay çərçivəsində Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Şimali Kipr Türk Respublikasının nümayəndələri ilə "Beynəlxalq hüquqi baza və milli qanunvericilikdə kibercinayətkarlıqla mübarizə" sahəsində məlumat mübadiləsi və müzakirələr aparılıb, Türkiyə Cümhuriyyətinin müxtəlif ali təhsil müəssisələrinin nümayəndələri tərəfindən kibercinayətkarlıqla mübarizə sahəsində təqdimatlar edilib.

# Baş Prokurorluğun nümayəndəsi Avstriyanın Vyana şəhərində keçirilən beynəlxalq tədbirdə iştirak edib



Cari ilin 2-3 may tarixlərində Avstriyanın Vyana şəhərində "Korrupsiya halları üzrə mülki və inzibati məsuliyyət: Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiya əleyhinə Konvensiyasına əsasən beynəlxalq əməkdaşlıq və milli təcrübə" adlı beynəlxalq ekspertlərin görüşü keçirilmişdir.

Sözügedən tədbirdə 21 müxtəlif ölkənin hüquq-mühafizə orqanlarının nümayəndələri ilə yanaşı, ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Nicat Nağıyev təmsil etmişdir.

Görüşlərdə korrupsiya halları üzrə mülki və inzibati məsuliyyət sahəsində meydana çıxan çətinliklərin və müsbət təcrübələrin nəzərdən keçirilməsi, eləcə də bu sahədə beynəlxalq əməkdaşlıq üzrə imkanların və problemlərin müəyyən edilməsi üzrə fikir mübadiləsi aparılmışdır.

Tədbirdə təqdimatla çıxış edən nümayəndəmiz milli

qanunvericiliyimizdə mövcud olan inzibati, mülki və cinayət hüquqi alətlərin korrupsiyaya qarşı mübarizədə praktiki əhəmiyyətindən danışmış, bu sahənin inkişafı ilə bağlı prokurorluq orqanlarında aparılmış institusional və hüquqi islahatlar nəticəsində qabaqcıl beynəlxalq təcrübə əsas götürülməklə mülki və inzibati icraatlarda prokurorların iştirakı mexanizminin daha da optimallaşdırıldığını diqqətə çatdırılmışdır.




Yekunda BMT-nin Narkotiklər və Cinayətkarlıq idarəsi tərəfindən ölkəmizin də təcrübəsinin əks olunduğu “Korrupsiya üzrə mülki və inzibati məsuliyyət: BMT-nin Korrupsiyaya qarşı Konvensiyası çərçivəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində mili səviyyədə əldə olunan təcrübə və üsullar” mövzusunda hesabatın hazırlanaraq üzv dövlətlərə göndərilməsi qərarlaşdırılmışdır.

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Korrupsiya və şəffaflıq” işçi qrupunun növbəti iclası keçirilib

5 may 2023-cü il tarixdə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Korrupsiya və şəffaflıq” işçi qrupunun növbəti iclası keçirilmişdir.



Onlayn platforma qaydasında təşkil edilən iclasda Azərbaycan Respublikasının Baş Prokurorluğu, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Hesablama Palatası, “Şəffaflıq-Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə” İctimai Birliyi, “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyi, “Deloitte Azerbaijan”, “KPMG Azərbaycan Limited”, “Azercell”, “Azerconnect” şirkətləri və digər qurumların nümayəndələri iştirak etmişlər.

İşçi qrupunun rəhbəri, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyevin sədrliyi ilə keçirilmiş iclasda ilkin olaraq işçi qrupun 2023-cü il üçün təsdiq edilmiş “Fəaliyyət Planı” barədə ətraflı məlumat verilmiş, daha sonra isə aidiyyəti dövlət orqanlarının nümayəndələri tərəfindən həmin “Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı cari ilin birinci rübü ərzində görülmüş işlər barədə çıxışlar həyata keçirilmişdir.

İclasın davamında Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış müvafiq normativ hüquqi aktlar və “Rəqəmsal İdarəetmə Platforması”na dair geniş təqdimat həyata keçirilmiş, habelə, iclasda iştirak edən vətəndaş cəmiyyəti institutları və özəl sektor nümayəndələri tərəfindən sözügedən müvafiq qanun layihələri və dövlət-biznes-vətəndaş cəmiyyəti dialoqunun genişləndirilməsi məsələləri ilə bağlı zəruri təkliflər irəli sürülmüşdür.

# Baş Prokurorluğun əməkdaşı beynəlxalq konfransda iştirak edib




9-11 may 2023-cü il tarixlərdə Filippin Respublikasının paytaxtı Manila şəhərində Asiya İnkişaf Bankı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə təşkilatçılığı ilə Asiya-Sakit Okean regionu üzrə Anti-Korrupsiya Təşəbbüsünün 11-ci Regional Konfransı keçirilmişdir.

Asiya İnkişaf Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Təşəbbüsə üzv ölkələr, eləcə də regional və beynəlxalq qeyri-hökümət təşkilatlarının 100 nəfərədək nümayəndəsinin iştirak etdiyi tədbirdə ölkəmizi Təşəbbüs üzrə milli əlaqələndirici - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Səbuhi Alıyev təmsil etmişdir.

Post-pandemiya dövründə korrupsiyaya qarşı mübarizə, şəffaflıq və dürüstlüyün təmin edilməsi ilə bağlı görülmüş tədbirlər, ortaya çıxan çətinliklər və onların həllinə dair irəli sürülən təşəbbüslərin müzakirə edildiyi tədbir çərçivəsində Təşəbbüsün Plenar iclası və Rəhbər Qrupunun 25-ci iclası ilə yanaşı, Hüquq-mühafizə orqanları Şəbəkəsinin 5-ci iclası, həmçinin Biznesdə və İdarəetmədə dürüstlük Şəbəkələrinin növbəti sessiyaları keçirilmişdir.




S.Alıyev 16 ölkədən 26 nümayəndənin iştirak etdiyi Hüquq-mühafizə orqanları Şəbəkəsinin iclasına panelçi qismində qatılaraq pandemiya dövründə baş vermiş və Baş İdarə tərəfindən ibtidai istintaqı aparılmış korrupsiya cinayətlərindən biri ilə bağlı təqdimatla çıxış etmiş, pandemiya ilə əlaqədar hüquq-mühafizə orqanlarının fəaliyyətində ortaya çıxmış çətinliklər, onların aradan qaldırılması ilə bağlı görülmüş qanunvericilik tədbirləri, həmçinin də təcrübədə tətbiq edilmiş həll yolları ilə bağlı iştirakçıların suallarını cavablandırmışdır.

# Prokurorluq əməkdaşları Moskvada keçirilən tədbirdə iştirak edib








Mayın 16-17-si tarixlərində Moskvada Azərbaycan və Rusiya prokurorluqları arasında 2021-2023-cü illər üzrə Əməkdaşlıq Proqramının icrası ilə əlaqədar "Sahibkarların hüquqlarının qorunması haqqında qanunların icrasına nəzarətin aktual problemləri" və "Təbiətdən istifadə və ətraf mühitin qorunması sahəsində qanun pozuntularının qarşısının alınması istiqamətində təcrübə mübadiləsi" mövzularında dəyirmi masa keçirilib.

Dəyirmi masada Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq və Cinayət təqibindən kənar icraatlar idarəsi, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının əməkdaşlarından ibarət nümayəndə heyəti iştirak edib.

Tədbirdə qeyd olunan mövzularda təqdimatlar edilib, həmçinin, Azərbaycan Respublikası Prokurorluğunun nümayəndə heyəti tərəfindən ölkəmizdə korrupsiya və ekoloji cinayətlərə qarşı aparılan mübarizə və bu sahədə həyata keçirilən islahatlar barədə ətraflı məlumat verilib.

Səfər zamanı nümayəndə heyəti Rusiya Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq baş idarəsinin əməkdaşları ilə görüşlər keçirərək ekstradisiya, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və tərəfləri maraqlandıran digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparıb.

# Azərbaycan Respublikasının Prokurorluğunun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir



Cari ilin 18-19 may tarixlərində Qazaxıstan Respublikasının Almatı şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi tərəfindən yaradılmış “Təmiz İpək Yolu Pekin Təşəbbüsü” Şəbəkəsinin 3-cü iclası keçirilmişdir.

2019-cu ildə Çin Xalq Respublikasının Pekin şəhərində təşkil olunmuş İkinci “Bir Kəmər, Bir Yol-Beynəlxalq Əməkdaşlıq Forumu” zamanı irəli sürülən “Təmiz İpək Yolu Pekin Təşəbbüsü” BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının icrasına dəstək məqsədi ilə sözügedən region ölkələrində beynəlxalq infrastruktur layihələrinin korrupsiyadan azad iqtisadi mühitlərdə maneəsiz inkişafı və şəffaf nəzarət mexanizmlərinə malik milli təsisatların təşviqi çağırışlarına uyğun olaraq yaradılmış bir layihədir.




BMT nümayəndələri, habelə, Türkiyə, Çin, İran, Albaniya, Qazaxıstan, Monqolustan, Qırğızıstan, Özbəkistan və digər dövlətlərin təmsilçilərinin qatıldığı tədbirdə ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokurorları Kamil Kamilli və İlkin Babazadə təmsil etmişlər.

Yerli və beynəlxalq investisiya layihələri sahəsində korrupsiya hallarının qarşısının alınması istiqamətində həyata keçirilməli olan preventiv tədbirlər, yerli və xarici investorlar üçün şəffaf biznes mühitinin yaradılması və digər bu kimi mövzular ətrafında geniş müzakirələrin aparıldığı görüşün birinci sessiyasında nümayəndəmiz Kamil Kamilli çıxış edərək ölkəmizdə özəl sektorda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş effektiv tədbirlər haqqında iştirakçıları məlumatlandırmışdır.

Tədbirin ikinci sessiyasında isə beynəlxalq investisiyalar sahəsində baş vermiş korrupsiya hüquqpozmalarının müəyyən edilərək qarşısının alınması mövzusunda ekspertlər tərəfindən təqdim edilmiş praktiki məsələlər nümayəndələrimiz tərəfindən həll edilmiş, habelə sözügedən məsələlər üzrə ölkəmizdə mövcud istintaq təcrübəsi barədə görüş iştirakçıları məlumatlandırılmışdır.

# Azərbaycan Prokurorluğunun nümayəndəsi Azərbaycan-Avropa İttifaqı (Aİ) Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən alt-komitənin iclasında iştirak etmişdir



Cari ilin 22-23 may tarixlərində Belçika Krallığının paytaxtı Brüssel şəhərində Azərbaycan-Avropa İttifaqı (Aİ) Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya alt-komitəsinin 10-cu iclası keçirilmişdir.

Sözügedən tədbirdə ölkəmizi digər qurumların nümayəndələri ilə yanaşı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Anar Tağıyev təmsil etmişdir.

Görüşlərdə qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, bu sahədə beynəlxalq əməkdaşlıq, miqrasiya, sığınacaq və sərhədlərin idarə olunması, korrupsiyaya qarşı mübarizə və preventiv tədbirlər, fərdi məlumatların mühafizəsi və digər aidiyyəti məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Tədbirdə çıxış edən nümayəndəmiz ölkəmizdə bu sahədə qəbul edilmiş milli fəaliyyət planları və onların icra vəziyyəti, çirkli pulların yuyulması və aktivlərin bərpası sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar, bu sahədə beynəlxalq qurumlarla əməkdaşlıq və digər görülmüş işlər barədə məlumat vermişdir.

## Baş Prokurorluğun əməkdaşı beynəlxalq tədbirdə iştirak edib

Mayın 23-də Moldovanın Kişinyov şəhərində keçirilmiş Avropa İttifaqı və Avropa Şurasının maliyyələşdirdiyi "CyberEast" layihəsinin Əsas İdarəetmə Komitəsinin altıncı iclasında, həmçinin 24-25 may tarixlərində təşkil edilmiş maliyyə sahəsində beynəlxalq əməkdaşlıq üzrə regional görüşdə Baş Prokurorluğu Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru Ziya Hacıyev təmsil edib.




Əsas İdarəetmə Komitəsinin iclasında çıxış edən prokurorluq əməkdaşı əmlakların bərpası sahəsində ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar, o cümlədən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilməsi, müasir dövrün çağırışlarına müvafiq olaraq digər idarələrlə yanaşı Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi təsis olunması və fəaliyyəti barədə ətraflı məlumat verib.

Mövcud sahədə ölkəmizdə həyata keçirilən islahatlar, cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası mexanizmlərinin təkmilləşdirilməsinə yönəlmiş tədbirlər Avropa Şurası və Avropa İttifaqının ekspertləri, eləcə də tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilib.

24-25 may tarixlərində keçirilən regional görüşdə kibercinayətkarlıq sahəsində beynəlxalq əməkdaşlığın, o cümlədən formal və qeyri-formal əməkdaşlıq vasitələrindən istifadə məsələləri müzakirə olunub, müxtəlif ölkələrin qabaqcıl təcrübəsi barədə məlumat verilib.

Tədbirin yekununda "CyberEast" layihəsi çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verilərək mövcud layihə çərçivəsində əməkdaşlığın davam etdirilməsi qərara alınıb.

## Baş Prokurorluğun nümayəndəsi beynəlxalq iclasda iştirak edib

Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə həmin təşkilatın Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.






29-30 may tarixlərində Qırğızıstanın Bişkek şəhərində UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin (CASC) növbəti plenar görüşü baş tutub. CASC şəbəkəsinin plenar iclasları ona üzv olan dövlətlərin səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqə kanallarının yaradılması üçün mühüm vasitə olmaqla Mərkəzi Asiya və Cənubi Qafqazda regional cinayətkarlıqla mübarizə çərçivəsində qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərinin həllinə yönəlib. İclasın əsas məqsədi Şəbəkənin təsdiq etdiyi tövsiyələrin, həmçinin Şəbəkə çərçivəsində köməklik göstərilmiş işlər üzrə fəaliyyətin və statistik göstəricilərin müzakirəsi olub.

Azərbaycan Respublikasının Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Fuad Hüseynov təmsil edərək, milli mərkəzi orqanların cinayətkarlıqla mübarizə məsələləri üzrə beynəlxalq əməkdaşlıq işinə verdikləri töhfə, beynəlxalq əlaqələr sahəsində fəaliyyət göstərən əməkdaşların treninqi, həmçinin çirkli pulların yuyulması və aktivlərin qaytarılmasına dair müvafiq sessiyalarda çıxış edib.

Həmçinin, görüşdə mütəşəkkil cinayətkarlıq, o cümlədən insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq və əmlakın bərpası məsələlərində təcrübə mübadiləsi aparılmaqla Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin 2024-cü il üçün iş planı müzakirə edilib.

# Prokurorluq əməkdaşları beynəlxalq tədbirdə iştirak edib



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Bolqarıstan Respublikasının Baş prokuroru İvan Geşevin cari il martın 2-də imzaladıqları "Əməkdaşlıq haqqında Anlaşma Memorandum"u əsasında cari il mayın 29-dan iyunun 2-dək Bolqarıstanın Burqas şəhərində "Transmilli cinayətkarlığa, kibercinayətkarlığa və çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə təcrübənin və ən yaxşı praktikanın mübadiləsi" mövzusunda seminar keçirilib.

Tədbirdə Baş Prokurorluğu Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Emin Mürsəliyev, Baş Prokurorluğun əməkdaşları Abbas Abbaslı, Elvar Həsənov, Ruslan Babazadə və Mələk Əliyeva təmsil edib.









Seminarda transmilli cinayətkarlıqla mübarizədə Azərbaycan Respublikasının təcrübəsi mövzusunda çıxışlar edilməklə müvafiq təqdimatlar nümayiş etdirilib.

Tədbirdə, həmçinin, Bolqarıstan, Türkiyə, Ukrayna, Litva, Moldova və Rumıniya prokurorluqlarının nümayəndələri tərəfindən sözügedən mövzu üzrə qarşılıqlı hüquqi əməkdaşlığın genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluğun əməkdaşı Avropa Şurasının Rəhbər Komitəsinin iclasında iştirak edib



İyunun 8-də Bakıda hibrid formatda "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində Avropa Şurasının Rəhbər Komitənin iclası keçirilib.

Tədbirdə Avropa Şurasının proqram əlaqələndiricisi Başak Boyoğlu, Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Petr Zix, Avropa Şurasının bölmə rəhbəri Mahir Muşteyidzadə, Azərbaycan Respublikasının Prezident Administrasiyası, Milli Məclis, Ali Məhkəmə, Ədliyyə Nazirliyi, Ədliyyə Akademiyası, Vəkillər Kollegiyası və digər qurumlardan nümayəndələr iştirak edib.

Baş Prokurorluqdan Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsinin fəaliyyətinin səmərəli həyata keçirilməsi məqsədilə yaradılmış işçi qrupunda əlaqələndirici şəxs müəyyən edilən Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubova təmsil olunub.

İclasda layihə çərçivəsində həyata keçirilən fəaliyyətlərin icmalı nəzərdən keçirilib, tərəfdaş qurumlarının nailiyyətləri və son inkişaflara dair müzakirələr aparılıb, Rəhbər Komitənin 6 aylıq (iyun-dekabr 2023-cü il üzrə) iş planı və texniki tapşırıq sənədi qəbul olunub, sonda Rəhbər Komitənin növbəti iclas tarixi müəyyən edilib.

# Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu ilə əməkdaşlıq uğurla davam etdirilir




Avropa Şurasının düzgün idarəçilik və antikorrupsiya sahəsində ixtisaslaşmış qurumu olan Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) 5-9 iyun tarixlərində







keçirilən iclaslarında Azərbaycan nümayəndə heyəti – Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev




və Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əməkdaşı Emin Nəsibov iştirak edib.

Rumıniya və Şimali Makedoniyanın Mərkəzi icra hakimiyyətinin yüksək vəzifəli şəxslərin və polisin fəaliyyətində şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması predmeti üzrə Azərbaycan Eskperti Elnur Musayevin hazırladığı tövsiyə layihələri ümumi hesabat layihəsinin tərkibində Plenar İclasa çıxarılıb və müzakirə edilərək qəbul edilib.

Eyni zamanda Emin Nəsibov ölkəmizdə son dövrdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, o cümlədən GRECO tərəfindən əvvəlki mərhələlərdə verilmiş tövsiyələrin icrası vəziyyəti ilə bağlı geniş məruzə edib.

Azərbaycan nümayəndə heyətinin üzvləri, həmçinin, GRECO-nun növbəti qiymətləndirmə mərhələsinin predmeti ilə bağlı müzakirələrdə iştirak ediblər.

# Belarus Respublikasının Minsk şəhərində keçirilmiş beynəlxalq elmi-praktiki konfransda Baş Prokurorluğun nümayəndə heyəti iştirak edib

İyunun 9-da Belarus Respublikası İstintaq komitəsinin dəvəti əsasında, Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndələri - Ramin Camalov və Məhərrəm Məmmədov Minsk şəhərində keçirilmiş "İstintaq fəaliyyəti: elm, təhsil, təcrübə" mövzusunda III beynəlxalq elmi-praktiki konfransda iştirak edib.



Dövlət, məhkəmə və hüquq mühafizə orqanları, ali və hüquq sahəsində ixtisaslaşmış təhsil müəssisələrinin nümayəndələrinin iştirak etdiyi konfransda istintaq və təhsil sahələrində tətbiq edilən yeni üsul, metod və texnologiyalar barədə geniş məlumatlar verilib, qanunvericilik və təcrübənin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülüb.



Konfrans zamanı Ramin Camalovun "Eyni vergi qanunvericiliyinin pozulması faktının paralel araşdırılmasının təcrübədə yaratdığı çətinliklər və çıxış yolları" mövzusunda etdiyi elmi çıxışı eyni zamanda Belarus Respublikasının İstintaq komitəsinin Peşə hazırlığının artırılması və yenidən hazırlanması institutunun elmi praktiki konfrans materiallarında dərc edilib.

"Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Belarus Respublikası İstintaq komitəsinin "İxtisasartırma və yenidən hazırlıq institutu" təhsil müəssisəsi arasında əməkdaşlıq haqqında" imzalanmış Memoranduma əsasən, Baş Prokurorluğun nümayəndə heyəti İstintaq komitəsinin institutunun funksional təyinatı, imkanları və texniki təchizatı ilə tanış olub, tərəflər arasında təcrübə mübadiləsi aparılaraq tədris prosesində tətbiq olunan yeniliklər diqqətə çatdırılıb, hazırlanmış yeni tədris vəsaitləri mübadilə edilib.





# Prokurorluğun əməkdaşları Avropa Şurasının təşkil etdiyi seminarda iştirak ediblər

Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində iyunun 9-da Bakıda hibrid formatda "Analitik şöbələrin əməkdaşlarının tədqiqat, təhlil və məlumatların işlənməsi bacarıqlarına dair'' seminar keçirilib.

Seminarda analitik təhlil üzrə Avropa Məhkəməsinin, Sloveniya, Gürcüstan kimi xarici ölkələrin təcrübələri öyrənilmiş, hüquqi araşdırmalar, ümumiləşdirmələr, statistik məlumatların toplanması, təhlili, yayılması və digər məsələlər üzrə qruplarda iş aparılıb.

Avropa Şurasının, beynəlxalq ekspertlərin, milli qurumlardan – Azərbaycan Respublikasının Prezidentinin Administrasiyası, Ali Məhkəmə, Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyasının nümayəndələrindən ibarət tərkibdə təşkil olunan tədbirdə Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubova, Təşkilat və icraya nəzarət idarəsinin Statistika şöbəsinin böyük prokuroru Könül Bağırova və Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Ayxan Hüseynli mövzular və verilən tapşırıqlar ətrafında çıxış edib.









# Avropa Şurasının HELP Platforması üzərindən distant təlimə start verilib




Baş Prokurorluq ilə Avropa Şurası və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası arasında olan əməkdaşlıq çərçivəsində iyunun 12-dən Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini, HELP milli tyutoru Günay Əyyubova tərəfindən Avropa Şurasının HELP Platforması üzərindən 40 hüquqşünasa (5 hakim, 7 hakimliyə namizəd, 3 prokuror, 28 vəkil) "Cinayət prosesində prosessual təminatlar və qurbanların hüquqları" distant təlim keçirilməsinə başlanılıb.

Təlimin açılışında Avropa Şurasının Ədliyyə və İnsan Haqları üzrə Təlim şöbəsinin müdir müavini xanım Ana-Maria Telbis, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfov və həmin Akademiyanın dekan müavini Günel Sadıqova çıxış edib.




Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini, HELP milli tyutoru Günay Əyyubova tərəfindən "Cinayət prosesində prosessual təminatlar və qurbanların hüquqları" HELP kursunun təqdimatı keçirilib. Təqdimat zamanı kurs barədə – tematikanın əhatə dairəsi, əldə ediləcək bilik sahələri, Avropa Məhkəməsinin presedent hüququ və digər məsələlər barədə məlumat verilib.

Avropa Şurasının HELP Platforması üzərindən təşkil olunan distant kurs 3 ay müddətində – iyunun 12-dən avqustun 12-dək davam edəcək.

# Baş Prokurorluğun nümayəndəsi beynəlxalq tədbirdə iştirak edib

Cari ilin 12-14 iyun tarixlərində Stokholm şəhərində İsveçin Avropa İttifaqı Şurasının sədrliyi çərçivəsində İttifaqa üzv dövlətlərin cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələləri üzrə məsul ekspertlərin Ədliyyə Əməkdaşlığı Şəbəkəsinin (EJN) 60-cı plenar iclası keçirilib. Tədbirdə Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı iştirak edib.







İclasda cinayət yolu ilə əldə edilmiş aktivlərin dondurulması barədə Avropa ittifaqı çərçivəsində qəbul edilmiş qərarlar, cinayət haqqında məlumatların mübadiləsi, eləcə də İttifaqa üzv olmayan ölkələr ilə əməkdaşlıq, qarşılıqlı hüquqi yardım və ekstradisiya  məsələləri müzakirə edilib.

Tədbirdə çıxış edən Murad Bayramlı Baş Prokurorluğun fəaliyyət istiqamətləri, beynəlxalq hüquqi əməkdaşlıq və rəqəmsallaşma sahəsində əldə olunan nailiyyətlər haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

# Beynəlxalq əməkdaşlıq proqramlarının icrası uğurla davam etdirilir

Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında 12 yanvar 2021-ci il tarixdə Moskva şəhərində imzalanmış “2021-2023-cü illər üçün Əməkdaşlıq Proqramı”ndan irəli gələn müddəaların icrası məqsədilə Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.



İyunun 15-də nümayəndə heyəti ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmiş görüş zamanı prokurorluqlarımız arasında əlaqələrin yüksək səviyyədə olması məmnunluqla ifadə olunaraq seminar zamanı müzakirə ediləcək mövzuların aktuallığı vurğulanıb.



Həmçinin, görüş zamanı Azərbaycan Respublikasının qanunvericiliyində edilən dəyişikliklərə əsasən, şəxsi, kommersiya və digər məlumatların qanunsuz yayılmasına görə həm inzibati, həm də cinayət məsuliyyətinin nəzərdə tutulması, bu kimi hüquqpozmalara görə sərt cəzaların tətbiq edildiyi barədə ətraflı məlumat verilib.

Rusiya Baş Prokurorluğunun nümayəndələri yüksək qonaqpərvərliyə və səmimi qəbula görə Baş Prokuror-












luğun rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağı qeyd olunub, elektron sübutlarla bağlı Rusiya prokurorluğunun son nailiyyətlərindən məlumat verilərək bu sahədə birgə elmi tədqiqatın aparılması təklif edilib.

Daha sonra Əməkdaşlıq Proqramı çərçivəsində ekoloji cinayətlər, insan alveri, zərərçəkmiş şəxslərin hüquqlarının müdafiəsi, inzibati təqibin və hökmün tanınmasının beynəlxalq hüquqi əsasları adlı mövzulara həsr olunmuş seminar keçirilərək faydalı təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası, həmçinin Zəfər muzeyi ilə tanış olub. Bundan başqa, qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edib. Görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olan nümayəndə heyətinə Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Bundan sonra, nümayəndə heyəti paytaxtımızın tarixi və mədəni abidələri ilə tanış olublar.

Bununla da, Rusiya nümayəndə heyətinin ölkəmizə səfəri başa çatıb.

# Baş Prokurorluğun nümayəndələri beynəlxalq tədbirdə iştirak edib



Cari ilin 21 iyun tarixində Rusiya Federasiyasının Baş Prokurorluğunda "Qanunsuz miqrasiya hallarının çoxalması ilə bağlı artan terror və ekstremizm təhdidlərinə qarşı mübarizə" mövzusunda ekspert səviyyəsində çoxtərəfli görüş keçirilib.

Hibrid formatda keçirilmiş tədbirdə digər xarici ölkələrin nümayəndələri ilə yanaşı Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Qədir Məmmədov və Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Rəşad Əsgərov iştirak edib.



Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndələri tədbirdə çıxış edərək, qanunsuz miqrasiya, terror və ekstremizm təhdidləri, həmin təhdidlərə qarşı aparılan mübarizə, bu mübarizəyə dair qüvvədə olan qanunvericiliyin tələbləri barədə məlumat verməklə problemlər və onların həlli yolları barədə aktual məlumat mübadiləsi aparıblar.

Bundan əlavə, tərəflər milli səviyyədə terrorizm və ekstremizm təzahürlərinə qarşı aparılan mübarizəyə dair praktiki təcrübələrini bölüşərək qloballaşan dünyada belə təhdidlərə qarşı beynəlxalq əməkdaşlığın, effektiv qarşılıqlı hüquqi yardımın zəruriliyi vurğulayıblar.

# Baş Prokurorluğun əməkdaşları beynəlxalq forumda iştirak ediblər




Cari ilin 20-22 iyun tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində BMT-nin Regionlararası Cinayət və Ədliyyə Təhqiqatları İnstitutu (UNİCRİ) tərəfindən “Cinayət yolu ilə əldə olunmuş əmlakların üzərinə həbs qoyulması və müsadirəsi üsullarının, habelə həmin əmlakların səmərəli idarə edilməsi üsullarının təkmilləşdirilməsi: Regional və qurumlararası əməkdaşlığın gücləndirilməsi” mövzusunda regional seminar keçirilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğunu tədbirdə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis müavini İsmayıl Qayıbov və həmin İdarənin böyük prokuroru Emin Cəlilov təmsil edib.

Tədbirdə UNİCRİ, EUROJUST, ABŞ-ın Federal Təhlükəsizlik Bürosu (FBİ), Gürcüstan Baş Prokurorluğu və Ukraynanın Korrupsiyaya qarşı Milli Bürosunun (NABU) əməkdaşları tərəfindən “Əmlak üzərinə həbs və müsadirənin effektivliyinin təmin edilməsi üçün iddia sövdələşməsi, izahedilməz sərvət, genişləndirilmiş müsadirə, dəyərə görə müsadirə, məhkumluğa əsaslanmayan müsadirə və digər müasir mexanizmlərdən istifadə edilməsi”, “Aktivlərin izlənilməsi, bərpası və idarə edilməsi üzrə əməkdaşlıq sahəsində milli və beynəlxalq əməkdaşlıqla bağlı cinayət işləri üzrə uğurlu nəticənin əldə edilməsi, qarşılıqlı hüquqi yardımla bağlı sorğulara müsbət cavab almaq üçün tələblər” və sair mövzularda çıxışlar edilib, verilən suallar cavablandırılıb.

Tədbirin sonunda Şərq Tərəfdaşlığı ölkələri üçün təşkil edilmiş dəyirmi masada 2023-cü ilin qalan dövründə və 2024-cü ildə layihə çərçivəsində nəzərdə tutulan tədbiqlər barədə ümumi məlumat verilərək, həyata keçirilməsinə ehtiyac olan digər tədbirlərlə bağlı təkliflər dinlənilib, Azərbaycanda aktivlərin bərpası və idarə olunması ilə bağlı verilmiş suallar XMMƏİ-nin nümayəndələri tərəfindən cavablandırılıb.

Nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə müvafiq olaraq Azərbaycan Respub-



likasının Baş Prokurorluğunda 2020-ci ildən həyata keçirilən islahatlar nəticəsində cinayət aktivlərinin bərpası istiqamətində əldə edilmiş nailiyyətlərə və həmçinin İdarənin fəaliyyət istiqamətlərinə dair ətraflı məlumat verib, gələcəkdə nəzərdə tutulan tədbirlərlə bağlı fikir və təkliflər təşkilatçıların nəzərinə çatdırıb.

# Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları

**#SORĞUYACAVAB – Xaçmaz rayonu ərazisində baş vermiş yanğın hadisəsi nəticəsində iki nəfər şəxsin ölməsi faktı ilə bağlı araşdırma aparılır**

Baş Prokurorluğunun Mətbuat xidmətindən daxil olmuş sorğuya cavab olaraq bildirilir ki, aprelin 10-u saat 02 radələrində Xaçmaz rayonu Xanoba kəndində fərdi yaşayış evində yanğın baş verməsi nəticəsində 1963-cü il təvəllüdlü Aslan Tarverdiyev və 1965-ci il təvəllüdlü Rumayə Tarverdiyevanın ölməsi faktı ilə bağlı Xaçmaz rayon prokurorluğunda araşdırma aparılır.




**Ermənistanda Dövlət bayrağımızın yandırılması faktı ilə bağlı cinayət işi başlanıb**




Aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş nümayişkarana hərəkətlərlə Azərbaycan bayrağı yandırılıb.

Ermənistanda Azərbaycana qarşı etnik zəmində nifrət və düşmənçiliyin təcəssümü olan həmin faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 12.2, 283.2.1 (zor tətbiq edilməklə milli nifrət və düşmənçiliyin salınması), 12.2, 283.2.2 (qulluq mövqeyindən istifadə etməklə milli nifrət və düşmənçiliyin salınması) və 12.2, 324-cü (Azərbaycan Respublikasının Dövlət bayrağı barədə təhqiredici hərəkətlər) maddələri ilə cinayət işi başlanıb.

Milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş bu cinayət əməlini törədən Aram Nikolyan və digərlərinin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilmələri məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndərilməsi və onların cəzalandırılmaları üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi təmin olunacaq.

Azərbaycan Respublikası "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunmuş Beynəlxalq konvensiyaya və bu qəbildən olan bütün əməllərin cəzalandırılmalı olması ilə bağlı prinsiplərə sadiqliyini bir daha nümayiş etdirir, eləcə də beynəlxalq ictimaiyyəti Ermənistanı kəskin qınamağa, o cümlədən Ermənistan tərəfindən beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl olunmasını təmin etməyə çağırır.

**Külli miqdarda kredit ayrılması məqsədilə rəsmi sənədlərin saxtalaşdırılması faktına görə cinayət işi başlanıb**

Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycan Respublikasında olan nümayəndəliyinə saxta sənədlər təqdim edilməklə həmin bankdan külli miqdarda kredit götürülməsi barədə daxil olmuş məlumatlar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.




Aparılmış araşdırma zamanı "H AND M AGRO" MMC, "GEMZA GROUP" MMC və "PKF Audit Azerbaijan" MMC-nin vəzifəli şəxsləri tərəfindən Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən kredit ayrılması üçün zəruri olan maliyyə və təsərrüfat sənədlərinin saxtalaşdırılmasına və qanunsuz olaraq kredit götürülməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Cinayət Məcəlləsinin müvafiq olaraq 195.2 (külli miqdarda ziyan vurmaqla qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə), 320.1 və 320.2-ci (rəsmi sənədləri saxtalaşdırma və bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə cinayət işinin başlanaraq ibtidai istintaqı aparılır.

**Naxçıvanda 20 il əvvəl törədilən qəsdən adam öldürmə hadisəsi üzrə cinayət işi başlanıb**




Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Muxtar Respublikanın Daxili İşlər Nazirliyi, eləcə də Ordubad rayon prokurorluğu və rayon polis şöbəsinin əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilən istintaq-əməliyyat tədbirləri ilə Ordubad rayonunun Xurs kəndində qeyri-aşkar şəraitdə qəsdən adam öldürmə cinayəti müəyyən edilib.

Aparılan araşdırmalarla Ordubad rayonunun Xurs kənd sakini 1967-ci il təvəllüdlü Elman Tarverdiyevin 2003-cü ildə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bacısı Məlahət Tarverdiyeva qəsdən öldürərək yaşadığı evin həyətində basdırmasına əsaslı şübhələr müəyyən olunub.

Meyit basdırıldığı yerdən qazılaraq çıxarılıb və ekspertiza təyin edilərək müayinəsi aparılıb.

Faktla bağlı Ordubad rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə başlanıb.

Cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Astarada meşəlik ərazidə kişi meyitinin aşkar olunması faktı ilə bağlı cinayət işi başlanıb**




Mayın 3-ü Astarada meşəlik ərazidə 1969-cu il təvəllüdlü Astara rayon sakini Eynəli Əzizlinin meyitinin aşkar olunması barədə rayon prokurorluğuna məlumat daxil olub.

İlkin araşdırma zamanı meyitin üzərində kəsici-deşici alətlə yetirilməyə xarakterik xəsarət izləri müəyyən edilib.

Faktla bağlı Astara rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

**#İNSANHÜQUQLARI – Uşaq hüquqları beynəlxalq kontekstdə**




1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən "Uşaqların Beynəlxalq Müdafiəsi Günü"nün (International Children's Day) qeyd olunması qərara alınmışdır. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilmişdir.

"Uşaq hüquqları" Konvensiyası dünyada ən geniş qəbul olunmuş insan hüquqları alətidir. Konvensiya uşaqların insan hüquqlarının bütün növlərini – mülki, siyasi, iqtisadi, sosal və mədəni – bir sənəddə birləşdirir. Konvensiya BMT Baş Assambleyası tərəfindən 20 noyabr, 1989-cu il tarixində qəbul olunmuş və 1990-cı ilin sentyabrında qüvvəyə minmişdir. Konvensiyanın 41 maddəsində 18 yaşdan aşağı hər bir uşağın insan hüquqlarına hörmət olunması və müdafiə edilməsi təsvir edilir.

Valideynlə uşağın birlikdə olmaq hüququndan istifadə etmələri "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 8-ci maddəsində nəzərdə tutulmuş "ailə həyatının" fundamental elementini təşkil edir və daxili qanunvericilikdə bu hüquqdan istifadəyə maneə yaradan tədbirlərin nəzərdə tutulması Avropa Konvensiyasının 8-ci maddəsi ilə qorunan hüquqa müdaxiləyə bərabərdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna əsasən, uşaqlarla bağlı bütün qərarlar qəbul edilərkən ilk növbədə onların üstün maraqlarının nəzərə alınması ideyasının dəstəklənməsi istiqamətində geniş konsensus mövcuddur (Noylinger və Şuruk İsveçrəyə qarşı, §135; X Latviyaya qarşı, §96). Uşağın üstün maraqları, xarakterindən və ciddilik dərəcəsindən asılı olaraq, valideynlərin maraqlarından üstün tutulur (Şahin Almaniyaya qarşı, §66). Bununla belə, valideynlərin maraqları, xüsusən onların uşaqla mütəmadi təmasda olmaq hüququ işdəki müxtəlif maraqlar balanslaşdırılarkən nəzərə alınmalı olan amildir (Noylinger və Şuruk İsveçrəyə qarşı, §134). Uşağın ailəsi ilə əlaqələrinin onun üçün münasib hesab edilmədiyi hallar istisna olmaqla, uşağın maraqları onun ailəsi ilə əlaqələrinin qorunub saxlanmasını tələb edir. Buradan belə nəticə çıxır ki, ailə əlaqələri yalnız son dərəcə müstəsna hallarda kəsilə bilər və şəxsi münasibətlərin qorunub saxlanması və məqsədəuyğun hallarda ailə münasibətlərinin "bərpa edilməsi" üçün mümkün olan hər şey edilməlidir (Qnaore Fransaya qarşı, §59).

**#maariflənək - Sahibkarlıq fəaliyyəti nədir?**




Sahibkarlıq fəaliyyəti nədir?

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir.

Sahibkarlıq fəaliyyətini həyata keçirən şəxsin vergi ödəmək vəzifəsi:

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs vergi ödəyicisi kimi dövlət qeydiyyatına alınmalıdır.

Dövlət qeydiyyatına alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs vurduğu ziyanın və ya əldə etdiyi gəlirin miqdarından asılı olaraq inzibati və ya cinayət məsuliyyəti daşıyır.

Dövlət qeydiyyatına alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs hansı halda inzibati məsuliyyətə cəlb edilir?

Dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 50.000 manatadək məbləğdə ziyan vuran və ya gəlir əldə edən şəxs inzibati məsuliyyətə cəlb edilir və inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən dörd mislinədək miqdarda inzibati cərimə edilir.

Dövlət qeydiyyatına alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs hansı halda cinayət məsuliyyətinə cəlb edilir?

Dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 50.000 manatdan artıq məbləğdə ziyan vuran və ya gəlir əldə edən şəxs cinayət məsuliyyətinə cəlb edilir və cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**#gününrəqəmi – 90**




Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə media və sosial şəbəkələrdə #gününrəqəmi həştəqi ilə məlumatlar yerləşdirilir. Bu günün rəqəmi isə 90-dır. Belə ki, 2023-cü ilin may ayı ərzində prokurorluq orqanlarında istintaq olunan 90 cinayət işi məhkəməyə göndərilib.

Prokurorluq orqanlarının fəaliyyətindəki bu və ya digər yeniliklərdən xəbərdar olmaq üçün sosial şəbəkə səhifələrinin izlənilməsi tövsiyə olunur.

#gününrəqəmi

**#hüquqikazus – Təqsirləndirilən şəxsin hüquqları pozulubmu?**




Cinayət Məcəlləsinin 155 (yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozma) və 156.1-ci (ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması) maddələrilə təqsirləndirilən (A) orta məktəbi rus dilində bitirib. O, azərbaycan dilində danışa bilsə də, dilimizdəki bəzi çətin sözləri başa düşmür.

Həmçinin, cinayət işinin materiallarına əlavə edilmiş (A)-nın Cinayət Məcəlləsinin 175-ci (övladlığa götürmə sirrini yayma) maddəsilə məhkum edilməsinə dair məhkəmə hökmündən görünür ki, o, həmin iş üzrə icraat zamanı azərbaycan dilindən rus dilinə tərcüməçi ilə təmin edilib. Bununla yanaşı, (A) istintaq zamanı ona tərcüməçi təyin olunmasını xahiş edib.

Cinayət Prosessual Məcəlləsinin 26.2-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqan cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının öz ana dilindən istifadə etmək, eləcə də, ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək, ibtidai araşdırma qurtardıqdan sonra cinayət işi və ya cinayət təqibi ilə bağlı digər materiallarla tam tanış olmaq, məhkəmədə ana dilində çıxış etmək hüquqlarını təmin etməlidir.

Həmin Məcəllənin 91.5.12-ci maddəsinə əsasən təqsirləndirilən şəxsin tərcüməçinin köməyindən pulsuz istifadə etmək hüququ var.

Beləliklə, təqsirləndirilən şəxs ibtidai araşdırma zamanı cinayət prosesinə cəlb edildiyi andan onunla aparılmış istintaq hərəkətlərində tərcüməçi iştirak etmədiyindən və barəsində toplanmış istintaq materialları ilə sərbəst bildiyi dildə tanış ola bilmədiyindən, eləcə də ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsaslarını başa düşmədiyindən öz səmərəli müdafiəsini qurmaq imkanından məhrum olub.

Qeyd olunanlar təqsirləndirilən şəxsin tərcüməçinin köməyindən istifadə və müdafiə hüququnun pozulması kimi qiymətləndirilməlidir.

**Ekoloji hüquqpozmalarla bağlı cinayət işi başlanıb**




Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində İmişli rayonu ərazisində qanunsuz qum-çınqıl hasilatı və torpaq sahəsinin qanunsuz zəbt edilməsi faktları ilə bağlı araşdırma aparılıb.

Araşdırmalar zamanı İmişli rayonunun Qaradonlu, Xubyarlı və Qaralar kəndi yaxınlığında “İmişli” qum-çınqıl yatağında “SND Group” MMC-nin vəzifəli şəxsləri, habelə fərdi sahibkarlar tərəfindən torpaq sahələrinin zəbt edilərək qanunsuz qum-çınqıl hasilatı işlərinin aparılması nəticəsində təbiətə ümumilikdə 158 min manatdan çox ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanaraq istintaqın aparılması üçün Baş Prokurorluğun İstintaq idarəsinə göndərilib.

İbtidai istintaq davam edir.

## Füzulidə "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" adlı tədbir keçirilib





Mayın 16-da Füzuli rayon prokurorluğu tərəfindən rayonun Böyük Bəhmənli kəndində yerləşən 1 nömrəli tam orta məktəbdə "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" adlı tədbir keçirilib.

Tədbirdə Füzuli rayonunun hüquq-mühafizə orqanlarının əməkdaşları ilə yanaşı, məktəbin yuxarı sinif şagirdləri iştirak edib.

İştirakçılara narkotik vasitə və psixotrop maddələrin insan orqanizminə və sağlamlığına zərəri barədə ətraflı məlumat verilib və mövzu ilə bağlı şagirdlərin çoxsaylı sualları ətraflı cavablandırılıb.

## Sumqayıtda "Demokratik cəmiyyətdə prokurorluğun rolu" mövzusunda tədbir keçirilib



Mayın 17-də keçirilmiş tədbirdə Sumqayıt Dövlət Universitetinin rəhbərliyi, professor-müəllim və tələbə heyəti ilə yanaşı, Sumqayıt şəhər prokurorluğunun əməkdaşları iştirak edib.

Tədbirdən əvvəl Universitetin rektoru, professor Elxan Hüseynov və şəhər prokuroru Mürvət Həsənov ümummilli lider Heydər Əliyevin universitetin foyesində ucaldılmış büstü önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib.

Açılış nitqində dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətləri, şərəfli ömür yolu və məharətli dövlətçilik təcrübəsindən bəhs edən Elxan Hüseynov Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, qanunçuluğun təmin edilməsində, cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının rolunun yüksək olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Sumqayıt şəhər prokuroru Mürvət Həsənov prokurorluq orqanlarının yaranma tarixi, onun inkişafının əsas mərhələləri, qazandığı uğurlar, qanunçuluğun qorunmasında səmərəli fəaliyyəti və bütövlükdə respublikamızda hüquqi dövlətin qurulmasında və hüquq sisteminin möhkəmləndirilməsində artan rolu barədə ətraflı məlumat verib.














Vurğulanıb ki, Ulu Öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların azad və sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb, hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub.

Tədbir zamanı tələbələrlə səmimi fikir mübadiləsi aparılmaqla yanaşı, onların prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sualları cavablandırılıb.



# Zərifə Əliyeva - böyük alim, nəcib Azərbaycan qadını, qayğıkeş həyat yoldaşı, fədakar ana




28 aprel 2023-cü ildə Azərbaycan oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftalmoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 100 ili tamam olmuşdur.

Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş akademik Zərifə xanım Əliyevanın portretinin əsas cizgiləridir.

Sıravi həkimlikdən akademikliyə qədər yüksəlmiş Zərifə xanım oftalmologiya elminin inkişafına dəyərli töhfələr vermiş, onun zəngin irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrindəndir.

Bütün bu uğurların kökündə isə akademik Zərifə Əliyevanın aldığı həyat dərsi dayanırdı. Zərifə xanım 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində, dövrünün görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdı. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-1947 illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində təhsil almış, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisasartırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnmişdir.

Həmin dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı, traxoma tüğyan edirdi. Məhz belə bir vaxtda Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışan Zərifə xanım Əliyevanın elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, xəstəlik ocaqlarını aşkarlayır, göz həkimlərinə mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Çox keçmədən Zərifə xanım traxoma xəstəliyinin başlanğıc dövründə sintomisinin tətbiqində uğurlu nəticələrə nail oldu. Onun təklif etdiyi müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapdı və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv olundu.

Görkəmli alim sonra fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım oftalmologiyanın aktual problemlərinə xüsusi diqqət yetirirdi. Onun diqqətini oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi – görmə orqanının peşə patologiyası cəlb edir. Bu problemin aktuallığı yalnız kimya və elektronika sənayesinin geniş inkişafı ilə deyil, həm də bir çox yeni kimyəvi birləşmələrin görmə orqanına təsirinin elmi şəkildə tədqiqi ilə əlaqədar idi. Zərifə xanım bu sahənin ilk tədqiqatçısı olub. Görkəmli alim dünyada ilk olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub. Zərifə xanım Əliyeva bu sahəyə dair araşdırmalarının ilkin nəticələrini ümumiləşdirərək Moskvada, M.Helmholts adına Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın kimya sənayesi işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru alimlik dərəcəsi verilib.

1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalmologiyanın inkişafına verdiyi töhfələrə görə akademik Zərifə Əliyevaya keçmiş ittifaqın oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax mükafatı verilmiş, O, həmin mükafata layiq görülən ilk qadın alim olmuşdur.



vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib.

Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Zərifə Əliyeva "Yüksək əqidə: (Həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)" kitabında qeyd etmişdir: "Təbabət daim inkişaf edir, o dəyişməyə, yeniləşməyə bilməz, yeganə dəyişməyən həkimin qarşısında duran yüksək mənəvi etik, peşəkarlıq tələbləridir.

Hər bir şəxsiyyətin sosial-ictimai dəyərli davranışında mənəvi stimullar geniş yer tutur: sadiqlik, ictimai vəzifənin yüksək şüurla dərk edilməsi, mənəviyyatımızın normalarının və prinsiplərinin dərindən mənimsənilməsi.

İnsanın hərtərəfli mənəvi inkişafı cəmiyyət quruculuğunun başlıca məqsədlərindəndir. İnsanın əqidəli, mənəvi inkişafı eyni zamanda qazandığı çox böyük müstəqil dəyərdir. Əxlaqi tərbiyə və təbabət insanların səmərəli tələbatının əsaslandırılmasında qarşılıqlı fəaliyyət göstərir, ümumi və şəxsi həyatda sağlam həyat tərzini, adət və davranış qaydalarını təsdiqləyir.



Qeyd olunan fikirlər Zərifə xanımın həyat qayəsini təşkil etmişdir.

Böyük alim, nəcib Azərbaycan qadını, qayğıkeş həyat yoldaşı, fədakar ana Zərifə xanım Əliyevanın əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

Zərifə xanım bir sıra dərs vəsaiti və monoqrafiyaların da müəllifi olub. Onların arasında "Herpetik göz xəstəliyi", "Kəskin virus konyunktivitləri", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" əsərləri xüsusi yer tutur. Bununla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan- iridodiaqnostika yəni görmə orqanı vasitəsilə müxtəlif xəstəliklərə diaqnoz qoyulması və iridoterapiya problemləri ilə məşğul olub, bu sahəyə dair iki monoqrafiya yazıb.

Bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 12 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs

**Aynur Osmanova,**
**Azərbaycan Respublikası Baş Prokurorluğunun**
**Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi**
**baş ədliyyə müşaviri**

# İşğal siyasətinin ilk qurbanı - Bağanis-Ayrım soyqırımından 33 il ötür

**Firad Əliyev**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Mətbuat xidmətinin rəhbəri baş ədliyyə müşaviri**



Azərbaycan Respublikasının vətəndaşlarına qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq cinayətlərinin və digər cinayətlərin istintaqı, onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyənləşdirilərək mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 2003-cü il dekabrın 18-də Baş Prokurorun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin vahid əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılıb. 2005-ci il mayın 5-dən isə həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik öz təşəbbüsü ilə Baş prokurorun müavini, Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyevə həvalə edilməklə, Hərbi Prokurorluğa tapşırılıb. Cinayət işi Respublika Hərbi Prokurorluğunda icraata götürüldükdən sonra yeni istintaq-əməliyyat planı tərtib olunub, işin ibtidai araşdırması əvvəlki illərdən fərqli olaraq, cinayət işinin vahid istintaq-əməliyyat planına əsasən ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq normalarına, eləcə də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Cinayət Prosessual Məcəllənin tələblərinə tam uyğun və baş vermiş cinayət hadisələrinin hər birinin mahiyyəti üzrə aparılıb.




Cinayət təqibi üzrə toplanmış materialların həcminin böyüklüyü, araşdırılmalı olan xüsusatların çoxluğu, eyni zamanda, cinayətlərin törədilmə üsul və vasitələri, xarakteri nəzərə alınaraq, araşdırmanın səmərəliliyini və operativliyini təmin etmək məqsədilə iş üzrə 5 əsas istiqamət – Azərbaycan xalqına qarşı soyqırımı; əsir düşmüş və girov götürülmüş şəxslərə qarşı işgəncə; terror; dövlətə və vətəndaşlara vurulmuş ziyan; müasir dövrdə milli ədavət və düşmənçilik niyyəti ilə törədilmiş xüsusilə ağır cinayətlər kimi istiqamətlər müəyyənləşdirilib.

Həmin istiqamətlər üzrə cinayət hadisələrinin araşdırılması, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli olan şəxslərin müəyyənləşdirilməsi, sübutların toplanılması və təqsirləndirilən şəxs qismində cəlb olunması yönündə işlər davam etdirilib.




"İstintaq materialları ilə Bağanis-Ayrım soyqırımı epizodu üzrə sübuta yetirilib ki, 1990-cı il martın 24-də saat 8 radələrində azərbaycanlıları bir milli qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmək, eləcə də beynəlxalq hüquq normaları və Azərbaycan qanunları ilə müəyyən edilmiş əsaslar olmadan kənd sakinlərini daimi yaşayış yerlərindən didərgin salmaqla onları qovmaq, azərbaycanlı əhaliyə, onların evlərinə, idarə müəssisə və təşkilatlara basqınlar etmək və azərbaycanlılara qarşı digər cinayətlər törətmək məqsədilə qanunsuz erməni silahlı birləşmələri Ermənistan ərazisindən Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum edərək müxtəlif istiqamətlərdən çeşidli hərbi texnika, döyüş və xüsusi təyinatlı nəqliyyat vasitələrlə kəndə daxil olaraq iriçaplı odlu silahlardan, pulemyotlardan, avtomatlardan, qumbaraatanlardan intensiv atəşlər açmaqla əhalini, yəni dinc kənd sakinlərini küçələrdə və öz evlərində atəşə tutub.

Nəticədə məhz azərbaycanlı olduqlarına görə üçü qadın, biri 39 günlük körpə olmaqla 10 nəfər ağlasığmaz işgəncələr verilməklə xüsusi amansızlıqla qətlə yetirilib, iki şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib. Eyni zamanda 12 yaşayış evi qarət edilərək yandırılıb, eləcə də 438 nəfər kənd sakini beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadan qanuni yerləşdikləri yerlərindən məcburən didərgin salınıblar.



Cinayət işinin istintaqı zamanı konkret olaraq Bağanis-Ayrım soyqırımı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayətlər törətmələri sübuta yetirilmiş 18 şəxs barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (Soyqırım) və 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul olunub. Həmin şəxslərin barəsində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və onların axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycandakı Milli Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Hazırda bu istiqamətdə hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bağanıs Ayrım Qazaxın tarixinə ermənilər tərəfindən ilk işğal edilmiş və yandırılmış kənd kimi daxil olub. Erməni quldurları bu qanlı hadisədən sonra Qazaxın daha 6 kəndini - Xeyrimli, Aşağı Əskipara, Sofulu, Badxudarlı, Qızıl Hacılı, Yuxarı Əskipara kəndlərini də işğal ediblər. Bu gün Qazaxın yeddi kəndi terrorçuluğu dövlət səviyyəsində həyata keçirən Ermənistanın işğalı altındadır. 1990-cı ilin martında Bağanıs Ayrımda törədilən qətliam erməni silahlı qüvvələri tərəfindən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda daha geniş miqyasda təkrarlandı.






Ölkəmizdə həyata keçirilən uğurlu xarici siyasətin sayəsində artıq dünya əhalisinin böyük hissəsi tarix boyu xalqımızın başına gətirilən müsibətlər, o cümlədən soyqırımılar, deportasiyalar, terrorlar, repressiyalar və sair barədə səhih və ətraflı məlumatlara malikdir. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə bu istiqamətdə önəmli işlər görülüb. Soyqırımı həqiqətlərinə dair tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılması, onlara beynəlxalq səviyyədə obyektiv və ədalətli, yəni milli maraqlarımıza uyğun münasibət bildirilməsi, bununla əlaqədar respublikamızda və ölkəmizdən kənarda həyata keçirilən sistemli və ardıcıl tədbirlər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasətinin, o cümlədən bu sahədəki misilsiz fəaliyyətinin təcəssümüdür. Birinci vitse-prezident Mehriban Əliyevanın, eləcə də onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə görülən böyük işlər də mühüm əhəmiyyət kəsb etməkdədir. Həmçinin Ermənistan silahlı qüvvələrinin Bağanıs Ayrım kəndində törətdiyi soyqırımın dünya ictimaiyyətinə çatdırılması məqsədi ilə bu faciədə həlak olmuş şəxslərin xatirəsi əbədiləşdirilib, abidə kompleksi ucaldılıb.



# Ermənistanın Azərbaycana hərbi təcavüzü şəraitində informasiya siyasəti

**Xülasə**

**Xəyalə Kələşova**
**Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının Müraciətlərə baxılması departamentinin mütəxəssisi (Azərbaycan)**
E-mail: xayala_kalashova@yahoo.com

Azərbaycan dövlətinin bu günümüz üçün xüsusilə mühüm əhəmiyyət kəsb edən problemlərindən biri Ermənistanın Azərbaycana hərbi təcavüzü problemidir. Daha doğrusu, Azərbaycan xarici siyasət kursunun əsas vektorlarından birini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması təşkil edir. Belə nəticələrin aradan qaldırılması isə müasir informasiya-kommunikasiya tələblərini nəzərə alan milli informasiya və media siyasətindən kifayət qədər asılı bir məsələdir. Problemin müasir beynəlxalq hüquq və media kontekstində nəzərdən keçirilməsi bir sıra səbəblərə görə daha vacibdir. Birincisi, bu hərbi təcavüzün mahiyyəti barədə məlumatlar konkret müəyyən olunan informasiya siyasəti nəticəsində mediada, xüsusən İnternetdə yayılan beynəlxalq təbliğatla sıx bağlıdır. İkincisi, bu problem siyasi elementlərdən daha çox beynəlxalq cinayət elementləri ilə zəngindir. Yəni, bu əməl sırf ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qəsdlə xarakterizə olunur. Bu məqam mediada xüsusi olaraq qabardırmalıdır. Eyni zamanda, Ermənistanın Azərbaycana hərbi təcavüzünün bütün tarixi dövrləri ərzində Beynəlxalq Cinayət Məhkəməsi Statutunun 5-ci maddəsində təsbit olunan digər beynəlxalq cinayət tərkiblərini özündə ehtiva edən kifayət qədər faktlar mövcud olmuşdur ki, bu da dünya mediasında artıq yayımlanmışdır.

**Abstact**

**Xayala Khalashova**
**State Social Protection Fund On Special Terms Specialist of the Department for consideration of Appeals of the Central Branch on appointment**
Email: xayala_kalashova@yahoo.com

**INFORMATION POLICY IN THE CONTEXT OF ARMENIA'S MILITARY AGGRESSION AGAINST AZERBAIJAN**

One of the problems of the Azerbaijani state, which is of particular importance today, is the problem of Armenia's military aggression against Azerbaijan. More precisely, one of the main vectors of the foreign policy course of Azerbaijan is the elimination of the consequences of Armenia's military aggression against Azerbaijan. The elimination of such consequences is quite dependent on the National Information and media policy, which takes into account modern information and communication requirements. Consideration of the problem in the context of modern international law and the media is more important for a number of reasons. Firstly, information about the nature of this military aggression is closely related to international propaganda, which, as a result of a specifically defined information policy, spreads in the media, especially on the Internet. Secondly, this problem is more rich in international criminal elements than political ones. That is, this act is characterized exclusively by an encroachment on the territorial integrity and sovereignty of our country. This point should specifically bubble in the media. At the same time, during all the historical periods of the military aggression of Armenia against Azerbaijan, there were enough facts containing other international criminal articles enshrined in Article 5 of the statute of the International Criminal Court, which have already been published in the world media.

**Аннотация**

**ХаялаКалашова**
**Специалист отдела рассмотрения заявлений Центрального отделения Государственного фонда социальной защиты о назначении с особыми условиями**
Электронная почта: khayala_kalashova@yahoo.com

**ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В УСЛОВИЯХ ВОЕННОЙ АГРЕССИИ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА**

Одной из важнейших проблем Азербайджанского государства сегодня является проблема военной агрессии Армении против Азербайджана. Точнее, одним из основных векторов внешнеполитического курса Азербайджана является ликвидация последствий военной агрессии Армении против Азербайджана. А

устранение таких последствий является достаточно зависимым вопросом от национальной информационной и медийной политики, учитывающей современные информационные и коммуникационные требования. Рассмотрение проблемы в контексте современного международного права и СМИ более важно по ряду причин. Во-первых, информация о сущности этой военной агрессии тесно связана с международной пропагандой, которая распространяется в средствах массовой информации, особенно в интернете, в результате конкретно определенной информационной политики. Во-вторых, эта проблема гораздо богаче международными криминальными элементами, чем политическими. То есть данный акт характеризуется сугубо посягательством на территориальную целостность и суверенитет нашей страны. Этот момент должен особенно выделяться в СМИ. В то же время за все исторические периоды военной агрессии Армении против Азербайджана существовало достаточно фактов, содержащих другие международные составы преступлений, закрепленные в статье 5 Статута Международного уголовного суда, которые уже были опубликованы в мировых СМИ.

**Açar sözlər:** beynəlxalq hüquq, dövlət, təcavüz, hərbi işğal, insan hüquqları, beynəlxalq cinayət məhkəməsi, ərazi bütövlüyü

**Key words:** international law, state, aggression, military occupation, human rights, international criminal court, territorial integrity

**Ключевые слова:** международное право, государство, агрессия, военное вторжение, права человека, международный уголовный суд, территориальная целостность

**Giriş**

Müstəqilliyə nail olduqdan, xüsusilə də 1993-cü ildən sonra vahid informasiya siyasətinin formalaşması və təhlükəsizliyinin təminatı, informasiya mühitinin yaradılması sahəsində xeyli iş görülmüşdür. KİV-in fəaliyyətini tənzimləyən qanunvericilik bazası yaradılaraq beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul etdiyi yeni Konstitusiyanın 47-ci maddəsi hər kəsin fikir və söz azadlığı olduğunu, 50-ci maddə isə hər kəsə istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı verir. 1998-ci il avqustun 6-da Prezidentin fərmanı ilə senzura birdəfəlik ləğv edildi. Fərmanda göstərilirdi ki, KİV-də istənilən fikir demək, dövlət sirri təşkil etməyən faktı açıqlamaq üçün qeyri-məhdud imkanlar vardır. Bu da "Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmiş, ölkənin informasiya siyasətini dolğunlaşdırmışdır" [1].

Azərbaycan dövləti 2000-ci ildə Mətbuat və İnformasiya Nazirliyini ləğv etməklə bir daha sübut etdi ki, o mətbuat üzərində nəzarət funksiyasından imtina edir. 2003-cü ildə demokratik cəmiyyətin mahiyyətindən doğan tələb və zərurət kimi özünütənzimləmə mexanizmi olan Mətbuat Şurası yarandı. Onun əsas məqsədi dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyasını həyata keçirməkdir. Azərbaycan Avropa Şurasına daxil olduqdan (2001) sonra beynəlxalq müqavilələrə riayət edilməsini ön plana çəkir və İnsan Hüquqları və Avropa Konvensiyasının sənədlərinə hörmətlə yanaşır. Həmin sənədlərə əsasən hər bir şəxsin söz azadlığı istənilən sərhəd daxilində hakimiyyətin müdaxiləsi olmadan məlumat almaq və ötürmək hüququ var.

Bu tələblərə cavab verən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni Qanununun qəbulu (1999) və ona sonrakı əlavələr söz və mətbuat azadlığına tam təminat verir. Razılaşaq ki, elektron medianın ictimai rəyə təsiri çap mediasından daha böyükdür. Beynəlxalq standartlara cavab verən "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu (2002) teleradio yayımını tənzimləyir. Teleradio fəaliyyətinin əsas prinsipləri qanunun 3-cü maddəsində öz əksini tapıb. Həmin maddədə göstərilir: "Yayımçı öz fəaliyyətində informasiyanın əhatəliyi, obyektivliyi, tam və doğru-düzgünlüyü, vətəndaşların öz fikir və baxışlarını sərbəst ifadə etməsi, ideoloji və siyasi plüralizm, tərəfsizlik və qərəzsizlik, insanların şəxsi həyatına müdaxilənin yolverilməzliyi, milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsinə, proqramların keyfiyyətliyi prinsiplərinə əsaslanır". Ölkədə teleradionun tənzimlənməsini dövlət qurumu Milli Teleradio Şurası (2002) həyata keçirir. Onu da qeyd edək ki, Şura öz fəaliyyətində Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Milli Televiziya və Radio Şurasının Əsasnaməsini rəhbər tutur.

2004-cü ildə"İctimai Televiziya və radio yayımı haqqında" qanun qəbul olundu. Qanundakı bəzi maddələr məhz Avropa Şurasının ekspertlərinin iştirakı ilə razılaşdırılmışdır. Avropa Şurası Baş katibinin xüsusi nümayəndəsi Mats Linberq qeyd edir ki, Avropa Şurası İctimai Televiziyanın varlığını həqiqi demokratiyanın reallaşması və demokratik cəmiyyətin əsası kimi qəbul edir. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından. "KİV haqqında", "Dövlət sirri haqqında", "Rabitə haqqında", "İnformasiya əldə etmək haqqında" Qanunlardan və digər nominativ aktlardan ibarətdir. Onu da bildirək ki, "Dövlət sirri " haqqında Qanuna sonralar bu kateqoriyaya aid siyahıya hərbi sahəyə, dövlətin kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinə dair məlumatlar əlavə edilmişdir.

BMT Baş Assambleyasının Təcavüzün tərifi haqqında 1974- cü il tarixli qətnaməsinə görə təcavüz dedikdə, bir dövlətin digər dövlətin suverenliyi,ərazi bütövlüyü,və ya siyasi müstəqilliyi əleyhinə və ya bu tərifdə müəyyən olunduğu kimi, bu və ya digər şəkildə BMT Nizamnaməsi ilə bir araya sığmayan silahlı güc tətbiq etməsi başa düşülür. Göründüyü kimi, ərazi bütövlüyü təcavüz cinayətinin başlıca elementi kimi nəzərdə tutulur. Eyni zamanda,ərazi bütövlüyü məsələsi Avropa Konvensiyasının 10-cu maddəsi ilə məhdudlaşdırılan elementlərdəndir. Deməli, təcavüzlə bağlı jurnalist məlumat verərkən beynəlxalq hüququn və ölkənin milli informasiya siyasətinin tələblərini ciddi şəkildə gözləməlidir. Bu barədə KİV-ə ötürülən məlumatlar heç bir halda separatizmə və digər cinayətkar meyllərə şərait yaratmamalıdır.

Media üçün zəruri olan element problemin necə adlandırılması məsələsidir. Bu, birbaşa beynəlxalq hüququn tələbidir və problemin beynəlxalq hüquqi cəhətdən düzgün adlandırılmasının praktik olaraq pozitiv istiqamətli həll prosesinin daha da sürətləndirilməsinə yardımçı ola bilər. Əksəriyyət normativ-hüquqi aktlarda, KİV-də və ədəbiyyatlarda faktların “Dağlıq Qarabağ münaqişəsi”, “işğal”, “müdaxilə” kimi terminlərlə təqdim olunması baş verən hərəkət və hərəkətsizlikləri beynəlxalq hüquqi parametrlərinə görə kifayət qədər əhatə etmir və əsas mahiyyətdən yayınmağa səbəb olur. Digər tərəfdən isə bu cür adlandırılma hadisələrin kriminal mahiyyətinin aşkarlanmasına mane ola bilər. Cinayəti mediada məhz davamlı olaraq cinayət kimi xarakterizə etmək zəruridir. 1992-ci il ərzində BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrdə, qəbul olunan bəyanatlarda problemin “Dağlıq Qarabağ münaqişəsi” adlandırılması, Ermənistanın hərəkətlərinin “təcavüz” deyil, “müdaxilə”, “işğal”, “soxulma” və s. kimi terminlərlə ifadə olunması bu dövlətin təcavüzkar fəaliyyətinin ört-basdır edilməsi idi. Dövlət olaraq Ermənistanın, fərd olaraq isə onun siyasi və hərbi rəhbərlərinin törətdiyi kompleks cinayətlərə (soyqırım, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, terrorçuluq) görə isə müasir beynəlxalq hüquq ad hoc (xüsusi) Beynəlxalq Hərbi Tribunal formalaşdırılmasını labüd edir.

**Əsas hissə**

10 fevral 2006-cı il Rambuye danışıqlarından sonra Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı media üçün əhəmiyyətinə görə, yeni beynəlxalq hüquqi tendensiya olan informasiya təcavüzü, və informasiya müharibəsi meydana gəldi. Ermənistan etiraf etdiki,həll prosesində Rambuye danışıqlarının uğursuzluğa düçar olmasının səbəbi Ermənistanın informasiya müharibəsində Azərbaycana uduzmasıdır.

“İnformasiya təcavüzü“ beynəlxalq hüquqda yeni termin olub, elektron və digər kütləvi informasiya vasitələrinin, veb-resurslarının köməyi ilə faktiki müharibə vəziyyətində olan tərəflərin bir-birinə qarşı istifadə etdiyi arqumental informasiyalara əsaslanan virtual hücum metodlarının məcmusu kimi çıxış edir. Bu əksər hallarda silahlı təcavüzə məruz qalan tərəf üçün özünümüdafiə vasitəsi kimi xüsusi effektiv əhəmiyyətə malik ola bilər. Nəticə etibarilə uğurlu alınan Çin təcrübəsi buna yaxşı nümunə hesab oluna bilər. Bu nümunədə “informasiya təcavüzü”nün iki aspektinə toxunulur: birincisi “iqtisadi informasiya təcavüzü”, ikinci isə “mədəni informasiya təcavüzü”. Bu, ABŞ və Çin arasında gələcək geopolitik qarşıdurmadan yayınmaq üçün Çin rəhbərliyindən müasir şərtlərlə informasiya əməliyyatlarına hazırlığın tələb olunması ilə əlaqədar idi. Əslində bunun nəticəsidir ki, hazırda Çin İnternet istifadəçilərinin sayına görə dünyada ilk yerlərdən birinə sahibdir. 2001-ci ilin yazında Tayvan boğazında Amerika kəşfiyyat təyyarələri ilə baş verən insidentdən sonra amerikalılar Çinin informasiya siyasəti qarşısında tab gətirə bilmədilər. Faktiki olaraq, Çin strateji baxımdan ABŞ-a qalib gəldi. Xaynan adasında kəşfiyyat təyyarələri ilə əlaqədar insidentlə nəticələnən böhran zamanı Çin xakerləri ABŞ müdafiə nazirliyinin informasiya sisteminə hücum etmiş və nəticə kifayət qədər effektiv alınmışdır [6, s.475].

Beləliklə, XXI əsrin informasiya-kommunikasiya texnologiyalarının inkişaf tempi nəzərə alınmaqla, ilk növbədə informasiya təhlükəsizliyi haqqında xüsusi konsepsiya, o cümlədən Ermənistanın Azərbaycana hərbi təcavüzü, belə aktdan özünümüdafiə və informasiya hücumlarının təşkili taktikasını özündə əks etdirən müddəalar işlənib hazırlanmalıdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması hazırkı dövlət və hüquq siyasətimizin əsas vektorlarından birini təşkil edir. Bu, xüsusilə müasir informasiya-kommunikasiya tələblərini nəzərə alan milli KİV siyasəti, o cümlədən, informasiya təhlükəsizliyi və media azadlığı ilə kifayət qədər bağlı bir məsələdir. Çünki Ermənistan-Azərbaycan cəbhə xəttində hazırda rəsmi şəkildə atəşkəs elan olunsa da, müharibə şəraiti, o cümlədən, informasiya müharibəsi davam etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyul 2010-cu ildə Mətbuat Şurasının yeni binasının açılışında etdiyi çıxışını qeyd olunan məsələ ilə bağlı istər medianın məsuliyyət yükü, istərsə də problemin köklü həll prosesi üçün tarixi və konseptual əhəmiyyətli hadisə hesab etmək olar. Ali Baş Komandan öz nitqində vurğulayırdı ki, jurnalistikada vətənpərvərlik mövzuları ilə bağlı daha da ciddi işlər aparılmalıdır, xüsusilə, müharibə şəraitində olan ölkələrdə bu, daha böyük məna daşıyır. “Azərbaycan müharibə şəraitində

yaşayır, ona görə gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işində medianın müstəsna xidmətləri vardır".

Eyni zamanda, dövlət başçısı problemin cinayət xarakterinə toxunaraq qeyd edir: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər biz daim Ermənistana qarşı bütün istiqamətlərdə, bütün yollarla, bütün formalarda hücum siyasətini aparmalıyıq. Xüsusilə nəzərə alsaq ki, həqiqət bizim tərəfimizdədir - faktlar, materiallar, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının işğalı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması. Bu siyasəti törədənlər hərbi cinayətkarlardır və vaxt gələcək onlar bu cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər. Ona görə mən hesab edirəm ki, biz bu istiqamətdə daha da ciddi işlər aparmalıyıq. Separatistlərə bəraət qazandırmaq, onlardan müsahibə götürmək, onları təbliğ etmək, azərbaycanlıları dəhşətli günahlarda suçlandırmaq - bu bağışlanmazdır. Azərbaycan mediasında belə hallara qarşı çox ciddi və operativ reaksiya verilməlidir. Bu məsələ ilə bağlı jurnalist həmrəyliyi yox, vətəndaş həmrəyliyi olmalıdır". Əlbəttə, istənilən müharibədə qələbə düzgün həyata keçirilən informasiya siyasətindən və subyektlərin davranışından kifayət qədər asdı bir məsələdir. Ona görə də, Azərbaycanda KIV nümayəndəsinin müharibə şəraitində davranışına ciddi yanaşılmalıdır.

Müasir qlobal çağırışlar fonunda informasiya təhlükəsizliyinin təmini hər bir dövlətin arzuolunmaz xarici və daxili təhdidlərdən qorunması, milli mənafelərini qətiyyətlə müdafiə etməsi, diplomatik-siyasi və təbliğati müstəvilərdə üstünlük qazanması baxımından müstəsna əhəmiyyət kəsb edir. Xüsusən də fövqəladə və ya hərbi vəziyyət rejimlərində ölkənin təhlükəsizliyinə yönəlmiş məqsədli informasiya manipulyasiyalarının neytrallaşdırılması və ictimai rəyin düzgün istiqamətləndirilməsi son dərəcə zəruridir. Milli informasiya məkanının mühafizəsi məqsədilə məhdudlaşdırılması, qanunvericiliklə zəruri hesab edilən məlumatların əhatə dairəsinin dəqiq müəyyənləşdirilməsi də bu baxımdan xüsusi qeyd olunmalıdır.

Azərbaycan Respublikasının 30 ilə yaxın müddətdə işğal altında olan ərazilərinin azad edilməsi məqsədilə sentyabrın 27-də noyabrın 10-dək həyata keçirilmiş əks-həmlə əməliyyatlarının - Vətən Müharibəsinin gedişi ölkəmizin informasiya müstəvisində mühüm uğurları ilə yanaşı, bəzi nöqsan və qüsurları, zəif nöqtələri də aşkara çıxarmışdır.

Hərbi əməliyyatlar müddətində və sonra qarşıda duran əsas vəzifələrdən biri Ermənistanın və ermənipərəst dairələrin ölkəmizə qarşı apardıqları ideoloji terrorun - informasiya təxribatlarının qarşısının alınması və səmərəli əks-hücumun təşkili məsələləri olmuşdur. Müşahidələr göstərmişdir ki, hərbi və siyasi müstəvilərdə sarsıdıcı zərbələrə, məğlubiyyətə düçar olmuş Ermənistan məhz KİV-lər, sosial şəbəkələr və digər yeni media alətləri üzərindən ölkəmizə qarşı informasiya təxribatlarını genişləndirməyə çalışmışlar. Buna baxmayaraq, respublikamız təkcə döyüş meydanında deyil, həm də diplomatiya və informasiya cəbhəsində Ermənistan üzərində üstünlüyünü qorumuş və təcavüzkar dövlətin beynəlxalq miqyasda ifşasına nail olmuşdur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin hərbi əməliyyatların başlanmasından xeyli əvvəl, eləcə də müharibə və postkonflikt dövründəki fəaliyyəti - yerli və xarici mediada müsahibələri, xalqa müraciətləri, mühüm açıqlama və bəyanatları ölkəmizə qarşı informasiya təxribatlarının qarşısının alınması və milli həqiqətlərin dünya arenasına çıxarılması baxımından xüsusilə əhəmiyyətli olmuşdur.

Xatırlatmaq lazımdır ki, hələ 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında təşkil edilmiş debatda Prezident İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanı ciddi fakt və arqumentlərlə ifşa etməsi, iyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatlı sammitində Ermənistanın danışıqları pozmaq cəhdlərini xüsusi vurğulaması, sentyabrın 21-də BMT-nin videokonfrans formatlı 75-ci sessiyasında kəskin və qətiyyətli çıxışı informasiya cəbhəsində Azərbaycanın mühüm üstünlüyünü təmin etmişdir.

Vətən Müharibəsinin davam etdiyi 44 gün ərzində 30-dək əcnəbi media quruluşuna müsahibə verən Prezident İlham Əliyev yüksək diplomatik məharətlə münaqişənin tarixi, danışıqlar mərhələsinin nəticəsiz qalmasının əsas səbəbləri, Ermənistanın qeyri-konstruktiv davranışlarının və ərazi ilhaqı siyasətinin region üçün təhdidləri, beynəlxalq təşkilatların qətiyyətsiz davranışları, habelə Azərbaycanın hərbi əməliyyatların dayandırılması ilə bağlı beynəlxalq hüquqa əsaslanan şərtlərini bəyan etmiş, hücum diplomatiyasını uğurla davam etdirərək real faktlar, konkret arqumentlər əsasında Ermənistanın və onu açıq şəkildə dəstəkləyən dövlətlərin beynəlxalq miqyasda ifşasına nail olmuşdur [10, s.52].

Bu müsahibələrdə bəzən peşəkar jurnalist etikası ilə bir araya sığmayan qərəzli, birtərəfli, obyektivlikdən, həqiqətdən uzaq yanaşmaları özündə ehtiva edən suallara rast gəlinsə də, prezident İlham Əliyev bu cür yanaşmalara münasibətdə yüksək diplomatik təmkin, bilik, təcrübə nümayiş etdirmişdir. Fikirlərini ingilis və rus dillərində səlis ifadə etməsi, beynəlxalq hüququn ümumqəbuledilmiş norma və prinsiplərinə əsaslanması, strateji məsələlərə konstruktiv yanaşması onun yüksək liderlik keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirmişdir. Prezident İlham Əliyevin müsahibə və xalqa müraciətləri münaqişənin tarixi,

səbəbləri və bu günü ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından əhəmiyyətli olmuş, eyni zamanda, Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinin ifşasına, ATƏT-in Minsk Qrupunun fəaliyyətinin səmərəsizliyi və münaqişənin həllinin regionun gələcək taleyi baxımından mühüm əhəmiyyətinə dair dünya ictimaiyyətində dolğun təsəvvürün formalaşdırılmağa xidmət etmişdir.

Ölkə başçısı "Əl-ərəbiyyə" və digər televiziya kanallarına müsahibəsində ölkəmizin hərbi əməliyyatların dayandırılması üçün prinsipial və qətiyyətli mövqeyini ifadə etmişdir: "...Hesab edirəm ki, danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri "Qarabağ Ermənistan deyil" deməlidir, çünki "Qarabağ Ermənistandır" ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik".

Həmin müddətdə "Əl-Cəzirə", "TRT Haber", CNN-Türk, "CNN İnternational", "Sky News", "Fox News", "Figaro", "La Republica", "Perviy kanal", "Rossiya-1" telekanallarına müsahibələr verən Prezident İlham Əliyev Ermənistanın münaqişənin yenidən alovlanmasına gətirib çıxaran açıq təxtribatlarını, beynəlxalq konvensiyaları pozaraq ağır müharibə cinayətlərinə əl atmasını məntiqi arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır [7, s.34].

Hərbi əməliyyatların ilk günlərindən Ermənistan ölkəmizə qarşı açıq informasiya təxribatlarına əl ataraq rəsmi Bakını guya Türkiyə vasitəsilə Yaxın Şərq dövlətlərindən muzdlu döyüşçülər cəlb etməkdə ittiham etmiş və bir sıra ölkələrdəki diaspor və lobbi təşkilatlarını bu istiqamətdə təlimatlandırmışdır. Ermənistan xüsusi xidmət orqanları bu məqsədlə "ssenariləşdirilmiş", saxta videogörüntülər hazırlayaraq sosial şəbəkələrdə yaymış, "Azərbaycan tərəfindən guya hərbi əməliyyatlara cəlb olunmuş ərəb əsilli şəxsləri əsir götürdüklərini" iddia etmişlər. Təxribat məqsədli videogörüntülərdə ərəb dilində şəxslərin guya Azərbaycan tərəfindən döyüşdükləri və erməni hərbçiləri tərəfindən əsir götürüldükləri iddia olunmuşdur.

Ermənistan belə saxta videogörüntülər hazırlamaqla, öz dezinformasiyalarına "haqq qazandırmağa", guya "ciddi fakt əldə etdiklərini" nümayiş etdirməyə çalışmışdır.

Təəssüflə qeyd etmək lazımdır ki, bu cür saxta təbliğatın təsiri altında Fransa və Rusiya rəsmiləri tərəfindən də münaqişə regionunda guya "cihadçı muzdluların sayının çoxalması" ilə bağlı əsassız iddialar səsləndirilmişdir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2020-ci il oktyabrın 27-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon söhbətində hərbi əməliyyatların aparıldığı ərazilərdə "Yaxın Şərqdən gətirilən cihadçı muzdlu döyüşçülərin sayının artmasından" narahatlığını ifadə etmişdir [11, s.42].

Ermənistan rəsmilərinin apardıqları əsassız kampaniyaya Rusiya rəsmilərinin də qoşulması bu cəfəng təbliğatın vahid mərkəzdən idarə olunduğunu göstərmişdir. Bu cür dezinformasiyalar, əslində, yeni də deyildi - hələ 2016-cı ilin aprel döyüşlərindən sonra Azərbaycanın guya "İŞİD" terror qruplaşması üzvlərini döyüşlərə cəlb etməsi kimi dezinformasiyalar dövriyyəyə buraxılmışdı. Prezident İlham Əliyev xalqa 26 oktyabr 2020-ci il tarixli müraciətində, eləcə də İtaliyanın "RAİ-1" televiziyasına müsahibəsində Ermənistana kütləvi şəkildə hərbi texnika və silah-sursat ötürülməsi faktları ilə bağlı ciddi narazılığını bəyan etmişdir. Qeyd etmişdir ki, Ermənistanın uzun illər ərzində silahlandırılması təcavüzkar ölkənin Azərbaycana qarşı davamlı hərbi təxribatlarının və nəticə etibarilə sentyabrın 27-dən genişmiqyaslı hərbi əməliyyatların alovlanmasının əsas səbəblərindən biridir: "Əgər Ermənistana maliyyə, iqtisadi, hərbi, siyasi dəstək verilməsə, onlar ayaq üstə dura bilərmi? Yox! Mən indi Azərbaycan xalqına bəzi məlumatları verəcəyəm, biz onların nə qədər texnikasını məhv etmişik. Hər kəs hesablaya bilər, internetə girə bilər, baxsın o texnikanın qiymətinə və sual versin. Ermənistana silah ötürülməsi ilə bağlı narahatlığın açıq şəkildə nümayiş etdirilməsi göstərmişdir ki, rəsmi Bakı ölkəmizin milli təhlükəsizliyini və informasiya mühitini təhdid edən xoşagəlməz geosiyasi proseslərə qətiyyətli və çevik reaksiya vermək əzmindədir. Azərbaycan dövləti Rusiyaya tərəfdaş kimi yanaşsa da, bu ölkənin ikitərəfli münasibətlərin yüksək xarakterinə, eləcə də ATƏT-in Minsk qrupunun həmsədri statusuna cavab verməyən davranışlarını açıq şəkildə ifadə etmişdir. Dövlət başçısı vurğulamışdır ki, Ermənistanın silahlanması prosesi qeyri-şəffaf şəkildə, "qara bazar" prinsiplərindən istifadə etməklə, eyni zamanda, xarici yardımlar hesabına həyata keçirilir. Bu ölkənin BMT-nin Adi Silahlar Registrinə təqdim etdiyi hesabatlar saxtadır və beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmişdir. Ermənistan qeyri-qanuni və ödənişsiz qaydada əldə etdiyi hərbi texnikanı əsasən işğal etdiyi Azərbaycan ərazilərində yerləşdirərək hesabatlara daxil etməmişdir. Bu bir daha göstərmişdir ki, Ermənistan işğal altında saxladığı Azərbaycan ərazilərindən beynəlxalq hüquqla qadağan olunmuş hərbi cinayətlər üçün istifadə edir.

Prezident İlham Əliyevin bu açıqlamalarından sonra müəyyən xarici dairələrin "cihadçı muzdlu döyüşçülər"

mövzusunu yenidən gündəmə gətirməsində, bu mövzuda dezinformasiyaların geniş miqyas almasında əsas məqsəd Azərbaycanın apardığı haqq mübarizəsinin mahiyyətinə kölgə salmaq, dünya ictimaiyyətində azərbaycanlılar və türklər barədə mənfi rəy formalaşdırmaq olmuşdur.

Ermənistanın və onun işğalçılıq siyasətinə açıq formada dəstək vermiş bəzi dövlətlərin KİV-lərinin bu cür əsassız məlumatları yaymaqda məqsəd və "gözlənti"lərini aşağıdakı kimi qruplaşdırmaq olar: [9, s.68].

– Azərbaycanın apardığı haqq mübarizəsinin mahiyyətinə kölgə salmaq, dünya ictimaiyyətində azərbaycanlılar və türklər barədə mənfi rəy formalaşdırmaq, informasiya cəbhəsində üstünlüyü ələ almaq;

– beynəlxalq ictimaiyyətin diqqətini işğal faktından yayındırmaq, bölgədə guya "terrorçuların sayının artması" iddiası ilə narahatlıq yaratmaq;

– Türkiyənin guya münaqişədə "üçüncü tərəf" olması kimi əsassız iddialarla qardaş ölkənin regional və qlobal miqyasda güclənən nüfuzundan narahat olan bir sıra dövlətləri Azərbaycana qarşı qoymaq;

– Türkiyə və Azərbaycanın guya terrorçulardan hərbi məqsədləri üçün istifadə etmələri və onları maliyyələşdirmələri barədə saxta rəy formalaşdırmaq;

– Azərbaycanın apardığı əks-həmlə əməliyyatlarını "terrorçuluq" kimi təqdim etmək, İslam dinini terrorçuluqla əlaqələndirmək;

– dünya siyasətinə təsir imkanları olan ölkələrin əks-həmlə əməliyyatlarını dayandırması üçün Azərbaycana təzyiq göstərmələrinə nail olmaq;

– əks-həmlə əməliyyatları nəticəsində qısa müddətdə sarsıdıcı zərbələr alan Ermənistan silahlı qüvvələrinin düşdüyü rəzil və rüsvayçı duruma "bəraət" qazandırmaq;

– Azərbaycan Ordusunun döyüş əzmi və peşəkarlığının, habelə təchizatının Ermənistan silahlı qüvvələri ilə müqayisədə qat-qat yaxşı olmasını gizlətməyə çalışmaq;

– Rusiyanı və onun təsirində olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını Türkiyə və Azərbaycanla üzbəüz qoymaq;

– Ermənistanın Livan və digər ölkələrdəki erməni əsilli şəxsləri, habelə PKK terror qruplaşmasının üzvü olan "yezidi kürdləri"ni qeyri-qanuni şəkildə Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərimizdə yerləşdirməsi ilə bağlı rəsmi Bakının ittihamlarından "sığortalanmaq";

– dezinformasiyaları gücləndirməklə, Azərbaycanın təklənməsinə nail olmaq, rəsmi Bakını "şantaj" etməklə ciddi hərbi müdaxilələrdən çəkindirmək.

Hərbi əməliyyatların başlanmasından cəmi iki gün sonra - 2020-ci il sentyabrın 29-da "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında təşkil olunmuş debatda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev kifayət qədər ciddi arqumentlərlə bu saxta iddiaların əsassızlığını sübuta yetirmiş, Ermənistanın baş naziri Nikol Paşinyanı debat çərçivəsində çıxılmaz vəziyyətə salmışdır.

Dövlət başçısı İlham Əliyev Ermənistanın və onu dəstəkləyən bəzi dövlətlərin mediasında aparılan bu qarayaxma və iftira xarakterli kampaniyanın təkzib olunması və əsassızlığının sübuta yetirilməsi üçün təkzibedilməz arqumentlərə istinad etmişdir. Bildirilmişdir ki, Azərbaycanı muzdlu döyüşçüləri hərbi əməliyyatlara cəlb etməkdə təqsirləndirən Ermənistan rəsmiləri, habelə ermənipərəst dairələr, KİV-lər bununla bağlı heç bir fakt ortaya qoya bilməmişlər.

Ali Baş Komandan həmçinin demişdir ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının sayı Ermənistan ordusu ilə müqayisədə üç dəfə çoxdur. Ölkəmiz apardığı əks-həmlə əməliyyatları ilə bağlı qismən səfərbərliyə ehtiyac duyduğu halda, Ermənistan tam səfərbərlik elan etmişdir. Azərbaycanda əsasən 35 yaşınadək olan gənclər səfərbərliyə cəlb olunduqları halda, təcavüzkar ölkənin 50 yaşadək olan vətəndaşları polis və zor gücünə döyüş bölgəsinə göndərilmişlər. Əhalisinin sayı 10 milyon nəfər təşkil edən, 100 min nəfərlik yüksək döyüş qabiliyyətli və texniki təchizatlı peşəkar orduya, habelə 300 min nəfərlik ehtiyat qüvvəyə malik Azərbaycanın Yaxın Şərqdən hansısa muzdlu döyüşçü cəlb etməyə ehtiyacı yoxdur.

Dövlət başçısı vurğulamışdır ki, yüksək texnologiyaların, uzaqgörmə cihazlarının mövcudluğu, kosmosdan yüksək dəqiqliklə foto və videoçəkilişlərin aparıldığı bir zamanda muzdlu döyüşçülərdən istifadə faktının gizlədilməsi mümkün deyildir [8, s.65].

Bu cəfəng iddiaları təkrarlayan Fransa və Rusiya rəsmilərinin isə heç bir tutarlı faktı, sübutu yoxdur. Azərbaycandan fərqli olaraq, Ermənistanın 90-cı illərin əvvəlində Dağlıq Qarabağ və ətraf bölgələrin işğalı zamanı Yaxın Şərq bölgəsindən terrorçular cəlb etməsi, onların xidmətindən faydalanması barədə məlumatlar da diqqətə çatdırılmışdır. İşğal olunmuş ərazilərimizə qanunsuz köçürülənlər sırasında "ASALA" terror təşkilatının rəhbərlərindən birinin - Monte Melkonyanın da olması, ona "milli qəhrəman" adının verilməsi kimi faktlar xarici KİV-lərin diqqətinə çatdırılmışdır.

Ermənistan və ermənipərəst dairələrin ilk gündən səsləndirdiyi cəfəng iddialardan biri də guya Türkiyə Respublikasının hərbi hava qüvvələrinə məxsus "F-16" qırıcı təyyarəsinin təcavüzkar ölkənin "Su-25" qırıcı təyyarələrini vurması ilə bağlı olmuşdur. Bununla ermənipərəst dairələr dünya ictimaiyyətində Azərbaycanın guya müharibədə Türkiyənin hərbi dəstəyindən istifadə etməsi ilə bağlı saxta rəy formalaşdırmağa çalışmışlar.

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "Fiqaro" qəzetinə və digər nüfuzlu xarici KİV-lərə müsahibələrində bu iddiaların əsassızlığını bəyan etmiş, Ermənistanın hərbi cinayətlərini gizlətmək üçün davamlı olaraq dezinformasiya və "feyk" xarakterli məlumatlardan istifadə etdiyini vurğulamışdır. Bildirmişdir ki, belə yalanların məqsədi Türkiyənin münaqişədə guya "hərbi tərəf kimi iştirakı" barədə saxta rəy formalaşdırmaq, Rusiya Federasiyasının da təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) regiondakı hərbi əməliyyatlara cəlb etməkdir: "Müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq.

Azərbaycanın Vətən müharibəsi günlərində informasiya cəbhəsində mühüm uğurlarından biri də Ermənistanın saxta məlumatlar əsasında KTMT-ni hərbi əməliyyatlara cəlb etmək cəhdlərinin zərərsizləşdirməsi olmuşdur. Azərbaycanın həm siyasi-diplomatik, həm də təbliğati uğurları fonunda Rusiya Federasiyasının hərbi əməliyyatlara loyal və bitərəf münasibəti təmin edilmişdir. Rusiya Prezidenti Vladimir Putin ilk günlərdən hərbi əməliyyatların Ermənistan ərazisində getmədiyini bildirməklə, KTMT-nin prosesə hər hansı bir formada müdaxilə etməyəcəyinə və Ermənistanın qurumdan hərbi dəstək gözləntilərinin mənasızlığına açıq eyham vurmuşdur.

**Nəticə**

Hazırda dövlət informasiya siyasətinin bir sıra bazis elementləri də özünü açıq şəkildə büruzə verməkdədir. Buna misal olaraq informasiya siyasəti ilə bağlı görülən bütün əsas tədbirlərin dövlət və cəmiyyət, onun strukturları arasında açıq müzakirə predmetinə çevrilməsini, ictimai rəyin nəzərə alınmasını göstərmək olar. Eyni zamanda, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, informasiya fəaliyyətinin bütün iştirakçılarının marağı bu siyasətdə nəzərə alınır. Lakin burada ən başlıca maraq faktoru Azərbaycan vətəndaşlarının sosial maraqlarının təmin edilməsi ilə bağlıdır. Sosial sferada informasiyanın inkişafına yönələn siyasətin subyektlərinə dövlət tərəfindən maliyyə və digər maddi yardım göstərilməsi də mühüm element kimi qeyd olunmalıdır.

Müasir Azərbaycan üçün informasiya siyasəti sferasında əsas cəhətlərdən biri vətəndaş cəmiyyətinin inkişafı, dövlət və cəmiyyət, hakimiyyət və xalq arasında konstruktiv dialoqun qurulması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasıdır. Ən nəhayət, dövlətin informasiya siyasətinin əsas bazis elementlərindən biri kimi informasiya sferasında qarşıya çıxan istənilən problemin həlli üçün inzibati deyil, hüquqi çözümün prioritet olması qeyd edilməlidir.

İstənilən halda isə aydın görünür ki, informasiya siyasəti müasir cəmiyyətin sosial strukturuna söykənir. Hazırda Azərbaycanın sosial inkişafının əsas məqsədlərindən biri açıq informasiya cəmiyyətinin qurulmasıdır. Bu kontekstdə sosial və siyasi proseslərə getdikcə daha çox insan cəlb edilir. Məsələyə beynəlxalq miqyasda yanaşdıqda demək olar ki, bu hal Azərbaycanın Avroatlantik məkana inteqrasiya prosesini daha da sürətləndirir, qloballaşma prosesinə ölkəmizi daha intensiv formada cəlb edir, beynəlxalq informasiya mübadiləsinə zəmin yaradır.

**Xəyalə Kələşova**
**Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının Müraciətlərə baxılması departamentinin mütəxəssisi (Azərbaycan)** E-mail: xayala_kalashova@yahoo.com

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2015
2. "İnformasiya təhlükəsizliyi" İnformasiya bülleteni. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələr arası Komissiya 2008 № 1
3. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasinin Qanunu https://e-qanun.az/framework/3525
4. "Azərbaycan Respublikasınında söz, fikir və məlumat azadlarının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 avqust 1998.
5. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 31 iyul tarixli Sərəncamı.
6. Abdullayev Ə., Azarov A., Hüfner K., Röyter V. İnsan hüquqları. Beynəlxalq və milli müdafiə mexanizmləri, Bakı, 2008, 1232 s.
7. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, Bakı, 2009, 234 s.
8. Hüseynov L.H. Beynəlxalq hüquq, Bakı, 2000, 368 s.
9. İbayev V. Beynəlxalq humanitar hüquq, Bakı, 2001, 492 s.
10. Qasımov V.Ə. İnformasiya təhlükəsizliyi: kompyuter cinayətkarlığı və kiberterrorçuluq. Bakı, Elm, 2007, 192 s.
11. Səfixanlı A., Əliyev Z. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti, Bakı, 2003, 58 s.

# "Topçu Ağabala"nın qəhrəmanlıq salnaməsi

Avqust 1993-cü il. Qarabağın dağlıq hissəsini işğal etmiş erməni faşistləri "sülhsevər" və "cəfakeş" erməni xalqını gələcək təhlükələrdən qorumaq məqsədi ilə "bufer zona " yaratmaq üçün ətraf ərazilərin işğalına başlamışlar. 23 iyul 1993-cü ildə Ağdam şəhəri, 23 avqust 1993-cü ildə Cəbrayıl və Füzuli şəhərləri işğal olundu.

Ayın 24-də erməni silahlı birləşmələri 5 tank, 3 PDM, 300-ə yaxın döyüşçü ilə böyük strateji əhəmiyyət kəsb edən Cəbrayıl-Qubadlı-Zəngilan yoluna nəzarəti ələ keçirmək üçün Füzuli rayonunun Əhmədbəyli kəndinə hücuma keçdilər. Bundan əvvəlki döyüşlərdə böyük tələfat verən və əlavə kömək almayan briqadanın 2 taboru geri çəkilərək Əhmədbəyli kəndini tərk etdi. Düşmən arxayınlıqla boşalmış kəndə girməyə hazırlaşarkən qarşısında qala kimi dayanmış, canını vətən yolunda sipər etmiş igidlərlə rastlaşdı. 100 mm-lik 19KS markalı topun komandiri 3 nəfər döyüşçü ilə düşmənə fasiləsiz sarsıdıcı zərbələr endirir, onların canlı qüvvəsini və texnikasını - 2 tankını, 1 PDM-ni, 1 UAZ markalı maşınını məhv edir. Döyüşün həlledici anında Rövşən Əkbərovun komandiri olduğu 777 saylı hərbi hissənin döyüşçüləri köməyə gəlir və düşmən 1 tankını döyüş meydanında qoyaraq qaçır. Erməni komandir top atəşlərinin sərrastlığından kiminlə qarşılaşdığını hiss edir və hücumu dayandırmaq əmri verir. Ermənilər tutduqları mövqelərdən10 km geri çəkilməyə məcbur olurlar. Bununla da 12 kənd işğaldan qurtula bilir. Düşməni qorxuya salan və geri çəkilməyə məcbur edən Topçu Ağabala idi...



### Kimdir Topçu Ağabala?

Quliyev Ağabala Qubad oğlu 13 fevral 1958-ci ildə Füzuli rayonunun Mahmudbəyli-2 kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2 il sovet ordusu sıralarında qulluq etmişdir. Hərbi xidməti başa vuran Ağabala 1978-ci ildə ADU-nun hüquq fakültəsinə daxil olub, 1983-cü ildə həmin fakültəni fərqlənmə diplomu, K.Marks təqaüdü ilə bitirmişdir. Təyinatla prokurorluğa qəbul edilən Ağabala Quliyev 1983-1987-ci illərdə Naxçıvan MR Culfa rayon prokurorluğunun müstəntiqi, 1987-1990-cı illərdə Naxçıvan MR prokurorunun köməkçisi vəzifələrində işləmişdir. 1990-1992-ci illərdə Azərbaycan Respublikası Prokurorluğunun Mülki İşlər üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsində böyük prokuror, 1993-cü ilin yanvar-mart aylarında Baş Prokurorluğun Təşkilat-nəzarət idarəsinin analitik informasiya şöbəsinin rəisi, aprel-sentyabr aylarında Sumqayıt şəhər prokuroru vəzifələrində işləmişdir. 1993-cü ilin sentyabr ayından 1994-cü ilin oktyabr ayına kimi Azərbaycan Respublikası Prokurorluğunun Mülki İşlər üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsində böyük prokuror, 1994-cü ilin oktyabr ayından 1995-ci ilin may ayına kimi Salyan rayon prokurorunun müavini vəzifələrində işləmişdir. 1995-ci ilin may ayından 2018-ci ildə təqaüdə çıxana qədər Baş Prokurorluğun Təşkilat-analitik idarəsində böyük prokuror-metodist vəzifəsində işləmişdir.

Xocalı soyqırımından sonra bir çoxları kimi Ağabala Quliyevə də aydın olmuşdu ki, bu münaqişənin sülh yolu ilə həlli yoxdur. 1992-ci ilin mart ayında ermənilər "Alazan" və "Kristal" raketləri ilə Füzuli şəhərini bombaladılar. Bu xəbəri eşidən Ağabala müəllim Baş prokuror Murad Babayevə müraciət edərək, döyüşən orduya getmək istədiyini bildirdi. Vətənin müdafiəsi üçün göstərilən cəhdləri müsbət dəyərləndirən Murad müəllimin razılığı ilə döyüş sərgüzəştləri başlayan Ağabala Quliyev 25 mart 1992-ci ildə 839 saylı hərbi hissədə bölük komandiri və taborun qərargah rəisi vəzifəsinə təyin edildi və bu vəzifədə 19 iyul 1992-ci ilə qədər işlədi. Bir müddət prokurorluq fəaliyyətinə qayıdan Ağabala Quliyev Ağdam şəhəri işğal olunduqdan sonra, 23 iyul 1993-cü ildə Sumqayıt şəhər prokuroru vəzifəsində işləyərkən, yenidən döyüşən ordu sıralarına qatılmış və 24 yanvar 1994-cü ilədək 702 saylı hərbi hissədə top komandiri vəzifəsində qulluğunu davam etmişdir.

Ağabala müəllimin saysız-hesabsız şücaətləri komandanlıq tərəfindən yüksək qiymətləndirilmiş, 2 dəfə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı

verilməsi barədə məsələ qaldırılmş, lakin hər iki halda müxtəlif səbəblərdən vəsadətlər nəticəsiz qalmışdır.

702 saylı hərbi hissənin komandiri, podpolkovnik N.K.Piriyev və qərargah rəisi, podpolkovnik A.G.Məmmədovun imzası ilə 11 oktaybr 1993-cü ildə Azərbaycan Respublikasının Baş prokuroruna və surəti Sumqayıt şəhər İH-nin başçısına ünvanlanan təqdimatda Ağabala Quliyevin döyüşlərdə göstərdiyi igidliklər sadalanır və ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi barədə dövlət başçısı qarşısında vəsadət qaldırmaq xahiş olunur. Həmin təqdimatı həyəcansız oxumaq mümkün deyil:


Sağda: Topçu Ağabala

"702 №-li hərbi hissəsinin komandanlığı adından dərin məmnuniyyət və minnətdarlıqla Sizə məlum edirəm ki, Sumqayıt şəhər prokuroru, baş leytenant/ədliyyə müşaviri/ Ağabala Qubad oğlu Quliyev briqadamızın 6-cı taborunun komandirinin müavini, 100 mm-lik 19-KS markalı topun komandiri kimi erməni hərbi hissələri, birləşmələri ilə aparılan müharibədə qəhrəmanlıqla vuruşur, öz qəhrəmanlığı ilə döyüşçülərə ilham verib, onları qələbəyə ruhlandırır.

A.Q.Quliyev 1992-ci ilin mart ayının 25-dən may ayının 27-nə kimi 2-ci taborun 3-cü bölüyünün komandiri, mayın 27-dən iyulun 19-a kimi taborun qərargah rəisi vəzifəsində xidmət etmişdir. Bu zaman o, özünü cəsur komandir, mahir topçu kimi göstərmiş, topla dəfələrlə düşmənə ağır zərbələr vuraraq onların xeyli canlı qüvvəsini, ağır hərbi texnikasını, yaşayış məntəqələrini, dayaq nöqtələrini məhv etmişdir. O, dəfələrlə təkbaşına düşmənin bir neçə topu və tankları ilə duelə çıxıb həmişə qalib gəlmiş, düşmənin atəş nöqtələrini susmağa məcbur etmişdir. O, 28.06.92-ci ildə Tuğ istiqamətində gedən döyüşdə yaralanmışdır...".

Təqdimatda daha sonra oxuyuruq:

"A.Q.Quliyev Vətənin ağır günlərində – 23.07.93-cü ildə yenidən könüllü surətdə Füzuliyə – briqadamıza qayıtmışdır. Keçən müddət ərzində A.Q.Quliyev öz qəhrəmanlığı ilə briqadanın komandir, zabit və şəxs heyəti, həmçinin yerli əhali arasında özünə böyük şöhrət və hörmət qazanmışdır. A.Q.Quliyevin qəhrəmanlığı özünü bariz şəkildə 07.08.93 və 24.08.93-cü illərdə göstərmişdir. Avqustun 7-də o, topla Füzuli şəhərinin yaxınlığındakı strateji cəhətdən əhəmiyyət kəsb edən Məngələnata yüksəkliyində düşmənin dayaq məntəqələri darmadağın etmiş, nəticədə həmin yüksəklik 72 №-li və 839 №-li taborun döyüşçüləri tərəfindən heç bir tələfat verilmədən alınmışdır".

Təqdimat bu sözlərlə yekunlaşır: "Briqadamızın bütün şəxsi heyəti A.Q.Quliyevlə fəxr edir, belə bir cəsur, qeyrətli oğul, işçi yetişdirdiyinə, tərbiyə etdiyinə görə respublika prokurorluğunun aparatına briqadamızın komandanlığının dərin minnətdarlığını bildirməyinizi rica edirəm."

Adətən novatorluğu ilə fərqlənən Baş prokuror hansı səbəbdənsə təqdimata baxılmasını Kadrlar idarəsinin rəisi Şahmalı Məmmədova tapşırır. Nəticədə Baş prokurorun əmri ilə Ağabala Quliyevə təşəkkür elan edilməklə bir aylıq əmək haqqı məbləğində (28 şirvan) pul mükafatı verilir.

Qeyd: Komandanlığın diqqətsizliyindən Ağabala Quliyev rəsmi əmrlə hissənin siyahısına daxil edilməmişdi. Məhz bu səbəbdən də müraciət Baş prokurora ünvanlanmışdır.

Ağabala Quliyevin döyüş dostu, zenit raket taqımının komandiri Əhmədov Taleh Famil oğlunun dediklərindən:

– 24 avqust 1993-cü il füzulililər üçün ağır günlərdən idi. Bir gün əvvəl Füzuli şəhəri işğal olunmuş, vahid komandanlıq olmadığından insanlar həyəcan içində evlərini tərk etmişdilər. Ağabalanın topu Əhmədbəyli kəndinin yaxınlığlndakı təpədə tək qalmışdı. Həmin topu Ağabala bir gün əvvəl hissələrlə traktora yükləyib Şükürbəyli kəndindən gətirmişdi. Mənim taqımım 500 metrlik məsafədə aşağıda mövqe tutmuşdu. Aramsız atəş açırdıq. Ağabala düşmənin iki tankını vurdu. Düşmən qüvvələri pərən-pərən olub geri çəkilməyə məcbur oldular...

1-ci və 2-ci Qarabağ müharibəsinin iştirakçısı, "Cəsur döyüşçü", "Xocavəndin alınmasına görə", "Füzulinin alınmasına görə" medalları ilə təltif olunmuş, 1966-cı il təvəllüdlü Qurbanov Əbülfəz (Amil) Qənimət oğlunun dediklərindən:

– Ağabala müəllimlə ilk dəfə 1992-ci ildə tanış olmuşam. O, Tuğ kəndi ilə qonşu olan Kovşanlı kəndinə gəlmişdi. Onun gəlişi döyüşçülərdə ruh yüksəkliyi yaratmışdı. Ağabala müəllim haqqında çox danışmaq olar...

06 may 1992-ci ildə "Qanlı dağ" deyilən yerdə ermənilərlə açıq döyüşə girdik. Ermənilərin ratsiya ilə danışığından məlum oldu ki, onların 35 əsgər və zabiti öldürülüb. Həmin döyüşdə Ağabala müəllim ağır top mərmilərini çiynində yüksəkliyə qaldırırdı. Döyüş bizim qələbəmizlə başa çatsa da, şəhidlərimiz var idi. Taqım komandiri, xalqımızın igid oğlu Mahir Məmmədovun ölümü hamımızı sarsıtmışdı. Ağabala müəllimin təşəbbüsü ilə cənazəni Bakı şəhərinə gətirdik. Baş Prokurorluğun yaxınlığında fəxri qaravul təşkil edildi və sonra Şəhidlər xiyabanında dəfn etdik. Dəfn mərasimində Ağabala müəllimin ailə üzvləri də iştirak edirdi...

28 iyun 1992-ci il döyüşlərində Ağabala müəllim yaralansa da, həkimləri aldadaraq birbaşa döyüş meydanına qayıtmışdı...

Döyüş yoldaşları Ağabalanın özünün demədiyi bir qəhrəmanlığı barədə də danışırdılar. 24.08.93-cü ildə "Niva" maşını ilə hərəkət edən briqada komandirinin müavini, podpolkovnik Muxtarov və taqım komandirini əsir götürmək üçün ermənilər UAZ markalı maşınla onları təqib edirdilər. Bu səhnəni uzaqdan görən Ağabala Quliyev sərrast top atəşi ilə UAZ-ı vurub, düşmənin canlı qüvvəsini məhv edir.

Ağabalanın mahir atıcı olması təsadüfi deyildi. Sovet ordusu sıralarında xidmət etdiyi hərbi hissənin yerləşdiyi şəhərin adı məxfiçilik naminə xəritəyə salınmamışdı. Məhz bu xüsusi təyinatlı hərbi hissədə Ağabala topçuluq sənətinin incəliklərinə yiyələnmişdi.

28 iyun 1992-ci il tarixini Ağabala müəllim həmişə kədərlə xatırlayır. Füzulidə yerləşən "N" saylı hərbi hissə xeyli miqdarda canlı qüvvə və ağır texnika toplayaraq (onlarla tank və digər zirehli maşınlar) Tuğ-Qırmızıbazar istiqamətində hücuma keçdi. Hücumun məqsədi Martuni-Hadrut rayonlarını düşməndən təmizləmək və bununla da Şuşanı işğaldan azad etmək idi. Lakin ağır xəyanət nəticəsində tankların heç biri yerindən tərpənmədi. Döyüşçülər top atəşinin köməyi ilə hücuma keçdilər. Hücumun istiqamətini əvvəlcədən bilən düşmən qüvvələri döyüşçülərimizi tezliklə mühasirəyə aldılar və ordumuz ağır itki verərək geri çəkilməyə məcbur oldu. Taqım komandiri, cəsur döyüşçü, peşəkar hərbçi Rasim İbrahimov da (ölümündən sonra "Milli Qəhrəman" adı verilib) həlak olanlar arasında idi. Rasim İbrahimov ölümündən bir müddət əvvəl Ağabala Quliyevə "Milli Qəhrəman" adı verilməsi barədə komandanlığa müraciət etmişdi.Lakin komandanlığın səhlənkarlığı üzündən Müdafiə Nazirliyi qarşısında məsələ qaldırılmamışdı.

**Haşiyə:** Həmin döyüşdə şəhid olanlardan 30 yaşlı mayor Rasim İbrahimov ailənin tək öğlu, iki uşaq atası idi. Arif Abdullayev Xocalı faciəsindən sonra döyüşlərə qatılmışdı. Ələkbər Musayev 3 qardaşı ilə ermənilərə qarşı birgə döyüşürdü. Cəbhəyə könüllü gələn Firidun Mehdiyev tələbə idi. Sahib Qarayev atasız böyümüşdü. Anasının yeganə ümidi idi. Saleh Balaca oğlu və Mahir Əliyev də qeyrətlə vuruşub, şəhid olmuşdular. Həmin döyüşdə sağ qalanlar arasında Ağabalanın dostu, mühüm işlər üzrə müstəntiq Yusif Ağayev də var idi (Onun haqqında gələcək yazılarımızda məlumat verəcəyik).

Heç kimə sirr deyildir ki, müharibə şəraitində satqınlıqla yanaşı şəxsi mənfəət dalınca qaçan, faydalananlara da təsadüf olunur. Prokurorluğunu unutmayan Ağabala Quliyevin təşəbbüsü ilə bir nəfər vəzifəli şəxsin mənimsəmə faktı aşkar olunmuş və haqqında Baş Prokurorluq tərəfindən cinayət işi başlanmışdı...

Ağabala müəllimin qəhrəmanlığı barədə çox yazılıb. Sabir Özgünün "Adını eşitdiyim igid" povesti və "Topçu Ağabala əfsanəsi" poemasını misal göstərmək olar. Famil Süleymanovun "Qana Boyanmış Quran" kitabında Ağabalanın ata-babası və özü haqqında maraqlı fikirlər var. Eynal Əliyevin "Azərbaycan Respublikası Prokurorluğu tarixindən səhifələr" kitabında da Ağabala Quliyevin adı qeyd olunmuşdur.

Dövrü mətbuatda da Ağabala müəllim haqqında çox yazılar dərc olunub. Mayis Kazımov "Topçu-Prokuror" ("Qayıdış"qəzeti, 31 avqust 1998-ci il.), Elşad Mehdi "Vətən içimizdəki qisas yanğısından başlayır, prokuror!" ("Hüquqşünas", qəzeti 17 noyabr 998-ci il.), 1993-cü ildə "Femida" qəzetində Ağabala müəllimin döyüş yolundan bəhs edən "Prokuror dəlidirmi?" başlıqlı silsilə yazılar, Mayis Kazımlı "Prokuror dəlidirmi?..." ("Ədalət "qəzeti 7 may 1997-ci il.) və sairə...

**Qeyd:** Mayis Kazımlı həyatını, karyerasını, hətta yaxınlarını təhlükə altına qoyaraq, prokuror kreslosunu düşünmədən səngərlə əvəzləyən Ağabala Quliyevə həsr olunmuş bu yazısınıda ona qarşı olan ədalətsiz münasibətin səbəbini araşdırmağa çalışır. "Evini vətən, həyatini ölkə, ailəsini millət hesab edənlər Ağabala kimi əsl insanı əlbəttə, başa düşə bilməzdilər!...".

Mən, Mayis Kazımlı ilə həmfikir olaraq bir əlavə etmək istəyirəm: Corc Cordan adlı xristian yazar Həzrət Əli(ə) haqqında tədqiqat əsərində qeyd edir: "Həzrət Əli ədalətinin çoxluğu ucbatından ibadət mehrabında şəhid oldu". Ağabalanın böyük Vətən sevgisi və bunu başqalarına aşılamaq istəyi, başqa sözlə desək, "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" prinsipi ilə yaşaması, görünür, rahat kürsülərdə əyləşmiş səlahiyyət sahiblərini qıcıqlandırmışdı.

**Ətraflı**

Prokuror Ağabalanın hərbi şücaətlərinin xəbəri Moskvaya da çatmışdı. Ermənipərəst mövqeyi ilə seçilən "Komsomolskaya pravda" qəzeti Ağabalanın vətən uğrunda hər şeyindən keçərək həyatını təhlükə altına qoymasını, aktiv döyüşçü kimi tanınmasını "prokurora yaraşmayan anti-humanist addım" kimi qiymətləndirmişdi...

70 ildə yaşadığımız sovet ideologiyası genetik keçidləri qəbul etmirdi (Trofim Lısenko). Bu gün insanın hərəkətlərinin mahiyyətində gen daşıyıcılarının rolu elmi cəhətdən sübut olunmuş hadisədir. Ağabalanın vətənpərvərliyi, torpaqsevərliyi, yüksək vəzifə tutmasına baxmayaraq, hər şeydən imtina edib, "topçuluq" etməsi təsadüf deyildi.

Haşiyə: 1918-ci ildə Qarabağda erməni təcavüzünə qarşı mübarizənin lideri Soltan bəy ətraf kəndlərə kömək üçün məktublar göndərir. Bir dəfə Qaçaq Süleymanla 100 nəfər atlı gəlir. Atlıların içərisində ixtiyar qoca, 90 yaşlı Hacı Qulaməli Soltan bəyin diqqətini çəkir. Hacı Qulaməli Soltan bəylə görüşdükdən sonra deyir: "Soltan bəy, bu igidlər Sizin sərəncamınızdadır. Bax, bu iki nəfər biri bacım oğlu Əbdürrəhman, o biri də nəvəm Qubaddır. Vətən, torpaq, namus uğrunda canlarından keçməyə hər zaman hazırdırlar. Onları sənə, səni də Allaha tapşırıram".

Hacı Qulaməlinin nəvəsi Qubad topçu Ağabalanın atası idi. Zabuxda Laçın dərəsində ermənilərə toy tutulmasında, Andronikin Qarabağa keçməsinin qarşısının alınmasında Əbdürrəhman bəy və 25 yaşlı Qubad xüsusi fəallığı ilə seçilib, Soltan bəyin tərifinə layiq görülmüşdülər. Quşu gözündən vuran Qubad kişi ölənə qədər silahından və atından ayrılmadı. Bunu hakimiyyət nümayəndələri də bilirdilər...

Ağabala müəllimin qardaşı Səfər Quliyevin dediklərindən:

- Bir dəfə qarğı yığıb qayıdarkən gecəyə düşdük. Kəndə yaxınlaşanda "VAZ" markalı maşın yanımızda dayandı. Üç nəfər milis işçisi bizi sorğu-suala tutdu:

– Bu qarğını haradan oğurlamısınız?

Ağabala sakit tərzdə dedi:

– Oğurlamamışıq, sahədən yığmışıq.

Milis işçisi əl çəkməyib soruşdu:

– Kimin uşaqlarısınız?

Ağabala dedi:

– Rəhmətlik Surxay oğlu Qubadın.

Bayaqdan sakit dayanmış nisbətən yaşlı milis işçisi söhbətə qarışdı:

– Ə, bunların atasının tapançası, beşatlanı olub. Özlərini də arabasını da yoxlamaq lazımdır. Ağabala ürəkdən gülərək dedi:

– Naçalnik, atamın silahı olduğunu bilmirəm. Əgər var idisə özü ilə o dünyaya apardı.

İnsan şəxsiyyətini formalaşdıran amillərdən biri də xarakterdir. Nə vaxt yaranır xarakter? Bunun cavabını ən böyük alimlər deyə bilməz. Hər-hansı məsələyə daxili inam hissi ilə yanaşmaqdır xarakter. Xarakteri uşaqlıqdan formalaşan Ağabala Quliyev şəxsiyyətini tam anlamaq üçün eşitdiyim və şahidi olduğum iki hadisəni danışmaq istəyirəm.

Məktəbliləri pambıq yığımına aparmışlar. Bir dəfə qızlardan biri qışqırır ki, burda ilan var. İri bir ilan qıvrılıb yatmışdı. Hamı qaçır. Ağabala ilanın üstünə qoşa təpiyi ilə çıxıb belini qırır. Bu zaman ilan ağız atır və Ağabalanın əlini yaralayır. Qızlardan biri Ağabalanın yaralı əlini soraraq zəhərin təsirini azaldır. Ağabalanı həkimə aparmaq istəyərkən deyir: "Bu ilan sağ qalsa, kimisə vuracaq". Daş tapıb ilanı öldürdükdən sonra Ağabala həkimə gedir. Uşaqlıqdan cəsur və inadkar idi Ağabala...

1990-cı ilin avqust ayında Azərbaycan Respublikasının Baş prokuroru təyin edilmiş İsmət Qayıbovun təqdimatı ilə əlaqədar kollegiya iclası keçirilirdi. Kollegiyanın işində SSRİ Baş Prokurorunun 1-ci müavini də iştirak etdiyindən çıxışlar əsasən rus dilində gedirdi.

Əlində "şpalqalka" tutmuş bir dəstə yüksək rütbəli yaşlı-başlı vəzifəli şəxslər əvvəlki prokuror İlyas İsmayılovu pisləyib, yeni təyin edilmiş prokuror İsmət Qayıbovu tərifləmək üçün növbəyə durmuşlar. Bir neçə bayağı və insanda ikrah hissi yaradan qərəzli və yaltaq çıxışlardan sonra kürsüyə bəstəboylu, kiçik rütbəli cavan bir oğlan çıxdı. Əvvəlki çıxışçılardan fərqli olaraq təmiz Azərbaycan dilində İlyas İsmayılovun xidmətlərini dilə gətirərək, gedənin dalınca danışmağın əxlaq qaydalarına zidd olduğunu deməklə, yarınanları kəskin tənqid edib, Baş prokuror İsmət Qayıbova müraciətlə dedi: "Hörmətli İsmət müəllim, Sizə şərəfli və məsuliyyətli işinizdə müvəffəqiyyətlər atzu edirəm. Bilin ki, nə vaxtsa işdən çıxanda, bu insanlar eyni sözləri Sizin haqqınızda da deyəcəklər..." Bu bəstəboylu, kiçik

rütbəli, yaşda, vəzifədə və rütbədə özündən çox-çox böyüklərə əxlaq və mənəviyyat dərsi keçərək, hamının gözündə bir anda böyüyən, nəhəngləşən insan "Mülki şöbə"də prokuror işləyən, müharibə illərində "Topçu Ağabala" kimi tanınacaq Quliyev Ağabala Qubad oğlu idi...

Qeyd: Həmin kollegiyada sonralar hüquq elmləri doktoru alimlik dərəcəsi almış Xanlar Ələkbərov da icazə almadan yerindən danışaraq sıraya düzülmüş yaltaqları kəskin tənqid etdi.

Ağabala müəllim prokurorluq orqanlarında da sevilən, seçilən, hörmət və nüfuza malik insan idi. Xatirimdədir, 1993-cü ilin yay ayları idi. Baş Prokurorluqda rayon-şəhər prokurorlarının iştirakı ilə toplantı keçirilirdi. Bir məsələ ilə əlaqədar Sumqayıt şəhər prokuroru tribunaya dəvət olunanda məlum oldu ki, prokuror toplantıda iştirak etmir. Səbəbi - şəhər prokuroru Ağabala Quliyev yenə cəbhə bölgəsinə getmişdi.

Ağabala müəllim idarə prokuroru işləyərkən də öz işinə həmişə vicdanla yanaşmış, işlədiyi kollektivdə hörmət qazanmışdır. Hüquqi cəhətdən savadlı və hazırlıqlı olduğundan yerlərdən ona tez-tez müraciət olunurdu. Ağabala heç kimin qəlbinə dəyməz, hamıya doğru-düzgün istiqamət verərdi. İlk baxışda sakit, mülayim görünən Ağabala müəllim yeri gələndə öz fikrini müdafiə etməyi bacaran prinsipial insan kimi tanınırdı.



Həmin dövrdə Baş Prokurorluğun Təşkilat-analitik idarəsində böyük prokuror vəzifəsində işləmiş Fəxrəddin Məmmədovun dediklərindən:

– Ağabala müəllimin haqqında çox eşitmişdim. 1998-ci ildə məni Təşkilat-analitik idarəsinə böyük prokuror vəzifəsinə təyin etdilər. Həmin vaxtdan onunla iş yoldaşı kimi daha yaxından tanışlığımız başladı. Ağabala müəllim vəzifə bölgüsünə görə Baş Prokurorluğun gördüyü işləri ümumiləşdirir, təkliflər verir, metodiki tövsiyələrin layihəsini hazırlayır, Baş prokurorun əmr və göstərişlərinin icra vəziyyətini ümumiləşdirib təhlil edirdi.

İş yükünün çox olmasına baxmayaraq, Ağabala müəllim heç vaxt yorğunluğunu büruzə etmir, lazım gələndə digər iş yoldaşlarına da kömək edirdi.

Ağabala müəllim prokurorluq orqanlarında yaxşı işinə görə dəfələrlə rəhbərlik tərəfindən mükafatlandırılıb. Lakin döyüş meydanında göstərdiyi şücaətlər öz layiqi qiymətini almayıb. Görkəmli Azərbaycan sərkərdəsi, general Həzi Aslanova ikinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" adı 2-ci Dünya müharibəsi qurtardıqdan 45 il sonra, 1990-cı ildə verildi. İnanırıq ki, Ağabala Quliyev də layiq olduğu mükafatla təltif olunacaq. Ağabalanın yeganə təsəllisi prokurorluq orqanlarında uzun müddət qüsursuz xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 29 sentyabr 2006-cı il tarixli sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmasıdır.

**P.S.** Səkkiz yaşı olanda Ağabalanın atası Qubad kişi haqqın dərgahına qovuşur. Böyüyünün 16, kiçiyinin 5 yaşı olan 8 uşağın tərbiyəsi, boya-başa çatdırılması Suma ananın üzərinə düşür. Bu fədakar qadın həyatın qismət etdiyi ağır yükün öhdəsindən ləyaqətlə gəlir. Vətənə gərəkli oğul-qız yetişdirir. Bütün uşaqlarının təhsil almasına nail olan ananın böyük oğlu Şahlar Quliyev tibb xidməti polkovniki, Ağabala isə ədliyyə müşaviri rütbəsində olmuşlar.

Ağabalanın topunun yerləşdiyi məkanda bir abidə ucalır. Bu, bütün abidələrdən daha qiymətli və dəyərli olan Suma Ağaqulu qızının qəbridir.

Topun qurulduğu yer Ağabalagilin evindən 200 metrlik məsafədəki təpədə yerləşirdi. Ağabalanın anası Suma Ağaqulu qızı gecə-gündüz Allaha yalvarır – Allahım, oğluma gələn bəlanı mənə yetir, – deyirdi. Ana vəsiyyət etmişdi ki, dünyasını dəyişəndə onu oğlunun topunun dayandığı yerdə dəfn eləsinlər. İllər ötdü. 2002-ci ildə Suma ana haqqın dərgahına qovuşanda onu kənd qəbiristanlığında deyil, həmin təpədə dəfn etdi Ağabala.

Sonradan Suma ananın iki övladı və qardaşı da həmin yerdə dəfn olundu.

**Müqəddəs məkandan boylanan Ana**
**Sübhün al rənginə boyanan Ana.**
*(Poemadan bir parça)*

**Ələmdar Məmmədov**
**Təqaüddə olan baş ədliyyə müşaviri**

# Törədilən və ya hazırlanan cinayətlərlə bağlı məlumatlara baxılarkən prosessual müddətlərə əməl olunmasına ekspertizaların keçirilmə təsiri

27.01.2023-cü il tarixdə Baş prokurorluqda keçirilən kollegiya iclasında Baş prokuror cənab Kamran Əliyev çıxışında bildirmişdir ki, bir çox rayon prokurorluğunun əməkdaşları tərəfindən törədilən və ya hazırlanan cinayətlərlə bağlı məlumatlara baxılarkən Azərbaycan Respublikası CPM-nin 207-ci maddəsində nəzərdə tutulan müddətlər pozulmaqla, qərarlar qəbul olunur.

Bakı şəhəri Xətai rayon prokurorluğunda 2022-ci il ərzində 3 cinayət xarakterli məlumat üzrə aparılan araşdırma zamanı müddət pozuntusuna yol verilmişdir. Müddət pozuntusuna yol verilməsi səbəbləri məhkəmə-tibbi, məhkəmə-əmtəəşünaslıq, həkim səhvləri ilə bağlı müvafiq ekspertiza rəylərin prokurorluğa gec daxil olması ilə bağlıdır.

“Məhkəmə-ekspertiza fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 22-ci maddəsinə əsasən məhkəmə ekspertizasının aparılması müddətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual, Mülki Prosessual və İnzibati Xətalar məcəllələrinə müvafiq olaraq müəyyən edilir.

Azərbaycan Respublikası CPM-nin 271.1-ci maddəsinə əsasən ekspertiza təyin edilməsi haqqında müstəntiqin qərarının ekspertə daxil olduğu və ya ekspertlə müdafiə tərəfi arasında müqavilənin bağlandığı vaxtdan 1 (bir) aydan gec olmayaraq ekspert zəruri tədqiqatlar aparır, yazılı rəy tərtib edir, onu öz imzası ilə təsdiq edir və dərhal ekspertizanı təyin etmiş şəxsə və ya müdafiə tərəfinə göndərir.

Buna baxmayaraq, müstəntiqlər tərəfindən vaxtında ekspertizaların təyin edilməməsi, ekspertlərin sayının azlığı, iş yükü və sair bu kimi hallarla bağlı ekspertiza rəyləri vaxtında onu təyin etmiş şəxsə göndərilmir.

Təcrübədə bəzən müddət ötürülməsin deyə ekspertiza rəyi alınmadan qərar qəbul olunur və rəy daxil olduqdan sonra həmin qərarlar ləğv olunur.

Azərbaycan Respublikası CPM-nin 207.1-ci və 207.1.2-ci maddələrinə əsasən təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror zəruri hallarda törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat (aşkar cinayətlər haqqında məlumatlar istisna olmaqla) alındıqdan sonra 3 (üç) gün müddətində, bu mümkün olmadıqda 10 (on) gündən, ekspertin rəyinin alınması ilə əlaqədar və ya bu Məcəllənin 207.3-cü maddəsində nəzərdə tutulmuş hallarda isə 30 (otuz) gündən artıq olmayan müddətdə cinayət işinin başlanması üçün əsasların kifayət qədər olmasına dair ilkin yoxlama aparır.

Beləliklə, bəzi hallarda CPM-in 207.1.2-ci maddəsində nəzərdə tutulan müddətlər ərzində prosessual qərarın qəbul olunması mümkün olmur.

Azərbaycan Respublikası CPM-in 203.1-ci maddəsinə əsasən cinayət mühakimə icraatı zamanı müddətlər keçdikdən sonra aparılan prosessual hərəkətlər müddət bərpa edilməmişsə, etibarsız sayılır.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində törədilmiş və ya hazırlanan cinayət haqqında məlumat üzrə ilkin yoxlama zamanı müddətin uzadılması məsələsi nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 102.5-ci maddəsinə əsasən inzibati araşdırma inzibati xəta haqqında iş üzrə icraatın başlama vaxtından bir aydan artıq olmayan müddətə aparılır. İcraatında inzibati xəta haqqında iş olan səlahiyyətli vəzifəli şəxsin əsaslandırılmış vəsatəti olduqda, bu müddət yuxarı vəzifəli şəxs tərəfindən bir ayadək müddətə uzadıla bilər.

«İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin 05.03.2015-ci il tarixli Plenum qərarına müvafiq olaraq İnzibati xətalar qanunvericiliyi (inzibati-delikt hüququ) təbiətinə görə cinayət qanunvericiliyinə daha yaxındır. Bu hüquq sahələri müəyyən etdikləri qanun pozuntularının ictimai təhlükəlilik dərəcəsinə görə fərqlənir. İnzibati-delikt normalarının cinayət qanunvericiliyi normalarından fərqi birincinin nisbətən yüngül ictimai təhlükəli əməlləri qadağan etməsi ilə əlaqədardır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) inzibati xəta və ya intizam pozuntusu ilə bağlı tətbiq olunan müəyyən tənbeh növlərini onların ağırlıq dərəcəsinə görə cinayət məsuliyyəti ilə eyniləşdirir.

Avropa Məhkəməsi Engel və digərləri Niderlanda qarşı iş üzrə 8 iyun 1976-cı il tarixli Qərarında hər hansı bir cəzanın cinayət cəzası sayıla bilməsinə dair üç ünsürlü yanaşma tələbini müəyyən etmişdir. Lutz Almaniyaya qarşı iş üzrə 25 avqust 1987-ci il tarixli Qərarda isə qeyd edilmişdir ki, məhkəmə cəzanın xarakteri (ağırlığı) və növünə görə onun cinayət məsuliyyətli olub-olmamasını müəyyən edə bilər. Avropa Məhkəməsi bu qərarlarında cəzanın ağırlığına görə inzibati və ya cinayət məsuliyyəti olduğunu göstərərkən xəta ilə cinayətin oxşarlığını qeyd edir.

Cinayət və ya inzibati xəta ilə əlaqədar təqibi həyata keçirən səlahiyyətli orqanlar müvafiq qaydada cinayət və ya inzibati xətalar haqqında işlər üzrə ittiham tərəfi hesab edilirlər.

Göründüyü kimi, İnzibati Xətalar Məcəlləsində inzibati araşdırma zamanı müddətin uzadılması nəzərdə tutulsa da, cinayət-prosessual qanunvericiliyində bu hal nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 12.2, 85 və 114.2.3-cü maddələrinin AR CPM-in 65.1 və 318-ci maddələri və AR Konstitusiyasının 127-ci maddəsinin II hissəsi baxımından şərh edilməsinə dair Konstitusiya Məhkəməsinin Plenumu 18.11.2022-ci il tarixli qərarına görə “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair” 2016-cı il 2 noyabr tarixli Qərarında inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqi ilə bağlı qeyd etmişdir ki, cinayət-prosessual qanunvericiliyinin analogiya üzrə inzibati xəta haqqında iş üzrə icraat prosesində tətbiqi istisna edilmir. İnzibati Xətalar Məcəlləsinin 6.3-cü maddəsi inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə məhdudiyyət qoysa da, bu, həmin hüquq sahəsinin maddi hüquq normalarına (məsuliyyəti müəyyən edən normalara) aiddir. Lakin qanunun

analogiya üzrə tətbiqi o zaman mümkündür ki, oxşar prosessual münasibətlər inzibati xətalar qanunvericiliyində müvafiq norma ilə tənzimlənməsin.

Bu institutla bağlı daha geniş açıqlama Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 11 noyabr tarixli Qərarında verilmişdir.

Həmin Qərarda göstərilmişdir ki, qanunun analogiya üzrə tətbiqi konkret hüquq münasibətlərini tənzimləyən normanın olmamasını və bu hüquq münasibətlərinə oxşar münasibətləri tənzimləyən digər qanun normasının tətbiqini nəzərdə tutur. Məhz konkret normanın olmaması qanunun analogiya üzrə tətbiqini onun təfsirindən fərqləndirən əsas əlamətdir.

Qeyd olunduğu kimi, cinayətlərin inzibati xətalardan ictimai təhlükəlilik dərəcəsinə və cəzalara görə fərqləndiyini nəzərə alaraq, müddətin uzadılması ilə bağlı müddəanın cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmaması bəzi hallarda vətəndaşların hüquqlarının pozulmasına səbəb olan qərarların çıxarılmasına zəmin yaradır, ilkin yoxlama materialı üzrə bir müraciət üzrə bir neçə prosessual qərarların qəbul olunması ilə nəticələnir.

Halbuki, Dövlət orqanları insan hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırmasından çəkinməklə yanaşı cəmiyyətdə qanunçuluğun təmin edilməsini həyata keçirirlər. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur (Konstitusiyanın 71-ci maddəsinin I hissəsi).

Digər tərəfdən, bəzi dövlətlərin cinayət-prosessual qanunvericiliyində ilkin yoxlama zamanı müddətlərin uzadılması məsələsi öz əksini tapmışdır. Belə ki, Belarus Respublikasının CPM-də istintaq şöbəsinin rəisi və prokuror tərəfindən ilkin yoxlama materialı üzrə müddətin uzadılması məsələsi nəzərdə tutulmuşdur. (Belarus Respublikası CPM-nin 173-cü maddəsinin 4-cü hissəsi). Həmin maddəyə əsasən bu maddənin birinci hissəsində qeyd olunan müddət ərzində qərar qəbul olunması mümkün olmadığı halda, həmin müddət yoxlama istintaqda olduğu halda istintaq qurumun rəhbəri, təhqiqat və ya prokurorluqda olduğu halda isə prokuror tərəfindən 1 (bir) ay müddətinə uzadıla bilər.

Уголовно-Процессуальный Кодекс Республики Беларусь

Статья 173. Порядок и сроки рассмотрения заявлений и сообщений о преступлении

1. Решение по заявлению или сообщению должно быть принято в срок не позднее трех суток, а при необходимости проверки достаточности наличия или отсутствия оснований к возбуждению уголовного дела – не позднее десяти суток.

2. До возбуждения уголовного дела могут быть получены объяснения, образцы для сравнительного исследования, истребованы дополнительные документы, назначена проверка финансово-хозяйственной деятельности в случаях, предусмотренных законодательными актами, произведены осмотр места происшествия, помещения или иного законного владения, не являющегося жилищем, компьютерной информации, трупа, местности, предметов, документов, освидетельствование, задержание и личный обыск при задержании, проведены экспертизы, а также может быть проведено извлечение трупа из места захоронения (эксгумация).

3. В случае невозможности принятия решения в сроки, указанные в части 1 настоящей статьи, этот срок может быть продлен начальником следственного подразделения, а по материалам, находящимся в органе дознания или у прокурора, – прокурором до одного месяца.

4. В необходимых случаях вышестоящим начальником следственного подразделения, вышестоящим прокурором срок проверки по заявлению или сообщению о преступлении может быть продлен до трех месяцев.

4-1. В срок проведения проверки по заявлению или сообщению о преступлении не включается время, в течение которого она была приостановлена по основаниям, предусмотренным настоящим Кодексом.

5. При направлении прокурором в соответствии с пунктами 5 и 8 статьи 179 настоящего Кодекса материалов для проведения дополнительной проверки им устанавливается срок до десяти суток с момента поступления материалов в органы дознания, предварительного следствия, прокуратуры, которым поручена такая проверка.

6. При отмене начальником следственного подразделения постановления следователя о возбуждении либо об отказе в возбуждении уголовного дела и направлении материалов для проведения дополнительной проверки им устанавливается срок до десяти суток с момента поступления материалов в органы предварительного следствия, которым поручена такая проверка.

7. О продлении срока проверки по заявлению или сообщению о преступлении в течение 24 часов уведомляется заявитель. Копия постановления о продлении срока проверки по заявлению или сообщению о преступлении в течение 24 часов направляется прокурору.

8. Территориальность рассмотрения заявления или сообщения о преступлении определяется с соблюдением требований

Yuxarıda qeyd olunanlara əsasən hesab edirəm ki, Azərbaycan Respublikası CPM-nin 207.1.2-ci maddəsinə əlavə olunmalıdır. Həmin maddədə 30 (otuz) gündən artıq olmayan müddətdə sözündən sonra «müstəsna hallarda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən törədilən və ya hazırlanan cinayətlər haqqında məlumat üzrə ilkin yoxlama aparılması müddəti uzadılmaya səbəb olan konkret, faktiki hallar göstərilməklə, 1 (bir) aya qədər uzadıla bilər» sözləri əlavə olunmaldır.

Bu halda törədilən və ya hazırlanan cinayətlər haqqında məlumat üzrə ilkin yoxlama zamanı ekspertizaların vaxtında təyin olunması və ekspertlər tərəfindən qanunla nəzərdə tutulmuş bir ayadək müddət ərzində rəylərin hazırlanaraq, ekspertiza təyin etmiş şəxsə verilməsi şərti ilə, müstəsna hallarda ilkin yoxlama bir aya qədər uzadıldığı halda müddət pozuntusunun qarşısı alınmış olacaq və nəticədə AR Cinayət-prosessual Məcəlləsinin 207.1.2-ci maddəsinin tələblərinə cavab verən qanuni və əsaslı qərarlar qəbul ediləcəkdir.

**Sərdar İmanov**
**Bakı şəhəri Xətai rayon prokuroru**
**baş ədliyyə müşaviri**

# Prokurorluğun veteranı Kamo Fətəliyevin "Azərbaycan Prokurorluğu" elmi-praktik jurnalına müsahibəsi



***Fətəliyev Kamo Əmir oğlu 6 mart 1940-cı ildə Laçın rayonunda anadan olmuş, 1965-ci ildə Azərbaycan Dövlət Universitetini bitirməklə, prokurorluq orqanlarında qulluğa qəbul edilmişdir. Kamo Fətəliyev xidməti fəaliyyətinə Kürdəmir Rayon Prokurorluğunun stajoru kimi başlayıb, Şərur rayon prokurorluğunda köməkçi, daha sonra Şəki rayon prokurorluğunda baş müstəntiq kimi fəaliyyətini davam etdirmiş, 1974-1993-cü illərdə Lerik, Ağsu, Sabirabad, Tovuz, Qəbələ rayonlarında prokuror vəzifəsində işləmişdir. Kamo Fətəliyev 1993-1995-ci illərdə Bakı şəhər prokurorunun birinci müavini, 1995-2000-ci illərdə Nəqliyyat Prokurorluğunun Daxili işlər orqanlarında qanunların icrasına nəzarət şöbəsinin prokuroru vəzifələrində işləmiş, 2002-ci ildə qulluqda olmanın son yaş həddinə çatdığına görə təqaüdə çıxmışdır.***

**Sual: Prokurorluqda fəaliyyətə başladığınız ilk dövrləri necə xatırlayırsınız?**

**Cavab:** Mən ilk əvvəl onu qeyd edim ki, bu sahəni sevdiyim üçün, bu sahəyə vurğun olduğum üçün bütün dövrlərdə öz işimdən zövq almışam. Həmişə prokurorluq orqanlarında işləyəndə çalışmışam ki, öz fəaliyyətim zamanı səhvlərə yol verməyim, ədalətsizlik halları baş verməsin, xalqın hörmətini qazanım, rəhbərliyin etimadını doğruldum. Buna nə dərəcədə nail olub-olmamağımı mən deyə bilmərəm. Təbii ki, bunu mənim işlədiyim rayonların əhalisi və Baş Prokurorluğun rəhbərliyi daha obyektiv qiymətləndirə bilər. Mən şəxsən bu cür düşünürəm.

**Sual: Prokurorluqda işlədiyiniz müddət ərzində Sizə kollektivimizdə dost qazandırmışdırmı? Həmkarlarınızdan xüsusilə kimi xatırlamaq istərdiniz?**

**Cavab:** Bütün həmkarlarıma, hətta adını belə, bilmədiyim həmkarlarıma qarşı çalışmışam ki, dost münasibətdə olum, münasibətim yaxşı olsun. Lazım gələndə, onlara öz işlərində bacardığım qədər kömək etməyə də çalışmışam. Kollektivdə xatırladığım insanlar çoxdur. Məsələn, bir prokuror haqqında qeyd edim – Salman Cəfərov. Mən Kürdəmir Rayon Prokurorluğunun stajoru olan zaman o, rayon prokuroru idi. Salman Cəfərov sonra mühüm işlər üzrə müstəntiq işlədi. Çox görkəmli hüquqşünas idi. Mən onu çox yaxşı tanıyırdım. Digər bir şəxs - keçmiş Noraşen, hazırkı Şərur rayonunda mərhum Həbib Rzayev mənim prokurorum olub. O, sərt adam olsa da, bizə nizam-intizamı, qanuna riayət etməyi, ədalətli olmağı öyrətdi. Hətta bəzən onu başa düşməyib, narazı qaldığım vaxtlar da olub. Bu, həqiqətdir. Lakin mən sonradan başa düşdüm ki, H.Rzayev bizə düzgün məsləhətlər verib. Bundan başqa, mən Çingiz Məmmədovu yaxşı xatırlayıram. Mərhum Balağa Niftullayev mənim prokurorum olub, o da mənim yaxşı yadımdadır. Bilirsiniz, belə insanlar sayca çox olub. Bütövlükdə qeyd edim ki, mən çalışmışam ki, hamı



ilə dost münasibətində olum. Yəni, hamı ilə səmimi olmuşam, dostcasına rəftar etmişəm. Heç vaxt da yalan danışmamışam.

**Sual: Kamo müəllim, Siz olduqca mürəkkəb ictimai-siyasi, kriminogen hadisələrin cərəyan etdiyi, dövlətçiliyimizə qarşı təhdidlər olan**

**1993-1995-ci illərdə Bakı şəhər prokurorunun birinci müavini vəzifəsində işləmisiniz. Həmin illəri və ümummilli lider Heydər Əliyevin ictimai-siyasi sabitliyin təmin edilməsi ilə bağlı gördüyü misilsiz işləri necə xatırlayırsınız?**

**Cavab:** Qeyd etmək istəyirəm ki, mən Bakı şəhər prokurorunun birinci müavini vəzifəsinə təyin olunan zaman demək olar ki, işsiz idim. Çünki Qəbələ Rayon prokurorluğundan əsassız yerə işdən çıxarılmışdım. Mənə qarşı o vaxtkı Baş Prokurorluğun rəhbərliyi tərəfindən ədalətsizlik olmuşdu. Lakin 1993-cü ildə



ulu öndər xalqın təkidli tələblərindən sonra Naxçıvandan Bakıya qayıtdıqdan, Azərbaycanı məhv olmaqdan xilas etdikdən sonra məni Bakı şəhər prokurorunun birinci müavini vəzifəsinə təyin etdi. Bax, həmin dövrü məhz belə xatırlayıram. O zaman çox çətin vaxtlar idi. Böyük rəhbərimiz Heydər Əliyev Bakıya gələnə qədər respublikada xaos, özbaşınalıq halları baş verirdi. Ölkədə idarəçilik məhv olmuşdu, heç bir təcrübəsi, səriştəsi, bacarığı olmayan insanları çayxanalardan gətirib icra başçısı, idarə müdiri, digər rəhbər vəzifələrə təyin etmişdilər. Ona görə də respublikada olduqca mürəkkəb vəziyyət yaranmışdı. Çox şükürlər olsun ki, ulu öndər Heydər Əliyev xalqın və dövlətçiliyin köməyinə gəldi, ölkəni məhv olmaqdan, parçalanmaqdan xilas etdi və qısa zaman çərçivəsində ölkədə yaranmış ciddi problemləri tamamilə aradan qaldırdı.

Digər bir məsələni də qeyd edim ki, respublika 1969-cu ilə qədər dotasiya ilə dolanan geridə qalmış bir respublika idi. Sovet İttifaqına daxil olan 15 müttəfiq respublika arasında iqtisadiyyatı ən zəif inkişaf etmiş, əhalisi yoxsul vəziyyətdə yaşayan respublika məhz Azərbaycan idi. Lakin 1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR KP MK-nın Birinci katibi təyin edildikdən sonra respublika iqtisadiyyatını, kənd təsərrüfatını, idarəetməni o qədər möhkəmləndirdi ki, təkcə Lənkəran-Astara zonası bütün Moskva şəhərini tərəvəzlə təmin edə bilirdi. Yəni, Azərbaycan çox möhtəşəm nailiyyətlər əldə etdi. Ulu öndər kənd təsərrüfatını, o cümlədən heyvandarlığı inkişaf etdirdi, yeni sənaye sahələri yaradıldı, üzümçülük və pambıqçılıq yüksək səviyyəli inkişafa çatdı. Beləliklə, respublikamız dotasiya alan respublikadan çıxaraq, birincilər, qabaqcıllar sırasına keçdi. Bütün bunlar mənim çox yaxşı yadımdadır.

**Sual: Ötən əsrin 90-cı illərinin əvvəlində xalqımızın başına gətirilən müsibətləri xatırlatmaq istəməsək də, həmin çətin dövrün yaddaşınızda necə həkk olunması, ulu öndər Heydər Əliyevin xilaskar missiyası barədə fikirlərinizi bilmək istərdik.**

**Cavab:** Nəzərinizə çatdırım ki, həmin dövrdə mən Tovuz rayon prokuroru idim. Üzdəniraq qonşularımız, əsasən, Qazax və Tovuz rayonlarına silahlı basqınlar edir, bu regionlarda qanunsuz hərəkətlər törədirdilər. Ona görə də hüquq-mühafizə orqanları yüksək səviyyədə, ayıq-sayıq işləməli idilər. Həm polis, həm də prokurorluq əməkdaşlarının, ümumilikdə bütün hüquq-mühafizə orqanlarının üzərinə çox böyük məsuliyyət düşürdü. 90-cı illərin əvvəllərində Tovuz rayonunda bütün inzibati orqanların işçiləri ən böyük və qaynar kənd olan Əlibəyli kəndində qalır, bəzən həftələrlə heç evə də getmirdilər, əhali ilə birgə kənddə gecələyirdik. Bildiyiniz kimi, o zaman silah da yox idi, ordu formalaşmamışdı. Biz insanların arasında olub, onlara kömək edirdik. Bax, elə həmin dövrdə mənim özümün xəbərim olmadan, xalqın təkidi, istəyi və təklifi ilə məni Ali Sovetə deputat seçdilər.

Bir hadisəni də xatırladım ki, erməni vandalizminin başında duran iki qardaşın atası Tovuz rayonu ilə qonşu olan Ağdam kəndində üzüm bağında işləyirdi. Biz onu tutub götürə bildik. Həmin vaxtlar ermənilər 17 yaşlı bir kimsəsiz oğlanı girov götürmüşdülər. Mən həmin yeniyetməni ermənilərdən sağ-salamat alıb anasına təhvil verdim. Şükürlər olsun ki, sonda biz işğal olunmuş torpaqlarımızı düşmən tapdağından azad etdik.

**Sual: Kamo müəllim, cari il iyunun 22-də Laçın şəhərində rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi oldu, Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə orada əməliyyat müşavirəsi keçirilmiş, eyni zamanda digər təd-**

**birlər təşkil edilmişdir. Bu tədbirlərdə prokurorluğun veteranı kimi Siz də iştirak etdiniz. Uzun illər doğma dədə-baba torpaqları həsrəti ilə yaşamış bir laçınlı kimi hansı hissləri yaşadınız?**





**Cavab:** Mən Laçında keçirdiyim hissləri sözlə ifadə etməkdə çox acizəm. Ona görə ki, düz 32 il doğma torpağıma, elimə-vətənimə – Laçınıma getməmişdim. Bax, buna görə də ilk növbədə Ali Baş Komandan, respublikamızın rəhbəri Prezident İlham Əliyevə minnətdaram, arzu edirəm ki, onun "dəmir yumruğu" daha da möhkəm olsun. Respublikanın Baş prokuroru Kamran Əliyevə həmçinin minnətdaram. Yeri gəlmişkən, bir məqamı da xatırladım: Laçın torpağına yaxınlaşanda özümü haradasa başqa bir yerdə hiss edirdim, özümü tamamilə itirmişdim. Laçında böyüyən, boya-başa çatan adam olaraq öz evimizi tapa bilmirdim. Laçın o qədər inkişaf etmişdi, binalar tikilmişdi, yollar çəkilmişdi ki! Orada yaxşı, səmimi görüşlər keçirildi. Belə ahıl yaşıma – 84 yaşıma baxmayaraq, orada özümü çox cavan hiss etdim, sevincimdən, o torpağın havasından-suyundan, laçınlıların münasibətindən daxilən cavanlaşdım. Mənə elə gəlir ki, Baş prokuror da bunu hiss etdi. Mən orada laçınlıların Baş prokuror Kamran Əliyevə olan səmimi, doğma münasibətinin şahidi oldum. Eyni zamanda, Baş prokurorun da Laçın camaatına qarşı səmimiyyətini, mehribançılığını gördüm. Məsələn, o, kiçik yaşlı bir uşağı qucağına aldı, yaşlı bir qadını qucaqlayıb öpdü, ağsaqqalı qəbul etdi. Təkrar edirəm – mən laçınlıyam, o, məni göylərə qaldırdı. Laçının yaşlı adamlarından biri də mənəm. Yüksək vəzifə tutan laçınlılardan biri də mənəm. Mən orada daha da yüksəldim. Bütün bunlara görə birinci növbədə respublikanın Prezidenti cənab İlham Əliyevə təşəkkür edirəm. Möhtərəm Prezidentimizə, onun ailə üzvlərinə can sağlığı, xoşbəxtlik və uğurlar arzulayıram. Qoy həmin "dəmir yumruq" bu ailə tərəfindən həmişə möhkəm olsun. Baş prokuror Kamran Əliyevə də Laçın əhalisinə göstərdiyi səmimi rəftara, xoş münasibətinə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

**Sual: Prokurorluqda uzun illər şərəflə xidmət etmiş veteranımız, el ağsaqqalı kimi gənc həmkarlarınıza nə arzulamaq istərdiniz?**

**Cavab:** Bütün vəzifələrdə işləmək məsuliyyət tələb edir. Lakin hüquq-mühafizə orqanlarında işləmək daha böyük məsuliyyətdir. Bildiyiniz kimi, həkimlər və hüquq mühafizə orqanlarının əməkdaşları insan həyatı ilə birbaşa əlaqədədirlər, insan sağlamlığı ilə məşğuldurlar. Ona görə də gənc həmkarlarıma arzu edərdim ki, onlar heç vaxt səhv etməsinlər, qətiyyən ədalətsiz addım atmasınlar. Əhali ilə onların bir nümayəndəsi olaraq rəftar etsinlər. Oturduqları kreslo, tutduqları vəzifə heç vaxt onları insanlardan ayırmasın, həmişə xalqın içində olsunlar. Gənclərimizə onu da arzu edərdim ki, sənətlərini sevsinlər, prokurorluq şərəfli, böyük, mühüm sahədir. Ona görə də cavanlarımıza bu yolda müvəffəqiyyətlər arzulayıram.

**Sual: Ənənəvi sualımızı vermək istərdim. Həyatda ən böyük nailiyyət nəyi hesab edirsiniz?**

**Cavab:** Nailiyyətləri hansısa sıraya düzmək mənim üçün çətindir. Əgər desəm ki, ailə səadətinə görə xoşbəxtəm, bu, doğrudan da belədir. Mənim gözəl övladlarım, gözəl nəvələrim-nəticələrim var. Eyni zamanda, çox yaxşı, sədaqətli dostlarım, hüquq-mühafizə orqanlarında işləmiş və hazırda da işləyən gözəl yoldaşlarım var. Mən Laçına olan səfərimiz zamanı da bunu bir daha hiss etdim. Mən orada təkcə laçınlı kimi deyil, bir ağsaqqal kimi, keçmiş prokurorluq işçisi kimi hörmət gördüm, çox səmimi münasibət gördüm. İstəyirəm ki, gənclərimiz də bu sahəyə, bu peşəyə, bu xidmətə ürəklə, vicdanla qulluq etsinlər, düzgün əqidə ilə qulluq etsinlər, ədaləti heç vaxt əldən verməsinlər.

# Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Prokurorluğunun veteranlarının yubileyləri ilə əlaqədar tədbir keçirilib







Yubilyar veteranlar – İsmayıl Kazımov 75 və Sultan Əliyev isə 85 yaşının tamam olması münasibətilə Baş prokurorun imzaladığı əmrlə "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.

Tədbirdə iştirak edən İsmayıl Kazımova Baş prokuror tərəfindən yubiley medal və hədiyyə təqdim olunub.

İsmayıl Kazımov prokurorluq orqanlarında qulluq keçmənin, prokurorluq işçisi kimi qanunçuluq və hüquq qaydalarının təmin olunmasında, dövlətçiliyimizin maraqlarının müdafiə edilməsində xidmət aparmanın qürurverici olduğunu bildirərək göstərilən diqqət və qayğıya görə öz dərin minnətdarlığını bildirib.

Bundan başqa, Prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun













Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Fərrux Babayev qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokurorluğun rəhbərliyi tərəfindən qəbul edilərək fəxri fərmanla təltif olunub.

Görüşlərdə tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib və sonda xatirə şəkilləri çəkdiriblər.



# Prokurorluğun veteranına yubiley medalı təqdim edilib

Prokurorluğun veteranı Sultan Əliyevə 85 yaşının tamam olması münasibətilə Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlə təltif edildiyi "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı prokurorluq əməkdaşları tərəfindən təqdim olunub.

Sultan Əliyev xatirələrini bölüşərək prokurorluq orqanlarında qulluq keçmənin qürurverici olduğunu qeyd edib, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonda xatirə fotoşəkli çəkilib.









# Yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilmiş prokurorluğun veteranları Baş prokurorun birinci müavini tərəfindən qəbul edilib





İyunun 6-da Lənkəran hərbi prokuroru İmran Əhmədov və Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Əli Abdullayev təqaüdə çıxmaları ilə əlaqədar Baş prokurorun birinci müavini Elçin Məmmədov tərəfindən qəbul edilib.

Görüşdə prokurorluğun hər iki veteranına uzunmüddətli səmərəli, həminin, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəli fəaliyyətlərinə görə minnətdarlıq ifadə edilib.









Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin əmrləri ilə təltif olunmuş prokurorluğun hər iki veteranına “Prokurorluğun fəxri işçisi” döş nişanı və hədiyyələr təqdim edilib.

Tədbir iştirakçıları xatirələrini bölüşərək səmimi söhbətlər edib, birlikdə xatirə şəkli çəkilib.

## Prokurorluq işçisinin qulluqda olmanın yaş həddinə çatmasına görə qulluq keçməsinə xitam verilib









“Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin Məxfiçilik üzrə xidmətinin prokuroru, ədliyyə müşaviri Seyidəli Mecdunovun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokurorun müavini Elmar Camalov iyunun 26-da Baş Prokurorluğun inzibati binasında onu qəbul edib, “Prokurorluğun fəxri işçisi” döş nişanı və hədiyyə təqdim edib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkilləri çəkilib.

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

«İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 2013-cü il oktyabrın 2-də Strasburq şəhərində imzalanmış 16 nömrəli Protokolu Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə təsdiq edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 24 fevral 2023-cü il
№ 821-VIQ

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 16 nömrəli Protokolunun təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 821-VIQ nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 19 aprel 2023-cü il
№ 3855

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017; 2017, № 12 (I kitab), maddə 2238; 2018, № 2, maddə 146; 2020, № 7, maddə 856; 2021, № 5, maddə 432; 2022, № 8, maddə 831, № 12, maddə 1367) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10-cu maddənin üçüncü hissəsinin iyirmi ikinci — iyirmi beşinci abzasları müvafiq olaraq iyirmi üçüncü — iyirmi altıncı abzaslar hesab edilsin və aşağıdakı məzmunda iyirmi ikinci abzas əlavə edilsin:

– «prokurorluq işçilərinin xidməti vəsiqəsinin nümunəsini təsdiq edir;».

**2.** 35-ci maddənin üçüncü hissəsinə «geyim» sözündən əvvəl «xüsusi» sözü əlavə edilsin.

**3.** 41-ci maddə üzrə:

**3.1.** adında «, xidməti vəsiqəsi və» sözləri «və prokurorluq işçilərinin xüsusi» sözləri ilə əvəz edilsin;

**3.2.** üçüncü hissədə «, xüsusi geyim formasının və xidməti vəsiqələrinin» sözləri «və prokurorluq işçilərinin xüsusi geyim formasının» sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 4 aprel 2023-cü il
№ 849-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"ndə dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 450) ilə təsdiq edilmiş "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci fəsil üzrə:

**1.1.** adına "1" rəqəmindən əvvəl "Fəsil" sözü əlavə edilsin;

**1.2.** mətni 1-ci maddə hesab edilsin və həmin maddədə aşağıdakı dəyişikliklər edilsin:

**1.2.1.** birinci və ikinci hissələr aşağıdakı redaksiyada verilsin:

**"1.** Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları poqonlardır. Prokurorluğun ali xüsusi və xüsusi rütbəli işçilərinin gündəlik geyim formasında daşınan poqonlar gümüşü rəngdə, səhra geyim formasının poqonları isə göy rəngdədir. Poqonlar paltonun, gödəkcələrin, pencəyin, köynəklərin (yun, uzunqol və qısaqol), səhra geyim formasının çiynində daşınır. Daşınma üsuluna görə poqonlar taxılıb-çıxarılan və tikiləndir. Taxılıb-çıxarılan poqonlar köynəklərdə (yun, uzunqol və qısaqol) və səhra geyim formasının gödəkcələrində, tikilən poqonlar isə paltoda, gödəkcələrdə (səhra geyiminin gödəkcələri istisna olmaqla) və pencəkdə daşınır.

Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşaviri üçün yarımyumşaq materialdan hazırlanmış poqonun aşağı hissəsi düzbucaqlı, paralel tərəflərinin uzunluğu 15 və 17 sm olmaqla arxa tərəfi iti, ön tərəfi kor bucaq şəklində, eni isə 6 sm olur. Gündəlik geyim formasında daşınan poqonun yan kənarları 4 mm enində yaşıl mahuddan hazırlanmış kantla haşiyələnir. Xüsusi rütbəli işçilər üçün poqonun yuxarı hissəsi yarımdairəvi, orta xətt üzrə uzunluğu 17 sm, eni 5 sm olur. Gündəlik geyim formasında daşınan poqonun kənarları, aşağı kənarı istisna olmaqla, 4 mm enində yaşıl mahuddan hazırlanmış kantla haşiyələnir.";

**1.2.2.** üçüncü hissədə "paqonları" sözü "poqonları" sözü ilə əvəz edilsin;

**1.2.3.** dördüncü hissənin birinci cümləsində “paqonunun” sözü və ikinci cümləsində “Paqonun” sözü müvafiq olaraq “poqonunun” sözü və “Poqonun” sözü ilə əvəz edilsin;

**1.2.4.** beşinci, altıncı və yeddinci hissələrin birinci cümlələrində “paqonu” sözü və ikinci cümlələrində “Paqonun” sözü müvafiq olaraq “poqonu” sözü və “Poqonun” sözü ilə əvəz edilsin və yeddinci hissəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşavirinin səhra geyim formasının poqonları göy parça üzərində xüsusi toxunmuş göy rəngli liflərdən hazırlanır və onların üzərində müvafiq olaraq Azərbaycan Respublikasının Dövlət Gerbi və səkkizguşəli ulduzlar qara rəngli liflərdən hörülür *(şəkil 4-1).”;*

**1.2.5.** səkkizinci və on ikinci hissələrdə “paqonları” sözü və “paqonun” sözü müvafiq olaraq “poqonları” sözü və “poqonun” sözü ilə əvəz edilsin;

**1.2.6.** doqquzuncu, onuncu, on üçüncü, on dördüncü və on beşinci hissələrin birinci cümlələrində “paqonu” sözü və üçüncü cümlələrində “Paqonun” sözü müvafiq olaraq “poqonu” sözü və “Poqonun” sözü ilə əvəz edilsin;

**1.2.7.** on birinci hissənin birinci cümləsində “paqonu” sözü və ikinci cümləsində “Paqonun” sözü müvafiq olaraq “poqonu” sözü və “Poqonun” sözü ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

“Baş ədliyyə müşavirinin, Ədliyyə müşavirinin və Kiçik ədliyyə müşavirinin səhra geyim formasının göy rəngli poqonları üzərində poqonun uzununa doğru mərkəzdən bir-birindən 10 mm aralı hər birinin eni 3 mm olmaqla qara rəngli iki paralel xətt olur. Müvafiq olaraq poqonların üzərində qara metaldan səkkizguşəli ulduzlar və prokurorluğun emblemi bərkidilir *(şəkil 12-1).”;*

**1.2.8.** on beşinci hissəyə aşağıdakı məzmunda dördüncü və beşinci cümlələr əlavə edilsin:

“I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünasın səhra geyim formasının göy rəngli poqonları üzərində poqonun uzununa doğru mərkəzdə eni 3 mm olan bir qara rəngli xətt olur. Müvafiq olaraq poqonların üzərində qara metaldan səkkizguşəli ulduzlar və prokurorluğun emblemi bərkidilir *(şəkil 12- 2).”;*

**1.2.9.** on altıncı hissə aşağıdakı redaksiyada verilsin:

“Baş ədliyyə müşaviri, Ədliyyə müşaviri, Kiçik ədliyyə müşaviri, I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünasın poqonları yuxarı hissədən pencəyə, paltoya, gödəkcələrə, köynəklərə (yun, uzunqol və qısaqol) diametri 15 mm olan, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş qızılı rəngli, səhra geyim formasına isə qara rəngli metaldan hazırlanmış düymə ilə bərkidilir.”.

**2.** Aşağıdakı məzmunda 2-ci maddə əlavə edilsin:

**“2.** Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının gündəlik geyim formasında daşınan poqonlar tünd zeytun rəngdə, səhra geyim formasının poqonları isə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan tikilir. Poqonlar paltonun, yarımpaltonun, plaşın, gödəkcələrin, pencəyin, köynəklərin (yun, uzunqol və qısaqol), səhra geyim formasının çiynində daşınır. Daşınma üsuluna görə poqonlar taxılıb-çıxarılan və tikiləndir *(şəkillər 12-3–12-7).*

Ali zabitlər tikilmə poqonları paltoda, yarımpaltoda, plaşda, gödəkcələrdə (səhra geyiminin gödəkcələri istisna olmaqla) və pencəkdə daşıyırlar. Baş və kiçik zabitlər tikilmə poqonları paltoda, yarımpaltoda, plaşda və pencəkdə daşıyırlar. Ali zabitlərin poqonlarının kənarlarında yaşıl rəngli kant vardır. Ali zabitlərin tikilmə poqonlarının aşağı kənarından 10 mm məsafədə aypara formasında palıd yarpaqları, ayparanın ortasında prokurorluğun emblemi yerləşdirilir. Ali zabitlərin poqonlarında ulduzlar və emblemlər qızılı (səhra geyim forması üçün isə tünd yaşıl) rəngli sap ilə tikilir (şəkil 12-3). Baş zabitlərin tikilmə poqonlarının aşağı kənarından 12 mm məsafədə qızılı rəngli metaldan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çarpazlaşdırılmış qılınclarsız emblemi və səkkizguşəli ulduz yerləşdirilir (şəkil 12-4). Emblemin ölçüləri 40 x 25 mm-dir. Tikilmə poqonların aşağı kənarının eni ali zabitlər üçün 56 mm, digər zabitlər üçün 50 mm, yuxarı kənarının eni ali zabitlər üçün 40 mm, digər zabitlər üçün isə 35 mm-dir.

Kiçik zabitlərin tikilmə poqonlarında onların hərbi rütbələrinə müvafiq olaraq metaldan qızılı rəngli səkkizguşəli ulduzlar yerləşdirilir. Ulduzlar guşələrindən biri poqonun düyməsinə doğru istiqamətlənmiş halda yerləşdirilir *(şəkil 12-5).*

Ali zabitlər taxılıb-çıxarılan poqonları səhra geyim formasının gödəkcələrində, köynəklərdə (yun, uzunqol və qısaqol), baş və kiçik zabitlər qış gödəkcəsində, uzunqol (qısaqol) gödəkcələrdə, səhra geyim formasının gödəkcələrində, yun köynəklərdə və köynəklərdə (uzunqol və qısaqol) daşıyırlar. Taxılıb-çıxarılan poqonlar

poqon üçün nəzərdə tutulan kəmərciklərə taxılır, yuxarı hissəsində tünd zeytun rəngli (köynəklərdə sarıya çalan açıq qəhvəyi rəngli) kiçik forma düyməsi yerləşdirilir. Ali zabitlərin taxılıb-çıxarılan poqonlarının hazırlanma qaydası onların tikilmə poqonları ilə eynidir.

Baş və kiçik zabitlərin taxılıb-çıxarılan poqonlarında ulduzlar və emblemlər qızılı (səhra geyim forması üçün isə tünd yaşıl) rəngli sap ilə tikilir.

Baş zabitlərin taxılıb-çıxarılan poqonlarında səkkizguşəli ulduzlardan əlavə poqonun aşağı kənarında ölçüləri 40 x 25 mm olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çarpazlaşdırılmış qılınclarsız emblemi, yuxarı kənarında isə eni 22 mm olan prokurorluğun emblemi yerləşdirilir. Kiçik zabitlərin taxılıb-çıxarılan poqonlarında səkkizguşəli ulduzlardan əlavə poqonun yuxarı kənarında eni 22 mm olan prokurorluğun emblemi qızılı rəngli sapla tikilir.

Ali zabitlərin taxılıb-çıxarılan poqonlarının ölçüləri onların tikilmə poqonlarının ölçüləri ilə eynidir. Baş və kiçik zabitlərin taxılıb-çıxarılan poqonlarının uzunluğu 125 mm, aşağı hissəsinin eni 60 mm-dir.

Zabitlərin heyətindən asılı olaraq, onların poqonlarındakı ulduzların ölçüləri müxtəlifdir: ali zabitlər üçün – 25 mm, baş zabitlər üçün – 22 mm, kiçik zabitlər üçün –17 mm-dir *(şəkillər 12-6, 12-7).*

Zabitlərin poqonlarındakı ulduzlar uzununa sıra ilə yerləşdirilir. Hərbi rütbədən asılı olaraq, poqonlarda ulduzların sayı aşağıdakı kimidir:

ədliyyə general-polkovniki – 3 ulduz;
ədliyyə general-leytenantı – 2 ulduz;
ədliyyə general-mayoru – 1 ulduz;
ədliyyə polkovniki – 3 ulduz;
ədliyyə polkovnik-leytenantı – 2 ulduz;
ədliyyə mayoru – 1 ulduz;
ədliyyə kapitanı – 4 ulduz;
ədliyyə baş leytenantı – 3 ulduz;
ədliyyə leytenantı – 2 ulduz.

Poqonlar üçün nəzərdə tutulan kəmərciklər gödəkcələr, köynəklər (yun, uzunqol və qısaqol) və səhra geyimində adi, palto, yarımpalto, plaş və pencəkdə isə üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş qızılı rəngli kiçik forma düyməsi ilə düymələnir.".

**3.** 2-ci fəsil üzrə:

**3.1.** adına "2" rəqəmindən əvvəl "Fəsil" sözü əlavə edilsin;

**3.2.** 2.1-ci maddə 3-cü maddə hesab edilsin və həmin maddədə aşağıdakı dəyişikliklər edilsin:

**3.2.1.** birinci hissə aşağıdakı redaksiyada verilsin:

**"3.** Prokurorluq işçilərinin geyim forması gündəlik və səhra geyim dəstindən ibarətdir. Gündəlik geyim formasının tərkibinə üst geyimləri (palto, gödəkcə, kostyum (pencək, şalvar (qadınlar üçün yubka və şalvar), baş geyimləri (qış papağı, furajka (qadınlar üçün beret), ayaqqabılar (tufli, yarımçəkmə), digər əşyalar (yun, uzunqol və qısaqol köynəklər, qalstuk, şərf, şalvar qayışı, əlcək və corab) daxildir.";

**3.2.2.** ikinci hissənin birinci cümləsində "iki tərəfi düymələnən, qatlama yaxalıqlı olur." sözləri "göy rəngli kabardin parçadan tikilir və iki tərəfi düymələnən, qatlama yaxalıqlı olur." sözləri ilə əvəz edilsin;

**3.2.3.** səkkizinci hissəyə "Qadınlar üçün" sözlərindən sonra "eyni biçimli şalvar və" sözləri əlavə edilsin;

**3.2.4.** on səkkizinci hissə aşağıdakı redaksiyada verilsin:

"Gödəkcə göy rəngli sukeçirməyən parçadan tikilir. Düz siluetli, qatlanan boyunluqlu, ön hissəsində mərkəzdən dörd böyük adi düymə ilə gizli düymələnən, hər iki yanında üstü qapaqlarla örtülən fiqurlu basmadüymə ilə düymələnən və iki yan kəsmə içəriyə tikilən cibləri vardır. İçəri hissəsində zəncirbəndlə bağlanan və açılıb çıxarılan istiləşdirilmiş astarı vardır. Astarın döş hissəsinin hər iki yanında zəncirbəndlə bağlanan daxili ciblər tikilir. Gödəkcənin ön hissəsinin qolları iki tikişli olmaqla uc hissədən 10 sm aralı manjetdən ibarətdir. Manjet və gödəkcənin boyunluğunun üst hissəsi 2,5 mm enində yaşıl rəngli kantla haşiyələnir. Gödəkcənin digər fərqlənmə nişanları paltoda olan fərqlənmə nişanları ilə eynidir (şəkillər 26-1, 26-2).";

**3.2.5.** on doqquzuncu hissədə "plaş" sözü "gödəkcə" sözü ilə əvəz edilsin;

**3.2.6.** on birinci – on doqquzuncu hissələr müvafiq olaraq on ikinci – iyirminci hissələr hesab edilsin və aşağıdakı məzmunda on birinci hissə əlavə edilsin:

"Yun köynək göy rənglidir, yundan toxunulur, yaxası üçbucaq şəkillidir, aşağı kənarlarına manjet tikilmişdir, çiyin və dirsək hissələrinə köynəyin öz rəngində möhkəm parçadan əlavə qatlar tikilir. Köynəyin öz rəngində

taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər kiçik adi düymə ilə və ilgəklə düymələnir, üzərində heç bir fərqlənmə nişanı yoxdur *(şəkillər 19-1, 19-2).";*

**3.3.** 2.2-ci maddə 4-cü maddə hesab edilsin;

**3.4.** 2.3-cü maddə 5-ci maddə hesab edilsin və həmin maddənin birinci hissəsinin üçüncü cümləsində "paqonlarla" sözü və "paqon" sözü müvafiq olaraq "poqonlarla" sözü və "poqon" sözü ilə, dördüncü cümləsində "Paqonun" sözü "Poqonun" sözü ilə əvəz edilsin və həmin maddənin ikinci hissəsinə "düymələnir" sözündən sonra ", şalvar" sözü və "qış" sözündən sonra "şalvarı və" sözləri əlavə edilsin;

**3.5.** 2.4-cü maddə 6-cı maddə hesab edilsin;

**3.6.** 2.5-ci maddə 7-ci maddə hesab edilsin və həmin maddədə "qayış" sözü "şalvar qayışı" sözləri ilə əvəz edilsin;

**3.7.** 3-cü maddə 8-ci maddə hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

**"8.** Səhra geyim formasının tərkibinə üst geyimləri (qış gödəkcəsi, yay gödəkcəsi, qış şalvarı, yay şalvarı, səhra jileti, uzunqol və qısaqol mayka), baş geyimləri (papaq, qış və yay furajkası), ayaqqabılar (uzunboğaz çəkmə), digər əşyalar (əlcək, corab, şalvar qayışı) daxildir.

Qış və yay gödəkcəsi göy rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir, qatlanan boyunluqludur. Gödəkcələrin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər adi düymə və ilgəklə və yaxud basmadüymə ilə düymələnir. Gödəkcələr ətəyinə qədər astarlıdır. Kürəyi bütövdür. Qolları ikitikişlidir, dirsək hissələrinə gödəkcənin öz rəngində əlavə qat tikilmişdir. Gödəkcələrin içərisində bel səviyyəsindən tənzimləyici qaytan keçirilir. Qolları yarıqlı və manjetlidir, öz rəngində düymə və ilgəklə düymələnir. Gödəkcələr bel kəmərsiz geyinilir. Gödəkcələrin yaxalığında Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşaviri üçün eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür (şəkil 125). Gödəkcələrin sağ döş cibinin qapağı üzərinə üstündə prokurorluq işçisinin soyadı, inisialı və qan qrupu, sol döş cibinin qapağı üzərinə isə vəzifəsi göstərilən göy rəngli döş nişanı tikilir. Laylarında yan kəsmə qapaqlı cibləri vardır *(şəkillər 31–34).* Qış gödəkcəsinin Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri, III dərəcəli dövlət ədliyyə müşaviri üçün boz rəngli təbii qaragül dərisindən taxılıbçıxarılan yaxalığı vardır *(şəkillər 31–32).*

Qış şalvarı istiləşdirilmiş astar əlavə edilməklə göy rəngli qalın parçadan tikilir. Şalvarla birlikdə biçilmiş qurşağı, üstdən tikilmiş və adi, görünməyən düymələrlə düymələnən, qapaqlı yan, qapaqlı kəsmə arxa və kəsmə yan cibləri vardır. Qurşaqda yan tikiş yerlərinin üstündə belin ölçüsünü tənzimləyən, iki düymə ilə düymələnən iki kəmərcik və ləvazimat gəzdirmək üçün yeddi enli halqa vardır. Şalvarın miyançası biri qurşaqda olan dörd düymə ilə düymələnir. Şalvarın balaqları düz və yaxud enli elastik lentdən üzəngili olur *(şəkillər 31–32).*

Yay şalvarı göy rəngli nazik parçadan tikilir və astarsız olur. Yay şalvarının digər göstəriciləri qış şalvarı ilə eynidir.

Səhra jileti sukeçirməyən parçadan tikilir, qatlanan boyunluqludur. Ön hissəsi mərkəzdən zəncirbəndlə bağlanılır, düz siluetli və astarlıdır. Ətəyində içəriyə tikilən iki kəsmə yan cibləri vardır. Səhra jiletinin ön hissəsində sol tərəfində prokurorluğun embleminin təsviri, sağ tərəfində isə "Azərbaycan Prokurorluğu" sözləri vardır. Arxa hissəsində mərkəzdə "Azərbaycan Prokurorluğu" sözləri ilə əhatə olunan prokurorluğun embleminin təsviri və ondan 10 sm aşağıda yapışqanla taxılıbçıxarılan eni 10 sm, uzunluğu isə 14 sm olan düzbucaq formada prokurorluğun müvafiq qurumunun adı yerləşdirilir *(şəkil 35).*

Uzunqol və qısaqol maykalar göy rəngli pambıq parçadan tikilir. Yaxası boğaza kimidir.

Papaq Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri, III dərəcəli dövlət ədliyyə müşaviri üçün boz rəngli təbii qaragül dərisindən tikilir. Günlük bərk materialdan hazırlanır. Papaqların fərqlənmə nişanları gündəlik geyim formalarının papaqlarında olan fərqlənmə nişanları ilə rəng istisna olmaqla eynidir *(şəkillər 31–32).*

Qış furajkası göy rəngli parçadan hazırlanır. Üç yan, bir ön xişdəkdən, qulaqlıqdan və günlük hissələrdən ibarətdir. İstiləşdirilmiş astarı vardır. Günlük üzərinə göy rəngli parça çəkilmiş bərk materialdan hazırlanır, fərqlənmə nişanları gündəlik geyim formalarının furajkalarında olan fərqlənmə nişanları ilə rəng və qaytanlar istisna olmaqla eynidir, gündəlik geyim formalarının furajkalarında olan qaytanların yerinə papağın ön tərəfində Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşaviri üçün palıd, Baş ədliyyə müşaviri, Ədliyyə müşaviri,

Kiçik ədliyyə müşaviri, I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünas üçün isə dəfnə yarpaqları qara rəngli sapla tikilir *(şəkillər 33–34).*

Yay furajkası göy rəngli parçadandır, üç yan, bir ön xişdəkdən və günlük hissələrdən ibarətdir. Furajkanın ön xişdəyinin üzərində prokurorluq işçiləri üçün müəyyən edilmiş qara rəngli tikmə kokarda vardır. İki arxa xişdək furajkanın ölçüsünü tənzimləyən elastik lentlə yığılır. Günlük üzərinə göy rəngli parça çəkilmiş bərk materialdan hazırlanır, fərqlənmə nişanları səhra geyiminin qış furajkası ilə eynidir *(şəkillər 33–34).*

Uzunboğaz çəkmə qara rəngdədir, dabanı və altlığı bütövdür, qəliblənmişdir, bağları vardır, burnu və arxa hissəsi möhkəmləndirilmişdir.

Əlcək qara rəngli dəridən hazırlanır.

Corab qara rəngdədir və uzunboğaz çəkmə ilə geyinilir.

Şalvar qayışı qara rəngdədir.";

**3.8.** 4-cü maddə 9-cu maddə hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

**"9.** Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının geyim forması gündəlik və səhra geyim dəstindən ibarətdir.

Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının gündəlik geyim formasının tərkibinə üst geyimləri (palto, demisezon yarımpalto, plaş, qış gödəkcəsi, uzunqol (qısaqol) gödəkcə, şalvar, qış (yay) kostyumu (pencək, şalvar (qadınlar üçün yubka və şalvar), baş geyimləri (furajka (qadınlar üçün beret), papaq), ayaqqabılar (tufli, yarımboğaz (qadınlarda uzunboğaz) çəkmə), digər əşyalar (uzunqol və qısaqol köynəklər və maykalar, yun köynək, qalstuk, şərf, şalvar qayışı, əlcək, corab (qadınlar üçün bədən dərisi rəngli neylondan) və qobur) daxildir.

Palto tünd zeytun rəngli parçadan tikilir. İki tərəfi düymələnən, qatlama yaxalıqlı, arxadan tikişli və aşağı hissəsində bir açıq büküklü, içəri tikilmiş üstü qapaqlı yan cibləri olur. Qolları ikitikişli, köbəli və içəridən tikiləndir. Vatinlə istiləşdirilmiş astarlıdır. Astarında iki kəsmə qoltuq cibi vardır. Paltonun qol köbəsinin üstündən yaşıl rəngli mahuddan kant tikilir. Ali zabitlər üçün yaxalıq qəhvəyi rəngli təbii qaragül dərisindəndir. Paltonun yaxasına diametri 20 mm olan qızılı rəngli metaldan hazırlanmış, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş hər cərgədə iki ədəd olmaqla üç cərgə düymə tikilir, düymələrdən üçü işlək, qalanları isə dekorativ olur. Palto tikilmə poqonlarla geyinilir. Paltonun çiyinlərində öz rəngində poqonların bərkidilməsi üçün kəmərcikləri vardır. Kəmərciklər üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş qızılı rəngli metal düymə ilə düymələnir. Paltonun hər iki yanında üstü qapaqlarla örtülən içəriyə tikilən cibləri olur, qolları iki tikişli olmaqla uc hissədən 10 sm aralı manjetdən ibarətdir. Manjet və paltonun yaxalığının üst hissəsi 2,5 mm enində yaşıl rəngli kantla haşiyələnir. Manjetlərin hər birinə diametri 15 mm olan qızılı rəngli metaldan hazırlanmış üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş üç ədəd kiçik düymə sıra ilə tikilir. Döşəmədən paltonun ətəyinədək olan məsafə 40-42 sm-dir *(şəkillər 36–38).*

Ali zabitlərin paltosunun yaxalıqlarının üst hissəsinə eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür. Paltonun qollarındakı manjetlərin altında 6 mm məsafədə 3 mm diametri olan qızılı rəngli qaytan, daha aşağı 6 mm məsafədə eni 12 mm olan qızılı rəngli palıd yarpaqları hörülür *(şəkil 36).*

Baş və kiçik zabitlərin paltosunun yaxalıqlarının üst hissəsinə qızılı rəngli metaldan hazırlanmış prokurorluğun emblemi bərkidilir *(şəkillər 37–38).*

Demisezon yarımpalto (ali zabitlər üçün qəhvəyi rəngli təbii qaragül boyunluqlu) tünd zeytun rəngli parçadan tikilir və ətəyi dizdən 5 sm yuxarıdır. Yarımpaltonun digər göstəriciləri və fərqlənmə nişanları palto ilə eynidir *(şəkillər 39– 41).*

Plaş tünd zeytun rəngli parçadan palto formasında tikilir. Plaşın beldən bağlanan, eni 50 mm olan kəməri olur. Plaşın digər göstəriciləri və fərqlənmə nişanları palto ilə (ali zabitlərdə yaxalıq istisna olmaqla) eynidir *(şəkillər 42–44).*

Qadınlar üçün palto, yarımpalto və plaş eynibiçimli olur, lakin sol tərəfə düymələnir *(şəkillər 45–53).*

Qış gödəkcəsi tünd zeytun rəngli parçadan tikilir, bortları ortadan görünməyən zəncirbənd və altı basmadüymələrlə bağlanır. Ali zabitlər üçün qəhvəyi rəngli təbii qaragül, digər zabitlər üçün isə süni xəzdən olan taxılıb çıxarılan boyunluqludur. Laylarında yan kəsmə qapaqlı ciblər vardır, kürəyi bütöv, düz siluetlidi, qolları təktikişlidir. Gödəkcə ali zabitlər üçün tikilmə, digər zabitlər üçün taxılıb-çıxarılan poqonlarla geyinilir. Adi düymə ilə düymələnən taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Gödəkcənin taxılıb-çıxarılan süni xəzdən istiləşdirilmiş astarı vardır *(şəkillər 54–59).*

Qış (yay) kostyumunun pencəyi tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir, iki tərəfi düymələnən, qatlama yaxalıqlı olur. Pencək ətəyinədək astarlıdır, hər cərgədə iki

ədəd olmaqla üç cərgə, diametri 20 mm olan qızılı rəngli metaldan hazırlanmış, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş düymələr tikilir və aşağı iki cərgə düymələrdən ikisi işlək, qalanları isə dekorativ olur. Pencəyin hər iki yanında üstü qapaqlarla örtülən içəriyə tikilən cibləri, sol döş hissədə qapaqsız içəriyə tikilən cibi olur, qolları iki tikişli olmaqla uc hissədən 10 sm aralı manjetdən ibarətdir. Manjet və pencəyin yaxalığının üst hissəsi 2,5 mm enində yaşıl rəngli kantla haşiyələnir. Manjetlərin hər birinə diametri 15 mm olan qızılı rəngli metaldan hazırlanmış üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş üç ədəd düymə sıra ilə tikilir. Pencəyin arxa hissəsində iki (sağ və sol) tərəfdən bükük ilə tamamlanan tikiş vardır. Pencəyin çiyinlərində həmin parçadan tikilmiş, poqonların bərkidilməsi üçün kəmərciklər vardır. Kəmərciklər qızılı rəngli kiçik düymələr ilə düymələnir. Kişilərdə pencək sağ, qadınlarda isə sol tərəfə düymələnir *(şəkillər 60–65).*

Ali zabitlərin pencəyinin və gödəkcələrinin yaxalıqlarının üst hissəsinə eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür. Pencəyin qollarındakı manjetlərin altında 6 mm məsafədə 3 mm diametri olan qızılı rəngli qaytan, daha aşağı 6 mm məsafədə eni 12 mm olan qızılı rəngli palıd yarpaqları hörülür *(şəkillər 60, 63, 125).*

Baş və kiçik zabitlərin pencəyinin və gödəkcələrinin yaxalıqlarının üst hissəsinə qızılı rəngli metaldan hazırlanmış prokurorluğun emblemi bərkidilir *(şəkillər 61, 62, 64, 65, 125).*

Uzunqol (qısaqol) gödəkcə tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir. Gödəkcələrin qurşağı manjetlidir, astarlıdır, qatlanan yaxalıqlıdır, ön hissəsi mərkəzdən zəncirbəndlə bağlanılır, kürəyi bütöv biçimlidir, qollar qol dibinə tikilir. Gödəkcələrin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər basmadüymə ilə düymələnir. Gödəkcələrin sol və sağ ətəyinin döş nahiyəsinə iç tərəfdən asılma ciblər tikilmişdir. Gödəkcələrin yaxalığında ali zabitlər üçün eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun emblemi hörülür (şəkillər 66–77).

Qış (yay) kostyumunun və uzunqol (qısaqol) gödəkcənin şalvarları tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq pencəyin və gödəkcələrin tikildiyi eyni parçadan) manjetsiz tikilir, qurşaq aşırma ilgəklə düymələnir. Şalvarın kəsmə yan cibləri və arxadan sağ tərəfində qapaqlı kəsmə cibi vardır. Şalvarın miyançası qarmaqla və zəncirbəndlə bağlanılır. Qurşaqda kəmər üçün yeddi ensiz halqa vardır. Şalvarların yan tikişi boyu 2,5 mm enində yaşıl rəngli kant tikilir. Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşavirinin şalvarlarındakı kanta paralel hər iki hissədə ondan 0,5 sm aralı eni 22 mm olan yaşıl rəngli yun parçadan iki zolaq tikilir *(şəkillər 66–68, 72–74).*

Yubka tünd zeytun rəngli parçadan (qış və yay mövsümünə uyğun olaraq pencəyin və gödəkcələrin tikildiyi eyni parçadan) tikilir. Tikilmə qurşaqlıdır, sarja, yaxud sətin astarı vardır. Arxasında zəncirbənd və bükük vardır, ön hissəsi iki parçadan ibarətdir. Arxa və ön hissələri bel səviyyəsində köklənmişdir, dizləri örtür (şəkillər 63–65, 69–71).

Yun köynək tünd zeytun rənglidir, yaxası üçbucaq şəkillidir, aşağı kənarlarına manjet tikilmişdir, çiyin və dirsək hissələrinə köynəyin öz rəngində möhkəm parçadan əlavə qatlar tikilir. Köynəyin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər kiçik adi düymə ilə və ilgəklə düymələnir. Üzərində heç bir fərqlənmə nişanı yoxdur *(şəkillər 78–81).*

Köynək uzunqol və qısaqol olmaqla, sarıya çalan açıq qəhvəyi rəngli köynəklik parçadan tikilir. Tikilmə dik yaxalıqlıdır, bortu ortadan düymələnir, poqonlar üçün kəmərcikləri, fiqurlu qapaqlı iki döş cibi, ciblərin ortasında qatlama vardır. Qolları yarıqlı və manjetlidir (yalnız uzunqol köynəkdə). Kəmərciklər, bortlar, fiqurlu qapaqlar və manjetlər adi düymələrlə düymələnir. Kürəyi koketkalıdır. Ətəyi qurşaqlı, yanlardan rezinlidir. Qadın hərbi qulluqçular üçün köynəyin ön hissəsi yan tikişlərlə köklənmişdir. Köynək tünd zeytun rəngli taxılıb-çıxarılan poqonlarla geyinilir *(şəkillər 82–93).*

Mayka uzunqol və qısaqol olmaqla, tünd zeytun rəngli pambıq parçadan tikilir. Yaxası boğaza kimidir. Uzunqol (qısaqol) gödəkcə ilə daşınmaq üçün nəzərdə tutulmuşdur.

Şalvar qayışı qara rəngli dəridən hazırlanır.

Qalstuk qara rəngli parçadan hazırlanır.

Şərf tünd zeytun rəngli yun parçadan hazırlanır. Ölçüləri 120 x 20 sm-dir.

Əlcək qara rəngli dəridəndir.

Corab qara (göy) rəngdədir. Qadın hərbi qulluqçular bədən dərisi rəngində neylon və ya yarımyun uzunboğaz corab geyinirlər.

Tufli qara rəngli dəridən hazırlanır. Tənzimləyici rezinciyi, yaxud bağları vardır. Dabanı qəliblənmiş, altlığı göndəndir. Burnu və arxa hissəsi möhkəmləndirilmişdir. Yay ayaqqabısı alçaq dabanlıdır. Burnu ensiz, arxa hissəsi möhkəmləndirilmişdir.

Yarımboğaz (qadınlarda uzunboğaz) çəkmə qara rəngli dəridən hazırlanır. Dabanı alçaq (qadınlarda orta) ölçüdədir. Burnu ensizdir. Zəncirbəndlə bağlanır. Burnu və arxa hissəsi möhkəmləndirilmişdir.

Qobur xidməti silahı gəzdirmək üçün nəzərdə tutulub, qara və yaxud qəhvəyi rəngdə olmaqla dəridən hazırlanır.

Furajka tünd zeytun rəngli parçadan hazırlanır. Onun üst dövrəsi yaşıl rəngli kantla əhatə olunur, qara laklı günlüyü olur. Ali zabitlərin furajkasının qabağında qızılı rəngli saplardan toxunmuş eni 15 mm olan ikiqat hörmə qaytan qızılı rəngli sapla yenidən eşilərək diametri 15 mm olan, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş iki düymə ilə bərkidilir. Qaytandan yuxarı furajkanın dövrəsinin üzərində tam ortada palıd yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarət qızılı rəngli kokarda bərkidilir (şəkil 126). Palıd yarpaqları sap ilə tikilir, prokurorluğun emblemi isə metaldan hazırlanır. Furajkanın günlüyünün üstündə kənarı boyu simmetrik şəkildə qızılı rəngli palıd yarpaqları olur *(şəkil 94).*

Baş zabitlərin furajkalarında eni 10 mm olan qızılı rəngli saplardan hörülmüş hörmə qaytan, üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş iki kiçik düymə ilə bərkidilir. Qaytandan yuxarı furajkanın dövrəsinin üzərində tam ortada qızılı rəngli dəfnə yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarət qızılı rəngli kokarda bərkidilir (şəkil 127). Dəfnə yarpaqları sap ilə tikilir, prokurorluğun emblemi isə metaldan hazırlanır. Furajkanın günlüyünün üstündə kənarı boyu simmetrik şəkildə dəfnə yarpaqları olur *(şəkil 95).*

Kiçik zabitlərin furajkasının kokardası metaldan olan prokurorluğun emblemindən ibarət olur və günlüyün üzərində fərqlənmə nişanı yerləşdirilmir *(şəkillər 96, 128).*

Qış fəslində geyinmək üçün qara rəngli laklanmış günlüyü olan qəhvəyi rəngdə xəzdən papaq hazırlanır. Papaqların fərqlənmə nişanları furajkalarda olan fərqlənmə nişanları ilə eynidir *(şəkillər 97–99).*

Qadınlar üçün müvafiq olaraq beret və qəhvəyi rəngdə xəzdən günlüksüz papaq hazırlanır *(şəkillər 100–105).*

Qadın hərbi qulluqçular üçün nəzərdə tutulmuş beret tünd zeytun rəngli parçadan tikilir, oval formalı dibcikdən, təpə, dövrə, günlük hissələrindən, qızılı rəngli lentdən və üzərində Azərbaycan Respublikasının Dövlət Gerbi həkk olunmuş iki kiçik düymədən ibarətdir. Eni 9 sm olan kənarları yanlardan və arxadan qaldırılır. Təpə hissəsinin kənarına həmin parçadan eni 3 mm olan kant tikilir *(şəkillər 100–102).*

Ali zabitlərin beretinin ön hissəsinin üzərində tam ortada palıd yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarət qızılı rəngli kokarda bərkidilir və günlüyünün kənarı boyu simmetrik şəkildə qızılı rəngli palıd yarpaqları olur *(şəkil 100).*

Baş zabitlərin beretinin kokardası qızılı rəngli dəfnə yarpaqları ilə simmetrik şəkildə əhatə olunmuş prokurorluğun emblemindən ibarətdir. Beretin günlüyünün kənarı simmetrik olaraq dəfnə yarpaqları ilə əhatə olunur *(şəkil 101).*

Kiçik zabitlərin beretinin kokardası prokurorluğun emblemindən ibarət olur və günlüyün üzərində fərqlənmə nişanı yerləşdirilmir *(şəkil 102).*

Günlüksüz xəz papağın üzərinə kokarda bərkidilir və onun digər göstəriciləri beretdə olanlarla eynidir *(şəkillər 103–105).";*

**3.9.** 4.1-ci maddə 10-cu maddə hesab edilsin və aşağıdakı redaksiyada verilsin:

**"10.** Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularının səhra geyim formasının tərkibinə üst geyimləri (qış gödəkcəsi, yay gödəkcəsi, qış şalvarı, yay şalvarı, yun köynək, uzunqol və qısaqol mayka), baş geyimləri (qış furajkası (ali zabitlər üçün tünd qəhvəyi rəngli papaq, yay furajkası), ayaqqabılar (uzunboğaz çəkmə), digər əşyalar (əlcək, corab, qayış, yol çantası) daxildir.

Qış (yay) gödəkcəsi ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan (qış və yay mövsümünə uyğun olaraq qalın və nazik) tikilir, qatlanan boyunluqludur. Gödəkcələrin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər adi düymə və ilgəklə və yaxud basmadüymə ilə düymələnir. Gödəkcələr ətəyinə qədər astarlıdır, kürəyi bütövdür, qolları ikitikişlidir, dirsək hissələrinə gödəkcənin öz rəngində əlavə qat tikilmişdir. Gödəkcələrin içərisində bel səviyyəsindən tənzimləyici qaytan keçirilir. Gödəkcələrin qolları yarıqlı və manjetlidir, öz rəngində düymə ilə və ilgəklə düymələnir. Gödəkcələrin bel kəməri olmur. Gödəkcələrin yaxalığında ali zabitlər üçün eni 12 mm olan palıd yarpaqları ilə əhatələnmiş prokurorluğun

emblemi hörülür. Gödəkcənin sağ döş cibinin qapağı üzərinə üstündə hərbi qulluqçunun soyadı, inisialı və qan qrupu, sol döş cibinin qapağı üzərinə isə vəzifəsi göstərilən ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan döş nişanı tikilir. Laylarında yan kəsmə qapaqlı cibləri vardır *(şəkillər 106– 114).* Qış gödəkcəsinin ali zabitlər üçün tünd qəhvəyi, təbii qaragül dərisindən taxılıbçıxarılan yaxalığı vardır (şəkillər 106, 109).

Qış şalvarı istiləşdirilmiş astar əlavə edilməklə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan tikilir. Şalvarla birlikdə biçilmiş qurşağı, üstdən tikilmiş və adi, görünməyən düymələrlə düymələnən, qapaqlı yan, qapaqlı kəsmə arxa və kəsmə yan cibləri vardır. Qurşaqda yan tikiş yerlərinin üstündə belin ölçüsünü tənzimləyən, iki düymə ilə düymələnən iki kəmərcik və ləvazimat gəzdirmək üçün yeddi enli halqa vardır. Şalvarın miyançası biri qurşaqda olan dörd düymə ilə düymələnir. Şalvarın balaqları düz və yaxud enli elastik lentdən üzəngili olur *(şəkillər 106–111).*

Yay şalvarı ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş nazik parçadan tikilir və astarsız olur. Yay şalvarının digər göstəriciləri qış şalvarı ilə eynidir *(şəkillər 112-117).*

Yun köynək ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş yun parçadan toxunulur, yaxası boğaza kimidir. Aşağı kənarlarına manjet tikilmişdir. Yun köynəyin çiyin və dirsək hissələrinə köynəyin öz rəngində möhkəm parçadan əlavə qatlar tikilir. Yun köynəyin öz rəngində taxılıb-çıxarılan poqonlar üçün kəmərcikləri vardır. Kəmərciklər kiçik adi düymə ilə və ilgəklə düymələnir. Yun köynəyin sol qolunun xarici səthinə cib tikilir, üzərində heç bir fərqlənmə nişanı yoxdur.

Uzunqol və qısaqol maykalar ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş pambıq parçadan tikilir, yaxası boğaza kimidir.

Ali zabitlər üçün papaq tünd qəhvəyi rəngli təbii qaragül dərisindən tikilir. Papağın günlüyünün üstünə ali zabitlər üçün müəyyən edilmiş tünd yaşıl rəngdə naxışı olan, ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan üzlük tikilir, günlük bərk materialdan hazırlanır. Papaqların fərqlənmə nişanları gündəlik geyim formalarının furajkalarında olan fərqlənmə nişanları ilə rəng istisna olmaqla eynidir (şəkil 118).

Qış furajkası ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan hazırlanaraq, üç yan, bir ön xişdəkdən, qulaqlıqdan və günlük hissələrdən ibarətdir. Furajkanın istiləşdirilmiş astarı vardır, günlüyü üzərinə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parça çəkilmiş bərk materialdan hazırlanır, fərqlənmə nişanları gündəlik geyim formalarının furajkalarında olan fərqlənmə nişanları ilə rəng və qaytanlar istisna olmaqla eynidir. Gündəlik geyim formalarının furajkalarında olan qaytanların yerinə papağın ön tərəfində ali zabitlər üçün palıd, baş zabitlər üçün isə dəfnə yarpaqları qara rəngli sapla tikilir *(şəkillər 119–121).*

Yay furajkası ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan hazırlanaraq, üç yan, bir ön xişdəkdən və günlük hissələrdən ibarətdir. Furajkanın ön xişdəyinin üzərində tünd yaşıl rəngli tikmə kokarda vardır. İki arxa xişdək furajkanın ölçüsünü tənzimləyən elastik lentlə yığılır. Günlük üzərinə ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parça çəkilmiş bərk materialdan hazırlanır, yay furajkasının fərqlənmə nişanları səhra geyiminin qış furajkası ilə eynidir *(şəkillər 122–124).*

Uzunboğaz çəkmə sarıya çalan açıq qəhvəyi rəngdədir, dabanı və altlığı bütövdür, qəliblənmişdir, bağları vardır, burnu və arxa hissəsi möhkəmləndirilmişdir.

Əlcək qara rəngli dəridən hazırlanır.

Corab qara rəngdədir və uzunboğaz çəkmə ilə geyinilir.

Şalvar qayışı tünd zeytun rəngindədir.

Yol çantası ayrı-ayrı rənglərdən kamuflyaj edilmiş parçadan hazırlanır.";

**3.10.** aşağıdakı məzmunda 11-ci və 12-ci maddələr əlavə edilsin:

**"11.** Prokurorluq işçiləri xüsusi geyim forması və fərqlənmə nişanları ilə müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normalar üzrə təmin edilirlər.

**12.** Prokurorluq işçilərinin geyim formasının daşınması qaydalarını Azərbaycan Respublikasının Baş prokuroru müəyyən edir.".

**4.** "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri"nə əlavə - "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinə geyim formasının verilmə norması və istifadə müddətləri" ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 4 aprel 2023-cü il
№ 850-VIQD



**Şəkil 4-1**
**Həqiqi dövlət ədliyyə müşaviri, I dərəcəli dövlət ədliyyə müşaviri, II dərəcəli dövlət ədliyyə müşaviri və III dərəcəli dövlət ədliyyə müşavirinin səhra geyim formasının poqonları**



**Şəkil 12-1**
**Baş ədliyyə müşavirinin, Ədliyyə müşavirinin və Kiçik ədliyyə müşavirinin səhra geyim formasının poqonları**



**Şəkil 12-2**
**I dərəcəli hüquqşünas, II dərəcəli hüquqşünas və III dərəcəli hüquqşünasın səhra geyim formasının poqonları**



**Şəkil 12-3**
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin gündəlik və səhra geyim formalarının poqonları



**Şəkil 12-4**
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin tikilmə, taxılıb-çıxarılan və səhra geyim formalarının poqonları



**Şəkil 12-5**
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin tikilmə, taxılıb-çıxarılan və səhra geyim formalarının poqonları




**Şəkil 12-6**
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan zabitlərinin **gündəlik geyim formasının** tikilmə və taxılıb-çıxarılan poqonlarında yerləşdirilmiş ulduzların və emblemlərin ölçüləri




# Şəkil 12-7

**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan zabitlərinin səhra geyim formasının taxılıb-çıxarılan poqonlarında yerləşdirilmiş ulduzların və emblemlərin ölçüləri**



**Şəkil 19-1**
**Prokurorluq işçilərinin yun köynəkdə gündəlik geyim forması**



**Şəkil 19-2**
**Qadın prokurorluq işçilərinin yun köynəkdə gündəlik geyim forması**



**Şəkil 26-1**
**Prokurorluq işçilərinin gödəkcədə gündəlik geyim forması**



**Şəkil 26-2**
**Qadın prokurorluq işçilərinin gödəkcədə gündəlik geyim forması**



Şəkil 31
Ali xüsusi rütbəli prokurorluq
işçilərinin qış gödəkcəsində səhra geyim forması



Şəkil 32
Ali xüsusi rütbəli qadın prokurorluq
işçilərinin qış gödəkcəsində səhra geyim forması



Şəkil 33
Prokurorluq işçilərinin yay gödəkcəsində səhra geyim forması



Şəkil 34
Qadın prokurorluq işçilərinin yay gödəkcəsində səhra geyim forması




**Şəkil 35**
**Prokurorluq işçilərinin səhra jileti**



**Şəkil 36**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin paltoda gündəlik geyim forması**



**Şəkil 37**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin paltoda gündəlik geyim forması**



**Şəkil 38**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin paltoda gündəlik geyim forması**



**Şəkil 39**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin demisezon yarımpaltoda gündəlik geyim forması**



**Şəkil 40**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin demisezon yarımpaltoda gündəlik geyim forması**



**Şəkil 41**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin demisezon yarımpaltoda gündəlik geyim forması**



**Şəkil 42**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin plaşda gündəlik geyim forması**



**Şəkil 43**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin plaşda gündəlik geyim forması**



**Şəkil 44**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin plaşda gündəlik geyim forması**



**Şəkil 45**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin paltoda gündəlik geyim forması**



**Şəkil 46**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin paltoda gündəlik geyim forması**



**Şəkil 47**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin paltoda gündəlik geyim forması**



**Şəkil 48**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin demisezon yarımpaltoda gündəlik geyim forması**



**Şəkil 49**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin demisezon yarımpaltoda gündəlik geyim forması**



**Şəkil 50**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin demisezon yarımpaltoda gündəlik geyim forması**



Şəkil 51
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin plaşda gündəlik geyim forması



Şəkil 52
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin plaşda gündəlik geyim forması



Şəkil 53
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin plaşda gündəlik geyim forması



Şəkil 54
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin qış gödəkcəsində gündəlik geyim forması



Şəkil 55
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin qış gödəkcəsində gündəlik geyim forması



Şəkil 56
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin qış gödəkcəsində gündəlik geyim forması



Şəkil 57
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin qış gödəkcəsində gündəlik geyim forması



**Şəkil 58**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin qış gödəkcəsində gündəlik geyim forması**



**Şəkil 59**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin qış gödəkcəsində gündəlik geyim forması**



**Şəkil 60**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin qış (yay) kostyumunda gündəlik geyim forması**



**Şəkil 61**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin qış (yay) kostyumunda gündəlik geyim forması**



**Şəkil 62**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin qış (yay) kostyumunda gündəlik geyim forması**



Şəkil 63
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin qış (yay) kostyumunda gündəlik geyim forması



Şəkil 64
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin qış (yay) kostyumunda gündəlik geyim forması



Şəkil 65
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin qış (yay) kostyumunda gündəlik geyim forması



Şəkil 66
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin uzunqol gödəkcədə gündəlik geyim forması



Şəkil 67
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin uzunqol gödəkcədə gündəlik geyim forması



Şəkil 68
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin uzunqol gödəkcədə gündəlik geyim forması



**Şəkil 69**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin uzunqol gödəkcədə gündəlik geyim forması**



**Şəkil 70**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin uzunqol gödəkcədə gündəlik geyim forması**



**Şəkil 71**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin uzunqol gödəkcədə gündəlik geyim forması**



**Şəkil 72**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin qısaqol gödəkcədə gündəlik geyim forması**



**Şəkil 73**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin qısaqol gödəkcədə gündəlik geyim forması**



**Şəkil 74**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin qısaqol gödəkcədə gündəlik geyim forması**



Şəkil 75
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin qısaqol gödəkcədə gündəlik geyim forması



Şəkil 76
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin qısaqol gödəkcədə gündəlik geyim forması



Şəkil 77
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin qısaqol gödəkcədə gündəlik geyim forması



Şəkil 78
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin yun köynəkdə gündəlik geyim forması



Şəkil 79
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş və kiçik zabitlərinin yun köynəkdə gündəlik geyim forması



Şəkil 80
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin yun köynəkdə gündəlik geyim forması



Şəkil 81
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş və kiçik zabitlərinin yun köynəkdə gündəlik geyim forması



Şəkil 82
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin uzunqol köynəkdə gündəlik geyim forması



Şəkil 83
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin uzunqol köynəkdə gündəlik geyim forması



Şəkil 84
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin uzunqol köynəkdə gündəlik geyim forması



Şəkil 85
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin uzunqol köynəkdə gündəlik geyim forması



Şəkil 86
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin uzunqol köynəkdə gündəlik geyim forması



Şəkil 87
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin uzunqol köynəkdə gündəlik geyim forması



Şəkil 88
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin qısaqol köynəkdə gündəlik geyim forması



Şəkil 89
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin qısaqol köynəkdə gündəlik geyim forması



Şəkil 90
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin qısaqol köynəkdə gündəlik geyim forması



Şəkil 91
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin qısaqol köynəkdə gündəlik geyim forması



Şəkil 92
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin qısaqol köynəkdə gündəlik geyim forması



Şəkil 93
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin qısaqol köynəkdə gündəlik geyim forması



Şəkil 94
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin gündəlik geyim formalarının furajkası



Şəkil 95
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin gündəlik geyim formalarının furajkası



Şəkil 96
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin gündəlik geyim formalarının furajkası



Şəkil 97
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin gündəlik geyim formalarının papağı



Şəkil 98
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin gündəlik geyim formalarının papağı



Şəkil 99
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin gündəlik geyim formalarının papağı



Şəkil 100
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin gündəlik geyim formalarının bereti



Şəkil 101
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin gündəlik geyim formalarının bereti



Şəkil 102
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin gündəlik geyim formalarının bereti



Şəkil 103
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin gündəlik geyim formalarının papağı



Şəkil 104
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin gündəlik geyim formalarının papağı



Şəkil 105
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin gündəlik geyim formalarının papağı



**Şəkil 106**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin qış gödəkcəsində səhra geyim forması**



**Şəkil 107**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin qış gödəkcəsində səhra geyim forması**



**Şəkil 108**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin qış gödəkcəsində səhra geyim forması**



**Şəkil 109**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin qış gödəkcəsində səhra geyim forması**



**Şəkil 110**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin qış gödəkcəsində səhra geyim forması**



**Şəkil 111**
**Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin qış gödəkcəsində səhra geyim forması**



Şəkil 112
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan ali zabitlərinin yay gödəkcəsində səhra geyim forması



Şəkil 113
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan baş zabitlərinin yay gödəkcəsində səhra geyim forması



Şəkil 114
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan kiçik zabitlərinin yay gödəkcəsində səhra geyim forması



Şəkil 115
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın ali zabitlərinin yay gödəkcəsində səhra geyim forması



Şəkil 116
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın baş zabitlərinin yay gödəkcəsində səhra geyim forması



Şəkil 117
Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan qadın kiçik zabitlərinin yay gödəkcəsində səhra geyim forması



**Şəkil 118**
Hərbi prokurorluq orqanlarının
ali zabitlərinin **səhra geyim
formalarının papağı**



**Şəkil 119**
Hərbi prokurorluq orqanlarının
ali zabitlərinin **səhra geyim
formalarının qış furajkası**



**Şəkil 120**
Hərbi prokurorluq orqanlarının
prokurorluq işçisi olan
baş zabitlərinin **səhra
geyim formalarının qış furajkası**



**Şəkil 121**
Hərbi prokurorluq orqanlarının
prokurorluq işçisi olan
kiçik zabitlərinin **səhra
geyim formalarının qış furajkası**



**Şəkil 122**
Hərbi prokurorluq orqanlarının
ali zabitlərinin **səhra geyim
formalarının yay furajkası**



**Şəkil 123**
Hərbi prokurorluq orqanlarının
prokurorluq işçisi olan
baş zabitlərinin **səhra
geyim formalarının yay furajkası**



**Şəkil 124**
Hərbi prokurorluq orqanlarının
prokurorluq işçisi olan
kiçik zabitlərinin **səhra
geyim formalarının yay furajkası**



ali zabitlər üçün kiteldə və səhra geyim formasında yaxa nişanları



Baş və kiçik zabitlər üçün kiteldə yaxa nişanı



ali zabitlər üçün







Baş və kiçik zabitlər üçün

## Şəkil 125

Ali, baş və kiçik zabitlərin yaxa nişanları



**Şəkil 126**
Ali zabitlərin baş geyimlərinin kokardaları



**Şəkil 127**
Baş zabitlərin baş geyimlərinin kokardaları



**Şəkil 128**
Kiçik zabitlərin baş geyimlərinin kokardaları

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

## «Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri»ndə dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 850-VIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri»ndə dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 850-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, «Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri»nin 11-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası prokurorluq işçilərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normalarını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.2.** «Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri»ndə dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 850-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, «Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri»ndə dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 850-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 6 may 2023-cü il
№ 2134

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında» Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 451; 2010, № 4, maddə 281) ləğv edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 4 aprel 2023-cü il
№ 851-VIQ

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; 2017, № 12 (I kitab), maddə 2243; 2018, № 3, maddə 397, № 12 (I kitab), maddə 2473; 2020, № 7, maddə 828; 2021, № 5, maddə 433, № 8, maddə 902; 2022, № 12, maddə 1368) 7.1-ci maddəsində «Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş formada» sözləri «nümunəsi Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən təsdiq edilən» sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 4 aprel 2023-cü il
№ 852-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017; 2017, № 12 (I kitab), maddə 2238; 2018, № 2, maddə 146; 2020, № 7, maddə 856; 2021, № 5, maddə 432; 2022, № 8, maddə 831, № 12, maddə 1367) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 8-ci maddənin birinci hissəsinin altıncı abzası və 14-1-ci maddə ləğv edilsin.

**2.** 12-ci maddə üzrə:

**2.1.** beşinci hissənin üçüncü abzası ləğv edilsin;

**2.2.** on üçüncü hissədən «Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru,» sözləri çıxarılsın.

**3.** 16-cı maddənin birinci hissəsindən «Naxçıvan Muxtar Respublikası Hərbi prokurorunun,» sözləri çıxarılsın.

**4.** 29-cu maddənin beşinci hissəsindən «Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru,» sözləri çıxarılsın.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 11 aprel 2023-cü il
№ 859-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əsasında Naxçıvan Hərbi Prokurorluğu yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 859-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 6 may 2023-cü il
№ 3869

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

## «Dövlət qulluğu haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; 2018, № 2, maddələr 158, 159, № 3, maddə 392, № 5, maddələr 864, 880, № 6, maddə 1191, № 7 (I kitab), maddələr 1383, 1428; 2019, № 1, maddə 8; 2020, № 7, maddələr 828, 851, 856, № 11, maddə 1322, № 12 (I kitab), maddələr 1425, 1427; 2021, № 2, maddə 114, № 7, maddə 703, № 8, maddələr 898, 900, 902; 2022, № 1, maddə 6, № 12, maddə 1370; 2023, № 1, maddələr 13, 21; Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanunu) 8.1.4-cü maddəsindən «Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu,» sözləri çıxarılsın.

**Maddə 2**

«Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; 2017, № 12 (I kitab), maddə 2243; 2018, № 3, maddə 397, № 12 (I kitab), maddə 2473; 2020, № 7, maddə 828; 2021, № 5, maddə 433, № 8, maddə 902; 2022, № 12, maddə 1368) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** 10.0-cı maddə üzrə:

**2.1.1.** 10.0.3-cü maddədən «Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroru,» sözləri çıxarılsın;

**2.1.2.** 10.0.4-cü maddədən «Naxçıvan Muxtar Respublikası Hərbi prokurorunun müavini,» sözləri çıxarılsın;

**2.1.3.** 10.0.5-ci maddədən «Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun şöbə rəisləri, Naxçıvan Muxtar Respublikası Hərbi prokurorunun böyük köməkçiləri,» sözləri çıxarılsın;

**2.1.4.** 10.0.6-cı maddədən «Naxçıvan Muxtar Respublikası Hərbi prokurorunun köməkçiləri, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun şöbələrinin böyük prokurorları, mühüm işlər üzrə müstəntiqləri, prokuror-kriminalistləri,» sözləri çıxarılsın;

**2.1.5.** 10.0.7-ci maddədən «Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun şöbə prokurorları,» sözləri çıxarılsın;

**2.1.6.** 10.0.8-ci maddədən «, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun böyük müstəntiqləri,» sözləri çıxarılsın;

**2.1.7.** 10.0.9-cu maddədən «Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun müstəntiqləri,» sözləri çıxarılsın;

**2.2.** 24.2-ci və 27.2-ci maddələrdən «, Naxçıvan Muxtar Respublikasının Hərbi prokuroruna» sözləri çıxarılsın.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 11 aprel 2023-cü il
№ 860-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## «Dövlət qulluğu haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 860-VIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Dövlət qulluğu haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 860-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Dövlət qulluğu haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 860-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 6 may 2023-cü il
№ 3870

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828, № 12, maddələr 1363, 1373; 2023, № 1, maddə 39, № 2, maddə 207; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 807-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 222-1.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanlarının razılığını almadan" sözləri "tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan" sözləri ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 314-4-cü maddə əlavə edilsin:

**"Maddə 314-4. Qanunvericiliklə müəyyən olunmuş qaydaları pozmaqla mühəndis-kommunikasiya təminatı sistemlərinə qoşulma**

Tikintisinə icazə tələb olunan, lakin belə icazə alınmadan tikilməkdə olan və ya tikilmiş tikinti obyektlərinin təbii qaz, su, kanalizasiya, elektrik və ya istilik enerjisi təchizatı müəssisələrinin vəzifəli şəxsləri tərəfindən mühəndis-kommunikasiya təminatı sistemlərinə qanunsuz qoşulması -

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 may 2023-cü il
№891-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**

# Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinin həmin Məcəllənin 8.0.3, 8.0.4 və 48.1-ci maddələri və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**8 may 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinin həmin Məcəllənin 8.0.3, 8.0.4 və 48.1-ci maddələri və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Baş Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **müəyyən etdi:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının – Konstitusiya Məhkəməsi) sorğu verərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 49.4.2-ci maddəsində nəzərdə tutulan «cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar bir icraatda birləşdirilə bilməz» müddəasının həmin Məcəllənin 8.0.3, 8.0.4, 48.1, 50.1 və 211.3-cü maddələri və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 307-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 307.1-ci maddəsi ilə ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməməyə görə, həmin Məcəllənin 307.2-ci maddəsi ilə qabaqcadan vəd etmədən ağır cinayəti gizlətməyə görə, 307.3-cü maddəsi ilə isə qabaqcadan vəd etmədən xüsusilə ağır cinayəti gizlətməyə görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Cinayət-Prosessual Məcəlləsinin cinayət təqibi üzrə icraatın birləşdirilməsi qaydalarını tənzimləyən 49.4.2-ci maddəsinə əsasən, cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar bir icraatda birləşdirilə bilməz.

Sorğudan göründüyü kimi, istintaq təcrübəsində Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinin tələbinə müvafiq olaraq ağır və ya xüsusilə ağır cinayətlərə dair işlər məhkəməyə göndərilməzdən əvvəl, həmin cinayət barədə xəbər verməyən və ya həmin cinayətləri gizlədən şəxslər barəsində Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə cinayət təqibi ayrı icraata ayrılır və məhkəməyə göndərilən ağır və ya xüsusilə ağır cinayət üzrə hökm qanuni qüvvəyə minənədək ayrılmış iş ibtidai istintaqda dayandırılır.

Lakin belə işlərin dayandırılmasına görə Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsi ilə müvafiq əsas müəyyən edilmədiyindən, həmin işlər Məcəllənin 53.1.1-ci maddəsinə istinad etməklə, yəni təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən olunmaması əsası ilə dayandırılır.

Prokurorluğun qənaətinə görə, ağır və ya xüsusilə ağır cinayətin hazırlanması və ya törədilməsi qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə müəyyən edilmədiyi halda, şəxsin Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə məsuliyyətə cəlb edilərək məhkum olunması qanuni və əsaslı hesab edilə bilməz. Qanunvericilikdə isə ağır və ya xüsusilə ağır cinayətə dair işlər üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olmadan

həmin işdən ayrılmış cinayətin törədilməsinin gizlədilməsi və ya xəbər verilməməsinə dair cinayət işinin məhkəməyə göndərilə bilməməsi və ya şəxsin məhkum oluna bilməyəcəyinə dair hər hansı müddəa müəyyən edilməmişdir.

Qeyd olunan işlərin ibtidai istintaqda dayandırılması təcrübəsi Cinayət Məcəlləsinin 307.1-ci maddəsində nəzərdə tutulmuş cinayətlərin xəbər verilməməsinə dair cinayət işləri üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxslərin əksər hallarda cinayət məsuliyyətinə cəlb etmə müddətinin keçməsi əsası ilə cinayət məsuliyyətindən kənarda qalması ilə nəticələnir.

Sorğuverən hesab edir ki, Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsində təsbit olunmuş tələbin istisnasız müəyyən olunması cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına, baxılmasına, cinayət törətmiş şəxsin vaxtında cinayət məsuliyyətinə cəlb olunmasına maneə olmaqla, Cinayət-Prosessual Məcəlləsinin 8.0.3, 8.0.4, 48.1, 50.1 və 211.3-cü maddələrinin tələbləri ilə uzlaşmır.

Göstərilənlərə əsasən Prokurorluq hüquq tətbiqetmə təcrübəsindəki qeyri-müəyyənliyin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət və cinayət-prosessual qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və bununla da hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə sorğu verilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Sorğuda qaldırılan məsələlərin həlli ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, cinayət təqibi üzrə icraatın birləşdirilməsi və ayrılmasının hüquqi məqsədinin, əsasları və qaydaları ilə bağlı qanunvericilik normalarının nəzərdən keçirilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60-cı maddəsinin I və II hissələrinə müvafiq olaraq, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

Bu mənada, qanunla nəzərdə tutulmuş hallarda cinayət təqibi üzrə icraatın birləşdirilməsi və ayrılması institutları da hüquq və azadlıqların məhkəmə təminatı hüququnun tərkib hissəsi kimi qəbul olunmalıdır.

Cinayət-Prosessual Məcəlləsinin cinayət-prosessual qanunvericiliyinin təyinatını müəyyən edən 1.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ona yönəlmişdir ki, qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etmək mümkün olsun, cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına almaq, ittiham və ya məhkum etmək mümkün olmasın, heç kəs qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmasın.

Cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq və cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək cinayət mühakimə icraatının vəzifələri sırasında müəyyən edilmişdir (Cinayət-Prosessual Məcəlləsinin 8.0.3 və 8.0.4-cü maddələri).

Cinayət-prosessual qanunvericiliyinin təyinatına müvafiq olaraq və cinayət mühakimə icraatının vəzifələrinin icrasına nail olunması məqsədilə qanunvericilikdə cinayət təqibi üzrə icraatın birləşdirilməsi və cinayət təqibi üzrə icraatın ayrılması ilə bağlı müddəalar nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, cinayət-prosessual qanunvericiliyində təsbit olunmuş cinayət təqibi üzrə icraatın birləşdirilməsi və ayrılması ilə bağlı münasibətləri tənzimləyən normalar iki başlıca məqsədin təmin edilməsinə istiqamətlənmişdir:

– prosessual qənaət prinsipinin gözlənilməsi;

– cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması.

Məhz bu məqsədlərə uyğun olaraq qanunverici cinayət təqibi üzrə icraatın birləşdirilə bildiyi, icraatın birləşdirilməsinin qadağan olunduğu, cinayət təqibi üzrə icraatın ayrılmasına yol verildiyi, həmçinin cinayət işinin materiallarından başqa cinayət işinin ayrıca icraata ayrılmalı olduğu halları müəyyən etmişdir.

Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 49.1-ci maddəsində cinayət təqibi üzrə icraatın birləşdirilə bildiyi iki hal təsbit edilmişdir:

– bir neçə şəxsin bir cinayəti birlikdə törətməkdə ittiham olunmaları üzrə cinayət təqibi;

– bir şəxsin bir neçə cinayəti törətməsi barədə cinayət təqibi.

Həmin Məcəllənin 49.2-ci maddəsinə əsasən, müxtəlif cinayətlər törətmiş şəxslərin hər hansı cinayəti birgə və ya mütəşəkkil dəstənin tərkibində törətməsi halları istisna olunmaqla, həmin şəxslərə qarşı ittihamın bir cinayət işində birləşdirilməsi yolverilməzdir.

Normanın məzmunundan da göründüyü kimi, cinayət-prosessual qanunvericiliyi cinayət təqibi üzrə icraatların birləşdirilməsi üçün cinayət işləri arasında dolayı əlaqənin mövcudluğunu qəbul etməyərək, birbaşa əlaqənin olmasını tələb edir. Cinayət işləri arasında bu əlaqə isə ya subyektlər arasındakı (bir neçə şəxsin bir cinayəti birlikdə törətməsi) əlaqədən, ya da cinayət əməlləri ilə subyektin əlaqəsindən (bir şəxsin bir neçə cinayəti törətməsi) əmələ gəlir.

Belə əlaqələrin mövcud olduğu halda, cinayət işlərinin birləşdirilməsi bir tərəfdən icraatın sürətli şəkildə davam etdirilməsinə, məhkəmə proseslərinin uzadıl-

masını aradan qaldırmaqla işlərə vaxtında baxılmasına şərait yaratmış olur, digər tərəfdən isə iştirakçılıqla törədilən cinayətlərdə cinayətin iştirakçılarının əməlləri bir-biri ilə əlaqəli olduğundan icraatda lüzumsuz təkrarlığın qarşısının alınmasına, işin daha hərtərəfli və obyektiv araşdırılmasına kömək etmiş olur.

Lakin nəzərə alınmalıdır ki, qanunverici cinayət təqibinin (cinayət işlərinin) bir icraatda birləşdirilməli olmasını imperativ norma kimi müəyyən etməmişdir. Bu səbəbdən cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmuşdur ki, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir (Cinayət-Prosessual Məcəlləsinin 50.1-ci maddəsi). Cinayət işinin ayrıca baxılmasının mümkünlüyü dedikdə, həm ilkin, həm də ayrılmış cinayət təqibi üzrə bütün halların müəyyən edilməsi üçün istintaqın, zəruri prosessual hərəkətlərin, o cümlədən məhkəmə baxışının müstəqil surətdə həyata keçirilə bilməsi başa düşülür.

Bununla yanaşı qanunvericilikdə elə hallar müəyyən edilmişdir ki, bu halların mövcudluğu müstəntiqin və ya prokurorun mülahizəsindən asılı olmayaraq, cinayət təqibinin bir icraatda birləşdirilməsini birbaşa olaraq qadağan edir. Cinayət-Prosessual Məcəlləsinin 49.4-cü maddəsinin imperativ tələbinə əsasən bu hallara aşağıdakılar aiddir:

– cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar üzrə;

– cinayət təqibi bir əmələ görə xüsusi ittiham qaydasında, digəri ictimai və ya ictimai-xüsusi ittiham qaydasında həyata keçirilən ittihamlar üzrə;

– birgə baxılması obyektiv araşdırılmasına mane ola bilən digər bütün ittihamlar üzrə cinayət təqibi.

Qanunverici təqsirsizlik prezumpsiyasını, xüsusi ittiham növündə cinayət təqibinin həyata keçirilməsinin prosessual qaydalarının əhəmiyyətli dərəcədə fərqləndiyini və birgə baxılması hər bir halda cinayət işinin obyektiv, hərtərəfli, tam və ya vaxtında araşdırılmasına maneə olduğunu nəzərə alaraq müvafiq hallarda cinayət təqibi üzrə icraatın birləşdirilməsini mümkün hesab etməmişdir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, cinayət-prosessual qanunvericiliyinin tələbləri nəzərə alınmaqla cinayət təqibi üzrə icraatların birləşdirilməsi barədə qərar qəbul etmək üçün aşağıdakı şərtlər gözlənilməlidir:

– cinayət işləri arasında birbaşa əlaqə olmalıdır;

– cinayət işlərinin birləşdirilməsi faydalı olmalıdır (yəni, prosessual qənaət prinsipinin gözlənilməsinə və cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasının təmin edilməsinə yönəlməlidir);

– cinayət işlərinin birləşdirilməsinə qanunvericiliklə birbaşa qadağa qoyulmamalıdır.

Qeyd edildiyi kimi, cinayət təqibi üzrə icraatın birləşdirilməsinə yol verilməyən hallardan biri də cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar üzrə cinayət təqibidir (Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsi).

Cinayət Məcəlləsinin 307-ci maddəsində təsbit olunmuş cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə əməllərinin ictimai təhlükəliliyi onunla səciyyələnir ki, həmin əməllər hazırlanan cinayətlərin qarşısının vaxtında alınmasına, törədilmiş cinayətlərə münasibətdə isə cinayətin açılmasına, cinayət törətmiş şəxsin yaxalanmasına və ifşa olunmasına maneə yaradır.

Ağır və ya xüsusilə ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə hərəkətsizlik şəklində törədilməklə, şəxsin hazırlanan və ya törədilmiş cinayət haqqında məlumatlı olmasına baxmayaraq, bu barədə hakimiyyət orqanlarına və ya onların səlahiyyətli nümayəndələrinə məlumat verməməsində ifadə olunur.

Ağır və ya xüsusilə ağır cinayəti qabaqcadan vəd etmədən gizlətmə cinayəti isə obyektiv cəhətdən aktiv hərəkətlərlə müşayiət olunmaqla, qabaqcadan heç bir vəd verilmədən cinayət törətmiş şəxsin, cinayət törətmək üçün alət və vasitələrin, cinayətin izlərinin və cinayət yolu ilə əldə edilmiş əşyaların gizlədilməsi şəklində törədilir.

Cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə əməlləri, gizlədilən və ya barəsində xəbər verilməyən cinayətlə ayrı-ayrı əməllər olmaqla və fərqli subyektlər tərəfindən törədilməklə aralarında birbaşa əlaqə mövcud deyildir.

Cinayətin törədilməsi ilə onun qabaqcadan vəd edilmədən gizlədilməsi və ya barəsində xəbər verilməməsinə dair ittihamlar bir icraatda birləşdirildiyi halda, bu cinayətlərdən biri digərini şərtləndirdiyi üçün ağır və ya xüsusilə ağır cinayət işi üzrə yekun nəticə əldə edilməmiş, yəni cinayət hadisəsinin mövcudluğu, əməldə cinayət tərkibinin olması, əməlin ağır və ya xüsusilə ağır cinayət olması və iş üçün əhəmiyyət kəsb edən digər hallar tam və hərtərəfli araşdırılmadan və sübut edilmədən, cinayətin qabaqcadan vəd edilmədən gizlədilməsi və ya xəbər verilməməsi kimi bir cinayət əməlinin mövcudluğu nəticəsinə gəlinməsi, eləcə də bununla bağlı cinayət işinin obyektiv şəkildə araşdırılması mümkünsüzdür.

Belə ki, məhkəmə baxışı nəticəsində məhkəmə təqsirləndirilən şəxsin əməlini ağır cinayətdən daha yüngül cinayət əməlinə tövsif edə, habelə ona qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndləri çıxara (Cinayət-Prosessual Məcəlləsinin 318.1-ci maddəsi), eləcə də cinayət hadisəsinin və ya əməldə cinayət tərkibinin olmaması, habelə qanunvericilikdə nəzərdə tutulan digər əsaslarla bəraət hökmü çıxara bilər. Bu səbəbdən qabaqcadan vəd etmədən gizlədilən və ya barəsində

xəbər verilməyən cinayət işi üzrə hökm qanuni qüvvəyə minməklə əməlin ağır və ya xüsusilə ağır cinayət olması faktı təsdiqlənmədən, Cinayət Məcəlləsinin 307-ci maddəsində nəzərdə tutulmuş əməl üzrə şəxs barəsində cinayət təqibinin həyata keçirilməsi cinayət mühakimə icraatının vəzifələrinə, əsas prinsip və şərtlərinə uyğun olmamaqla, onun qanunsuz olaraq uzun müddət prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, nəticədə hüquq və azadlıqlarının əsassız şəkildə məhdudlaşdırılmasına səbəb ola bilər.

Cinayət-Prosessual Məcəlləsinin tələbinə əsasən, cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən həmin Məcəllədə nəzərdə tutulmuş müddətlərdə elə başlanmalı və qurtarmalıdır ki, şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər. Cinayət prosesini həyata keçirən orqan hər hansı cinayət işi başlandığı andan həmin Məcəllənin 218-ci maddəsində nəzərdə tutulmuş müddətlərdə ittiham aktı ilə məhkəməyə göndərilməsini və ya cinayət təqibinə xitam verilməsini hər bir halda təmin etməlidir (Cinayət-Prosessual Məcəlləsinin 48.1.2 və 48.2.2-ci maddələri).

Xüsusilə vurğulanmalıdır ki, Cinayət Məcəlləsinin 3-cü maddəsinə uyğun olaraq, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

Bu səbəbdən təqsirləndirilən şəxs barəsində Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə ittiham aktı tərtib olunub məhkəməyə göndərilsə belə, barəsində xəbər verilməyən və ya qabaqcadan vəd edilmədən gizlədilən ağır və ya xüsusilə ağır cinayət işi üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin Cinayət Məcəlləsinin 307-ci maddəsində təsbit olunmuş əməlin törədilməsində təqsirli bilinməsi qəbuledilməzdir.

Əks yanaşma cinayət hüququnun mühüm prinsiplərindən olan qanunçuluq prinsipinin, eləcə də cinayət mühakimə icraatının təqsirsizlik prezumpsiyası prinsipinin pozulmasına səbəb ola bilər.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə əsasən, qanunçuluq prinsipinin mahiyyəti cinayət qanununun tətbiqi ilə bağlı hüquq tətbiqedən orqanın fəaliyyətinin yalnız qanuna əsaslanmasından və qanun əsasında həyata keçirilməsindən, eləcə də əməlin cinayət sayılması və belə əməli törədən şəxsin təqsirli hesab edilməsi və onun barəsində cəzanın tətbiqinə yalnız cinayət qanunu əsasında yol verilməsindən ibarətdir («Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.4-cü maddəsinin şərh edilməsinə dair» 2011-ci il 21 oktyabr tarixli Qərar).

Konstitusiyanın 63-cü maddəsinə əsasən, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz.

Təqsirsizlik prezumpsiyası, həmçinin Cinayət-Prosessual Məcəlləsinin 21-ci maddəsində öz əksini tapmışdır. Həmin maddəyə əsasən, cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir.

Qeyd olunanlar Cinayət Məcəlləsinin 307-ci maddəsi üzrə aparılan cinayət təqibi üzrə icraatın ağır və ya xüsusilə ağır cinayət işi üzrə yekun məhkəmə qərarı qanuni qüvvəyə minənədək dayandırılmasını zəruri edir.

Lakin nəzərə alınmalıdır ki, Cinayət-Prosessual Məcəlləsinin cinayət təqibi üzrə icraatın dayandırılması əsaslarını təsbit edən 53-cü maddəsində Cinayət Məcəlləsinin 307-ci maddəsi üzrə icraatın dayandırılmasına imkan verən belə bir əsas müəyyən edilməmişdir. Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu Qərarda əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla qanunverici orqan tərəfindən Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsinin təkmilləşdirilməsi məqsədəmüvafiq olardı.

Konstitusiyanın 60-cı maddəsində nəzərdə tutulan hüquq və azadlıqların məhkəmə təminatı hüququnun təmin edilməsi məqsədilə məsələ qanunvericilik qaydasında həll edilənədək Cinayət Məcəlləsinin 307-ci maddəsində təsbit olunmuş cinayət əməlləri ilə bağlı cinayət təqibi üzrə icraat, barəsində xəbər verilməyən və ya qabaqcadan vəd edilmədən gizlədilən ağır və ya xüsusilə ağır cinayət işi üzrə yekun məhkəmə qərarı qanuni qüvvəyə minənədək dayandırılmalıdır.

Bununla yanaşı vurğulanmalıdır ki, cinayət və cinayət-prosessual qanunvericiliklərində belə dayandırmanın şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün müəyyən edilmiş müddətin axımının dayandırılmasına səbəb olması nəzərdə tutulmamışdır.

Cinayət-Prosessual Məcəlləsinin 53.7-ci maddəsinə görə, təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin istintaqdan və ya məhkəmədən gizlənməsi, ömürlük azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulan cinayətin törədilməsi, habelə sülh və insanlıq əleyhinə və müharibə cinayətləri törədilməsi halları istisna edilməklə, cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin keçməsi ilə əlaqədar cinayət törətmiş şəxslərin müəyyən edildiyi cinayət təqibi üzrə dayandırılmış icraata xitam verilir.

Cinayət Məcəlləsinin müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etməni nəzərdə tutan 75-ci maddəsinə uyğun olaraq, böyük ictimai təhlükə törətməyən cinayətin törədildiyi gündən iki il keçdikdə şəxs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Odur ki, barəsində xəbər verilməyən ağır və ya xüsusilə ağır cinayət əməlləri üzrə icraatın iki ildən çox müddətə davam etməsinin mümkünlüyü nəzərə alınaraq və cinayət-prosessual qanunvericiliyinin təyinatına uyğun olaraq Cinayət Məcəlləsinin 307.1-ci maddəsində nəzərdə tutulmuş əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddəti ilə bağlı ayrıca qaydanın müəyyənləşdirilməsi zəruridir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, ağır və ya xüsusilə ağır cinayət barəsində xəbər verməmə cinayəti ilə bağlı cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımının əsas cinayət işi üzrə yekun məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gündən hesablanması məqsədəmüvafiq olardı.

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd etməyi zəruri hesab edir ki, Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsi ilə cinayət təqibinə xitam verilməli olan (cinayət təqibini istisna edən) hallar müəyyən edilmişdir. Həmin Məcəllənin 41 və 43-cü maddələrinə müvafiq olaraq təhqiqatçı, müstəntiq və ya prokuror, eləcə də məhkəmə baxışı gedişində məhkəmə cinayət təqibini istisna edən hallar müəyyən etdikdə qanunvericiliklə müəyyən edilmiş qaydalara əməl edilməklə cinayət təqibinə xitam verilməsi barədə (o cümlədən cinayət işi üzrə icraata xitam verilməsi barədə) qərar çıxara bilər.

Əgər cinayət təqibinə Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsi ilə müəyyən edilən bəraətverici əsaslar olmadan xitam verilmişdirsə və belə xitam vermə haqqında qərarda cinayət hadisəsinin mövcud olmasının sübuta yetirilməsi faktı öz əksini tapmışdırsa, bu halda cinayət barəsində xəbər verməyən və ya qabaqcadan vəd etmədən cinayəti gizlədən şəxs barəsində cinayət təqibinə dair icraatın məhkəməyə göndərilməsi və həmin cinayət işinə məhkəmələr tərəfindən baxılaraq təqsirləndirilən şəxsin əməlinə hüquqi qiymət verilməsi istisna edilmir.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla Azərbaycan Respublikasının Milli Məclisinə:

– Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsində ağır və ya xüsusilə ağır cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə əməlləri ilə əlaqədar cinayət təqibi üzrə icraatın dayandırılmasının xüsusi əsasının müəyyən edilməsi;

– Cinayət Məcəlləsinin 75-ci maddəsində ağır və ya xüsusilə ağır cinayət barəsində xəbər verməmə cinayəti ilə bağlı cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımının hesablanmasının fərqli qaydasının təsbit edilməsi tövsiyə olunmalıdır.

– Cinayət və Cinayət-Prosessual Məcəllələrinin müvafiq normaları qanunverici orqan tərəfindən təkmilləşdirilənədək, Cinayət Məcəlləsinin 307-ci maddəsində təsbit olunmuş cinayət əməlləri ilə bağlı cinayət təqibi üzrə icraatlar, barəsində xəbər verilməyən və ya qabaqcadan vəd edilmədən gizlədilən ağır və ya xüsusilə ağır cinayət işləri üzrə məhkəmə hökmü qanuni qüvvəyə minənədək dayandırılmalıdır.

Cinayət Məcəlləsinin 307.1-ci maddəsində nəzərdə tutulmuş əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımı ağır və ya xüsusilə ağır cinayət işi üzrə məhkəmə hökmü qanuni qüvvəyə mindiyi gündən hesablanmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla Azərbaycan Respublikasının Milli Məclisinə:

– Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 53-cü maddəsində ağır və ya xüsusilə ağır cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə əməlləri ilə əlaqədar cinayət təqibi üzrə icraatın dayandırılmasının xüsusi əsasının müəyyən edilməsi;

– Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsində ağır və ya xüsusilə ağır cinayət barəsində xəbər verməmə cinayəti ilə bağlı cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımının hesablanmasının fərqli qaydasının təsbit edilməsi tövsiyə olunsun.

**2.** Azərbaycan Respublikası Cinayət və Cinayət-Prosessual Məcəllələrinin müvafiq normaları qanunverici orqan tərəfindən təkmilləşdirilənədək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsində təsbit olunmuş cinayət əməlləri ilə bağlı cinayət təqibi üzrə icraatlar, barəsində xəbər verilməyən və ya qabaqcadan vəd edilmədən gizlədilən ağır və ya xüsusilə ağır cinayət işləri üzrə məhkəmə hökmü qanuni qüvvəyə minənədək dayandırılsın.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307.1-ci maddəsində nəzərdə tutulmuş əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddətinin axımı ağır və ya xüsusilə ağır cinayət işi üzrə məhkəmə hökmü qanuni qüvvəyə mindiyi gündən hesablansın.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad ABDULLAYEV**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 49.4.2-ci maddəsinin həmin Məcəllənin 8.0.3, 8.0.4 və 48.1-ci maddələri və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 307-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair**

***8 may 2023-cü il tarixli Qərarından hakim İ.Nəcəfovun («Konstitusiya Məhkəməsi haqqında» Qanunun 64-cü maddəsinə əsasən)***

## XÜSUSİ RƏYİ

**8 may 2023-cü il** **Bakı şəhəri**

Konstitusiya Məhkəməsinin Plenum qərarına hörmətlə yanaşaraq, qərardakı bəzi mühakimələrə öz mövqeyimi bildirməyi vacib sayıram.

Plenum qərarında qeyd olunmuşdur ki, «qanunverici cinayət təqibinin (cinayət işlərinin) bir icraatda birləşdirilməli olmasını imperativ norma kimi müəyyən etməmişdir. Bu səbəbdən cinayət prosessual qanunvericiliyi ilə müəyyən edilmişdir ki, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir (Cinayət-Prosessual Məcəlləsinin 50.1-ci maddəsi). Cinayət işinin ayrıca baxılmasının mümkünlüyü dedikdə həm ilkin, həm də ayrılmış cinayət təqibi üzrə bütün halların müəyyən edilməsi üçün istintaqın, zəruri prosessual hərəkətlərin, o cümlədən məhkəmə baxışının müstəqil surətdə həyata keçirilə bilməsi başa düşülür.

Bununla yanaşı qanunvericilikdə elə hallar müəyyən edilmişdir ki, bu halların mövcudluğu müstəntiqin və ya prokurorun mülahizəsindən asılı olmayaraq cinayət təqibinin bir icraatda birləşdirilməsini birbaşa olaraq qadağan edir. Cinayət-Prosessual Məcəlləsinin 49.4-cü maddəsinin imperativ tələbinə əsasən bu hallara aşağıdakılar aiddir:

– cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar üzrə;

– cinayət təqibi bir əmələ görə xüsusi ittiham qaydasında, digəri ictimai və ya ictimai-xüsusi ittiham qaydasında həyata keçirilən ittihamlar üzrə;

– birgə baxılması obyektiv araşdırılmasına mane ola bilən digər bütün ittihamlar üzrə cinayət təqibi.

Qanunverici təqsirsizlik prezumpsiyasını, xüsusi ittiham növündə cinayət təqibinin həyata keçirilməsinin prosessual qaydalarının əhəmiyyətli dərəcədə fərqləndiyini və birgə baxılması hər bir halda cinayət işinin obyektiv, hərtərəfli, tam və ya vaxtında araşdırılmasına maneə olduğunu nəzərə alaraq müvafiq hallarda cinayət təqibi üzrə icraatın birləşdirilməsini mümkün hesab etməmişdir.»

Həmçinin, qərarda vurğulanır ki, «cinayətin törədilməsi ilə onun qabaqcadan vəd edilmədən gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamların bir icraatda birləşdirildiyi halda, bu cinayətlərdən biri digərini şərtləndirdiyi üçün ağır və ya xüsusilə ağır cinayət işi üzrə yekun nəticə əldə edilməmiş, yəni cinayət hadisəsinin mövcudluğu, əməldə cinayət tərkibinin olması, əməlin ağır və ya xüsusilə ağır cinayət olması və iş üçün əhəmiyyət kəsb edən digər hallar tam və hərtərəfli qaydada araşdırılmadan və sübut edilmədən cinayətin qabaqcadan vəd edilmədən gizlədilməsi və ya xəbər verilməməsi ilə bağlı cinayət işinin obyektiv şəkildə araşdırılması mümkünsüzdür».

Plenumun bu hüquqi mövqeyi kifayət qədər düzgün hesab etmirəm.

CPM-nin 4-cü fəslində cinayət təqibi üzrə icraatın aparılması qaydaları müəyyən olunmuşdur. Bu qaydalar ibtidai araşdırma prosesində ibtidai araşdırma aparan təhqiqatçı, müstəntiq və ibtidai istintaqa prosesual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qəbul edilən prosesual aktlardan ibarətdir.

Qanunvericilik bu qaydaların içərisində cinayət işlərinin birləşdirilməsi və ayrılması ilə bağlı prosesual hərəkətlərə xüsusi diqqət yetirmişdir.

CPM-də xüsusi yer tutan bu cür qaydalardan biri də ayrı-ayrı cinayət işlərinin bir icraatda birləşdirilməsini müəyyən edən normalardır.

Cinayət işlərinin birləşdirilməsi barədə CPM-in 49-cu maddəsinin müddəasına əsasən «Yalnız bir neçə şəxsin bir cinayəti birlikdə törətməkdə ittiham olunmaları üzrə cinayət təqibi və ya bir şəxsin bir neçə cinayəti törətməsi barədə cinayət təqibi bir icraatda birləşdirilə bilər». Yəni, ayrı ayrılıqda və müxtəlif vaxtlarda, eləcə də, ayrı-ayrı istintaq orqanlarında cinayət faktı və ya cinayət törətdiyinə görə barəsində cinayət işi başlanan

şəxslərin təqsirləndirilməsinə dair cinayət təqibləri bir icraatda birləşdirilə bilər.

CPM-in 49.4-cü maddəsinə əsasən, 49.4.2-ci maddəsində göstərilən «cinayətlərin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlar üzrə» bir icraatda birləşdirilə bilməz.

Zənnimizcə, qanunverici bu normaları tərtib edərkən və qəbul edərkən «Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununun 8.0.4-cü maddəsinin mütənasiblik prinsipinə əməl etməmişdir. Belə ki, cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair hüquqi faktlar, yəni cinayət əməlləri, konkret ağır və xüsusilə ağır cinayətlərin ibtidai istintaqı prosesində aşkar edilir. Bu halda cinayət işlərinin birləşdirilməsindən və ya ayrılmasından söhbət gedə bilməz. Çünki, bu əsas işin içərisində istintaqı gedən bir epizoddur.

Prokurorluğun sorğusundan görünür ki, prokurorluq orqanlarında 2020-2022-ci illərdə ağır və ya xüsusilə ağır cinayətlərin hazırlanmasını və ya törədilməsini bilərək, həmin cinayət barəsində xəbər verməmə faktı üzrə 53 cinayət işi başlanmış, lakin cəmi 5 iş üzrə ittiham hökmü çıxarılmışdır. Qanunverici aparılan cinayət işlərinin istintaqında bu növ cinayət işlərinin ayrılmasını nəzərdə tutmur.

Çünki CPM-in cinayət təqibi üzrə icraatın ayrılmasını müəyyən edən 50.1-ci maddəsinə əsasən cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında baxılmasına mane olmayan və onun xarakterinə görə ayrıca baxılması mümkün olan bütün hallarda cinayət təqibi üzrə icraatın ayrılmasına yol verilir.

Qanunverici, cinayət işindən digər bir işin ayrılmasını CPM-in 50.1-ci maddəsinin müddəasındakı istilahlarla – «...işə vaxtında baxılmasına mane olmayan...» və eləcə də, «...işə xarakterinə görə ayrıca baxılmasının mümkün olması...» ilə şərtləndirmişdir.

İşə vaxtında baxılma və ayrıca baxılma elə hüquqi prosessual hərəkətlərdir ki, onların mümkün olmaması cinayət təqibi üzrə icraatın ayrılmasını istisna edir.

Qanunverici CPM-in «Cinayət işlərinin birləşdirilməsi və cinayət işinin materiallarından başqa cinayət işinin ayrılması» adlı 211-ci maddəsinin 3-cü bəndində təsbit edir ki, «Bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduqda başqa cinayət işi ayrıla bilməz».

Maddənin «cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılması» müddəası cinayət təqibinin fasiləsiz aparılmasını ehtiva edir.

Ona görə də deyə bilərik ki, CPM-in 50.1-ci maddəsi 211.3-cü maddəsiylə funksional əlaqədədir.

Bu əlaqələr cinayət təqibi ilə üzrə bütün halların «vaxtında baxılmasına», «ayrıca baxılmasına», «vaxtında araşdırılmasına» maneələrin olmaması müddəaları ilə bağlıdır.

İstintaqın təcrübəsindən də görünür ki, ağır və ya xüsusilə ağır cinayət işlərindən, CPM-in 49.2.4-cü maddəsinə əsasən ayrılmış cinayət işləri üzrə cinayət təqibi bütün hallarda hərtərəfli, tam, obyektiv və vaxtında nə araşdırılmış, nə də ki ayrıca baxılmışdır.

Prokurorluğun sorğusunda qeyd edilən istintaq təcrübəsi də bir daha sübüt edir ki, CPM-nin 49.4.2-ci maddəsində qeyd edilən ayrılma icrası mümkün olmayan prosessual hərəkətdir.

Azərbaycan Respublikası Konstitusiyasının «Vətəndaşların vəzifələrinin əsası»nı müəyyən edən 72-ci maddəsinin II bəndində təsdiq edilir ki, «hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.»

Konstitusiyanın «Məsuliyyət» müəyyən edən 80-cı maddəsində isə təsbit edilir ki, «Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.»

Cinayət prosessual qanunvericiliyin bir neçə təyinatı vardır. Onlardan biri də konstitusion hüquq və azadlıqların qorunmasını təmin edən, qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etmək və cinayət məsuliyyətinə cəlb etməyi mümkün hesab etməkdir.

CMP-in 1.2.1-ci maddəsinin bu müddəası Konstitusiyanın 80-cı maddəsinin müddəasından qaynaqlanır.

CPM-nin 49.4.2-ci maddəsində qeyd edilən qayda cinayət mühakimə icraatında problemlər yaratmışdır. Çünki əvvəlcədən vəd etmədən cinayəti gizlətmə ilə bağlı barəsində cinayət işi başlanmış və cinayət təqibi ayrıca icraata ayrılmış şəxs nə ibtidai araşdırmadan, nə də ki məhkəmə araşdırmasından kənar qala bilməyəcəkdir. Bu cür hallarda cinayəti gizlətmək təkcə cinayətkarı deyil, həm də cinayətin alət və vasitələrini, cinayətin predmetini və s gizlədilməsini ehtiva edir. Artıq cinayət işinin icraatında prosessual hərəkətlər əsasında ayrılması mümkün olmayan hüquqi fakt ortaya çıxmış olur. Bunlar da cinayət əməli bitdikdən sonra cinayətlə dolayı yolla bağlılığı olan maddi sübutların saxlayıcısı, sübut etmə institutunun ən vacib və mötəbər vasitələrindən biridir. Və bunun müstəqil cinayət işi kimi başa çatdırılması sübutetmə vasitələrinin parçalanması deməkdir.

Eləcə də, qeyd edilən cinayət işləri üzrə ibtidai istintaqın bir icraatda aparılması ibtidai istintaq müddəti ilə bağlı zəruri hallarda, bir qərarla müddətin uzadılması

həyata keçiriləcəkdir. Çünki ağır və ya xüsusilə ağır cinayət işləri üzrə aparılan ibtidai istintaq müddəti daxilində qeyd edilən cinayət faktları üzrə qəbul edilməsi zəruri olan cinayət prosessual qərarların qəbul edilməsi qanuna uyğundur.

Təqsirləndirilən şəxslərin əsas cinayət işi üzrə məhkəmə baxışlarının nəticəsini gözləməsinə isə ehtiyac qalmayacaqdır.

Bununla da, «Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması»na dair imperativ xarakterli CPM-in 48.1–48.2 və 48.1.2-ci maddələrinin tələbləri gözləniləcəkdir.

Göründüyü kimi, yuxarıda qeyd edilənlər cinayət işinin elə faktiki hallarıdır ki, onlarsız nə ibtidai araşdırma, nə də ki məhkəmə iş üzrə obyektiv, hərtərəfli və ədalətli qərar qəbul edə bilməz. Bu halda, qanunvericinin CPM-nin 50-ci maddəsində qeyd edilən prinsiplərinə görə, cinayətin törədilməsi ilə bağlı olan cinayət işindən onun gizlədilməsi və ya xəbər verməməsinə dair ittihamlar üzrə olan cinayət işinin ayrılması düzgün deyildir.

Ona görə ki:

– Ağır və ya xüsusilə ağır cinayətlərin hazırlanmasını və ya törədilməsini bilərək, həmin cinayət barəsində xəbər verməmək, eləcə də, qabaqcadan vəd etmədən ağır və ya xüsusilə ağır cinayəti gizlətmək heç vaxtı müstəqil şəkildə mövcud olmur.

– Onlar, qeyd edilən cinayətlərin ibtidai istintaqının müəyyən mərhələlərində, şahidlərin, şübhəli şəxslərin, əksər hallarda isə təqsirləndirilən şəxslərin ifadələri əsasında aşkar edilir. (CPM 204.2-ci maddəsi)

– Onlar öz hüquqi təbiətinə görə sadə tərkiblidir. Və dolayısı yolla ağır və ya xüsusilə ağır cinayətlə əlaqəlidir.

– Əsas ağır və ya xüsusilə ağır cinayətlər üzrə toplanmış sübut vasitələrinin həll edici aspektləri də cinayətləri bilib xəbər verməyənin və ya cinayəti əvvəlcədən vəd etmədən gizlədənin ittihamı üçün əsas sübutlardır.

– Hansı ki, bu sübutlar, cinayəti bilib xəbər verməyənin və ya əvvəlcədən vəd etmədən cinayəti gizlədənin cinayət təqibi üzrə qanunun tələb etdiyi müddətdə mühakimə edilməsini təmin edir.

Beləliklə də, Plenumun «işlərin bir icraatda birləşdiyi halda, cinayət işinin obyektiv şəkildə araşdırılması mümkün deyil» – iddiasının hüquqi əsası fərziyyə xarakteri daşıdığından razılaşa bilmərəm.

Həmçinin, Plenumun CPM-nin 318.1-ci maddəsinin müddəalarını öz mövqeyinin təsdiqi üçün əsas gətirməsi həlledici fakt deyildir. Ona görə ki, qeyd edilən cinayətlərə görə təqsirləndirilən şəxslər də ağır və ya xüsusilə ağır cinayətlərə görə təqsirləndirilən şəxslərlə birlikdə məhkəmə mühakiməsinə cəlb edilərək mühakimə edilə bilərlər. Əslində belə də olmalıdır. Çünki onların ittihamları əsas ittihamlardan asılı və bağlıdır.

CPM-in 318.1-ci maddəsinə əsasən məhkəmənin ağır və ya xüsusilə ağır cinayətlərdə təqsirləndirilən şəxslər barədə qəbul etdiyi qərarlara müvafiq olaraq, cinayəti xəbər verməmə və ya əvvəlcədən vəd etmədən cinayəti gizlətmədə təqsirləndirilən şəxslər barədə də qərar qəbul edilə bilər.

Hazırkı CPM-ə qədər qüvvədə olmuş Azərbaycan SSR CPM-in «cinayət işlərini birləşdirmə və ayırma» qaydalarını müəyyən edən 147-ci maddəsinin birinci bəndində təsbit edilirdi ki, – «Bir və ya bir neçə cinayət törətməkdə iştirakçılığa görə bir neçə şəxsin ittihamı üzrə cinayət işləri və ya bir şəxsin bir neçə cinayət törətməkdə, habelə bu cinayətləri qabaqcadan vəd etmədən gizlətməkdə və onlar haqqında xəbər verməməkdə ittihamı üzrə işlər bir istintaq icraatında birləşdirilir.

Rusiya Federasiyasının CPM-nin 153.1.3-cü maddəsində (əvvəlcədən vəd etmədən cinayəti gizlətmə), Belarusiya Respublikasının CPM-nin 164-cü maddəsinin 4-cü bəndində eyni müddəalar öz əksini tapmışdır.

Prokurorluğun 7 fevral 2023-cü il sorğusundan da görünür ki, CPM-in 49.4.2-ci maddəsinin müddəasının tətbiqi prosesində problem olduğundan 30-dan artıq cinayət işi üzrə CPM-in 1.2.1-ci maddəsində nəzərdə tutulan vəzifəni icra etmək mümkün olmamışdır.

CPM-in 49-cu maddəsinin müddəasının hüquqi tənzimetmədə rolu və tutduğu mövqeyə görə ümumi normadır. CPM-in 211.1-ci maddəsinin müddəasında da o, yəni 49-cu maddə ümumi norma kimi hüquqi mövqeyində qalır.

Lakin CPM-in 211.3-cü maddəsində qeyd olunmuş «Bu Məcəllənin 211.2-ci maddəsində nəzərdə tutulmuş şərtlərdən biri və ya bir neçəsi mövcud olsa da, cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam, obyektiv və vaxtında araşdırılmasına maneələr olduqda başqa cinayət işi ayrıla bilməz» müddəası həm Məcəllədəki yerinə, həm də hüquqi tənzim etmədəki roluna görə xüsusi norma kimi səciyyələnir.

«Normativ hüquqi aktlar haqqında» Konstitusiya Qanununun 10.4-cü maddəsinə əsasən eyni normativ hüquqi aktda ümumi və xüsusi normalar arasında ziddiyyət mövcud olduqda xüsusi norma tətbiq edilir.

Yuxarıda qeyd edilənlərə əsasən belə hesab edirəm ki, CPM-in 49.4.2-ci maddəsinin müddəası Azərbaycan Respublikasının Konstitusiyasının 80-ci maddəsinin və CPM-in 1.2.1-ci, 48.1 – 48.2, 48.2.2, 50.1-ci və 211.3-cü maddələrinin müddəalarına ziddir.

Ona görə də, Konstitusiya Məhkəməsi Cinayət Prosessual Məcəlləsinin 49-cu maddəsində müvafiq dəyişikliklər edilməsini Milli Məclisdən tələb etməliydi.

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

# Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 50.2, 59.1, 357.1 və 357.2-ci maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü və Azərbaycan Respublikası Ailə Məcəlləsinin 41.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**3 aprel 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 50.2, 59.1, 357.1 və 357.2-ci maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü və Azərbaycan Respublikası Ailə Məcəlləsinin 41.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Baş Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının, Bakı Apellyasiya Məhkəməsinin, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru M.Yolçiyevin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **müəyyən etdi:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu verərək Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – Mülki Prosessual Məcəllə) 50.2, 59.1, 357.1 və 357.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda qeyd olunmuşdur ki, Bakı Hərbi Məhkəməsinin 28 noyabr 2019-cu il tarixli hökmü ilə V.Mahmudova məxsus cinayət yolu ilə əldə edilmiş əmlakın dövlət nəfinə verilməsi qərara alınmışdır.

Hökmün icrası zamanı müəyyən olunmuşdur ki, V.Mahmudovun arvadı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək birgə nikah dövründə əldə edilmiş əmlakın bölünməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 25 iyul 2019-cu il tarixli qətnaməsi ilə əmlak tərəflər arasında S pay üzrə bölünmüşdür.

Prokurorluq tərəfindən həmin qətnamədən apellyasiya protesti verilmiş, lakin Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası protesti qeyri-mümkün hesab etmiş və mülki iş üzrə apellyasiya protestinin mülki prosessual qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması üçün Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinə göndərilməsi barədə 14 iyun 2021-ci il tarixli qərardad qəbul etmişdir.

Apellyasiya instansiyası məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, Mülki Prosessual Məcəllənin 357.2-ci maddəsinin tələbinə görə prokurorluq iş üzrə yalnız iddiaçı və ya ərizəçi olduğu halda məhkəmə aktlarından protest vermək hüququna malikdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin Mülki Kollegiyası) 1 fevral 2022-ci il tarixli qərarı ilə prokurorluğun kassasiya şikayəti təmin edilməmiş, apellyasiya instansiyası məhkəməsinin qərardadı dəyişdirilmədən saxlanılmışdır.

Ali Məhkəmənin Mülki Kollegiyası qərarını onunla əsaslandırmışdır ki, Mülki Prosessual Məcəllənin 364.2-ci maddəsinə əsasən apellyasiya şikayəti işdə iştirak etməyən şəxslər tərəfindən verildikdə məhkəmə qəbul

edilən qətnamənin onların hüquq və vəzifələrinə toxunmasını, daha sonra isə həmin Məcəllənin 361-ci maddəsinin tələblərinə uyğunluğunu yoxlayır və bunun nəticəsinə dair qərardad qəbul edir.

Sorğuverən hesab edir ki, məhkəmə təcrübəsinin formalaşdırılması və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə prokurorun birinci instansiya məhkəməsi tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərardadlardan maraqlı şəxs və ya işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslər qismində apellyasiya protesti (şikayəti) vermək hüququnun olub-olmaması, prokurorluğun belə bir hüququ tanınmadığı halda cinayət mühakimə icraatı zamanı mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirəni təmin etmək məqsədi ilə üzərinə həbs qoyulmuş əmlakla bağlı mülki mühakimə icraatı qaydasında qəbul olunmuş məhkəmə qətnaməsindən (həmin əmlakla bağlı mülkiyyət hüquqlarının həyata keçirilməsi, payların bölünməsi və digər bu kimi hallar üzrə) dövlət mənafeyinin müdafiəsi üçün apellyasiya şikayətinin hansı dövlət orqanı tərəfindən verilə bilməsinin müəyyən edilməsi baxımından Mülki Prosessual Məcəllənin müvafiq maddələrinin əlaqəli şəkildə şərh edilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, sorğuda qaldırılan məsələlərin bir çoxuna əvvəlki qərarlarda aydınlıq gətirilərək göstərilmişdir ki, hüquqi və demokratik dövlətə xas olan dəyərlərə əsaslanan Əsas Qanun insan və vətəndaş hüquq və azadlıqlarını təsbit etməklə yanaşı, onların qorunmasına və müdafiəsinə yönəlmiş təminatları da müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra — Konstitusiya) hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat hüququ təsbit edilmişdir (26 və 60-cı maddələrin I hissələri).

Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququ hər kəsin məhkəməyə müraciət etmək hüququ ilə yanaşı, işinin ədalətli araşdırılmasını, eləcə də hüquq və azadlıqları pozulduğu halda məhkəmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququnu ehtiva edir.

Konstitusiya Məhkəməsi Plenumunun hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı formalaşdırdığı hüquqi mövqeyinə görə, məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi, öz növbəsində, pozulmuş hüquq və azadlıqları qanunvericilikdə nəzərdə tutulan hədlər çərçivəsində səmərəli müdafiə və bərpa edə bilən ədalət mühakiməsinin həyata keçirilməsini şərtləndirir. Bu hüquq məhkəmə prosesinin bütün mərhələlərinə aid olmaqla, məhkəmə müdafiəsinin yalnız birinci instansiyada təmin olunmasını deyil, qanunla nəzərdə tutulmuş hallarda apellyasiya və kassasiya instansiyalarında da həyata keçirilməsini nəzərdə tutur («Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair» 2012-ci il 28 fevral və «Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair» 2017-ci il 12 aprel tarixli Qərarlar).

Qeyd olunmalıdır ki, Konstitusiyanın 60-cı maddəsi müxtəlif məhkəmə instansiyalarına verilmiş şikayətlərə (müraciətlərə) baxılmasının prosessual qaydalarına dəqiq riayət olunmasını da özündə ehtiva edir. Bu məqsədlə qanunverici mülki işlər üzrə məhkəmə aktlarının ədalətli və qanuni olmasını təmin etmək üçün Mülki Prosessual Məcəllə ilə mülki məhkəmə icraatının ümumi qaydalarını, prinsip və şərtlərini, məhkəmənin, işdə iştirak edən şəxslərin və prosesin digər iştirakçılarının hüquq və vəzifələrini müəyyən etməklə yanaşı, məhkəmə aktlarından şikayət verilməsi və bu şikayətlərə baxılması qaydasını da tənzimləmişdir.

Mülki Prosessual Məcəllənin mülki məhkəmə icraatının vəzifələrini təsbit edən 2-ci maddəsinə görə, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Konstitusiyadan, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Məcəllənin 4.1-ci maddəsinə əsasən isə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Göründüyü kimi, bu maddələrdə fiziki və hüquqi şəxslərin hər cür mənafe və maraqlarının müdafiəsindən deyil, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn, başqa sözlə, qanunla qorunan mənafe və maraqlardan bəhs olunur (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair» 2020-ci il 24 iyul tarixli Qərarı).

Sorğuda qaldırılan məsələlərin həlli ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, ilk növbədə, Konstitusiyanın, mülki prosessual, həmçinin digər aidiyyəti qanunvericiliyin tələbləri baxımından prokurorluq orqanının mülki mühakimə icraatında iştirakının prosessual qaydalarına aydınlıq gətirilməsi zəruridir.

Göstərildiyi kimi, Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının qaydasını tənzimləyən Mülki Prosessual Məcəllənin normaları mülki məhkəmə icraatının gedişatını, həmçinin mülki prosessual münasibətlərin hər bir iştirakçısı üçün müvafiq hərəkətlərin mümkünlüyünü və aparılması qaydasını müəyyən edir.

Mülki Prosessual Məcəllənin işdə iştirak edən şəxslərin tərkibini müəyyən edən 46-cı maddəsinə əsasən,

tərəflər, üçüncü şəxslər, ərizəçilər, maraqlı şəxslər, pozulmuş və ya barəsində mübahisə edilən hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququ olan ictimai təşkilatlar, dövlət orqanları və digər orqanlar işdə iştirak edən şəxslərdir.

Prokurorluq orqanlarının mülki mühakimə icraatında iştirakına dair qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir və s. (Konstitusiyanın 133-cü maddəsinin I hissəsi).

Prokurorluğun fəaliyyət istiqamətləri «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində təsbit olunmuşdur. Həmin maddəyə əsasən, mülki məhkəmə icraatında prokurorun fəaliyyəti məhkəmədə iddia qaldırılmasından (ərizə verilməsindən), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edilməsindən ibarətdir.

Qeyd olunan Qanunun 19-cu maddəsinə görə, hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması prinsipinə dönmədən əməl edilməklə prokurorlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmələrdə cinayət işlərinə birinci instansiya, apellyasiya və kassasiya qaydasında baxılmasında tərəf kimi iştirak edir, rəy verir, dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı qismində iştirak edir, məhkəmə qərarlarından protest verir.

Mülki Prosessual Məcəllənin 50.1-ci maddəsinə müvafiq olaraq, mülki prosesdə tərəflər iddiaçı və cavabdeh hesab olunur. Fiziki və hüquqi şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər. Həmin Məcəllənin 50.2-ci maddəsində xüsusi olaraq prokurorun da mülki prosesdə iddiaçı tərəf ola bilməsi göstərilmiş və adı çəkilən maddəyə görə, özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslər, habelə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror iddiaçılar hesab edilirlər.

Mülki Prosessual Məcəllənin 306.3-cü maddəsində isə prokurorluğun eyni subyektlərin müraciəti olduğu halda xüsusi icraat qaydasında ərizəçi qismində iştirak etmək hüququ təsbit edilmişdir.

Belə ki, göstərilən maddəyə uyğun olaraq, dövlət idarə və təşkilatlarının və ya təsisçiləri dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu halda dövlət mənafeyinin müdafiəsi üçün prokuror aşağıdakı işlər üzrə ərizə verə bilər:

– mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə;

– daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə.

Mülki Prosessual Məcəllənin «Başqa şəxslərin hüquqlarını və dövlət mənafeyini müdafiə etmək üçün məhkəməyə müraciət etmə» adlanan 59-cu maddəsinə əsasən, qanunla nəzərdə tutulmuş hallarda dövlət orqanları, ayrı-ayrı fiziki və hüquqi şəxslər başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün onların xahişi ilə və yaxud digər şəxslərin mənafelərinin müdafiəsi üçün iddia ilə məhkəməyə müraciət edə bilərlər. Fəaliyyət qabiliyyəti olmayan və ya yetkinlik yaşına çatmayan şəxslərin mənafelərinin müdafiəsi üçün maraqlı şəxslərin xahişi olmadan iddia qaldırıla bilər.

Maddənin məzmunundan göründüyü kimi, göstərilən müraciətlər aşağıdakı əlamətlərlə xarakterizə olunur:

– belə müraciətlərə yalnız qanunla nəzərdə tutulan hallarda yol verilir və bu hüquqa yalnız qanunun müvafiq normalarında göstərilən orqanlar, hüquqi və fiziki şəxslər malikdir;

– belə müraciətlərə bir qayda olaraq hüquqları, azadlıqları və qanunla qorunan mənafeləri müdafiə olunan şəxslərin xahişi (müraciəti) əsasında yol verilir. Məsələn, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin birinci hissəsinin beşinci abzasına əsasən, icra hakimiyyəti orqanlarının istehlakçıların hüquqlarının müdafiəsi üzrə müvafiq orqanları istehlakçıların hüquqlarının müdafiəsi məqsədilə öz təşəbbüsü və ya istehlakçının (istehlakçılar ittifaqının) müraciəti əsasında məhkəmə qarşısında iddia qaldıra bilər;

– dövlət orqanları, ayrı-ayrı fiziki və hüquqi şəxslər başqa şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi üçün qanunla nəzərdə tutulmuş hallarda onların xahişi olmadan yalnız iki əsasla müraciət edə bilərlər: a) fəaliyyət qabiliyyəti olmayan və ya yetkinlik yaşına çatmayan şəxslərin mənafelərinin müdafiəsi üçün və b) qeyri-müəyyən sayda şəxslərin (Mülki Prosessual Məcəllənin 59.1-ci maddəsində bu «digər şəxslər» kimi ifadə olunub) — yəni, ictimai maraqların müdafiəsi üçün. Məsələn, «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 1.8-ci bəndinə müvafiq olaraq, insan həyatına və ətraf mühitə mənfi təsir göstərən müəssisələrin, qurğuların və başqa ekoloji zərərli obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi haqqında qərarların inzibati və ya məhkəmə qaydasında ləğv edilməsini və həmçinin fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdırılmasını, müvəqqəti dayandırılmasını və

hüquqi şəxslərin ləğv edilməsini tələb etmək ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin hüquqlarına aid edilmişdir. Göründüyü kimi, bu hüququn qanunvericiliklə birbaşa tanınmasında əsas məqsəd ətraf mühitin mühafizəsi ilə bağlı ictimai maraqların qorunmasıdır.

Yuxarıda göstərilənlərdən müəyyən edildiyi kimi, Mülki Prosessual Məcəllənin 59-cu maddəsinin tələbləri baxımından dövlət orqanları, o cümlədən prokurorluq başqa şəxslərin hüquqlarının, azadlıqlarının və mənafelərinin müdafiəsi üçün, bir qayda olaraq onların müraciətinə əsasən iddia ilə məhkəməyə müraciət edə bilərlər. Həmin norma ilə o da müəyyən edilmişdir ki, belə bir müraciətin mümkünlüyü üçün, müvafiq müraciət imkanı birbaşa qanunda nəzərdə tutulmuş olmalıdır. Prokurorun mülki mühakimə prosesində tərəf qismində iştirakının mümkünlüyü isə yalnız Mülki Prosessual Məcəllənin yuxarıda məzmunu açıqlanmış 50 və 306.3-cü maddələri ilə nəzərdə tutulmuşdur.

Beləliklə, Mülki Prosessual Məcəllənin qeyd edilən maddələrinin əlaqəli şəkildə təhlili onu göstərir ki, prokuror yalnız dövlət mənafeyinin müdafiəsi üçün dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin prokurora müvafiq müraciəti olduqda mülki prosesdə (birinci instansiya məhkəməsində) iddiaçı və ya ərizəçi qismində tərəf ola bilər.

Prokurorun işdə iştirak etməyə cəlb olunmayan, yəni birinci instansiya məhkəməsində iddiaçı və ya ərizəçi qismində tərəf olaraq iştirak etmədiyi işlər üzrə məhkəmə qərarı ilə hüquqlarına və qanuni maraqlarına toxunan şəxs qismində apellyasiya protesti vermək hüququnun olub-olmaması ilə bağlı məsələyə gəldikdə isə qeyd edilməlidir ki, belə şəxslərin hüquqi statusuna Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında aydınlıq gətirilmiş, onların pozulmuş hüquq və azadlıqlarının bərpası üçün səmərəli vasitələrlə təmin edilməsinin vacibliyi vurğulanmışdır.

İşdə iştirak etməyə cəlb olunmayan və məhkəmənin qərarı ilə hüquqlarına və qanuni maraqlarına toxunan şəxsin statusunun səciyyəvi əlamətlərinə onun məhkəmədə baxılan işə tərəf qismində cəlb edilməməsi, iş üzrə qəbul edilmiş məhkəmə qərarının onun hüquqlarına və qanuni maraqlarına toxunması, öz hüquqlarının və qanuni maraqlarının müdafiəsində həm maddi, həm də prosessual marağının olması aiddir (Konstitusiya Məhkəməsi Plenumunun K.Maraevin şikayəti üzrə 2016-cı il 29 iyul tarixli Qərarı).

Hər bir halda işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin həmin aktlardan verdikləri şikayətdə (müraciətdə) qəbul edilən qətnamə ilə onların hüquq və vəzifələrinin pozulmasının nədən ibarət olması, yaxud hansı maraq və ya mənafelərinə toxunulması əsaslandırılmalıdır. Eyni zamanda, bu şəxslərin hüquqlarının bərpası üçün nəzərdə tutulmuş prosessual təminat həyata keçirilərkən qanunvericilikdə müəyyən edilmiş məhkəmə sisteminin mahiyyətinə, xüsusiyyətlərinə xələl gətirilməməlidir (Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair» 2020-ci il 24 iyul tarixli Qərarı).

Qeyd olunmalıdır ki, Mülki Prosessual Məcəllədə məhkəmə aktlarından şikayət verilməsinin prosessual qaydası, müddətləri, məhkəmə qərarlarından şikayət verə biləcək konkret şəxslərin dairəsi və s. məsələlər dəqiqliklə tənzimlənmişdir. Bir qayda olaraq, məhkəmə aktlarından işdə iştirak edən şəxslər şikayət vermək hüququna malikdir. Lakin qanunverici qəbul edilmiş məhkəmə aktı ilə işdə iştirak etməyə cəlb edilməyən şəxslərin hüquqlarının pozulma, qanuni maraqlarına toxunulma ehtimalından çıxış edərək şikayətə baxan məhkəmə instansiyasının spesifik xüsusiyyətləri nəzərə alınmaqla onların da işə cəlb edilməsinin mümkünlüyünü müəyyən etmişdir.

Mülki Prosessual Məcəllənin 357.2-ci maddəsinə uyğun olaraq, işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə onların hüquq və vəzifələrinə toxunan hallarda, digər şəxslərin də apellyasiya şikayəti vermək hüququ vardır.

Göstərilən maddədə prokurorun yalnız bu Məcəllənin 50 və 306-cı maddələrinə əsasən məhkəmə baxışında iddiaçı və ya ərizəçi olduğu hallarda məhkəmə aktlarından protest verə bilmək imkanı tanınmışdır.

Apellyasiya instansiyası məhkəmələrinin aktlarından kassasiya şikayəti verilməsi ilə bağlı eyni qayda Mülki Prosessual Məcəllənin 403.3-cü maddəsində nəzərdə tutulmuşdur.

Beləliklə, mülki prosessual qanunvericilik işdə iştirak etməyə cəlb edilməyən, lakin qəbul edilən qətnamə onların hüquq və vəzifələrinə toxunan hallarda digər şəxslərin də apellyasiya şikayəti vermək hüququnu tanısa da, prokurorun belə imkanı yalnız onun Mülki Prosessual Məcəllənin 50 və 306-cı maddələrinə əsasən işdə iddiaçı və ya ərizəçi olduğu hallarda nəzərdə tutulmuşdur.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin şərh edilməsinə dair» 2017-ci il 31 yanvar tarixli Qərarında oxşar məsələyə – inzibati xətalar üzrə icraatda prokurorun protest vermə səlahiyyətinə münasibətdə, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinə istinadən prokurorun yalnız inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etdikdə, həmin işlər üzrə məhkəmə tərəfindən qəbul edilən qərar və ya qərardadlardan protest vermək hüququna malik olduğu qənaətinə gəlinmişdir.

Digər bir Qərarında da Konstitusiya Məhkəməsinin Plenumu həmin məsələ ilə bağlı eyni hüquqi mövqe nümayiş etdirmişdir.

Prokurorun, hansı şərtlərlə səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından protest vermək səlahiyyətini müəyyən etmək üçün, ilk növbədə, İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin məzmunundan çıxış etmək vacibdir. Həmin maddənin mətnindən aydın olur ki, prokurorun protest vermək səlahiyyəti inzibati xəta haqqında işə baxılmasında iştirak etməsi ilə şərtləndirilir («Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsinin və «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 4, 21 və 27-ci maddələrinin bəzi müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair» 2021-ci il 23 fevral tarixli Qərar).

Dövlət mənafeyinin müdafiəsi üçün cinayət mühakimə icraatı zamanı mülki iddianı və cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirəni təmin etmək məqsədi ilə üzərinə həbs qoyulmuş əmlakla bağlı mülki mühakimə icraatı qaydasında qəbul olunmuş məhkəmə qətnaməsindən apellyasiya şikayətinin hansı dövlət orqanı tərəfindən verilməli olması, eləcə də belə hallarda xüsusi müsadirənin tətbiqi ilə bağlı hökmün hüquqi müqəddəratı ilə bağlı sorğuda qaldırılan məsələ ilə əlaqədar isə Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd edir.

Cinayət-hüquqi tədbir olaraq xüsusi müsadirə Cinayət Məcəlləsinin 99-1-ci maddəsində əmlakın məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması kimi müəyyən edilmişdir.

Həmin maddəyə əsasən, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr, cinayət yolu ilə əldə etdiyi əmlak, habelə həmin əmlak hesabına əldə edilmiş gəlirlər, cinayət yolu ilə əldə edilmiş əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi, terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak məhkəmənin yekun qərarı ilə məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınır.

Xüsusi müsadirə ilə bağlı ətraflı açıqlama Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair» 2022-ci il 24 fevral tarixli Qərarında verilmişdir.

Qərarda göstərilmişdir ki, cinayət əməlinin törədilməsindən əvvəl əldə edilmiş və ya bu əməl nəticəsində əldə edilməmiş təqsirləndirilən şəxsə və ya digər şəxslərə məxsus əmlaka münasibətdə məcburi cinayət-hüquqi tədbir olaraq müsadirə tətbiq edilə bilməz. Lakin cinayət əməli nəticəsində əldə edilmiş ümumi birgə və ya paylı mülkiyyətdə olan əmlaka xüsusi müsadirənin tətbiqi mümkündür. Bu qayda Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü maddəsinin tələblərindən irəli gəlir. Həmin maddəyə əsasən, həbs təqsirləndirilən şəxsin ər-arvadın birgə mülkiyyəti və ya onun digər şəxslərlə mülkiyyətindəki payı üzərinə qoyulur. Əmlakın cinayətin törədilməsində alət və ya vasitə kimi istifadə edilməsinə, cinayətin predmeti olmasına, cinayət yolu ilə əldə edilmiş əmlak hesabına əldə edilməsinə və ya artırılmasına kifayət qədər sübutlar olduqda, həbs bütün əmlakın, yaxud onun çox hissəsinin üzərinə qoyulur. Lakin bu cinayət-hüquqi tədbir tətbiq edilərkən ümumi əmlak üzərində cinayət törədən şəxslə birlikdə birgə və ya paylı mülkiyyət hüququna malik olan şəxslərin, habelə cinayət törədən şəxsin ailə üzvlərinin qanuni mənafelərinin qorunması təmin edilməlidir.

Həmçinin Azərbaycan Respublikası Ailə Məcəlləsinin (bundan sonra – Ailə Məcəlləsi) 41.3-cü maddəsinə əsasən, ər-arvadın ümumi əmlakının onlardan birinin cinayət yolu ilə qazandığı vəsait hesabına əldə edildiyi və ya artırıldığı məhkəmənin hökmü ilə müəyyən olunduqda, ödəmə bu əmlaka və ya onun bir hissəsinə yönəldilə bilər.

Bu baxımdan sorğuda qeyd edilən işdə olduğu kimi, cinayət yolu ilə əldə edilməsinə kifayət qədər sübutlar toplanılmış əmlakın xüsusi müsadirə cinayət-hüquqi tədbiri kimi məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması barədə məhkəmə hökmü, həmin əmlakla bağlı mülkiyyət hüquqlarının həyata keçirilməsi, payların bölünməsi və s. bu kimi hallar üzrə mülki mühakimə icraatı qaydasında qəbul olunmuş qətnamənin mövcudluğuna rəğmən icra edilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı ilə təsdiq edilmiş «Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi» Qaydasının 1.2-ci bəndinə görə, xüsusi müsadirə növündə cinayət-hüquqi tədbirinin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş yekun qərarı əmlak (qanuni sahibinə qaytarılmalı olan əmlak istisna olmaqla) üzərində dövlətin mülkiyyət hüququnun əmələ gəlməsi üçün əsasdır.

Həmin Qaydanın xüsusi müsadirə edilmiş əmlakın aidiyyəti üzrə təhvil verilməsi, istifadəsi və satışını tənzimləyən 3-cü bəndi ilə bəzi əşyaların aidiyyəti üzrə müvafiq dövlət orqanları və təşkilatlarına (məsələn, pul vəsaitlərinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin Azərbaycan Respublikasının Mərkəzi Bankındakı hesabına, mobil telefon nömrələrinin Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə) təhvil verilməli olduğu təsbit edilmişdir. Xüsusi müsadirə edilmiş əmlakın satışının isə Maliyyə Nazirliyinin sifarişi əsasında

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən hərrac yolu ilə həyata keçirildiyi müəyyən olunmuşdur.

Odur ki, müəyyən əmlakla bağlı mülkiyyət hüquqlarının həyata keçirilməsi, payların bölünməsi və s. bu kimi hallar üzrə mülki mühakimə icraatı qaydasında qəbul olunmuş qətnamə hər hansı dövlət idarə və təşkilatının və ya təsisçisi dövlət və ya dövlət idarəsi olan, yaxud təşkilatı olan hüquqi şəxslərin mənafelərinə toxunarsa, həmin subyektlər (məsələn, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və s.) müstəqil qaydada məhkəmə aktını mübahisələndirə bilərlər.

Həmçinin vurğulanmalıdır ki, Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə və «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 6-cı maddəsinin tələblərinə uyğun olaraq, cinayət mühakimə icraatına cəlb olunmamış, məhkəmə hökmü ilə maraqlarına toxunan şəxsin məhkəməyə apellyasiya şikayəti ilə müraciət etmək hüququnun tənzimlənməsini Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etməklə yanaşı, müəyyən etmişdir ki, məsələ qanunvericilik qaydasında həll edilənədək Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi məqsədilə cinayət mühakimə icraatına cəlb olunmamış, məhkəmə hökmü ilə maraqlarına toxunan şəxs, hüquqları və qanunla qorunan maraqları əhəmiyyətli dərəcədə pozulduğu hallarda mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxs qismində cinayət işi üzrə icraata cəlb edilə bilər («Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair» 2022-ci il 24 fevral tarixli Qərar).

Beləliklə, cinayət mühakimə icraatında iştirak etməyən, lakin məhkəmənin hökmünün, məsələn hökm əsasında xüsusi müsadirə edilməli olan əmlakın təqsirləndirilən şəxsə deyil, ona məxsus olduğu və cinayət yolu ilə əldə edilmədiyi əsası ilə hüquqlarının və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulduğunu hesab edən şəxslər, o cümlədən ümumi mülkiyyət hüququ subyektləri olaraq ər-arvad və ya digərləri mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxs qismində cinayət işi üzrə icraata cəlb edilə bilərlər.

Konstitusiya Məhkəməsinin Plenumu göstərilənləri nəzərə alaraq aşağıdakı nəticələrə gəlir:

– Mülki Prosessual Məcəllənin 50, 59 və 306-cı maddələrinin tələblərinə əsasən, dövlət mənafeyinin müdafiəsi üçün dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda prokuror mülki prosesdə iddiaçı və ya ərizəçi qismində tərəf ola bilər;

– Mülki Prosessual Məcəllənin 357-ci maddəsinə uyğun olaraq, prokuror yalnız həmin Məcəllənin 50 və 306-cı maddələrində göstərilən hallarda məhkəmə baxışında iddiaçı və ya ərizəçi olarsa, məhkəmə aktlarından protest verə bilər;

– Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü və Ailə Məcəlləsinin 41.3-cü maddələrinə, habelə Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki və bu qərarlarında formalaşdırdığı hüquqi mövqelərə əsasən, əmlakın xüsusi müsadirə cinayət-hüquqi tədbiri kimi məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması barədə məhkəmə hökmü, həmin əmlakla bağlı mülki mühakimə icraatı qaydasında qəbul olunmuş qətnamənin mövcudluğuna baxmayaraq icra edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 50, 59 və 306-cı maddələrinin tələblərinə əsasən, dövlət mənafeyinin müdafiəsi üçün dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda prokuror mülki prosesdə iddiaçı və ya ərizəçi qismində tərəf ola bilər.

**2.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 357-ci maddəsinə uyğun olaraq, prokuror yalnız həmin Məcəllənin 50 və 306-cı maddələrində göstərilən hallarda məhkəmə baxışında iddiaçı və ya ərizəçi olarsa, məhkəmə aktlarından protest verə bilər.

**3.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 248.3-cü və Azərbaycan Respublikası Ailə Məcəlləsinin 41.3-cü maddələrinə, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun əvvəlki və bu qərarlarında formalaşdırdığı hüquqi mövqelərə əsasən, əmlakın xüsusi müsadirə cinayət-hüquqi tədbiri kimi məcburi qaydada və əvəzsiz olaraq dövlət nəfinə alınması barədə məhkəmə hökmü, həmin əmlakla bağlı mülki mühakimə icraatı qaydasında qəbul olunmuş qətnamənin mövcudluğuna baxmayaraq icra edilməlidir.

**4.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**5.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**6.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad ABDULLAYEV**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**QƏRARDADI**

# Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 17-ci maddəsinin həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan "zor tətbiq etmə" və "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair

**17 mart 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 17-ci maddəsinin həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan "zor tətbiq etmə" və "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" müddəalarının əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyekt Azərbaycan Respublikası Prokurorluğunun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **müəyyən etdi:**

Azərbaycan Respublikası Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 17-ci maddəsinin həmin Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan "zor tətbiq etmə", "həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə" və "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" müddəalarının əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğudan göründüyü kimi, Cinayət Məcəlləsinin Xüsusi hissəsində "zor tətbiq etmə" cinayətin tərkib əlaməti kimi müəyyən edildiyi hallarda bu əlamətin cinayətlərin məcmusunu yaratmadan sağlamlığa yüngül zərər vurma xəsarətini əhatə edib-etməməsi ilə bağlı məsələlərin həlli mübahisə doğurmaqla hüquq tətbiqetmədə qeyri-müəyyənlik və çətinliklər yaradır.

Belə ki, jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olmağa görə cinayət məsuliyyətini müəyyən edən Cinayət Məcəlləsinin 163.1-ci maddəsinin sanksiyası həmin Məcəllənin qəsdən sağlamlığa yüngül zərər vurmağa görə məsuliyyət müəyyən edən 128-ci maddəsinə münasibətdə daha yüngüldür. Belə olan halda, Cinayət Məcəlləsinin Xüsusi hissəsində "zor tətbiq etmə" müddəasının bütün hallarda cinayətlərin məcmusunu yaratmadan sağlamlığa yüngül zərər vurma kimi qiymətləndirilib-qiymətləndirilməməsi sual doğurur.

Sorğuda qaldırılan digər məsələ Cinayət Məcəlləsinin 180.2.4, 227.2.3, 232.2.4, 235.3.4, 288.3, 299.3 və 317.2-ci maddələrində "həyat və ya sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə" və 144.2.4, 144-1.2.7, 145.2.5, 192-2.5, 215.2.3, 219.2.2, 227.3.2, 232.3.2, 235.4.3, 288.4, 299.4, 304.2 və 317.3-cü maddələrində "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" tövsifedici əlamətlərinin xəsarətin dərəcəsindən asılı olaraq hansı hallarda cinayətlərin məcmusunu yaratması ilə bağlıdır.

Belə ki, təcrübədə Cinayət Məcəlləsinin 126.1-ci maddəsi ilə nəzərdə tutulan cinayət ağır, həmin Məcəllənin 145.2.5, 192-2.5, 299.4 və 304.2-ci maddələri ilə nəzərdə tutulan əməllər isə az ağır cinayət olduğundan əməl cinayətlərin məcmusunu yaratmaqla əlavə olaraq Məcəllənin 126-cı maddəsi ilə də tövsif edilir.

Sorğuverənin qənaətinə görə, əməlin bu qaydada tövsif edilməsi Cinayət Məcəlləsinin 17.4-cü maddəsinə uyğun olmamaqla yanaşı, şəxsə daha ağır cəza təyin olunmasına səbəb olur.

Cinayət Məcəlləsinin 17.4-cü maddəsinə əsasən, Cinayət Məcəlləsinin Xüsusi hissəsində həm ümumi, həm də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur.

Sorğuda o da qeyd edilir ki, Cinayət Məcəlləsinin 144.2.4, 144-1.2.7, 145.2.5, 215.2.3 və 219.2.2-ci maddələrində tövsifedici əlamət kimi "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə", Məcəllənin 144.3, 144-1.3, 145.3, 215.3 və 219.3-cü maddələrində isə "eyni əməllər digər ağır nəticələrə səbəb olduqda" müəyyən edilmişdir.

Təcrübədə "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" tövsifedici əlaməti ilə yanaşı, "eyni əməllər digər ağır nəticələrə səbəb olduqda" ağırlaşdıran tövsifedici əlaməti olan cinayət sağlamlığa ağır zərər vurmaqla törədildikdə, əməlin cinayətlərin məcmusunu yaratmadan "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə" və ya daha ağır cəza nəzərdə tutan "eyni əməllər digər ağır nəticələrə səbəb olduqda" əlaməti üzrə tövsif edilməsi ilə bağlı da vahid yanaşma mövcud deyil.

Sorğuverənin qənaətinə görə, "zor tətbiq etmə", "həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə" və "həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" müddəalarının Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müxtəlif maddələrində sağlamlığa müxtəlif ağırlıqda zərər vurmanı ehtiva edən, o cümlədən bəzi hallarda əməlin cinayətlərin məcmusu kimi tövsif edilməsini tələb edən, bəzi hallarda isə bunu tələb etməyən terminlər kimi işlədilməsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 54.2-ci maddəsi ilə uzlaşmır. Halbuki, həmin maddə normativ hüquqi aktda eyni terminlərin bir mənada işlədilməsini və vahid formaya malik olmasını tələb edir.

Göstərilənlərə əsasən, sorğuverən vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə qeyd olunan məsələlərin şərh edilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar, ilk növbədə, qeyd etməyi zəruri hesab edir ki, cinayət məsuliyyəti yaradan əməlin qanunda dəqiq, birmənalı və açıq-aşkar şəkildə göstərilməsi tələb edilir. Müvafiq olaraq, təqsirsiz şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasına və təqsirli şəxslərin cinayət məsuliyyətindən kənarda qalmasına şərait yaratmamaq məqsədilə məsuliyyəti müəyyən edən cinayət qanununun müddəası qeyri-müəyyən və ikimənalı olmamalıdır ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1, 229.1, 230, 231 və 232.1-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2010-cu il 21 iyun tarixli Qərar).

Cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsindən və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 7-ci maddəsindən irəli gəlir. Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindəki müddəa Əsas Qanunda qanunçuluq prinsipini ifadə edərək cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı, (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) mütləq edir.

Göstərilənlərə əsasən sorğuda qaldırılan məsələnin düzgün həll edilməsi üçün cinayətlərin məcmusu institutunun nəzərdən keçirilməsinə zərurət yaranır.

Cinayət Məcəlləsinin 17.1 və 17.2-ci maddələrinə əsasən bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilməmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə, cinayətlərin məcmusunu yaradır. Bir hərəkətlə (hərəkətsizliklə) Cinayət Məcəlləsinin iki və daha çox maddəsi ilə nəzərdə tutulmuş iki və daha çox cinayətin törədilməsi cinayətlərin ideal məcmusunu yaradır.

Cinayətlərin çoxluğunun müstəqil növü hesab edilən cinayətlərin məcmusunun iki növü – ideal və real məcmu fərqləndirilir. Cinayətlərin məcmusunun hər iki növü yalnız o halda mövcud olur ki, şəxs törətdiyi cinayətlərin heç birinə görə məhkum olunmamış olsun və qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməmiş olsun. Törədilmiş hər bir cinayət əməli (məcmunun hər iki növündə) Cinayət Məcəlləsinin bu əmələ görə məsuliyyət nəzərdə tutan maddəsi ilə tövsif olunmalıdır ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.1 və 56.1.2-ci maddələrinin şərh edilməsinə dair" 2013-cü il 18 iyun tarixli Qərar).

Cinayət Məcəlləsinin 8.1-ci maddəsinə uyğun olaraq, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsinin şərh edilməsinə dair" 2021-ci il 6 yanvar tarixli Qərarında qeyd etmişdir ki, şəxs tərəfindən müxtəlif cinayət tərkibli əməllər törədildikdə məcmu qaydasında əməllərin tövsif edilməsi və cəza təyin etməklə Məcəllənin 8.1-ci maddəsində əks olunan ədalət prinsipinin tələblərini təmin etmək olar. Başqa yanaşma Cinayət Məcəlləsinin prinsip və vəzifələrinə, cəzanın məqsədinə zidd olardı.

Cinayətlərin məcmusuna görə cəza təyinetmə qaydaları Cinayət Məcəlləsinin 66-cı maddəsində müəyyən olunmuşdur. Həmin Məcəllənin 66.1-ci maddəsinə müvafiq olaraq, cinayətlərin məcmusu üzrə məhkəmə hər bir cinayətə görə ayrılıqda cəza təyin edərək, az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə və ya təyin olunmuş cəzaları tamamilə və ya qismən toplamaq yolu ilə qəti cəza təyin edir.

Cinayət Məcəlləsinin 17.4-cü maddəsi isə cinayətlərin məcmusundan ümumi və xüsusi normaların rəqabəti (konkurensiyası) institutunu fərqləndirir.

Həmin maddəyə əsasən, bu Məcəllənin Xüsusi hissəsində həm ümumi, həm də xüsusi normada nəzərdə tutulmuş cinayətin törədilməsi cinayətlərin məcmusunu yaratmır və bu halda xüsusi norma tətbiq olunur.

Qeyd edilən maddə, əməl xüsusi norma ilə tamamilə əhatə olunduğu (əməlin qiymətləndirilməsi üçün kifayət etdiyi) hallarda ümumi norma ilə xüsusi norma arasındakı rəqabəti xüsusi normanın xeyrinə həll etməklə əməlin cinayətlərin məcmusu kimi tövsif edilməsini istisna edir.

Belə ki, ümumi norma ilə xüsusi normanın arasında olan rəqabətin sonuncunun xeyrinə həll edilməsi qaydası, məsələn quldurluq zamanı zərərçəkmiş şəxsin sağlamlığına qəsdən yüngül və ya az ağır zərər yetirilməsi üzrə hərəkətlərin cinayətlərin məcmusu kimi - Cinayət Məcəlləsinin 181.1, 127 və 128-ci maddələri ilə tövsifinin qarşısını alır.

Konstitusiya Məhkəməsinin Plenumu bununla bağlı qeyd etməyi zəruri bilir ki, ümumi və xüsusi normaların rəqabətini nəzərdə tutan Cinayət Məcəlləsinin 17.4-cü maddəsinin tələblərinin yerinə yetirilməsi cinayət qanununda ifadə olunan ədalət prinsipinin təmin edilməsinin vacib zəmanəti kimi çıxış edir.

Lakin, bu özlüyündə Cinayət Məcəlləsinin "zor tətbiq etmə", "həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə" və "həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" kimi tövsifedici əlamətlərin məcmusunu tamamilə istisna edə bilməz.

Belə ki, cinayət əməlinə görə təyin edilən cəzanın, digər məsələlərlə yanaşı, bu əməlin ictimai təhlükəliliyinin xarakterinə və dərəcəsinə uyğun gəlməsini tələb edən ədalət prinsipi, Cinayət Məcəlləsinin Xüsusi hissəsində əks olunan müvafiq normalar vasitəsilə təmin edilir. Bu zaman həmin normalar cinayətlərin məcmusuna görə cəzaların təyini qaydalarını müəyyənləşdirən müddəalarla əlaqəli şəkildə tətbiq olunmalıdır.

Konstitusiya baxımından əhəmiyyətli sayılan bu məqsədə, konkret şəxs tərəfindən cinayət qanununun müxtəlif maddələri ilə nəzərdə tutulmuş və buna görə də bir-birindən cinayətin obyekti və predmeti, obyektiv və subyektiv cəhətləri baxımından fərqlənən əməllərin cinayətlərin məcmusuna dair qaydalara uyğun olaraq tövsif edilməsi və cəzalandırılması zamanı nail olunur. Əks təqdirdə cinayət qanununun məqsədlərinə və vəzifələrinə, habelə cinayətə görə təyin edilən cəzanın məqsədlərinə zidd olan vəziyyət yarana bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234-cü maddəsinin həmin Məcəllənin 237-ci maddəsi

ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 6 iyul tarixli Qərarı).

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə müxtəlif ağırlıqda olan xəsarətləri və onların nəticələrini tamamilə əhatə etmək mümkün olmadıqda, həmin hərəkətlər cinayətlərin məcmusu qaydasında Məcəllənin müvafiq maddələri ilə tövsif edilməlidir. Əməlin cinayətlərin məcmusu kimi tövsif edildiyi bu kimi hallarda isə ümumi və xüsusi normalar arasında faktiki rəqabətin yaranmadığı, əksinə onların bir-birini tamamlayan müxtəlif normalar kimi çıxış etməsi nöqteyi-nəzərindən məsələyə Cinayət Məcəlləsinin 17.2-ci maddəsinin tələbləri baxımından qiymət verilməlidir.

Belə ki, qanunverici Cinayət Məcəlləsinin 315-ci maddəsinin sanksiyasında (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) Məcəllənin 128 və 127.1-ci maddələri ilə müqayisədə daha ağır, Məcəllənin 127.2 və 126-cı maddələrinə münasibətdə isə daha yüngül cəza müəyyən etməklə, sağlamlığa yüngül zərər vurma və sağlamlığa az ağır zərər vurma ilə nəticələnən halların yalnız Məcəllənin 315-ci maddəsi ilə tövsifini mümkün edir.

Həmin Məcəllənin 315-ci maddəsi ilə tam şəkildə əhatə olunmayan sağlamlığa ağır zərər vurma və ağırlaşdırıcı hallarda sağlamlığa az ağır zərər vurma hallarına münasibətdə isə əməl cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

Cinayət Məcəlləsinin 17.4-cü maddəsi ilə nəzərdə tutulan ümumi və xüsusi normaların rəqabətinin pozulması isə maddənin dispozisiyasında sağlamlığa bu və ya digər ağırlıqda zərər vurma cinayəti ağırlaşdıran əlamət kimi müəyyən edildiyi halda, həmin zərər vurmanın cinayəti xüsusilə ağırlaşdıran əlamət üzrə, yəni "digər ağır nəticə" olaraq tövsif edildiyi zaman baş verir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunverici tərəfindən Cinayət Məcəlləsinin Xüsusi hissəsinin normalarında "zor tətbiq etmə", "həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmə" və "həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" kimi tərkib və ya tövsifedici əlamətlər məqsədli şəkildə müəyyən edilmiş və hər bir konkret hal üçün sadalanan əlamətlərin müvafiq cinayət hüquqi qiymətləndirilməsi tələb olunur.

Sadalanan əlamətlər əməli tam şəkildə əhatə etmədiyi hallarda isə əməlin cinayətlərin məcmusu kimi tövsif edilməsi Cinayət Məcəlləsinin 17.4-cü maddəsinin tələblərinin pozuntusu hesab edilə bilməz.

Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsində "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" tövsifedici əlaməti ilə yanaşı "eyni əməllər digər ağır nəticələrə səbəb olduqda" tövsifedici əlaməti olan cinayət sağlamlığa ağır zərər vurulmaqla törədildikdə, əməl cinayətlərin məcmusunu yaratmadan "həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə" əlaməti üzrə tövsif edilməlidir.

Bu zaman cinayət törətmiş şəxs haqqında cəza təyin edilərkən qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət və ədalət prinsipləri mütləq nəzərə alınmalıdır.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Prokurorluğun sorğusunda qaldırılan hüquqi məsələlərin həll edilməsinə dair Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqelərinin mövcud olması, eləcə də bu Qərardadla bəzi məsələlərə aydınlıq gətirilməsi nəzərə alınaraq, hazırkı vəziyyətdə sorğu üzrə Konstitusiya Məhkəməsi Plenumunun ayrıca qərarının qəbul edilməsinə ehtiyac duyulmur.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 49, 62, 68 və 69-cu maddələrini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərardadında göstərilən hüquqi mövqelər nəzərə alınsın.

**2.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərardadının təsviri-əsaslandırıcı hissəsində göstərilən əsaslara görə Azərbaycan Respublikası Prokurorluğunun sorğusu üzrə ayrıca qərar qəbul edilməsinə ehtiyac olmadığından konstitusiya işinin icraatına xitam verilsin.

**3.** Qərardadın surəti 7 gün müddətində Azərbaycan Respublikasının Prokurorluğuna göndərilsin.

**4.** Qərardad "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**Sədr** **Fərhad Abdullayev**